ƏJDƏR FƏRZƏLİ

GƏMİQAYA - QOBUSTAN MƏDƏNİYYƏTİ

E.Ə. VIII-V MİNİLLİKLƏR

- 9464 -

Azərbaycan Respublikası Prezidentinin
İşlər İdarəsi
PREZİDENT KİTABXANASI

BAKI "Nurlan"-2008

63.4(sAze) + 63.3(sAze)
F S2

Azərbaycan Milli Elmlər Akademiyası
Nəsimi adına Dilçilik İnstitutu

Məsləhətçilər və rəyçilər:
Nəbi Xəzri: xalq şairi, SSRİ və Azərbaycanın Dövlət Mükafatları Laureatı
İsa Həbibbəyli: akademik
Vəli Əliyev: AMEA-nın müxbir üzvü
Abbas Seyidov: Tarix elmləri doktoru, professor
Aida Feyzullayeva: filologiya elmləri doktoru, professor
Bayram Allahverdiyev-tarix elmləri doktoru, professor

Elmi redaktoru: Qara Məşədiyev: filologiya elmləri doktoru, professor

Əjdər Fərzəli (Əjdər Əliş oğlu Fərzəliyev)
Gəmiqaya-Qobustan Mədəniyyəti. Bakı, "Nurlan", 2008, 336 səh.

Əsərdə Gəmiqaya-Qobustan mədəniyyəti və onun tərkib hissəsi kimi, qədim Azərbaycan əlifbası ilk dəfə aşkar olunur; Orxon-Yenisey əlifbasının qrafik açımı verilir; Gəmiqaya-Qobustan abidələrinin tədqiqinə yeni istiqamətdən başlanılmasının vacibliyi əsaslandırılır.

ÜZ QABIĞI: 1-ci səh.-AŞİNA xəritəsi. (Qobustan)
4-cü səh. -Ana bətnində körpə ayağının təsviri. (Gəmiqaya)

F $\frac{4702000000}{N-098-2008}$

© "Nurlan", 2008

Azərbaycan Respublikası Prezidentinin
İşlər İdarəsi
PREZİDENT KİTABXANASI

MÜNDƏRİCAT

İsa Həbibbəyli: İlk insanın məskənlərindən biri Gəmiqayadır.....12

GƏMİQAYA-QOBUSTAN MƏDƏNİYYƏTİ

1.1. Mövzunun aktuallığı 13
1.2. Məqsəd və vəzifələr 15
1.3. Elmi yenilik.....15
1.4. Təqiqatın metod və mənbələri.....16
1.5. Təqiqatın nəzəri və praktiki əhəmiyyəti.....17
1.6. Təqiqatın obyekti 17
1.7. Təqiqatın aprobasiyası 17

I FƏSİL

İNSANIN İLK VƏTƏNİ

2.1. Gəmiqayada: Ana bətnində körpə ayağı təsvir edilmişdir 19
2.2. Simmetriya və harmoniya.....21
2.3. Gəmiqayada maral hekayəsi 21
2.4. Aşina-dişi Boz qurd 24
2.5. Aşina və təkamül nəzəriyyəsi 25
2.6. Dişi Boz qurdun-gözəl qadına çevrilməsi 27
2.7. Tanrıçılığın Gəmiqaya-Qobustan dövrü.....29

II FƏSİL

GƏMİQAYA-QOBUSTAN HANSI RƏSMLƏRDƏN BAŞLANIR?

3.1. Tanrının obrazı 55
3.2. Nuhun gəmisinin rəsmləri 57
3.3 Ulduzlar qələr uzaq 61
3.4. Muğam - Musiqi 65
3.5. Ən qədim xəritə 70
3.6. Aşina xəritəsi.....73

3.7. Ana və balta 74
3.8. Daş göbələk - gənc şair 75
3.9. Babaların babası 76
3.10. Göydən gəlmək məsələsi 76

III FƏSİL

GƏMİQAYA- QOBUSTAN ƏLİFBASI

4.1. Bu əlifbanı-bu mədəniyyət yaratmışdır 127
4.2. Əski əlifbamız ərəb əlifbası deyil 129
4.3. Buğa başı:A və U işarələri; alovba-əlifba 131
4.4. Yazının qədim sistemi 132
4.5. Ağ Sunqur quşu 133
4.6. "Finikiyaya"qədər "finikiya"... 135
4.7. Samilər "öz əlifbalarndan" niyə imtina etdilər? 137
4.8. Qaya təsvirləri-tekstoloji mənbədir 138
4.9. Gəmiqaya-Qobustanda Tanrıçılığın atributları....139
4.10. Saylarda ideallıq 141
4.11. Ağamusa Axundov: Yad təsirlər Azərbaycan dilinin ulu kökdən gələn ana xəttini qıra bilməmişdir. 143
4.12. Tofiq Hacıyev: Söz-dil xalqın tarixini yaşadan ən etibarlı abidədir 145
4.13. Nizami Cəfərov: Azərbaycanda etnik qeyri-müəyyənlik dövrü olmuşdur. 147
4.14. Ən qədim kitab 195
4.15. Kitab - işıqdır 195
4.16. Nəsimi "mən Allaham"-deməmişdir. 198
4.17. Nəsimidə sayların sirri 200
4.18. Gəmiqaya-Qobustanda hansı sözlər yazılıb?....205

4.19. Gəmiqaya-Qobustan sözlüyü 210
4.20. Gəncə daşı 217
4.21. Qəbizdərə rəsmləri 217
4.22.Turdetan əlifbası....219
4.23. "Pirəbədil" xalçasında şifrələr 220
4.24. Ay, gün: od, su 222
4.25. Azərbaycanda azərbaycanlıların yaratdıqları fonoqrafik əlifba 223

IV FƏSİL

ORXON-YENİSEY ƏLİFBASI HAQQINDA

5.1. Orxon-Yenisey əlifbasının mənşəyi 250
5.2. Orxon-Yeniseyin qrafik əlamətləri 250
5.3. Orxon-Yenisey əlifbası Azərbaycanda tətbiq oluna bilərdimi? 258
5.4. Gəmiqaya – Qobustanda şumer sözləri....258
5.5. İki "Avesta" 263
5.6. Gəmiqaya - Qobustanda "Avesta" sözləri 264
5.7. Çin heroqliflərinin bir sirri 266
5.8. Əlifbalar müxtəlif, işarələr eynidir 266
5.9. "Qobustan.Qaya rəsmləri" kitabı yenidən redaktə edilməlidir 269
5.10. "Finikiya 1-ciliyi"nin sonu....310
5.11. Təbiətin vahid işarələr sistemi 311
NƏTİCƏ 324
РЕЗЮМЕ 325
SUMMARU 326
SON SÖZ ƏVƏZİ 327
BİBLİOQRAFİYA 328

«Azərbaycan elə bir ölkədir ki, onun çox qədim tarixi var. Bizim tarixçilər XX əsrdə çox işlər görüblər. Ancaq mən cəsarətlə deyə bilərəm ki, hələ ki, Azərbaycanın, xalqın, bu torpağın, ölkənin tarixi lazımi səviyyədə öyrənilməyib, tədqiq olunmayıbdır. Bu sahədə çox böyük işlər görülməlidir. Bununla onu demək istəyirəm ki, Azərbaycan nadir bir ölkədir, nadir bir ərazidir, bəşər tarixində Azərbaycan bir ərazi kimi və Azərbaycan xalqı bir xalq kimi böyük tarixi proseslərin iştirakçısı olubdur.

Əgər bizim millətimizin keçmişini, tarixini, mədəniyyətini, onun mənliyini, bizim alimlərimiz, ziyalılarımız tədqiq etməsələr, xalqımıza, dünyaya göstərməsələr, sübut etməsələr, bəs bunu kim edəcəkdir?»

Heydər ƏLIYEV
AMEA Naxçıvan Bölməsinin
yaradılmasına həsr edilmiş
müşavirədə söylədiyi nitqindən.
12 avqust 2002-ci il.

"Qobustan Azərbaycan xalqının milli sərvətidir. Qobustan dövlət tarixi-bədii qoruğu açıq səma altında qoruq-muzey kimi böyük şöhrət qazanmışdır. Həmin ərazidə Daş dövründən son orta əsrlərə qədərki həyat və məişəti əks etdirən çoxsaylı maddi mədəniyyət nümunələrini müasir azərbaycanlıların ulu əcdadları min illər ərzində yaratmışlar. Qobustan qaya rəsmləri dünyada bu tipli abidələrdən ən zənginidir".

İlham ƏLİYEV
Azərbaycan Respublikasının Prezidenti.
"Qobustan dövlət tarixi-bədii qoruğu
ərazisində yerləşən tarixi və
mədəni sərvətlərin qorunması
haqqında" sərəncamından.
Bakı şəhəri, 11 iyun 2007-ci il.

Azərbaycanın ən qədim



Xəritəsi (Qobustan)

Tanrı Həyatı yaratdı



Gəmiqaya -Qobustan Şəkil-söz qalereyasıdır

İSA HƏBİBBƏYLİ:

İLK İNSANIN MƏSKƏNLƏRİNDƏN BİRİ GƏMİQAYADIR

«Gəmiqaya-Qobustan rəsmlərində yazı elementlərinin olduğu dəfələrlə etiraf edilmişdir.

Tanınmış tədqiqatçı Əjdər Fərzəli bu istiqamətdə uzun illər axtarışlar aparmış və həmin elementlərdən Gəmiqaya-Qobustan əlifbası tərtib etməyə müvəffəq olmuşdur.

Əjdər Fərzəlinin formalaşdırdığı Gəmiqaya-Qobustan əlifbası, bu əlifbanın vahid mədəniyyətə dair materiallar əsasında təkmilləşdirilməsinin əməli ifadəsi kimi mühüm əhəmiyyət kəsb edir.

Əjdər Fərzəlinin fikrincə, «Gəmiqaya-Qobustan əlifbası Azərbaycan xalqının zəngin mədəni keçmişinin parlaq aynası, tarixi hünəri, onun ən qədim çağlardan öz doğma torpağında sakin olduğunu, əzəldən türksoylu xalq kimi heç vaxt heç bir assimilyasiyadan törəmə olmadığını təsdiq və bu sahədə bütün şübhələri darmadağın edən danılmaz, dəqiq elmi sübutdur».

(İSA HƏBİBBƏYLİ.
Ədəbi - tarixi yaddaş və müasirlik. Bakı,
2007, səh.605).

GƏMİQAYA-QOBUSTAN MƏDƏNİYYƏTİ

1.1. MÖVZUNUN AKTUALLIĞI:

Azərbaycan prezidenti İlham Əliyevin «Qobustan Dövlət tarixi-bədii qoruğu ərazisində yerləşən tarixi və mədəni sərvətlərin qorunması haqqında» 11 iyun 2007-ci il tarixli sərəncamında göstərilir ki, Qobustan Azərbaycan xalqının Milli sərvətidir.

Qobustan dövlət tarixi-bədii qoruğu ərazisində yerləşən Milli sərvətlər xəzinəsinin qorunması və gələcək nəsillərə çatdırılması, eləcə də Azərbaycan Respublikasının qədim mədəni irsinin geniş miqyasda təbliğ olunması Sərəncamda xüsusi olaraq vurğulanır.

Bu, Azərbaycan xalqının Milli sərvəti olan Gəmiqaya-Qobustan abidələrinin, xüsusən də onların mərkəzində dayanan qayaüstü rəsmlərin yenidən, kompleks şəkildə öyrənilməsinin başlanması deməkdir.

Bunun üçün aşağıdakılara diqqət yetirmək lazımdır:

Öncə: Gəmiqaya-Qobustan qaya təsvirlərinə münasibət dəyişilməlidir. Bu sahədə ilk tədqiqatlar, o cümlədən 1970-ci illərdən bu günədək çap olunmuş kitablar, albomlar, bukletlər, plakatlar yenidən nəzərdən keçirilməli, elmi inkişafın tələbinə uyğun geniş müzakirə olunmalı və yenidən redaktə edilməlidir. Gəmiqaya və Qobustan haqqında əvvəllər çəkilmiş sənədli kinolentlərdə yol verilmiş nöqsanlar təhlil və islah edilməlidir.

Gəmiqaya-Qobustan qaya rəsmləri çox zəngin və çox qədim bir mədəniyyətin izlərini yaşadaraq bu günümüzə çatdırmışdır. Bu rəsmlər-abidələr XX əsrin 30-cu (Qobustan) və 60-cı (Gəmiqaya) illərində aşkar edilmiş və onların tədqiqinə başlanılmışdır. Ötən müddətdə arxeoloji tədqiqatlarda bir sıra uğurlar qazanılmış və geniş elmi-ictimai maraq kəsb etmişdir.

Bununla yanaşı, Gəmiqaya-Qobustanın tədqiqinin ilkin mərhələsi artıq başa çatmışdır. Amma həmin mərhələnin ciddi səhvləri hələ də öz qüvvəsində qalır və bu möhtəşəm abidələr kompleksinin bütöv halda öyrənilməsinə, həqiqi elmi, tarixi dəyərinin üzə çıxarılmasına əngəl törədir.

1970-ci illərdə Qobustana belə qiymət verilmişdir: **«Qobustan rəsmləri ibtidai insanların, ovçuların və çobanların əl işləridir». "Bu rəsmlər heç bir məna güdmədən asudə vaxtlarda çobanlar tərəfindən çəkilmişdir. Həmin üslubda şəkil çəkmək qaydası Qobustan rayonunda XIX əsrin sonlarına kimi, bəzi hallarda isə son zamanlara qədər qalmışdır". (4.29.s.5.17.,3.339.)**

Bu yanlış "qiymətin" Qobustana heç bir aidliyi yoxdur.Qobustanda

belə uydurma "çoban üslubunda" heç bir rəsm çəkilməmişdir. Qobustan ali mədəniyyətin nümunəsidir.

Əlbəttə ki, Qobustanın ibtidai, daş əmək alətləri dövrü də olmuşdur.

Bir də Qobustanın qayaüstü təsvirlər dövrü olmuşdur. **Qobustan məhz qayaüstü təsvirlərinə görə Qobustandır. Bu qaya təsvirəlrinin isə «daş əmək alətləri, ibtidai insanlar, ovçular və çobanlar»la heç bir əlaqəsi yoxdur.**

Dünyanın bir çox yerlərində: Sibirdə, Cənub-Şərqi Asiyada, Avropada, Amerikada və Afrikada qaya rəsmləri aşkara çıxarılmışdır. (6.4). Onların bir qismi Gəmiqaya-Qobustanla müəyyən zahiri oxşarlığa malik olsa da, fərqli cəhətləri çoxdur. **Azərbaycan prezidenti İlham Əliyevin sərəncamında xüsusi olaraq nəzərə çatdırıldığı kimi,** dünyanın heç bir yerində qaya təsvirləri Qobustan və Gəmiqaya qədər zəngin deyil. Gəmiqaya və Qobustan həmin abidələrdən özünün vahid ideya xətti, forma və məzmun zənginliyi ilə fərqlənir.

Gəmiqaya-Qobustan dünya incəsənətinin şedevrlərindəndir. Heç bir çoban çomağı, ovçu aləti ilə belə yüksək sənət inciləri yaradıla bilməzdi.

Gəmiqaya-Qobustan rəssamlarının qayalara, dağların belində vulkan daşlarına həkk etdikləri təsvirlərdə, yazılarda insanın həyatı, arzu və istəklərinin problemləri, etnosun adət və inamları, etik və estetik normalar, kainatın yaranması haqqında biliklər, yaşamağın şərtləri, təbiət qanunlarına real münasibət, atalar-oğullar məsələsi və s. əks olunmuşdur.

Gəmiqaya-Qobustan rəssamları öz "daş kitablarını" etibarlı şəkildə şifrələmişlər, şifrələrdə əsas məzmun: Tanrıçılıq görüşlərinin təsviri və təsdiqidir. Təbiət qanunlarına əsaslanmış Tanrıçılıq-Yaradılış ideyası, xalqın-etnosun dünya düşüncəsi, cəmiyyətin harmoniyası, onun vahid sistemi Gəmiqaya-Qobustan rəsmlərinin ana xəttini təşkil edir.

Gəmiqaya-Qobustan rəssamı işarələrlə işləmişdir. O, daş «kətan» üzərində hər millimetr sahənin qədrini bilmiş, ona qənaət etmişdir. O, daş üzərində işarələri çoxaltmaq yolu ilə təsvirlər çəkmiş, bir təsvirin konturları-cizgiləri ilə başqa təsvirlər də yaratmışdır. **O həm rəssam, həm də işarəçi-əlifbaçı olmuşdur. O nə çəkirdisə yazı işarələrinin kombinə edilməsi metoduna əsaslanırdı. Bu metodu o özü yaratmışdı. O, hesab edirdi ki, hər işarə təbiətdə Tanrının qərarı ilə, hazır şəkildə mövcuddur: bunlar Tanrıdan gələn qanunauyğunluqdur.**

Bəs Gəmiqaya-Qobustan rəsmləri nə vaxt yaradılıb? İsaq Cəfərzadə Qobustan rəsmlərinin e.ə. VIII-VII minilliklərə, bəzilərinin nisbətən yaxın

dövrlərə: e.ə. VI-V-IV-III-II-I... minilliklərə aid olduğunu güman etmişdir. (7.85). Norveçli Tur Heyerdal Qobustan rəsmlərinin e.ə. XIV minillikdə çəkilidiyini söyləmişdir. (5.17). Cəfərqulu Rüstəmov isə Qobustan rəsmlərinin e.ə. XII-XV-XVIII və XXII minilliklərdən soraq verdiyini yazmışdır. (5.17).

Gəmiqaya rəsmlərinə Vəli Əliyev e.ə. IV minilliyədək-yəni azı 6 min il yaş verir. (6.4). Abbas Seyidov Gəmiqaya rəsmlərinin e.ə. VII minillikdə burada qranit daşlara həkk edildiyini bildirir. (8.6).

1.2. MƏQSƏD VƏ VƏZİFƏLƏR:

Əsərin yazılmasında əsas məqsəd Azərbaycan ərazisində qədim mədəniyyətin-unudulmuş sivilizasiyanın izlərini aşkara çıxarmaq və sistemli monoqrafik təhlil etməkdən ibarətdir. O cümlədən:

-Azərbaycanın qayaüstü təsvirlərinin şifrəsini açmaq və oxumaq;

-Qayaüstü təsvirlərin Azərbaycan ərazisində yayılma arealını müəyyən etmək;

-Qayaüstü təsvirlərin başlanğıc mərhələsini müəyyən etmək;

-Qayaüstü təsvirlərin qrafik quruluşunu, məna və məzmununu müəyyən etmək;

-Gəmiqaya rəsmləri ilə Qobustan rəsmlərinin müqayisəsini aparmaq, onları tutuşdurmaq və ümumi nəticəyə gəlmək;

-Gəmiqaya-Qobustanın, dünyanın müxtəlif regionlarında aşkar edilən qaya təsvirləri ilə müqayisədə əsas fərqlərini müəyyən etmək;

-Gəmiqaya-Qobustan rəsmlərinin leksikasını, tekstoloji mətnlərini üzə çıxarmaq və oxumaq;

-Gəmiqaya-Qobustan qaya təsvirlərinin hansı dillərdə yazıldığını aşkara çıxarmağa çalışmaq;

-Gəmiqaya-Qobustan rəsmlərinin Azərbaycana sonradan gəlmiş etnosların və bu torpağın ən qədim yerli sakinlərinin yaradıcılıq nailiyyətlərini əks etdirdiyini müəyyən etmək;

1.3. ELMİ YENİLİK:

-Gəmiqaya-Qobustan rəsmləri ilk dəfə elmi, tarixi-müqayisəli və metodoloji cəhətdən sistemli şəkildə təhlil edilir;

-Bu qaya təsvirlərinin kompleks şəkildə və müqayisəli planda öyrənilməsi, monoqrafik tədqiqat kimi yenidir.

Gəmiqaya-Qobustan bu günədək elmə az məlum olan bir sivilizasiyanı təmsil edir; o, qədim yunan, hind, Misir, Şumer və b. sivilizasiyalardan

ilkindir və özündən sonra gələn bütün mədəniyyətlərə-sivilizasiyalara çox güclü təsir göstərmişdir;

-Gəmiqaya-Qobustan mədəniyyəti bilavasitə Azərbaycan (türk) xalqına məxsusdur;

-Gəmiqaya-Qobustan mədəniyyətinin yaradılmasında e.ə. uzaq minilliklərdə Azərbaycan ərazisində yaşamış başqa etnosların da xidmətləri var;

-Tanrıçılığın əsas atributları ilk dəfə Gəmiqaya-Qobustan qayaüstü təsvirləri ilə müəyyən olunur;

Gəmiqaya Qobustan rəsmlərinə əsasən demək olar ki, Böyük daşqın və Nuhun gəmisi haqqında əfsanələr Azərbaycanda yaranmış və buradan dünyaya yayılmışdır:

-Azərbaycan qədim və mükəmməl fonoqrafik əlifbanın vətənidir;

Apardığımız təhlillər, müqayisələr subut edir ki, dünya əlifbalarının çoxu qədim Azərbaycan əlifbasından iqtibasla yaradılmışdır. O cümlədən: finikiya, yunan-latın, hind, slavyan-kiril, anqlo-saks, german, etrusk-iber, ərəb, erməni, mayya (Amerika) və b. qədim Azərbaycan Gəmiqaya-Qobustan mənşəlidir;

-Qobustanda daş üzərində çəkilmiş xəritələr Azərbaycanın qədim quru və dəniz sərhədləri, Aşina Xaqanlığı-Azərbaycanda ən qədim dövlət qurumu haqqında təsəvvür yaradır.

-Orxon-Yenisey Gəmiqaya-Qobustan mənşəli və onunla eyni sistemli əlifbadır; o, başlanğıç mərhələdə heç də 36 yox, Gəmiqaya-Qobustan kimi: 32 hərfdən: 9 sait və 23 samitdən ibarət olmuşdur;

-Gəmiqaya-Qobustan: Tanrıçılığın əlifbasıdır, bu da onun bütün başqa əlifbalardan əsas fərqini təyin edir;

1.4. TƏDQİQATIN METOD VƏ MƏNBƏLƏRİ:

-Monoqrafiya yazılarkən müxtəlif metodlardan istifadə olunmuşdur: tarixi-müqayisəli metoddan, tutuşdurma- qarşılaşdırma və təsviri metoddan. Mənbə: Gəmiqaya-Qobustan və onun əhatə dairəsində üzə çıxarılan qayalar, qranit daşlar üzərində əks olunan təsvirlər: yazılar, işarələrdir;

-Monoqrafiyada dünya yazı mədəniyyətinin və bir çox tədqiqatçıların: İ.Fridrixin, İ.Dyakonovun, İ.Yonsenin, S.Draçukun, Z.Kosidovskinin, A.Axundovun, B.Budaqovun, İ.Həbibbəylinin, N.Cəfərovun, Ə.Rəcəbovun, A.Malovun, A.Okladnikovun, O.Süleymenovun, V.Əliyevin, A.Seyidovun, T.Hacıyevin, Q.Kazımovun, Q.Məşədiyevin, B.Abdullanın, B.Allahverdiyevin və başqa müəlliflərin fikir və konsepsiyalarından mənbə kimi istifadə olunmuşdur.

1.5. TƏDQİQATIN NƏZƏRİ VƏ PRAKTİKİ ƏHƏMİYYƏTİ:

-«Gəmiqaya-Qobustan mədəniyəti» monoqrafiyası xalqımızın öz torpağının əzəli sakini olması, onun etnogenezi, qədim inam və adətləri, Azərbaycan dilinin qədim leksikası, qədim incəsənət, musiqi, yazı mədəniyyəti, etika və estetika, insansevərlik və s. məsələlərin öyrənilməsi və həlli üçün yeni imkanlar yaradır;

-Tədqiqatın materialları Azərbaycanda Tanrıçılıq ideologiyası, incəsənətin Gəmiqaya-QobustanQayaüstü yazılar metodu, elmin-xüsusən tibb elminin qədim izləri, daş üzərində yazılar, dilçilik, folklorşünaslıq, türkologiya, Azərbaycanşünaslıq və başqa sahələrdə yeni tədqiqatların meydana gəlməsində mənbə rolunu oynaya bilər;

-Əsər müstəqil Azərbaycanın beynəlxalq nüfuzunu, şöhrətini daha da artırmaq və onu qədim sivilizasiyalardan biri kimi tanıtmaqda yardımçı ola bilər.

-Monoqrafiya ali məktəblərin filologiya, tarix, arxeologiya, türkologiya, fəlsəfə, insanın anatomiyası, incəsənət tarixi, musiqi nəzəriyyəsi və b. fakültələrində tədris vəsaiti kimi istifadə edilə bilər;

-Milli Elmlər Akademiyasının müvafiq institut və şöbələrində elmi işlə məşğul olan tədqiqatçılar, mədəniyyət işçiləri «Gəmiqaya-Qobustan mədəniyyəti» monoqrafiyasından faydalana bilərlər. Bir sıra başqa məsələlərin həllində də bu əsərdən istiqamət almaq olar.

1.6. TƏDQİQATIN OBYEKTİ:

- Monoqrafiyanın əsas tədqiqat obyekti Gəmiqaya-Qobustan qayaüstü təsvirləridir; bununla yanaşı Gəncə daşı, Kəlbəcər, Qəbizdərə (Zaqatala), Mingəçevir, Əhər (Təbriz), Hacıqabul, Pirallahı adası (Abşeron), Dəmirçilər (Naxçıvan), Nüvədi (Zəngilan), Şamaxı və Baykalətrafı qaya rəsmləri, Şumer, "Avesta",Orxon-Yenisey, Mayya, Keçili - (Keçua,- Amerikada) abidələri də tədqiqatın obyekti olmuşdur.

1.7. TƏDQİQATIN APROBASİYASI:

Monoqrafiya Azərbaycan Milli Elmlər Akademiyasının Nəsimi adına Dilçilik, Nizami adına ədəbiyyat institutlarında, riyaziyyat və informatika institutunda, Bakı Dövlət Universitetində, Naxçıvanda: AMEA Naxçıvan bölməsində, Y.Məmmədəliyev adına Naxçıvan Dövlət Universitetində, Gəncə, Ağcabədi, Samux şəhərlərində keçirilən bir sıra görüşlərdə, beynəlxalq simpoziumlarda, konfranslarda Azərbaycan Yazıçılar Birliyində, bir sıra qəzet

Azərbaycan Respublikası Prezidentinin
İşlər İdarəsi
PREZİDENT KİTABXANASI

və jurnal redaksiyalarında və nəşriyyatlarda müzakirə edilmiş, müəllifin məruzələri dinlənilmişdir.

Müəllifin tədqiqat mövzusunda «Gəmiqaya-Qobustan əlifbası» (2003) və «Noyev kovçeq i Qemiqaə Qobustanskiy alfavit» (2005) monoqrafiyaları, 100-dən çox elmi məqaləsi müxtəlif yerlərdə çap olunmuşdur. Televiziya və radio verilişlərində mövzu geniş təbliğ olunmuşdur.

MONOQRAFIYANIN QURULUŞU

«Gəmiqaya-Qobustan mədəniyyəti» monoqrafiyası 4 fəsil, nəticə və illüstrasiyalardan: qaya rəsmlərinin surətlərindən və cədvəllərdən ibarətdir.

Azərbaycan Respublikası Prezidentinin İşlər idarəsi
PREZİDENT KİTABXANASI

I FƏSIL

İNSANIN İLK VƏTƏNİ

2.1. GƏMİQAYADA: – ANA BƏTNİNDƏ KÖRPƏ AYAĞI TƏSVİR EDİLMİŞDİR

Bu, tibb elminin ən qədim və böyük kəşflərindən bir soraqdır.

Ana bətnində embrionun inkişafı: uşaqlıq kanalına daxil olması, oradan ananın yumurtalığına keçməsi və bir neçə həftə ərzində körpəyə-uşağa çevrilməsi prosesinin xüsusi aparatla müşahidəsi-tibb elminin son nailiyyətlərindən sayılır. Bu nailiyyət bizim günlərdə-XX əsrin ikinci yarısında qazanılmışdır.

Gəmiqaya-Qoğustan rəsmləri sübut edir ki, tibb elminin bu kəşfi eramızdan neçə min il (e.ə. VIII minillik. İ.Cəfərzadə) əvvəl yaşamış protoazərbaycanlılara bəlli olmuşdur. Bu kəşfin qranit daş üzərində təsviri qədim dünyanın-qədim Azərbaycanın möcüzəsidir. Bu möcüzə Gəmiqayada bir neçə variantda, ideallaşdırılmış şəkildə əks etdirilmişdir.

Müasir dini ədəbiyyatlarda yazılır ki, «bütün canlılar başlanğıcda yumurtadan doğulmuşdur». (19.35.). Bu da Gəmiqayada «insanın doğulması» təsvirlərinin daha bir təsdiqidir.

Ana bətnində-yumurtalıqda körpənin ayaq izi Gəmiqaya və Qobustan rəsmlərində ayrıca petroqlif kimi seçilir. Bu, müxtəlif təsvirlərdə aşkarlanır. (səh: 33,34,37). Gəmiqaya rəsmlərindən birində (səhl:31(Bu kitabın səhifələri nəzərdə tutulur)). körpənin ayaq izi o məqamda rəsm edilib ki, sanki müasir kino lentinin «daş variantı»na baxırsan. Qranit üzərindəki rəsmdə körpənin bir ayağı: dabanından 5 barmağınadək, heyrətli dərəcədə aydın görünür. Qədim rəssam Gəmiqayada, 4000 metr hündürlükdə, vulkan daşında bu nadir əsərinin açıq havada, alp çəmənliyində min illərlə salamat qalacağına əmin olmuşdur. Bu əsər canlı görünür, hərəkətdə olduğu kimi duyulur.

Ana bətni-yumurtalıq, orada «inkişaf məqamında» müşahidə edilən, körpə, keçinin buynuzları arasında rəsm edilmişdir. (Tədqiqatçılar burada təkcə keçi fiqurunu görüblər).

Bəs nə üçün keçi? Bu keçiyə Gəmiqaya-Qobustan, Təbriz, Altay abidələrində çox rast gəlinir. Bu keçinin rəsmini ən yaxşı halda «çobanın əl işi» hesab etmişlər. (4.29). Bu ona bənzəyir ki, müasir rəssamın başı papaqlı insan təsvirinə baxıb deyəsən: «Burada papağı papaqçı-dərzi çəkib». (?). Qobustan rəsmlərində keçi təsvirlərinə cavab tapılmayıb.

Ana bətnində-yumurtalıqda «inkişafda olan» körpənin, keçinin buy-

nuzları və kürəyi arasında rəsm edilməsi onunla bağlıdır ki, keçi-sürüdə öndə gedən missiyası ilə yazın gəlişini 1-ci xəbər verən simvol hesab edilmişdir. Deməli keçi-Tanrıçılığın atributlarındandır. Keçi məhz «öndə getməsi» ilə Qar çiçəyi-Yaz çiçəyi: Novruzgülü ilə eyniləşdirilmişdir. Şumerli protoazərlər Keçi-Novruzgülü abidəsini yaradarkən (səh.34) məhz Tanrıçılıqdan gələn simvolu-baş əlaməti-atributu nəzərdə tutmuşlar. Hər şey yazın gəlişi ilə canlanır. Gəmiqaya-Qobustan rəsmlərində keçi təsvirlərinin hamısı bu ideyanın daşıyıcısıdır.

Uşağın ana bətninə-yumurtalığa düşməsi onun yeni bir başlanğıca çevrilməsidir. İlin fəslindən asılı olmayaraq, o uşaq yeni bir yazın-yeni başlanğıcın rəmzidir. Həm də onun dünyaya gəlişi ilin yayına, payızına, qışına düşsə belə o özü ilə nəslə, ailəyə-etnosa, dünyaya məhz yeni bir yaz gətirmiş olur, o doğulanda məhz yaz kimi doğulur: ayaq açıb yeriyənədək yazın ilk həftələrinin, günlərinin kövrəkliyini təkrar edir. Bu proses təbiət qanunlarından biri kimi izlənilir və ideallaşdırılır. Qədim rəssam Azərbaycan qayalarında nə çəkibsə, onu ideallaşdıraraq çəkib.

Elmi ədəbiyyatda deyilir: **«Uşaqlıq armudabənzər formada olub üç hissəyə bölünür; vəzifəsi mayalanmış yumurtanı müəyyən vaxt bəsləmək və döl yetişdikdən sonra yığılaraq onu xaricə çıxarmaqdır»** (100.478).

Qobustanda «Aşina oğlu» rəsmində, (səh.294) həyatın göydən yerə enməsi Günəşin qızı və Dumuz-səhnəsində bu gün elmin təsvir etdiyi həmin **armudabənzər uşaqlıq** ayrıca və çox vacib fiqur kimi rəsm edilmişdir. Yenə də Qobustanda, 29-cu daşda 2 böyük insan fiqurunun ortasında üçqat romb fiquru, tədqiqatçının yazdığı kimi, heç də «su qabını» (4.65.) deyil, məhz uşaqlığı əks etdirir.(səh 11)

Ana bətnində-yumurtalıqda körpə-embrion həm də petroqlif: şəkil-söz kimi rəsm edilmişdir. Gəmiqayada bu petroqlif: KÖRPƏ (K, Ö, R, P, Ə) işarələrinin kombinə edilməsindən yaradılmışdır.(səh.33)

Gəmiqayada sözügedən rəsmdə 1-ci keçi ilə paralel 2-ci keçinin də buynuzları ilə kürəyi arasında, yumurtalıqda embrion-döl təsvir edilmişdir. Qədim rəssam burada bəlkə də digər canlıların da doğulmasının-döl prosesinin ideallaşdırılmış təsvirini vermək istəmişdir.

2 ana bətni, 2 yumurtalıq, 2 keçinin buynuzları arasında təsvir-həm də bir lövhədə: Dünya ağacı (Doğum-Həyat Ağacı!) rəsmini yaratmışdır.

Qobustanda da bir neçə lövhədə həm körpə ayağı, həm də ümumiləşmiş halda insan ayağı rəsm edilmişdir. Bu rəsmlər Gəmiqaya-Qobustanın daimi piktoqraflarındandır. Bu bəlkə də insan ayağının tibbi sirri ilə bağlıdır, təkcə obrazlı düşüncənin əksi deyil, həm də Tanrıçılığın atributlarındandır.

Qobustanda, Böyükdaş dağında 1950-1990-cı illərdə naşılıq, başa düşməzlik üzündən çapılıb dağıdılmış müdrik kişi-Tanrı obrazının yaxasında da uşaq

ayağının şəkli diqqəti çəkir. Bu, Gəmiqaya-Qobustan rəsmlərinin eyni düşüncə ilə, eyni rəssamlar tərəfindən eyni vaxtda yaradıldığını bir daha sübuta yetirir .(səh.83)

«Tanrının obrazı» rəsmində uşaq ayağı, onun Boz Qurd balasının "əzvay qurd əniyinin" başı ilə yanaşı təsvir edilməsi Aşina-Boz Qurd əfsanəsinin mifik kodunu yada gətirir. Qədim rəssam bu ayaq izləri ilə demək istəmişdir ki, «insan göydən gəlib, Kainatda onun ayaq izi var».

(Bu gün elm, kosmik aparatlarla Kainatın dərinliklərində insanın ayaq izini: şəklini, səsini, sözünü: özünü soraqlamaqdadır).

Gəmiqaya-Qobustanda çox sayda insan ayağının təsvirləri Səmada, Yaradanın çəkdiyi işarə kimi, müqəddəs sayılmışdır. Bu ayaq təsvirləri insan haqqında, Ana bətni-yumurtalıq haqqında yaddaşdır və bu yaddaş deyir ki, **ana bətni-yumurtalıq-insanın ilk Vətənidir**. Qədim azərbaycanlı bunun tibbi-elmi sirrinə bələd olmağa çalışıb, bunu diqqətlə öyrənib və öyrəndiyini daşların yaddaşına köçürüb.

Qobustanda "7 günlük" Ayın rəsmi üstündə də insan ayağının izi görünür. Bu fakt özü də yaxşı mənada heyrət oyadır. İnsanın Ayın səthinə ayaq basması fikri, arzusu bizim günlərdə-1969-cu ildə Amerika kosmonavtı Armstronq və daha neçə insan oğlunun hünəri ilə həyata keçirilmişdir.

Beləliklə, deməyə əsas var ki, qədim dünyanın Yer-Göy əlaqələri, onların bəzi parametrləri, hətta «texnoloji» imkanları haqqında bilik-məlumat verən Gəmiqaya-Qobustan rəsmləri bu gün elmi-ictimai-siyasi düşüncəni daha da zənginləşdirmək imkanındadır. Bu rəsmlərdə bir sıra fiziki-riyazi kəşflərin-məsələn, Kainatın yaranması haqqında İlk Partlayış nəzəriyyəsinin, yazının, musiqinin, incəsənətin, tibb elminin qədim izlərindən söhbət açılır. Bu sivilizasiya qədim Azərbaycanla bağlıdır və bu günədək «ən qədim» hesab edilən Şumer və Misir mədəniyyətlərindən bir neçə min il əvvəldir.

2.2. SİMMETRİYA VƏ HARMONİYA

Gəmiqaya-Qobustan başdan- başa şəkil-söz qalereyasıdır. Burada insan və başqa varlıqların təsvirləri vahid simmetriyaya tabe edilmişdir. Bu təsvirlər müxtəlif simmetrik formaları: düz xətli, dairəvi, yarım dairəvi, dirsəkvari, kvadrat, romb, ellips, üstəgəl (+) və başqa həndəsi ölçüləri özündə birləşdirmişdir. Bir insanın (yaxud heyvanın) üz konturları eyni lövhədə eyni və oxşar formalarda başqa insan və heyvan fiqurlarının da yaradılmasını təmin etmişdir. Sonrakı dövrlərin (son 2500 ildən bəri) rəssamlığında belə metod müşahidə edilmir. Üz və bədənin başqa cizgiləri: dodaqlar, ağız, çənə, qaşlar,

gözlər, heyvanlarda buynuzlar, qulaqlar, burun, ayaqlar, quyruq və s. bəzən bir istiqamətdə təkrarlanır. Bununla da yeni simmetriya yaradılır. Belə simmetriya xalça naxışlarında da müşahidə edilir.

Təsvirlərin çoxunun əsasında simvollar dayanır; onlar simmetrik ölçülər daxilindədir. Məsələn, simvolik «ana bətni» petroqlifi: o yerdə görünür ki, orada doğum, artım məzmunlu fiqurlar əks olunmuşdur. Yaxud ayrıca «uşaq ayağı» petroqlifi o yerdə cızılıb-çəkilib ki, onun yaxınlığında Boz Qurdun əksi də müşahidə edilir. Bu da özünə məxsus simmetriya-harmoniyadır. Burada vahid məzmun: doğum, artım, məhsuldarlıq vahid simmetriya, harmoniya tabeliyindədir.

Gəmiqaya-Qobustanda ölçü-tarazlıq Tanrıçılığın vacib atributlarındandır; simmetriya, harmoniya-qədim cəmiyyətdə tarazlığa, bərabərliyə çağırış olub. Simmetriyanın pozulması tərbiyənin, nizam-intizamın, haqq-ədalətin pozulmasına, nəhayətdə etnosun-xalqın məhvinə gətirib çıxarardı. Odur ki, Gəmiqaya-Qobustan cəmiyyətində ölçünü-normanı pozan, insaf, ədalət həddini aşan hər kəs ağır cəzalandırılırdı. Maral balasının hekayəsində gördüyümüz kimi.

2.3. GƏMİQAYADA MARAL HEKAYƏSİ

Bu hekayəni Azərbaycan və dünya ədəbiyyatının ən qədim nümunəsi hesab etmək olar. Bu hekayə əsasında hətta bu gün qısa metrajlı kino da çəkmək mümkündür.

Gəmiqayada vulkan daşına-qranitə həkk edilmiş bu rəsmin mərkəzində maralın balası və onu oxla nişan almış ovçu görünür. (səh.44-45) Maral balası onu hədəfə çevirmiş ölümdən qaçır. Ovçu yayı üzünə qaldırıb sağ əli ilə özünə sarı çəkir ki, ox kamandan ayrılıb maral balasını öldürsün. Amma nə ox, nə yay, nə də kaman ovçunun sözünə baxmaq istəmir. Yay, oxu geriyə-ovçunun özünə sarı çəkir. Qədim rəssam bu məqamı ideallaşdırıb. Tanrıçılığa görə insan sudan və işıqdan (oddan) ibarətdir. Suyu-Buğa, İşığı-Şir (ulduz bürcləri)təmsil edir. Rəsmdə, ortada oxun keçəcəyi istiqamətdə 2 hissəli dairə-güzgü var. Onun yuxarı yarısında qadın, aşağıda kişi dayanıb: Həyatın 2 sütunu: İşığın və suyun rəmzləri tək. Onlar oxun keçəcəyi istiqamətə yox, ovçunun özünə baxırlar; bu baxışlardan qəzəb duyulur.

İdealın: Su ilə işığın da yeri dəyişilib. Oxun ucu İşığı-Şiri-«III (Ş)» işarəsini təmsil etməli ikən, həmin işarə ovçunun qolunu geriyə çəkən məqamdadır. Güzgü isə soldan sağa keçirilmiş-yəni öz fəaliyyətini solda-daimi yerində davam etdirməli olan Su rəmzi Ө (Ö) işarəsidir. Başqa təsvirlərdə, məsələn, Gəmiqayadakı «arabalar» rəsmində III (Ş) - İşıq sağ tərəfi, «Ө»-su sol tərəfi təmsil edir. Burada-«Maral» rəsmində işıqla

suyun yerlərinin dəyişilməsi ovçunun, təbiətin əsas qanunlarından birini: ölçü həddini pozmağa cəhd göstərməsi ilə bağlıdır. Rəssam demək istəyir ki, həyatın 2 sütunu: İşıq və Su tarazlığı-bərabərliyi pozula bilməz. Ovçu bu qanunu pozursa-pozmağa cəhd edirsə, o mütləq cəzalandırılmalıdır. Ovçu-insan maralın balasını öldürməməlidir! Ovçu və maral balasının əhatəsində dayanmış müdrik insanların da, hətta heyvanların da baxışlarından qəzəb oxunur.

Ovçunun solunda-arxada ana maral dayanıb. O da həm qəzəblə baxır, həm də ağlayır, ovçudan rəhm diləyir: Belə qəddar və amansız olma! Mənim balama qəsd etmə!

Ana maralın üzündəki maskada, başına tac qoymuş heyvanı təyin etmək mümkün olmasa da, o heyvan da ovçuya qəzəblə baxır.

Ovçudan sağda, bala maralın yaxınlığında dayanan ov tulası da qabaq ayaqlarını yuxarı qaldırıb ovçuya sarı baxır və sanki deyir: Yox! Mənim sahibim! Bu dəfə ovdan əliboş qayıtmalıyıq! Biz ölçünü, qaydanı, adəti poza bilmərik! Biz balanı, körpəni, südəmər öldürə bilmərik!

Nəhayət, bu ovçuya daha ağır, daha ibrətamiz cəza verilir: onun sağ ayağı dizdən aşağı kəsilib və ovçunun sağ çiyninə qoyulub, o mənada ki: maralın balası hələ körpədir, hələ o öz balaca bədəni ilə cəmi dörddə bir ölçünü doldura bilmişdir. Yəni gör, anla ki, maral balası bütün bədəni ilə «Sənin bir ayağın boydadır». Sən ona ən azı dörd ölçünü tamamlayana qədər möhlət verməlisən. Bu əzəli Qanundur və onu unutmağa sənin haqqın yoxdur. («Sənin bir ayağın boydadır»-məsəlinin gör neçə min il yaşı var!).

Ovçu öz cinayətini həyata keçirməyə hazırlaşarkən üzünü və bədənini müxtəlif maskalarla örtmüşdür ki, onu heç kəs tanıya bilməsin. Amma bu da zalım ovçuya kömək etmədi.

Bu hekayə Gəmiqaya-Qobustan dövrünün humanizmindən xəbər verir. Tələb də məhz belə olub: **insan təbiətin qanunlarını pozmağa cəhd etməməlidir. Rəsmdən göründüyü kimi, ovçu öz insafsızlığından, qəddarlığından əl çəkməyə məcbur edilir**. Bu rəsm ilə gələcək nəsillərə də çatdırılır ki, insan bütün canlıların balasına qarşı yalnız qayğılı münasibətdə olmalıdır.

Maraqlıdır ki, maralın balası bu rəsmdə həm də «Maral»-«Amar» piktoqrafi kimi A, M, A, P işarələrinin kombinə edilməsindən yaradılmışdır. Söz yaradıcılığında «Amar»-dan bu günkü «südəmər» və daha neçə söz yaranıb və bir dildən başqa dillərə keçib.

Bu gün inəyin balasına və körpə uşağa da, südəmər deyilir.

Bu hekayə qədim Azərbaycan cəmiyyəti, onun qayda-qanunları, humanizmi, tərbiyə məsələləri haqqında xeyli təsəvvür yaradır. Bu fakt özü də simmetriyadır-cəmiyyətin ümumi harmoniyasıdır.

2.4 AŞİNA-DİŞİ BOZ QURD

Gəmiqaya-Qobustanda "Ay Ana" rəsmləri Tanrıçılığın atributlarından biri kimi diqqəti çəkir. Ay Ana çox yerdə ilan-qoruyucunun əhatəsində-yanında verilir. Qobustanda «Ay analar» rəsmində (səh.45-47) iki 14 gecəlik Ay Ananın arasında, gülümsəyən Boz Qurd, onun çənəsi yanında hətta Boz Qurdun alt çənəsini əvəz etmiş kimi, ana bətnində körpə ayağının təsviri görünür. Elə həmin lövhədə 2-ci Boz Qurd, körpə ayağı ilə yanaşı rəsm edilmişdir. Bu, Boz Qurda-«İşıq Ana» totem kimi obrazlı düşüncə ilə bağlıdır. Biz bu totemlə əlaqədar Aşina əfsanəsinin Azərbaycanda yarandığını, buradan Şərqə və Qərbə yayıldığını əvvəllər geniş şərh etmişik. (10: 142, 166, 174, 179-181, 202).

Qobustanda ayrıca «Aşina-Boz Qurd», «Aşina Ana» və «Aşina-Gözəl» rəsmləri var.

(İrəlidə bu mövzu geniş şərh olunacaq).

Aşina əfsanəsində vacib bir məqamı xatırlamaq lazım gəlir. Azər-türk uşağını (oğlanı) xilaç etmiş, sonra ondan hamilə olmuş və 10 oğlan uşağı doğmuş Aşina-Dişi Boz Qurd bütün protoazər (prototürk) nəslinin yeni əsasını qoymuşdur.

Sual doğur: Nə üçün dişi Boz Qurddan-Aşinadan məhz 10 körpə doğulur və onların da hamısı məhz oğlan olur? Fikrimizcə, bu, bütövlük rəmzi tək günəşin 10-işığı-şüası ilə bağlıdır.

Qobustanda 29-cu daşda Qaba Ağacın-Həyat Ananın çiyninə Günəşdən süzülən işıqların-şüaların sayı 10-dur. 10 işıq-Tanrıçılıqda bütövlük rəmzidir.

10 işıq-bütöv insan və bütöv etnos-bütöv xalq rəmzinə də çevrilir. 29-cu daşda çiyninə 10 işıq süzülən Həyat Ananın üzü, çiyni bərabərində yenə də uşaq ayağı, Boz Qurdun başı ilə yanaşı təsvir edilmişdir. Dişi Boz Qurd-Aşina-İşıq Ana-Ay Ana kimi Tanrıçılığın atributlarından sayılmışdır.

İşıq: od-kişi başlanğıcıdır. Bu səbəbdən də Qobustanda (və əfsanədəki) dişi Boz Qurd-Aşina məhz 10 oğlan doğur.

Bəs, Aşina-dişi Boz Qurd nə üçün Ay ananın 2 surəti arasında görünür? 2 Ay-2 Ondörd gecəlik bütöv Ayın timsalıdır; 2x14=28. Qadında bunun-«ay başı» adı ilə 28 gündən bir təkrarını Ayın 28 günü ilə əlaqələndirmişlər. Bunu bəlkə də ideyanın 1-ci olduğuna, materiyadan əvvəl gəldiyinə nümunə göstərmişlər. Elm bununla əlaqədar öz sözünü deməlidir: Tanrıçılıqda Ay ana atributu özündə çox sirri gizləmişdir.

Mifdə Ayın "ərinin" Buğa hesab edilməsi-Buğa ulduz bürcünün «Su fəsli»ndən olması ilə bağlıdır. Necə ki, Ay da Su fəslindəndir.

Yəni «Ayın əri» Su- buğa-ulduz bürcüdür, Buğa fiquru isə bu bürcün yalnız rəmzidir.

Dişi Boz Qurd niyə Aşina (Asina) adlandırılıb?

«Aşina»-As ana kimi «Ay»-«SinAy» (Sən Ay)-koduna bağlıdır. Yəni o öncə «Aş Ana» yox, məhz As Ana- «Asina» adlandırılıb; Tarixin yaddaşına və qaya rəsmlərinə köçən isə s-ş əvəzlənməsi ilə «Aşina» olub. Bəzi mənbələrdə də "Aşina"nın "Asina"-"Assena" variantları xatırlanır. (118,119.197)

«Asina»da Sin: Sən:2-ci, su, Ay-kodunda açılır. (Mifdə Gün-Od: 1-ci, Ay-Su: 2-cidir).

Rus dilində İtin küçüyü-«şenok»-ilkin məzmunla «Aşinanın oğlu»dur.

(Bunu başqa dillərdə də aramaq olar.) «Sınok»da «ok» «oğul»dakı «oq»la eyni koddandır.

Bununla yanaşı, tarixin yaddaşında qalmış «Aşina»dan danışmaq lazım gəlir. Bu gün dilimizdə «Aşina»nın yaşarı şəkli «Aşna»dır.

Bu gün dilimizdə müsbət mənada "dost-aşna", mənfi mənada isə «Aşna»-kəbindən kənar (kəbinə qədər) qadın və kişi mənasında işlənir. Burada mifin uzaq izi görünür. Xilas edilmiş axırıncı protoazər oğlan insan ikən, dişi Boz Qurdla qanundan kənar izdivacda olur. Fiklimizcə, bəlkədə sonralar yaranmış və məhz işıqla bağlı «aşiq» sözündə də «Aşina»nın izi var. Aşiq də öncə qanuna-kəbinə qədər sevgilidir). Bu, hipoteza kimi düşündürücüdür və yəqin ki, gələcək tədqiqatlarda aydınlaşdırıla bilər.

«Aşna»da (sevgilidə) mifdən gələn kod, sevginin dərkedilməzliyi Tanrı sirri-Təbiətin Qadağan Qanunu ilə izah oluna bilər. Deməli, sevgi-aşna (Aşina) ideyadan gəlir. Qobustandakı «Aşina gözəl» rəsmində bu ideyanın izi duyulur.

Heyvanların insana əcdad olması XIX əsrin sonlarında ingilis alimi Ç. Darvin tərəfindən onun «növlərin mənşəyi» nəzəriyyəsində irəli sürülmüşdür. Amma Ç. Darvinin vaxtında təbiətin Qadağan Qanunu kəşf edilməmişdi. Ç.Darvin də öz nəzəriyyəsini tam əsaslandıra bilməmişdir.

«Dişi Boz Qurddan törəmək» haqqında Mifin kodlarını Gəmiqaya-Qobustan rəsmlərində müşahidə etmək olur. Kitabda sözü gedən "Aşina gözəl" və "Dinc qoyun- müdrik boz qurd" tablolarında xüsusiylə hiss olunur.

«Aşina»da «aş»-Günəşin işığını təmsil edir. Bu da Boz Qurdun «Kitabi-Dədə Qorqud»da «mübarək üzlü» (13.45) adlandırılmasına əsas vermişdir.

2.5. AŞİNA VƏ TƏKAMÜL NƏZƏRİYYƏSİ

Əfsanədə deyilir ki, türk (proto-azər) nəsli tamam qırılmış, tək bir oğlan uşağı salamat qalmışdı. Dişi Boz Qurd bu uşağa rast gəlir, onu parçalayıb yemir, dişinə alıb mağarasına gətirir, öz balaları ilə birlikdə onu da əmizdirib bəsləyir. Oğlan qurd təbiətli, qurd ürəkli böyüyür. Qurdun mağarası insan məskənlərindən uzaq

idi. Vaxt ötür, dişi Boz Qurd bu oğlandan hamilə olur və bir gün mağarasında 10 oğlan uşağı doğur. Bu oğlanlar Qurd ürəkli böyüyürlər. Bir gün Boz Qurd qocalıb ölür. Ata da qocalır. O, oğlanlarını yanına çağırıb deyir:

-Eşidin! Tanrı bizim nəslimizi yox olmağa qoymadı, Boz Qurdu köməyimizə göndərdi. O da siz oğullarımı dünyaya gətirdi. İndi mən də ömrümü başa vurmaqdayam. Odur ki, Sizi dünyanın 4 tərəfinə göndərirəm. Hər biriniz özünə Vətən tutsun, bir ölkənin sahibi-başçısı olsun. Bir-birinizi,Gün Tarnrnı, Ay ananı, birdə ananız Aşinanı- As Ananı və məni unutmayın.-Ata bunları deyib canını oğullarına tapşırır. Dünyanın 4 tərəfinə yollanan oğullar ağır mübarizələrdən keçərək hərəsi bir ölkənin sahibi olur. (10.179).

Azər - Türk atadan, Aşina anadan - As Anadan törəmiş 10 oğlan böyüyüb artaraq bütün Azər-Oğuz (türk) xalqını yaradır. Aşina oğulları əfsanəsi dünyaya yayılır. Əfsanənin əslindən fərqlənən yeni variantları da yaranır.

Qədim Misir varianında dişi boz qurdun oğlu "qurd ürəkli " əvəzinə "qurd başlı" düşünülmüşdür. İtalyan variantında (14.157), adi dişi canavar 2 uşağı əmizdirir. Guya bunlar Romul və Rem qardaşlarıdır ki, (səh.48) sonradan canavarı əmdikləri yerdə Roma şəhərinin əsasını qoyublar. İtalyan əfsanəsində ideallaşdırma aparılmayıb, miflə əlaqə yoxdur, bədiilik, obrazlılıq da nəzərə çarpmır. Bu da onun köklü, əsil əfsanədən-Azərbaycan əfsanəsindən iqtibas edildiyini sübuta yetirir.

Qobustanda Aşina obrazları müxtəlif və rəngarəngdir. Bunlardan biri-«Dinc Qoyun - Müdrik Boz Qurd» heykəli dünya heykəltaraşlığında möcüzə sayıla bilər. Rəssam mövzunu həll etmək üçün orjinal metod düşünmüşdür: aqressiv təbiətli qurdu-sülh, dinclik müstəvisində təqdim etmək məqsədi ilə «dinc qoyun» obrazını seçmişdir.(səh.46)

«Aşina gözəl»də dişi Boz Qurd təkamül yolu keçərək nəhayət, insana-gözəl qadına çevrilir. Böyük ingilis alimi Ç.Darvinin təkamül nəzəriyyəsi yada düşür. (12; 15.136). Darvindən neçə min il əvvəl bu nəzəriyyə kəşf olunubmuş. «Dinc Qoyun - Müdrik Boz Qurd» və «Aşina gözəl» rəsmləri (səh.44) deyir ki: həyatın, üzvi aləmin xüsusən də insanın əmələ gəlməsi nəzəriyyəsi neçə min il əvvəl Azərbaycanda irəli sürülmüş və qaya rəsmlərində əks etdirilmişdir.

«Dinc Qoyun - Müdrik Boz Qurd» heykəlinin başı 4-5 heyvan başının kombinə edilməsindən yaradılmışdır. Heykəl-portretdə Boz Qurd ananın hər döşü simvolik analardır; hər döş-anadan insan, heyvan, quş balası süd-qüvvət əmir; bunlar embrionlardır.

Boz Qurdun belində işıq bürcü-şir, onu əvəz edə bilən pələng, bəbir, başqa tanınmaz heyvan fiqurları rəsm olunub.

Heykəlin müxtəlif hissələri həm insandır, həm pələng, həm Boz Qurd, həm əcdaha, buğa, qunduz, qartal, göyərçin, həm də fil xortumudur. Nə üçün fil xortumu? Fil-güc rəmzidir; məhz güc rəmzi kimi, fil, Gəmiqayada ayrıca rəsm edilmişdir. Qobustanda «Böyük şir» lövhəsində də Fil başı diqqəti çəkir.

2.6. Dişi Boz Qurdun gözəl qadına çevrilməsi

Müəllifsiz albomda (1974) 4-cü tablo əsl sənət incisidir.(səh.48,49) Bir qaya parçası zövqlə yonularaq, qadın heykəlinə-portret heykələ çevrilmişdir. Bu gözəl necə müşahidə olunur? Baş örtüyü bu gənc qadına kübar xanım görkəmi verir. Şalın (papağın) bu cür örtülməsi, alnın üstündən qatlanmış zolaq, şalın bir ucunun boynun arxasında incəliklə qatlanması yüksək bədii sənətkarlıqdan xəbər veirir. Qadının üzündə «daş tül» diqqəti cəlb edir. Onun düşüncəli görümü Bakıda Natəvanın heykəlini xatırladır.

Bu heykəldə şalın boyunda qatlanmış ucunun çiçək, qönçə, ceyran, maral, quş, təkamül prosesində balıq-balina... təsvirləri diqqəti çəkir.

Bununla yanaşı, bu qadın-portretin gizli sirri: onun dişi Boz qurd ikən insana, gözəl qadına çevrilməsi müşahidə olunur. Mifdə çevrilmə prosesi getdikcə göz önündə canlanır.

Bu portreti həm də müxtəlif istiqamətdən müşahidə etmək gərəkdir: Boz Qurd «qadın»-insan şəklindən əvvəl inək şəklinə (Şal örtükdə!), yenidən boz qurda, marala, nəhayət qadına çevrilir. Üzünün «Daş tül» örtüyü Boz Qurdun şəklini göstərir; dodaqları-artıq qadın dodaqları öndən-bütöv və profildən görünür.

«Aşina gözəl»in-insan oğluna ərə getmiş dişi Boz Qurdun sevgili qadına çevrilməsi bu əsərin üzü ilə modelləşdirilə bilər.

İncildə (Əhdi-Cədid.V.13,14) yazılıb: "Ağlı olan Canavara aid sayı hesablasın, çünki bu bir insanın sayıdır"-Fikrimizcə burada da söhbət məhz dişi Boz qurddan gedir. Deməli dişi Boz qurd-Aşina təkamüldə (növlərin əmələ gəlməsində) hansı qanunlasa, hansı xətt ilə bağlıdır.

AŞİNALAR: As Ana: ASina - AŞina:

AZ Ana xalqı-Azərbaycan xalqı və As Ana - Asiya qitəsi ? Bu hipotezalar çox düşündürücüdür.

Bəs aşinaların sorağı nə üçün şimali Çindən, Baykal gölü ətrafından eşidilmişdir? Qəzənfər Kazımovun fikrincə: miqrasiyalar mezolitdə Ön Asiyadan və Aralıq dənizi hüdudlarından başlamış, insan Yer üzünə Avropanın, Afrikanın və Asiyanın qovuşduğu bu ərazidən yayılmışdır. Sonralar əks miqrasiyalar da olmuşdur.(16.5-6)

Bu sətirlərin müəllifi ilk dəfə elmi təhlil əsasında irəli sürmüşdür ki, protoazərlər - prototürklər Azərbaycandan Altaya köçmüşlər. Azərbaycan Altaydan deyil, Altay Azərbaycandan başlanır. (bax.Ə.Fərzəli. Dədə Qorqud sözü.b.1999.s.243)

Protoazərbaycanlılar həmin ərazilərə məhz Azərbaycandan köçüb getmişlər. (16.6). Onlar təkcə «Aşina» adını deyil, həm də Azərbaycanın bir sıra yer və su adlarını da özləri ilə aparmışlar. O cümlədən: Muğan, Bərdə, Şuşa, Altay, Təbriz, Alatava, Kür, Araz, Urmiya, Qobu (Qobustan), Qoşqar, Murov, Şəki, Suvar (Subir-Sibir), Anadolu, Anadır, Maqadan (Maq-Od Tanrı!) və s.

Aşina haqqında əfsanə buradan-Azərbaycandan köçənlərin söhbətləri ilə bütün dünyaya yayılmışdır.

Qəzənfər Kazımov Yazır ki, Aşina-Boz Qurd əfsanəsi türk xalqları arasında geniş yayılmışdır; «qədim turklərin bayrağında daim qızılı rəngli qurd başı təsvir edilmişdir».(16.7).

Maraqlıdır ki, sözügedən bayraqlardakı qurd başı təsvirləri Qobustanda 10 oğluna öyüd verən Aşinanın-dişi Boz Qurdun başının təsvirinin təkrarıdır.(səh.105)

L.Qumilev aşinaların «Qərb ölkəsinin qərbində yaşayan hunların nəslindən» olduqlarını (17.32) söyləyir. Q.Kazımov bu fikrə də aydınlıq gətirir: «Qərb ölkəsinin qərbi»-Azərbaycandır". (16.7).

Aşina əfsanəsindən danışarkən bu əfsanənin Qobustan qaya təsvirlərindən-maddi kökdən qaynaqlandığını söyləmək olar.

Qobustan qaya rəsmində Xaqan taxtında oturmuş hökmdar, (səh.116) onun məhz «Kan»-«Xan» adlandırılması qarşıya suallar qoyur: bu Azərbaycanda hansı dövrün xanı olmuşdur?

Hunların Şumer dövründəki törəmələri – Kəngərlərlə birlikdə xatırlandığını yada salmaq kifayətdir. Q.Kazımov rus tədqiqatçıları L.Qumilev və N.Biçurindən bir faktı da misal çəkir: «Knyaz Aşinanın Muğan titulu daşıması tarixi həqiqətdir». (17.31., 196.221., 16.11). Muğan bilavasitə Azərbayjan ərazisidir, Qobustan da həmin əraziyə daxildir. «Muğan xan işlək titul olmuş – Muğanlı (yəni azərbaycanlı) xanların nəsli anlamındadır». (16.12).

İ.M.Dyakonov məlumat verir ki, aşinalılar «irken» sözü işlədirdilər: «irken»-erkin: ər-kişi mənasında. Həm də «irken»-xalq yığıncağı sözünün varisidir. (20.54., 16.20).

Tarixi məlumatlar göstərir ki, Azərbaycanda Şumer dövründən əvvəl də, Şumer dövründə də Xaqan hökmdarlığı olmuşdur. Məsələn:Kuti Xaqanlığının-dövlətinin başçılarının adları «Xan» titulu-rütbəsi ilə xatırlanırdı: Tirikan Kuti xaqanlığının sonuncu xanı idi. Eradan əvvəl II minilliyin sonunda yaşamışdır. (21.34).

Fikrimizcə, Qobustanda Xan taxtında oturmuş hökmdar Azərbaycan ərazisində şumerdən əvvəlki dövrlərə aiddir. Bunu həmin daşa-hökmdarın yaxasına yazılmış "Kan-Xan" sözləri də təsdiq edir.Bəlkə də Şumer dövründə

çox şəkilli fonetik əlifba unudulmuşdu. Şumerdən sonra iranlıların-arşakidlərin-sasanilərin hakimiyyəti dövründə qaya-daş üzərində yazılar qədim Azərbaycan: Gəmiqaya-Qobustan işarələri ilə deyil, Şumer mixi işarələri ilə yazılırdı.

Bisütun yazıları buna misaldır. (21.44).

Gəmiqaya-Qobustanda «Ənik» piktoqrafına çox rast gəlinir. Fikrimizcə, bu piktoqraf dişi Boz Qurdun - ASAna-Aşina -oğlanlarının ümumi adı olmuşdur. Bu gün də xalq arasında deyilir: «Yenə əniyi-küçüyü yığılıb başına». Mənfi mənada işlənsə də, söhbət İtin, ya canavarın yox, insanın (mənfi şəxsin) övladları, yaxınları nəzərdə tutulur.

Deməli bu gün də dilimizdə işlənən «ənik» sözü bilavasitə Asinanın-Aşinanın oğulları - əkizləri ilə bağlı olaraq yaranmışdır və yalnız sonralar şirin, itin, canavarın balalarının da ümumi adına çevrilmişdir.

Gədəbəydə Şınıx kəndinin: a+şınık-aşinalıq: Aşina törəmələrinin yurdu anlamında (hipoteza kimi) qəbul etmək olar.

Boz qurd -Aşina inamı başqa zootoponimlərimizdə də yaşadılır: Qurd qapısı (Bakıda), Qurdlar məhləsi (Gəncədə), Qurdlar və Canavarlı kəndləri (Ağdam və Bərdə rayonlarında) buna misaldır. Təəssüf ki, Bərdənin Canavarlı kəndinin adı müasir düşüncə ilə 2008-ci ildə dəyişdirilmişdir. "Canavar" onomastik vahidi məhz qədim inamın izi kimi "İncil"də də yaşadılırsa, "Dədə Qorqud Kitabında" "qurd üzü mübaləkdir" deyilirsə, Bərdənin Canavarlı kəndinin adı da tariximizin izi kimi bərpa edilməlidir.Onu "AsAna" yaxud "Aşina" adlandırmaq olar.

2.7. TANRIÇILIĞIN GƏMİQAYA-QOBUSTAN DÖVRÜ

Bu dövrün sorağı ilə çox uzaqlara getmək olar. Elə Aşina söhbətləri də bunu xatırladır.

Qobustanda alt çənəsi körpə ayağının rəmzinə çevrilən Boz Qurd iki Ayın (hərəsi 14 gecəlik), başı üstündə dayanmış gecənin, qaranlığın-fələyin-taleyin rəmzi kimi, iki əjdahanın əhatəsindədir.(səh.45-47) Buradan nəticə çıxır ki, Ay-ümumiyyətlə insanın, Dişi Boz Qurd-Asina-Aşina isə ayrıca bir soyun: protoazərlərin (prototürklərin) Ay Ana başlanğıcıdır. Fikrimizcə, "İncil"dəki "Canavar sayı" da "təkamül sayına" bağlı olub.As Ana - Asina-Aşina-aşina olmaq, dost-aşna, şina, Zina (qadın adı), zinadan törəmək-bic – kəbinsiz doğulmaq "qurd oğlu qurd" olmaq, aşna-oynaş və s.zənən (qadın) və s. hipoteza kimi düşündürücüdür.

Bütün quşlar içərisində təkcə xoruz hər gecə sübhə yaxın gen yaddaşı ilə oyanır və günəşi çağırır. Bu təbiət hadisəsi də təbiətin Qadağan Qanunu ilə izah oluna bilər. (Təbiətin Qadağan Qanununu Azərbaycan alimi Yusif Məmmədəliyev adına Qızıl Medalın və Nyu-York akademiyasının Beynəlxalq Mükafatının laureatı, professor Telman Əliyev kəşf etmişdir).

Gəmiqaya-Qobustan rəsmlərində xoruz günəşlə bir yerdə-Günəş uclu Səma və Ay gəmilərində, qədim Azərbaycanın Daş xəritələrində, indiki Bakının yerində **Günəşin atributu** kimi əks olunmuşdur.

Sivilizasiyanın Gəmiqaya-Qobustan dövrünü Tanrıçılığın qızıl dövrü adlandırmaq olar. Bu sivilizasiya tarixə çevriləndən sonra, Tanrıçılığın bazasında yeni dinlər meydana gəlmiş, Tanrıçılıq özü isə unudulmuşdur. Azərbaycanda xalqın məişətində, gündəlik həyatında, inam və adətlərində, mərasimlərində Tanrıçılıq öz dərin kökləri, atributları ilə yaşadılmışdır. Bunun əksi Gəmiqaya-Qobustan rəsmlərində müşahidə olunur. Azərbaycandan uzaqlarda xüsusən də Orta Asiya, Qazaxıstan və Sibirdə-Altay diyarında Tanrıçılıq yanlış təsəvvürlə yaşadılır. Məsələn, guya Tanrıçılıq buddizimdən «bəhrələnmişdir». (24.45). Buddizmə beş min ilə qədər yaş verilir. Bunun özü də buddiizmin Tanrıçılığın son törəmələrindən biri olduğunu təsdiq edir. Tanrıçılığın təşəkkülü on min illərin uzaqlığından xəbər verir. E.ə. VIII minillikdə-buddizmdən 5 min il əvvəl Tanrıçılıq özünün yüksək inkişaf mərhələsində olmuşdur. Gəmiqaya-Qobustanı bu mərhələnin güzgüsü hesab etmək olar.

Gəmiqaya-Qobustanda işıq At, onun Buraq adı da oxunur. Bu at rəsmlərində Qorat (Qırat) və başqa sözlər də aşkara çıxır. Bu atların od qanadları üstündə Tanrının hüzuruna-şir-işıq-ulduz bürcünə qədər «gedib-qayıdırlar»; bu atların alov qanadlarında insan göydən yerə enir. «Kitabi-Dədə Qorqud» da bu atın «Bıraq» (Buraq-burulan işıq-Burulan Ağ) adı çəkilir. «Koroğlu» dastanında isə Qıratın od qanadları əriyir. **Deməli Buraq-işıq at-Burulan at Tanrıçılığın atributlarındandır.**

Göyə uçuş və qayıdış həm də quş-qartal və müasir kosmonavt görümündə təsvir olunur. Bu həm Gəmiqayada, həm də Qobustanda müşahidə edilir. Hətta kosmosdan skafandrın içində qayıtmaq Qobustançı rəssamın xəyalının məhsulu kimi də maraqlıdır. Gəmiqaya-Qobustan dövründə kosmosa uçuş düşüncəsi, axtarışları olduğunu bu rəsmlər xəbər verir. Fiklimizcə, bu qaya rəsmlərində arzu olunan, ideal uçuşdan söhbət getmişdir.(səh.55-56)

Gəmiqayada «Arabalar» rəsmində üç araba: 1. Yaz arabası, 2. Dünya ağacı arabası, 3. Vaxt arabası-fayton, bunun müasir faytona oxşarlığı, piktoqraf kimi F, A, Y, T, O, N işarələrinin kombinə edilməsindən yaradılması heyrət doğurur. (səh.233).Doğrudan da yəni bu dərəcədə müasirlik? - Amma Tutanxamonun bəzəkli hökmdar-firon taxtı da 4000 il yaşı olmaqla tam müasir görümdədir.



Yazın, həyatın, doğumun simvolu :Keçinin beli ilə buynuzları arasında, Ana bətnində- yumurtalıqda embrionun -körpənin bir ayağı müşahidə edilir. (Gəmiqaya)



Buradan baxılsın

Simvolik Həyat-Doğum ağacında (sağ və solda) iki yumurtalıqda embrionlar müşahidə edilir, sağda həm də ideal insan ayağı və b. obrazlar. (Gəmiqaya)

YUMURTALAR

Gəmiqayada doğum ağacı.

1



2

1.Şəkil. Qoca müdrik deyir: Bütün canlı varlıq yumurtada-yumurtalıqda yetişir və doğulur (Şumerdə)
2.Şəkil. "Ay Ana" - simvolik yumurta şəklində. (Gəmiqaya)



Keçi Tanrıçılıqın atributudur, sürünün önündə getməsi ilə Yaz çiçəyi-Novruzgülü timsalında təsvir edilmişdir, başında tac var. (Şumerdə)

Buradan baxılsın

Gənc ana, bətnində-yumurtalıqda yetişən körpə və onun keçdiyi təkamül prosesi haqqında düşünür. (Gəmiqaya)



Tanrıçılıq inamı ilə körpə, ana bətnində, 10-cu ayın içində inkişafını başa vurur. Ana və ata bu ayların qayğıları ilə yaşayırlar. (Mayya-Qədim Türk qəbiləsi. Amerika.)



1.Şəkil. Tanrı ox atdı və Kainatı yaratdı. (Gəmiqaya)
2.Şəkil. Tanrı Atanın obrazı. (Qobustan)



Tanrıçılığa görə ilk partlayışla yaranmış Kainatda Ağ yumrular: nəhəng "yumurta" - planetlər , ulduz sistemləri və bütün canlıların işarələri - kodları kimi düşünülmüşdür. Kainatın mərkəzi - İşıq -İşir-Şir bürcüdür.(Gəmiqaya)



1.Şəkil. Tanrı kainatı yaratdı. (Peru. Amerika. Keçua-Keçili- türk qəbiləsinin Tanrıçılıq inamınca).
2.Şəkil. Kainatın, günəş sistemlərinin, yer kürəsinin və yerdə həyatın yaranması. (Gəmiqaya)





1. Şəkil. Tanrı ox atmaqla kainatı yaradır (Şumerdə);
2.Şəkil. Müasir elm ilk partlayış nəzəriyyəsini bu şəkildə təsvir edir.



Piktoqraflar. 1. Şəkil. Tanrı 4 ünsür : su , işıq, göy, hava yaratdı.
2.Şəkil. Ata, ana, uşaq, qoruyucu ilan və nəzarətçi fələk; İnsan çarxı fələyin nəzərəti altındadır; 3. Doğum ağacı (Gəmiqaya)



Gəmiqayada maral hekayəsi.



1. Şəkil. Ovçuya verilən cəza: Onun bir ayağı kəsilib çiyninə qoyulmuşdur. (Gəmiqaya)

2. Şəkil. Gülümsəyən Boz qurd İnsan ayağı ilə .(Qobustan)



Dinc qoyun - müdrik dişi Boz qurd; onun hər döşü bir anadır və körpələr onu əmirlər.(Qobustan)



Dişi Boz qurd 7,14və 28 gecəlik iki Ay arasında, yallı gedən 14 adam həm də - xalq bütövlüyünün rəmzidir, 1-ci sıranın önündə 15 - ci adam başçıdır. (Qobustan)

Aşina gözəl

Dişi Boz qurdun- Aşinaya-gözəl qadına çevrilməsi: o, Boz qurd ikən balığa, inəyə, quşa, nəhayət qadına çevrilir. Fraqmnetlərə bax. (Qobustan)



Dişi Boz qurdun gözəl qadına çevrilməsi fraqmentlərdə əks olunmuşdur.



1. Şəkil. Qobustandakı Dişi Boz Qurdun "Qurd ürəkli" oğlu qədim Misirdə təhriflə "Qurd başlı" kimi iqtibas edilmişdir.
2. Şəkil. Dişi Boz qurd əfsanəsi İtaliyada təhriflə adi dişi canavar kimi iqtibas edilmişdir; hər iki abidə ideallaşdırmadan uzaqdır.



İdeal insan ayağı: Adak: kişi ayağı qadın ayağına birləşdirilmiş -qadak edilmişdir (Gəmiqaya)

Dişi Boz qurd insanı xilas edir, insan ayağı Boz qurdun belində simvoldur. (Yandan da baxılsın). (Gəmiqaya)







İnsan ayağı: fraqmentlər. (yuxarıdan aşağı) 1. Gəmiqaya, 2. Qobustan, 3. Şumer



Şəkillərdə: İnsanın ürəyi öz yumruqu böyüklükdədir, simvolik ana bətini və "9" rəqəmi körpənin doğulacaqından xəbər verir, insan ayaqları ölçü vahidləri kimi təqdim olunur.Keçi deyir: Yaz gəldi (Gəmiqaya)

Uçmaq arzusu: İnsan göyə "uçduğu" məqamda. (Qobustan)

İnsan "kosmonavt" geyimində göydən yerə "qayıtdığı" məqamda (Qobustan)

II FƏSİL

Gəmiqaya - Qobustan hansı rəsmlərdən başlanır?

3.1.Tanrının obrazı

Qobustanda, Yazılı təpədə, Böyükdaş dağında ilkin tədqiqat zamanı 2 daş lövhə bir lövhə kimi fotoya alınmışdır. Sonra lövhənin sağdakı, daha geniş hissəsi "29"-cu, soldakı hissə "66"-cı saylarla işarələnib. Bütövlükdə Qobustanın bütün qaya lövhələri (yəni təsvirləri) onların üzərində çapılıb qazılmış rəqəmlərlə adlandırılıb. Elə bu rəqəm yerləri təsvirlərdə qara yamağa - sağalmaz yaraya çevrilib.

Bir qədər sonra fotoya baxan müəlliflər - elə fotosuz da, soldakı - "66"-cı lövhədə "heç nə olmadığı" qənaətinə gəlib və onun üstündən iri dəmir lövhə vurublar, təqribən 1950-ci illərdə lövhəni: Qayanın köksünə 4 yerdən iri dəmir mıxla bərkidiblər. Lövhədə 29-cu daşdakı təsvirlərə, ümumi halda bütün Qobustan rəsmlərinə tarixi yaş veriblər:

"E.Ə. VIII-VII minilliklər". Bu sözlər 3 dildə: rus, Azərbaycan, ingilis dillərində yazılıb.(səh.305)

Dəmir lövhə 1991-ci ildə sirrli surətdə yoxa çıxıb. Lövhəni çıxarmaq çətin olduğuna görə, onu balta ilə çapıblar. Yəni, burada açıq cinayət törədilib. 10 min illik yolu salamat gəlib çatan bu daş lövhə XX əsrin sonunda qanlı əməlin qurbanı olub. Onun təsvirlə dolu yaxası nadancasına qazılıb, çapılıb tökülüb, təsvirlər itirilib.

Biz köhnə - "66" -cı lövhənin 1950-ci ilə aid foto surəti üzərində müşahidə və elmi bərpa işi apardıq və yəqin etdik ki, burada 1 mm boş sahə yoxdur. Bu çox zəngin bir incəsənət əsəri olub. Burada digər təsvirlər arasında qədim rəssam müdrik kişi simasında Tanrının obrazını yaratmışdır. Bu əsərə həm də yuxarıdan - üstdən aşağı baxılmalıdır ki, o müdrik kişi obrazı görünsün. Bunu yalnız bir halda: əsərin surətini - fotosunu çıxarıb ona əks istiqamətdən baxmaqla görmək olar. Qobustanda və Gəmiqayada bir neçə rəsm bu üsulla yaradılıb. "Tanrı" rəsmləri bu üsulun xüsusi qaydası - tələbi ilə seçilir, o məqsədlə ki, Tanrı hamını görür, amma heç kim Tanrını görə bilməz.

Qobustanda "daş kətan" üstündə yaradılmış obrazlardan daha bir neçəsi yenə də tərsinə baxmaqla görünür. "Gənc şair" və "musiqiçilərin rəhbəri" əsərlərində olduğu kimi.(səh.119) Deməli, "Tərsinə üsul" təkcə Tanrı obrazı üçün deyil.

Bu üsul müasir rəssamlıqda müşahidə edilmir.

Gəmiqaya - Qobustan rəsmləri bərpa ediləndən sonra təqdim edilməlidir. Dahi rus türkoloqu V.V. Radlov Orxon-Yenisey abidələrinin foto surəti üzərində elmi bərpa işi aparır, sonra təqdim edir, çapa verirdi . Təəssüf ki, bu təcrübə unudulmuşdur.

"66-cı və 29-cu" rəsmlər əslində qədim rəssam tərəfindən bir lövhə kimi düşünülüb. "Heç kimin görə bilmədiyi", amma yaratdıqlarının hamısını görən Tanrı sanki mehriban ATA nəvazişi ilə, onlara deyir: **"Mən Sizi yaratdım. Sizə həyat verdim, ağıl, istedad və gözəllik verdim. Sizə çörək, kitab və 32 hərf və dəyişilməz qanunlar göndərdim ki, bəxş etdiyim ömür payınızı yaşayasınız və mənim Tanrı səltənətimi - ucsuz-bucaqsız kainatımı düz əməllərinizlə şərəfləndirəsiniz".(səh.83)**

"Tanrının obrazı" lövhəsində (66-cı lövhə) şiş papaqlı, əzəmətli, bir qədər zəhmli döyüşçü - sərkərdə surəti də yaradılmışdır. Onun ətrafında Tanrıçılığın atributları: şir: buğa, Boz qurd və Boz qurdun yanında körpə ayağının təsviri görünür. Müdrik kişi obrazının arxasında Tanrıqız - Günəşin qızı rəsm edilmişdir. **Bu rəsmin bütün parametrləri göstərir ki, Gəmiqaya - Qobustan məhz həmin lövhədən başlanır. Yəni, bu heç də "66-cı" yox, Gəmiqaya - Qobustanın 1-ci - 1 saylı rəsmidir.** Həmin rəsmin çapılıb tökülmüş hissələrini bərpa etmək mümkün olması da, salamat dövrünün fotosurəti əsasında onun modelini yaratmaq mümkündür.

Gəminin fonunda 2 insan silueti: kişi və qadın fiquru, 32 işarə ilə tamlıq - ahəngdarlıq yaradır (Bu kişi və qadın siluetləri Səma gəmisinin (səh.106) estamp surətində saxlanılmışdır. Fotosurət isə bəlkə də hansı arxivdəsə saxlanılır).

Səma gəmisinin üstündəki işarələr belə fərqləndirilib: 23 böyük, 9 kiçik işarə. **İ.Cəfərzadə böyük işarələri "23 kişi" adlandırıb.** (4.65). 23 böyük işarə - 23 kişi - 23 samit səs; 9 kiçik işarə isə: 9 qadın - 9 sait səsdir. Tanrı Ata, insanı cüt yaratdı: kişi və qadın; onları yerə 32 səsli əlifba ilə birlikdə göndərdi. Bu "32"ni sonralar dahi Nəsimi çox tərifləyəcək.

Qoşa insan fiquru səma gəmisindən "düsüb" göyün ortasına enir: orada - 29-cu lövhədə qadın və kişi bir-birini "axtarır". Nəhayət, qoşa insan fiquru Yer planetində, Günəşin daha çox şəfəq saçdığı ərazidə - ölkədə görüşürlər, bir-birini "tapırlar".

29-cu lövhədə 2 insan - 6 insan kimi təqdim edilir. Məzmun isə məhz 2 insan təsvirindən söhbət ketdiyini aşkar edir. Sonra doğum - döl başlanır, qadın və kişi fiqurlarının ayaqları ətrafında gələcək uşaqların siluetləri görünür.

Gəmidən yuxarıda qucağı uşaqlı ana Tanrı Qızdan - Hümay Anadan körpəsi və özü üçün mərhəmət diləyir. Gəmidən aşağıda isə kitab rəsmi sübut edir ki, Tanrıçılığın öz müqəddəs Kitabı olub. (Bir qədər sonra şərh ediləcək).

Bu lövhə və bundan sonra gələn "Həyatın yenidən doğulması, Yaz - Survan - Novruz bayramı" səhnəsi Gəmiqaya - Qobustan rəsmlərinin bir növ PROQRAMIDIR. Bütün Azərbaycan və bütün müasir türk elləri ərazisində üzə çıxarılan qaya, daş rəsmlərində QOBUSTANın, 29-cu və bundan sonra gələn 47, 48-ci və 78-ci lövhələrdəki təsvirlərin, hadisələrin - ideyanın müxtəlif istiqamətlərdən, müxtəlif yanaşmalarla açımı verilmişdir.

Gəmiqaya - Qobustan qaya təsvirləri vahid bir kompozisiyanı əhatə edir. Yəni bunlar ardıcıl rəsm edilmiş vahid bir məzmun, vahid ideologiyadır. Bu rəsmlər həmin prinsipə uyğun sıralanmalı - nömrələnməli və adlandırılmalıdır.

Qeyd edək ki, bəzi rəsmlərə rəssam özü ad verib. Məsələn Qobustanda "As Ana", "Ana ev", "Söz", "Survan", "Us"(huş-agıl), Gəmiqayada "Utu", "Tum", "Muzab", "Ikə" (ekiz), "2 ekiz" və s. buna misal ola bilər.

3.2 NUHUN GƏMİSİNİN RƏSMLƏRİ

«Naxçıvanın özünəməxsus təbiəti , təbii sərvətləri, torpağı, təbii abidələri də təəssüf olsun ki, indiyə qədər lazımi dərəcədə öyrənilməyib, bəlkə də düz olardı deyim ki, heç öyrənilməyibdir. Bunlara, mənim irəli sürdüyüm məsələlərin öyrənilməsinə böyük ehtiyac var. Ona görə ki, Naxçıvan Azərbaycan xalqının tarixində, ümumiyyətlə, Azərbaycan anlayışında çox böyük yer tutur».

HEYDƏR ƏLİYEV

«Qədim Türk dünyası mədəniyyəti üçün səciyyəvi olan qayaüstü rəsmləri özündə əks etdirən Gəmiqaya abidələri Azərbaycan xalqının ən qədim tarixinin və mənəvi mədəniyyətinin öyrənilməsi üçün xəzinədir».

Vasif TALIBOV

Dünyada qaya rəsmləri çoxdur. Nuhun gəmisi və böyük daşqınla bağlı təsvirlər yalnız Naxçıvanda-Gəmiqayada və Bakı yaxınlığında-Qobustanda əks olunmuşdur.

Nuhun tufanı ilə əlaqədar sonuncu, ümumi elmi fikir belədir: **«Nuh əfsanəsi Şumer mənşəlidir».** (25.677). Akademik İsa Həbibbəyli yazır ki, Nuh əfsanəsi bütün dünyaya yayılmışdır (26). Yer üzündə elə bir xalq yoxdur ki, bu əfsanədən xəbərsiz qalsın və Nuhu öz babası hesab etməsin. İnsan yaşayan 5 qitədə, hər ölkədə, hətta Sakit okean adalarında «Nuhun gəmisinin dayandığı yer»-dağ, təpə nişan verilir: Avropada, Asiyada, Amerikada və Avstraliyada. Bir sözlə, Nuhun gəmisinin yan aldığı dağlar-Gəmiqayalar saysız qədər çoxdur. Bibliyaçılar daha çox Türkiyə ərazisindəki Ağrı dağını, müsəlmanlar isə Suriyadakı Cudi dağını «Nuhun dayanacağı» hesab edirlər (25.672).

Naxçıvandan-Gəmiqayadan söhbət düşəndə isə elmi mübahisələr siyasi niyyətlərlə toqquşur. Ermənilərin Naxçıvana işğalçı nəzəri ilə baxmaqları Nuh əfsanəsinin «bu yalnız erməni əfsanəsidir»-uydurmasını da meydana gətirmişdir. Ermənilərə havadarlıq edən bəzi rus müəllifləri bununla əlaqədar

«Bibliya Nuhu», «Bibliya Nuhunun qəbrinin Naxçıvanda tapılması», «Naxçıvanda-Gəmiqayada Bibliya Nuhuna («Bibleyskiy Noy») heykəl-abidə qoyulması» haqqında səs-küy qaldırmışdılar. Bu niyyətlə də 2005-ci ilin may-avqust aylarında Naxçıvana rus familiyalı erməni ekspedisiyasının səfəri təşkil edilməli idi. Bu kor niyyətin qarşısı alındı. Amma «Nuh yalnız erməni əfsanəsidir»-deyənlərin uydurması Azərbaycanda bəzi müəllifləri çaşdırmışdır. «Bir halda ki, Nuh yalnız erməni əfsanəsidir, deməlibu əfsanədən- bu əfsanənin Naxçıvanla hər hansı əlaqəsindən imtina edilməlidir» (28).

Bu isə Naxçıvanı ermənidən qorumaq vasitəsi deyil. Hər xalqın Nuhla bağlı öz əfsanəsi var ikən burada «yalnız erməni əfsanəsi»nə ehtiyac qalmır. Azərbaycan xalqının yaratdığı Nuh əfsanəsi başqa etnoslarla yanaşı ermənilər tərəfindən də iqtibas edilmişdir. Buna görə Nuhun tufanı və Gəmiqaya haqqında əfsanələrimizdən və Gəmiqayadan-bu doğma tarixi abidəmizdən imtina etməyə əsas yoxdur, "Nuhun dövründə" nə erməni var idi, nə də Ermənistan. Nuhun əfsanəsi də ermənivə bəhanə üçün lazım olub. Erməni Naxçıvana işğalçı nəzəri ilə baxır. Ermənin bütün oyunlarının əsasında bu çirkin niyyət dayanır.

Dünyada heç bir ərazi, ölkə Nuhun tufanı əfsanəsinə Azərbaycan qədər sıx bağlı deyil. Aparılan tədqiqatlar bu tarixi haqqı sübuta yetirir.

Nuhun tufanını, böyük daşqını «dünya daşqını» kimi xəbər verən ilk yazılı mənbə azı 5000 il yaşı olan Şumer dastanı «Bilqamıs»dır (29). «Bilqamıs»dan əvvəl isə heç bir yazı yoxdur.

Belə yazı yalnız Azərbaycanda-Gəmiqaya və Qobustanda ilk dəfə bu sətirlərin müəllifi tərəfindən aşkar olunmuşdur.

Nuhun həm də münəccim-astronom olduğu haqqında məlumatlar da yayılmışdır. Bunlar da "Bilqamıs" da yoxdur Qobustandakı 23-cü rəsm sübut edir ki, həmin məlumatların mənbəyi Azərbaycandır. 23-cü rəsmdə tufanı qarşılamağa hazırlaşan adamlar göyə turşlanmış xüsusi astronomik cihazlarla ulduzları müşahidə edirlər. (səh.86)

Bəzi məqamlar diqqəti çəkir:

1. Nuhun Gəmisinin qaya rəsmləri. «Bilqamıs dastanı»ndakı təsvirlərə uyğun gəlir. Gəminin eni, uzunu, hündürlüyü haqqında «Bilqamıs» belə yazır:

«Sən bütün canlıları yığıb gəminə yüklə,
Qoy dördkünc olsun sənin
Düzəldəcəyin gəmi,
Eni də uzununa qoy tən olsun, düz gəlsin» (29.87)

Qobustandakı rəsm «Bilqamıs»dakı sözləri əyani şəkildə təsdiq edir. Yəni «Bilqamıs» yazır, Qobustan isə əyani olaraq təqdim edir, göstərir. Bu, Qobustanda eni uzununa bərabər olan, dördkünc, nəhəng gəmi rəsmidir.(səh.86)

2. Nuhun gəmisinin «sualtı gəmi» forması Gəmiqayadakı rəsmlərdə aydın görünür. «Bilqamıs»da isə bu formadan söhbət getmir.

3. Gəmidə insanların fəryad etmələri, Tanrını, Utunu—Günəşi, Kitabı, Tanrıçılığın digər atributlarını: İşığı-Şiri, Yazın ilk soraqçısı-Keçini və s. köməyə çağırmağı da «Bilqamıs»da yoxdur; Gəmiqayadakı rəsmdə isə bunlar aydın nəzərə çatdırılır.(səh.88-89) Gəmiqayada «Nuhun gəmisi» kimi seçdiyimiz rəsmlərin, dünyanı daşqından xilas etmiş əfsanəvi gəminin rəsmləri olduğunu öncə onların kompozisiyası-məzmunu: əlamətləri ilə təsdiq edilir. Gəmiqayada eyni gəminin 2 məqamda təsviri xüsusilə düşündürücüdür.

1-ci məqam: Gəmi fəlakət anındadır. Şər qüvvə timsalında ağır, yumru daş gəmini okeanın dibinə sıxır; Gəminin üstü-beli hava borusunun yanından içəriyə doğru əyilmişdir. Bu məqamda gəminin 3 təbəqəyə-yarusa bölündüyü aydın seçilir. Gəminin üstündə bir neçə yerdə «Gün» sözü oxunur; Saçları dağılmış qadın və kişi haray çəkir, fəryad edirlər. Daha iki rəsmi də bu mövzuya aid etmək olar. 1-ci də: sahilsiz okeanda, yerlə göy arasında dalğaların şahə qalxması fəlakət anlarını xatırladır; 2-ci rəsmdə: Okeanın üstündə, qaranlıq səmada qəzəbli şimşəklər çaxır. 4000 metr hündürlükdə dağ zirvəsində dəniz mənzərəsi daşqından-fəlakətdən xəbər verir.(səh.93)

2-ci məqam: Tufan çəkiləndən və Qaranquş «Quru yer» gördüyünü xəbər gətirəndən sonra gəmi sakit və yorğun görünür; Qaranquş fiquru gəminin üstündə təsvir edilmişdir. O rəsmdən bilinir ki, artıq tufan sovuşmuş, okean geri çəkilməyə başlamışdır.

«Bilqamıs» dastanında bu məqam da xatırlanmır. Deməli, Naxçıvanda-Gəmiqayada vulkan daşlarına həkk olunan rəsmlər «Bilqamıs»dan daha qədim dövrlərə aiddir. Gəmiqaya və Qobustan «Bilqamıs»ı yox, «Bilqamıs» Gəmiqaya və Qobustanı təkrar edir. Müqayisə edək:

Nuhun adı:

1. **«Bilqamıs»da-Utnapişti, (29.86).**
2. **Bibliyada-Noy, (30.6).**
3. **Quranda-Nuh, (25).**
4. **Naxçıvanda-Gəmiqayada-Gəmi rəsmlərinin üstünə Gün və Ut (Utu) yazılmışdır. Məhz «Gün» adı sonrakı adların (Utnapişti, Noy, Nuh) məzmunu üçün baş koddur.**

Nuhun qədim "Nooh" şəkli də (135.262.) eyni "Gün" sözünün törəməsidir

«Bilqamıs»da Utnapişti, Tanrının məsləhəti ilə nəhəng gəmi düzəldib. İnsan nəslini və bütün canlı aləmi xilas etdiyinə görə mükafat olaraq əbədi ömür-ölməzlik qazanır və tanrıların cərgəsinə daxil edilir: Utnapişti adam idi,

İndən belə Tanrılara tay olacaq!

O, əbədi sağ qalacaq,

Ulu-ulu çaylar üstə yurd salacaq! (29.93).(*Tərcümə İsmayıl Ömərəoğlunundur*)

Bu, Tanrıçılığın Yaradılış fəlsəfəsindən gələn ideyadır: ölməzlik yalnız Tanrıya və Tanrının qərarı ilə onun səma elçilərinə məxsusdur. **«Utnapişti» sözündə Günəşin Od-Ot-Ut: Utu adı baş koddur**. Günəş-Utu: Tanrı qüdrətinin baş təmsilçisi kimi Od-Tanrı hesab edilmişdir. Utnapişti: Utda-Odda bişdi, Oda, işığa çevrildi anlamındadır. «Noy» və «Nuh» isə birbaşa «Gün» sözünün törəməsidir. Bunu etimoloji açım təsdiq edir:

Gün-Nüg: Nuq-Nuh;

Gün-Nüg-Nuq: Nuy-Noy

Bu təhlil söyləməyə əsas verir ki, müqəddəs kitablara «Bilqamıs»dan başqa, ikinci mənbədən də məlumat daxil olmuşdur. Sözü gedən gəmi rəsmləri sübut edir ki, həmin mənbə Azərbaycandır.

Nuhun gəmisinin «üç yaruslu» olması Bibliyada belə xatırlanır: «İ v kovçeqe sdelay s boku yeqo; Ustroy v nem nicnee, vtoroye i tretye (cilye)». («və gəmidə aşağı, ikinci və üçüncü yaşayış sahəsi ayır-qur»). (30.6).

«Bilqamıs»da xatırlanmayan bu fakt Gəmiqayada fəlakət məqamı təsvir edilən gəmi rəsmində aydın göstərilmişdir. Bir daha xatırladaq ki, dünyadakı təqribən 20-dək «Gəmiqaya»dan yalnız birində-yalnız Naxçıvanda belə gəmi rəsmləri var. «Bilqamıs»da insan və yer adlarının başqa «Gəmiqayalı» ölkələrlə yox, yalnız Azərbaycanla səslənməsi diqqətdən kənarda qala bilməz.

Beləliklə Nuhun tufanı mövzusu 3 məqamda rəsm edilmişdir:

1. Tufan ərəfəsində (Qobustanda)
2. Tufan başlandı (Gəmiqayada)
3. Tufan sakitləşdi (Gəmiqayada)

Ut-Napiştinin ölkəsi; Ut-Lar: Odlar ölkəsi-Azərbaycan.

Qaya təsvirlərində, xalçalarda, xüsusən də fəlakətə düşən gəmi rəsmlərində «Utu» piktoqrafının aydın və iri ölçüdə aşkarlanması bu gəmilərin məhz Utunun-Utnapiştinin-Noyun-Nuhun gəmisinin rəsmləri olduğunu söyləməyə əsas verir. Onu da təsdiq edir ki, tək Naxçıvan deyil, bütün Azərbaycan Nuhun-Utunun-Od Tanrının ölkəsi kimi Utlar-Odlar: Tanrıçılar ölkəsidir.

Yüz məntiqi fikir bir qaya rəsmini əvəz edə bilməz. Gəmiqaya-Qobustanda, Təbriz və Urmiya ətrafında, Kəlbəcərdə və Zaqatalada, Şamaxda və Pirallahı adasında, Mingəçevirdə və Zəngilanda, Azərbaycan xalçalarında, saxsı və metal qablar üzərində saysız qədər "Utu" (Ut) sözü "Utular-Odlar: Tanrıçılar yurdu"nun kodlarıdır.

3.3. ULDUZLAR QƏDƏR UZAQ

Böyük daşqın və Nuhun gəmisi əfsanəsi bizdən ulduzlar qədər uzaqdır. Ulduzları hamı görür və hamı özününkü bilir. Həm də heç kim ulduzlara sahib çıxa, «o yalnız mənim ulduzumdur»-deyə bilmir. Nuhun əfsanəsi «yerə bağlı ulduz» timsalında hamının ona şərik çıxmasına səbəb olmuşdur. Amma bu ulduz-əfsanə bütün hallarda Yer kürəsinin məhdud bir dairəsinə-ərazisinə bağlıdır. O əraziyə ki, həm yaxın (Bilqamıs, Bibliya, Quran), həm də uzaq mənbələrlə (Gəmiqaya -Qobustan rəsmləri) bir-birini təsdiq edir. Dünyada heç bir ərazi bu təsdiqə Azərbaycan qədər yaxın deyil.

«Dünya daşqını» deyiləndə çox da inandırmır; fikrimizcə, onu məhəlli daşqın kimi «Böyük daşqın» adlandırmaq olar. Bu daşqın nə vaxt olub? 6-7 min ildən 13 min ilə qədər yazırlar. (31.5) «Dünya daşqını» adlandıran «Bilqamıs» dastanında tarix, fəlakətin yaşı söhbətləri yoxdur. Amma dastanda bir misra diqqəti çəkir:

«Yer üzü çat-çat olub sınıq küpəyə döndü». (29.90).

Burada Yerin kürə şəklində olduğu və məşum fəlakət nəticəsində «çat-çat olub, sınıq küpəyə dönməsi»-bütöv ikən materiklərə, qitələrə ayrılması xatırlanır. Burada həqiqətən də bütün dünyanın bir zaman başdan-başa sulara qərq olmasından söhbət gedir. Rus alimi A.E.Rozanov belə bir fəlakətin-bütöv Yer kürəsinin sınıq küpəyə dönərək, qitələrə ayrılmasını və bir müddət qitələrin dünya okeanında üzərək yerlərini dəyişməsini əsaslandımağa çalışır və bunun 600 milyon il əvvəl baş verdiyini yazır. (32.46). Deməli dünya daşqını haqqında əfsanənin kökü, ilk sorağı 600 milyon il uzaqdan gəlir.

Biz bu misalın geniş təhlilinə ehtiyac görmürük. «Bilqamıs»da və ondan xeyli əvvəl Gəmiqaya və Qobustanda xatırlanan daşqın 6-7 min ildən 13 min ilə qədər dövrü əhatə edən məhəlli daşqın ola bilərdi. Bu səbəbdən də onu «dünya daşqını» yox, «böyük daşqın» adlandırmaq lazım gəlir. Gəmiqaya və Qobustan bəlkə də məhz sözügedən böyük daşqını yaddaşında saxlamışdır.

Nuhun gəmisinin şəkilləri Gəmiqayada «Gəmiqaya» rəsmi ilə də təsdiq olunur. Belə ki, Yer üzündə yalnız Naxçıvandakı-Gəmiqaya dağ zirvəsinin kənardan baxanda gəmiyə oxşarı var.

Ulu öndər Heydər Əliyev Gəmiqaya haqqında demişdir: «Bu, bildiyimiz kimi, həm təbiətin böyük bir abidəsidir, eyni zamanda insan yaradıcılığının abidəsidir. Bu abidə Azərbaycanındır. Azərbaycanın tarixini əks etdirən abidədir. Amma onu öyrənməkdə biz passivik. Keçmişdə, sovet dövründə passiv olmusunuz». (1).

Ümummilli liderimiz daha sonra demişdir: «Müstəqilliyi möhkəmləndirmək üçün xalqımızın, millətimizin qədim tarixini, keçdiyi yolu elmi surətdə tədqiq edib əsərlər, illüstrativ materiallar, kino-telelentlər yarat-

maq, bunu həm öz xalqımıza, həm də bütün dünya xalqlarına göstərmək lazımdır». (1).

Dahi rəhbərin vəsiyyətindən gec də olsa hamı düzgün, əməli nəticə çıxarmalıdır.

Bəzi müəlliflər üçün yaddaş:

«-Naxçıvan» sözünün mənası nədir?»-sualına «-Naxçıvan naxların vətənidir»-cavabınız kökündən səhvdir.

Sovet dövrünün ensklopediyalarında belə yazılıb: Naxlar Qafqazdilli xalqlara aiddir; Naxlar erməni feodalları olubdur. (33).

1. **Naxçıvan heç vaxt bu naxlardan heç birinin vətəni olmayıb.** Bunu təsdiq edən heç bir tarixi mənbə yoxdur. Bu sırf uydurmadır.

Naxçıvanı "naxların vətəni" adlandıranlar bəs, Gəmiqaya rəsmilərini kimə aid edirlər?

2. Hər toponimik adın ilk şəkli əsasdır.

«Naxçıvan» adının ilk variantı «Naksuana»dır. (6.3). Bu 2000 il əvvəlki mənbədə yazılmışdır və tarixçilərimiz bunu dönə-dönə misal çəkmişlər.

«Naksuana»da sözün «nak» kökündəki «k» səsini heç bir səbəb-sübut-əsas olmadan «x» səsi ilə əvəz etmək nöqsandır.

Naxçıvan-Gəmiqaya rəsmlərində Suana, Aksuana, Akşta, Aksu, Akuştanaq-sözləri «Naksuana»nın «Aksuana» variantının ola bilməsinə əsas verir. Məhz "Aksuana"dan sonrakı Aksuban, s-ç əvəzlənməsi ilə Akçıban, nəhayət Nakçıban adı meydana gələ bilərdi. Akçıban: Ağçı: Tanrıçı mənası ilə aydınlaşır. AK-AĞ: Od Tanrı kimi Günəşin adlarındandır;

«Gün» sözünün etimoloji açımına bir daha diqqət yetirək:

Gün-Nüg-Nuq-Nuk: Nukçuban;

Gün-Nüg-Nuq-Nuh: Nuhçuban;

Gün-Nüg-Nuq-Naq-Nak: Nakçıban.

«Xan» sözünün ilki də «Gün» sözündən törəmiş «Kan» olub; sözdə K-X əvəzlənməsi bu şəkildə, yəni qanunauyğunluq əsasında baş vermişdir. «Nax, naxlar» uydurmasının isə bura aidiliyi yoxdur.

"Naxçıvan" bütün hallarda «Gün» sözünə bağlıdır. «Nuh» da «Gün» sözündən törəmişdir. Əbülfəz Hüseyni də "Nuh" sözünün "Nuq-Nüg-Gün" kodundan olduğunu yəqin etmişdir. ("Şərq qapısı" 1986.30.01.)

Metatezaya bir daha diqqət yetirək:

Gün-Nüg: «Nügədi» kənd adı və bu toponimin «Nüvədi», «Nüydü» şəkilləri-Quba, Ağsu, İsmayıllı, Lənkəran və Zəngilan rayonlarında;

Gün-Kun-Nuk: «Nukus» şəhəri, Özbəkistanda Qaraqalpaq Muxtar Respublikasının paytaxtı; Nuk-us; Nuk-suana: Naksuana!-Naksuban-Naxçıvan!

Beləliklə, «Naxçıvan» sözünün mənası haqqında son 200 ildən bəri davam edən mübahisələrə nəhayət nöqtə qoyuldu. (Siyasi mübahisələr isə həmişə olacaq).

Nəhayət, bu qənaətə gəlirik ki, Dünya daşqını və Nuhun gəmisi ulduzlar qədər uzaq bir əfsanədir. Gəmiqaya və Qobustanda, daha sonra «Bilqamıs»da bu əfsanənin təsvir edilməsi onu öncə Azərbaycan əfsanəsi adlandırmağa əsas verir. Azərbaycandan kənara bu əfsanənin nağıllaşmış variantları yayılmışdır.

Azərbaycan qayalarında, daşlarında və xalçalarında geniş miqyasda əks olunmuş-yazılmış «Utu» sözü öncə Od Tanrının: Tanrının yaratdığı Tanrının-Günəşin adıdır. Qədim azərbaycanlı (protoazərbaycanlı-prototürk) və Azərbaycanın müxtəlif etnoslardan ibarət bütün qədim əhalisi özlərini, «Utuçular» məzmunu ilə: «Tanrıçılar» adlandırmış, ölkə-ərazi də bununla əlaqədar: Utuçular-Odlar ölkəsi: Tanrıçılar ölkəsi-Azərbaycanın ən qədim adlarından biri kimi bu günümüzədək gəlib çatmışdır.

Nəticə isə belədir:

1. Dünyanı fəlakətdən-daşqından xilas etmiş müdrik kişi-simvolik mənada düşünülmüş obrazdır. Onun xilaskar gəmisi də-simvolik gəmidir. Gəmiqaya dağının özü də təbii-coğrafi quruluşu ilə-simvolik gəmiyə bənzədilmişdir. Gəmiqayada Nuhun gəmisi rəsmləri ilə yanaşı ideal «Gəmiqaya» rəsmi də işıq işarəsi «I» ilə nişanlanmışdır. Simvolik üç təbəqəli (yaruslu) gəmi təsvirinin üstündə də, hətta bu gün tam aydın oxunan «Utu» sözü yazılmışdır. (Gün, Tanrı, Doğnak (doğanak) piktoqrafları ilə yanaşı).

«Bilqamıs»da həmin simvolik müdrik-Utnarpişti, «adam ikən tanrıların cərgəsinə daxil olur»-işıq kimi ölməzlik qazanır. yəgin ki, onun «Ut-na-pişti» adı xilaskar roluna görə yaranmışıdr və bu həmin obrazın ilk adı deyil. İşığa çevrilmiş-tanrılaşmış Utnapişti sonrakı müqəddəs kitablarda peyğəmbərləşdirilmişdir. Bu isə əfsanənin davamı kimi baş verib.

«Utnapişti»də «pişti» komponentini «bişdi» feli kimi düşünmək olar. Burada odda bişmək, oda, işığa çevrilmək anlaşılır. Deməli, Böyük daşqın, xalqı o daşqından xilas etmiş gəmi və o gəminin sahibi-kapitanı Utnapişti (Gün-Nüg-Nuq-Noy-Nuh) Azərbaycanda yaradılmış əfsanədir; Fikrimizcə, bu əfsanənin mif kodu Yer kürəsinin milyon illər ərzində keçdiyi təkamül prosesindən qidalanmışdır.

Gəmiqaya-Qobustanın başqa rəsmləri ilə yanaşı, Nuhun gəmisi mövzusunda rəsmləri də Tanrıçılıq ideologiyasının yaddaş şifrələridir. Bütün mövcud dinlər və dünya xalqlarının folklor süjetlərinin çoxu Tanrıçılıqdan iqtibasla yaradılmışdır. Nuhun tufanı əfsanəsinin mənimsənilməsi də bu iqtibasın nəticəsidir.

2. Akademik İsa Həbibbəyli yazır ki, Gəmiqaya bir neçə cəhətdən Həzrəti Nuh peyğəmbərin gəmisi və dünya tufanı əfsanəsi ilə bağlıdır. Əvvəla, dağın adında əfsanəvi Gəminin yerə-dağa çatması, qovuşması fikri öz əksini tapmışdır. İkincisi, burada gəmi təsvirləri də bu yerin məlum əfsanə ilə səsləşdiyini göstərir. Bu rəsmlərdə tələtüm, çalxanma elementlərinin mövcudluğu da adı çəkilən məkanı bir daha Nuh əfsanəsi ilə əsaslandırmağa imkan verir. nəhayət, bu ərazidəki toponimlərdən bəzilərinin Nuh peyğəmbərlə səsləşməsi Gəmiqayanı məşhur əfsanə ilə yaxınlaşdırır. Xüsusən, bizim fikrimizcə, Gəmiqaya ətəklərində «Nəbi yurdu» toponimi birbaşa Nuh peyğəmbərə aiddir. Nəbi yurdu-Huh yurdu; Nuhdaban-Nuhun ayağı dəydiyi yer; Nehrəm-Nuhram-Nuhun ram olduğu-dincəldiyi yer; Nuhəcir-Nuhun, mükafat kimi, dinclik tapdığı yer; (134, 611).

Bəs, Nuh peyğəmbərin nəsli-soyu tarixdə hansı adla tanınmışdır? Fikrimizcə, bu, Gəmiqaya-Qobustanda rast gəldiyimiz Kun-Nuk-Nuh-Hun; Gün-Qun-Kun-Hun kodlarına bağlı Hunqar-Kanqar-Kəngər adlarıdır. Kəngərli dağı, düzü, kəndi, rayonu Naxçıvanda çox qədimlərdən bəllidir. (Macarıstanın qədim adı: Hunqariya-Kanqariya-Kəngəriyyə: Kəngər Ana-Kəngərli nəslin-soyun adını yaşatmaqdadır).

Nəhayət, həm əfsanəvi, həm də tarixi Dədə Qorqud olduğu kimi, həm əfsanəvi, həm də tarixi Nuh da ola bilərdi.

Gəmiqaya qoruq elan edilməlidir. Bu fikrin ilk müəllifi Əbülfəz Hüseynidir. (1986)

"Nuh" sözü Azərbaycanın başqa bölgələrində də izini saxlamışdır. Nuh Nəbi, Nuh dabanı, Nuhəcir, Nuh rəm-Nehrəm, nəhayət Nuh çuban-Naxçıvan adlarına "Nuh Şəki"etnos və yer adı da qoşulur. Zaman keçdikcə Nuh Şəki gah ayrıca Nuxa, gah da Şəki tək işlənmişdir. Nuxa-Nuha aid olan- mənası daşıyır. Yəni Nuh Oğuzları.Bu qədim şəhərimizin ilkin "Nuh Şəki" adını barpa etmək vacibdir.

Yeni Hipoteza

Nuhun tufanı ilə Atlantida fəlakəti eyni dövrdə-12 min il əvvəl baş vermişdir. Alimlər okeanın dibindən piramida (Bermud üçbucağından) və divar qalıqlarının aşkar edildiyini söyləyirlərsə, deməli Atlantida mədəniyyəti də Gəmiqaya Qobustan mədəniyyətinin tərkib hissəsi ola bilərdi. Deməli Gəmiqaya Qobustan mədəniyyətinin öyrənilməsi ümumdünya əhəmiyyətli problemdir.

Dahi bəstəkarlar Üzeyir Hacıbəyovun, Qara Qarayevin, Fikrət Əmirovun, Cahangir Cahangirovun, dahi müğənnilər Bülbülün, Xanın və Yaqub Məmmədovun xatirəsinə.

3.4 MUĞAM - MUSİQİ

Musiqi Gəmiqaya-Qobustan mədəniyyətinin tərkib hissəsi kimi, Tanrıçılığın-Yaradılış ideyasının atributlarından birinə çevrilmişdir.

Elmə ən qədim musiqi alətləri tək qopuz və arfa Cənubi Azərbaycanda, Cığamış şəhər yerindən tapılmış rəsmlərlə bəllidir. Amerika arxeoloqları həmin rəsmləri 1950-ci ildə aşkar etmiş və tapıntının e.ə.VI minilliyə aid olduğunu bildirmişlər (34.6).

Qobustanda isə musiqi alətlərnin rəsmləri həm daha qədim, həm də müxtəlifdir. Bunlar zərb, nəfəsli və simli musiqi alətləridir:

1. Qaval 2. Sur (Survan: Surney) 3.Qopuz (Saz)
4. Ud (Tar) 5.Arfa

Tədqiqatçılar Qobustanda yalnız bir «musiqi aləti»-Qavaldaş haqqında söhbət açmış, onu hətta «Azərbaycan xalqının milli musiqi aləti» kimi təqdim etmişlər (5.17).

Əslində Qavaldaş, sıxlığı az olan, bu səbəbdən də içərisindən hava keçən kiçik qayadır. Onu daşla, hətta yumruqla vuranda qaval kimi səs çıxarır. Buna görə də tədqiqatçılar özləri onu «qavaldaş» adlandırmışlar.

QAVAL

Qobustanda rəsmlərindən birində (35.15) əlində qaval tutmuş adam güzgü ilə 1 keçini 2 keçiyə «çevirə bilir», həm də güzgüdən qaval kimi istifadə edir: əli ilə qaval-güzgünü döyməklə «2 keçini» oynadır. Rəsmdə üz-üzə dayanmış 2 keçinin əslində 1 keçi olduğunu onların görünən ölçülərinin bir-birinə uyğun gəlməsi də sübuta yetirilir.(səh.94)

SUR-SURVAN (SURNEY)

Bu musiqi alətinin fiquru-şəkli S və u fonetik işarələrinin (-«Su» sözünün) və "P", "BAH" işarələrinin kombinə edilməsindən yaradılmışdır.(səh.94)

Həmin fiqur davamlı şəkildə SURVAN piktoqrafına çevrilmişdir. Bu piktoqraf: müasir şeypura oxşayan SUR-musiqi aləti üç söz yaratmışdır: Su, Sur, Survan.

İsaq Cəfərzadə bu tablo haqqında yazırdı: «29-cu daşın (Böyükdaş, Yuxarı Terras)-yağış və külək döyməyən bu qaya səthi rəsm qalereyasını xatırladır,

burada külli miqdarda rəsmlər var. Ən qədim rəsmlər e.ə. 8-ci minilliyə aiddir» (7.69).

İ.Cəfərzadə bu rəsm haqqında heç bir əsas olmadan, belə fikir yürüdür ki, guya buradakı təsvirlər «77 təsvir, o gümlədən 63 adam»,. Keçilər, öküzlər və s. e.ə. VIII-VII-VI-V-IV-III-II-I minilliklərdə, bir neçəsi də orta əsrlərdə bu lövhəyə həkk edilmişdir (7.64-67). Əslində isə bu rəsm bütöv bir kompozisiyadır, burada təsvirlərin-fiqurların hamısı eyni vaxtda eyni rəssam, yaxud bir rəssamın rəhbərliyi altında eyni rəssamlar qrupu tərəfindən yaradılmışdır. Əgər təsvirlərdən «ən qədimi» e.ə. VIII minilliyə aid edilmişsə, bu tarix həmin tablodakı təsvirlərin hamısına aiddir.

Amma rəsmin mənası, kompozisiyası tədqiqatçıya bəlli olmadığı üçün o, belə yanlış fikir yaymışdır: Guya Qobustanda e.ə. VIII minillikdən bizim XIX əsrədək hər il bir neçə ovçu və çoban (?) gəlib burada ondan əvvəl çəkilmiş rəsmlərin yanında təzə bir rəsm çəkiblər. Bu fikrin elmi əsası yoxdur.

QOPUZ (SAZ)

Elə həmin rəsmdə İ.Cəfərzadənin haqlı olaraq «rəsm qalereyası» adlandırdığı tabloda bütöv bir teatr səhnəsi göz önünə gəlir. Yəni qədim rəssam bu əsəri məhz «teatrlaşdırmışdır». Tədqiqatçı bu əsərin foto surətini yox, estamp surətini şərh etmişdir. Səhvin çoxu da bundan irəli gəlmişdir.

Qədim rəssam "47"-ci tablonu qoç fiquru ilə açır; bu o deməkdir ki, ilin, yazın ilk günüdür-müasir hesabla martın 21-dir. Həmin gün Günəş öz səma yolunda Qoç bürjünə daxil olmuşdur.(səh.95)

Tanrı Kainatı 2 sütunlu yaratmışdır. 1-ci: Od: İşıq-isti; 2-ci: Su: qaranlıq, soyuq. Tanrıçılığın Yaradılış ideyasına görə Günəşin Səma yolu Yer ilinin 6 ayında-Su-qaranlıq «yarımgöyünün» payına düşür. **İşığın rəmzi-şir, Suyun rəmzi-buğadır**. İlin - yazın ilk günü Səmada Günəş Şir bürcündə görünür; bu təbiət hadisəsi belə fikir yaradıb: **Səmada Şir Buğanı məğlub etdi.**

«Dədə Qorqud Kitabı»nda Buğac (Buğrac!) buğanı məğlub edərkən bu səma hadisəsini təkrarlamış olur (13.34).

Sözügedən rəsmdə «göyə uçan» və «göydən gələn» insanlar, onları, alov qanadları üstündə «göydən gətirən» Buraq at haqqında tədqiqatçı heç nə yazmır-onları görə bilmədiyi üçün.

Həmin «teatr» rəsmindəki «47 saylı» təsvir haqqında isə oxuyuruq: «Bu qadın fiquru bütün başqa təsvirlərdən üstün olduğuna görə sığınacağa «Ana zağa» adı verilmişdir (7.65). Bu adı arxeoloq özü vermiş və bilməmişdir ki, bu təsvirin və bu böyük «rəsm qalereyası»nın arxasındakı mağara ilə («Ana zağa» ilə) heç bir uyarlığı yoxdur. Daha sonra: «Bu fiqurun (Qadının-Ə.F.) başı kiçik çıxıntı şəklində bilavasitə sinəsinin üstündən başlayır. Qolları göstərilməmişdir. Lakin sağdan sola çiyinləri üstündən çəpəki kaman aşırılmışdır. Bu da qadınların silahdan istifadə etmək bacarığını və onların ovda (?) iştirak etdiyini sübut edir». (7.65).

Yenə də kökündən yanlış «izahat»:

Həmin tablonun 2-ci (müəllifsiz) albomda (35.16) verilən foto surətində-yəni əslində: ov səhnəsindən və ovçu kamanından heç bir əlamət yoxdur. 47-ci fiqurun (qadının başı və boğazı heç də kiçik çıxıntı deyil, norma həddindədir; qadının qolları da aydın görünür; qadının çiyinlərindən heç də ov silahı (ovçu kamanı) aşırılmamışdır. Qadın müasir saza bənzəyən yaraşıqlı musiqi alətini sinəsinə sıxmış halda üzü Gündoğana baxır.

Fikrimizcə bu nadir musiqi aləti: Tarın və sazın anası-qopuzun ən qədim nümunəsidir. «Dədə Qorqud Kitabı»nda qopuzun, simli musiqi alətlərinin qədim nümunəsi olduğunu onun adından da bilmək olur (13.30). Belə ki, «qopuz»: qop və uz tərkibli düzəltmə vahiddir. Qop-qopmaq: doğulmaq anlamındadır.

47-ci fiqurda bu alətin Günəş diskini xatırladan parabolik çanağının üstündə şir başının təsviri-Səmada Şir-İşıq bürcünün Günəşi salamladığı məqamı-martın 21-ni simvolizə edir. Qadının köksünə sıxdığı qopuzun uzun qolunun yuxarı hissəsində müasir sazın, tarın, kamançanın simlərini bərkidən kiçik burucular (aşıqlar) da aydın görünür: 2 burucu yuxarıda, 3 (aşıq) burucu aşağıda. Yəni ki, qədim qopuzun 5 simi olub. Hətta səhvlərlə dolu estamp təsvirində də 3 burucu tam aydın verilib. Bəs «ovçu kamanında» belə buruculara nə ehtiyac?

Köksünə qopuz sıxmış qadın kimdir? (səh.96)

Bu, Muğam-Muzqam-Muza-Musiqi İlahəsi: Tanrıçılıqda musiqinin, incəsənətin və elmin himayəçisidir. O da təzə ilin, Yazın-Baharın ilk günündə göylərdən enib gəlmişdir ki, elin Survan-Novruz bayramını: Survan gününü: həyatın, təbiətin yenidən oyanmasını alqışlasın, böyük Yaradanı mahnılarla salamlasın.

Təbriz-Cığamış abidəsində də (Qara Namazov) Muza-Musiqi İlahəsi köksündə qopuzla təsvir edilmişdir (34).(səh.97)

Xatırladaq ki, «teatrlaşdırılmış» rəsmdə 2 musiqi aləti: Sur-Surney bu günkü zurna-balaban və qopuz-saz təsvir edilmişdir. İlk tədqiqat olmağı səbəbindən bu musiqi alətlərini görə bilməsə də, **böyük alim İ.Cəfərzadə həmin rəsmi, xüsusən də qucağında qopuz tutmuş qadın təsvirini e.ə. VIII minilliyə aid etmişdir.(səh 96)**

UD (TAR)

Tədqiqatlarda 78-ci daşı-buradakı rəsmləri «ov qabağı rəqs» hesab etmişlər (7.85). Guya burada 8 qadın öküzün fonunda ova getməyə hazırlaşır, guya

onların çiyinlərindən sağdan-sola kaman aşırılmışdır və guya burada 7 qadın təsvirində bəzəklər göstərildiyi üçün bu rəsmi «7 gözəl» adlandırmışlar (7.85). Bu izahatın heç biri rəsmin özü ilə uyğun gəlmir. Əslində burada 2 kişi, 4 qadın nizamla dayanıb möhtəşəm bir mahnını ifa edirlər. 6 fiqurda 7 adam təsvir edilmişdir ki, onların 6-sı oxuyur, 7-cisi idarə edir. 6 adamın çiynindən asılan heç də ovçu kamanı deyil, simli musiqi alətidir. Bunun ud və tara oxşarı var. **Tabloda 7-ci adam 3-cü fiqurun əks tərəfində ifaçılarla üz-üzə dayanıb. Bu, idarəedicidir. Onun papağında «Akanu Muzkun» sözü yazılıb. Yəni: ağa musiqiçi, baş musiqiçi, musiqi başçısı-rəhbəri.(səh.98-100)**

İ.Cəfərzadənin kitabında oxuyuruq: «Bu qadınların iri, dəyirmi döşləri var» (7.85). C.Rüstəmovun bu fiqura verdiyi qiymət fərqlidir: «onların çiyinlərində yay-ox və ya ucuna daş bağlanmış toxa tipli təsərrüfat aləti var» (5.61). Bu izahların hər ikisi yanlışdır. Əgər bu yumrular doğrudan da "iri qadın döşləridirsə" niyə "hər qadının ancaq bir döşü" var və o da qadınların bədənindən kənardadır? Əgər bunlar yerqazan alətdirsə, niyə torpağa istiqamətlənməyib?

Bəs möhtəşəm musiqi nə üçün buğanın (öküzün) fonunda ifa edilir? Bu, səmada şirin "məğlub etdiyi" buğa bürcünün rəmzidir. Buğanın fonu-onun göydən yerə enməsi-yazın birinci gününü-martın 21-ni göstərir. Bunsuz tablo yarımçıq alınardı.

7 QAM

Böyüklüyü ilə seçilən birinci ifaçının çiyni bərabərində «7» işarəsinin musiqi alətinin davamı olmaqla həm də məhz "7" və güzgü ilə "Г" işarəsi-hərfi kimi fərqlənir. Burada 7-"Г" işarəsinin ətrafında QAM və MAK sözləri və başqa işarələr müşahidə olunur. Həmin işarələrlə 7 QAM və QAMMAK sözləri də yazılmışdır. Bu isə deməyə əsas verir ki, 7 musiqi ladını qədim Qobustançılar kəşf etmişlər.

MAQ QAM: MAQAM: MUĞAM

Bu rəsmdən aydın olur ki, «Muğam» sözünün də əsasında «QAM» sözü dayanır. Etimoloji təhlil fikrimizə aydınlıq gətirir.

7 QAM-MAQ: 7 QAMMA

QAMMA (Q)-QAMUZ: MUZQA.

Beləliklə QAMMAQ-MAQQAM-MAQAM-MUĞAM-MUZQAM-MUSİQİ sözləri açıqlanır.

Deməli "musiqi" sözü də «Muğam» sözündən törəmişdir. Bu gün «Muğam musiqisi» dedikdə həm də «Muğam muğamı» yaxud «Musiqi musiqisi» dediyimizin fərqinə varmırıq, amma fərqində olmalıyıq Muğam-Musiqi Muğanda-qədim Azərbaycanda yaradılmışdır. Qeyd edək ki, muğamlara və onların guşə adlarına başqa xalqların əlavələrini təbii-tarixi mərhələ hesab etmək olar. Muğam: Tanrıçılıq-Yaradılış düşüncələrinin və hisslərinin əks-sədasıdır.

AKANU MUZKUN

78-ci daşda güzgü ilə 3-cü fiqurda qurşağa qədər bir adam, qurşaqdan sonra 2-ci, həm də 1-cidən fərqli adam təsvir edilmişdir ki, bu fiqur müasir kart (oyun kartı) haqqında ən qədim məlumat kimi qiymətlidir. Bu kart formasının arxasında mif kodu dayanır. Gəmiqaya-Qobustan dövründə bundan fərqli məqsəd üçün istifadə edilmişdir. Fərq isə-ideyadan gəlir. 3-cü fiqurun AKANU MUZKUN-AĞA MUSİQİÇI adlandırılması qədim Azərbaycanın öz bəstəkarı olduğunu da yada gətirir. Bu fiqurun-musiqi rəhbərinin arxasında, onun hər iki çiyni üstündə şöhrət rəmzi qəsr, saray qübbələri, müasir minarələrə, qüllələrə oxşayan çoxpilləli ucalıqlar, dağ əzəməti müşahidə olunur.

BOZ QURD TƏSVİRLİ MASKALAR

78-ci daşın daha bir sirri: buradakı ifaçılar və bədii rəhbər üzlərini və bədənlərini Boz qurd, şir, keçi və başqa heyvan təsvirli maskalarla örtmüşlər. Bu gün karnaval, bal gecələrində iştirakçılar üzlərinə maska taxırlar ki, heç kəs bir-birini tanımasın. Gəmiqaya-Qobustan dövründə isə maska taxılması ilahi ideya ilə, əxlaqi səviyyənin yüksəkliyi, təmizliyi, paklığı ilə bağlı olub. Professor İsmayıl Ömərəoğlunun fikrincə, qədim türklər musiqi dinləyəndə və onu ifa edəndə vəcdə, ilhama gəldikləri üçün şər qüvvədən yayınmağa-şər qüvvəni aldatmağa çalışıblar. Bu məqsədlə üzlərinə maska taxıblar ki, şər qüvvə zərbəni onların özünə yox, maskaya endirmiş olsunlar. Bu ideyanın izləri M.F. Axundovun «Aldanmış kəvakib» povestində aydın görünür.

ARFA

Təbriz yaxınlığında-Cığamış şəhər yerindən tapılmış lövhələrdən birinin üzərində arfa çalan qadın rəsm edilmişdir. Burada arfa müasir arfa görünündədir. Amerika alimləri bu abidəni 1950-ci illərdə aşkara çıxararkən onu e.ə. 6-cü minilliyə aid etmişlər (34.6). «Arfa» sözündə tarın «ar» komponenti iştirak edir. Tarda olduğu kimi arfada da işıq xətləri baş komponentdir və hər iki musiqi alətinin əsasında dayanır.

Dahi Təbiətşünas və coğrafiyaçı,
akademik Həsən Əliyevin xatirəsinə

3.5. ƏN QƏDİM XƏRİTƏ

Qobustanda Yazılı təpənin 47-ci daşı əvvəlcədən yonulmuş, hamarlanmış, məqsədli şəkildə daş "Kətan"a çevrilmişdir. Qədim rəssam Xəzərlə Qara dəniz arasını, təqribən şimali Qafqazın ən uca zirvələrindən, cənubda Savalan dağına və Urmiya gölündən də aşağı ərazini, Abşeron yarımadasını, hətta Lənkəran yaxınlığında Qızılağac körfəzi və Xəzərin yarıdan çox hissəsi ilə birlikdə: qədim Azərbaycanın daş üzərində xəritəsini yaratmışdır. Bütün Qafqaz bu daş xəritəyə daxil edilmişdir.(səh 9,102)

Bu daş xəritə - daş tablo həm ürək şəklindədir, həm də sanki insanın başı və üzüdür: sağ - işıqlı, sol - qaranlıq üz: gecə və gündüz; Abşeron yarımadası və Xəzər dənizinin qərb sahilləri, indiki Mahaçqaladan Elbrus zirvəsinədək, indiki Astaradan Urmiya gölünədək sağ - işıqlı üzdədir. Qaranlıq üz - Qərb üz - Qara dənizin qaranlığına qarışır, tabloda dənizlər də daxil olmaqla, 1 mm boş sahə yoxdur, - hamısı təsvirlərlə, işarələrlə zəngindir. Burada bütün Qafqaz və indiki şimali İran: vahid bir ərazi kimi düşünülmüşdür.

Güman etmək olar ki, "daş xəritə"nin hazırlandığı uzaq zamanlarda bu ərazidə: Xəzərlə Qara dəniz arasında müxtəlif etnoslar və bəlkə də ayrı-ayrı toplumlar, qurumlar halında yaşamışlar.Bəlkə də onlar müxtəlif dillərdə danışsalar da, Tanrıçılığa əsaslanan ümumi dini-siyasi və ictimai-mədəni birliyə malik olmuşlar. O etnoslardan biri də proto-azərlər - prototürklər olmuşlar. Daş xəritədə oxunan: Utu, Gün, At, Qorat, Qoruz, Buraq, Abar və b. sözlər də belə düşünməyə əsas verir.

Sağ - işıqlı üzdə 2 atlı, sol - qaranlıq üzdə 1 at rəsm edilmişdir. Sağ üzdəki 1-ci (yuxarıdakı) at sanki 2-ci atın belində dayanmışdır.

Əslində, sağ üzdə yalnız 1 at və 1 atlı iştirak edir. Rəssam burada eyni atın - od atın yerdən göyə uçuş məqamını nəzərə çatdırmaq istəmişdir. Qaranlıq tərəfdəki (yuxarıda) tək at özü də uçuşu başa vurub, Yerə qayıtmış eyni atdır. Deməli, "daş xəritə" - tablosunda cəmi 1 at üç məqamda rəsm edilmişdir. Burada əfsanəvi Buraq atdan söhbət gedir. Bu, Od at- işıq atdır. Onun belində oturmuş müdrik şəxs, Tanrının hüzuruna gedir ki, ona insanın sədaqət və minnətdarlığını çatdırsın.

Gəmiqaya - Qobustanda Buraq atla bağlı rəsmlər çoxdur. Həmin rəsmlərdən və elə sözügedən "daş xəritə" rəsmindən də yəqin etmək olur ki, Tanrıçılığa görə ulu Yaradanın baş məkanı Şir - İşıq bürcünün yaxınlığında düşünülüb. Tanrının hüzuruna gedənlər məhz İşıq (ulduz) bürcündən geri qayıdırlar. Tanrı ilə, onun hüzuruna gedənlər arasında keçilməz göy təbəqəsi - məsafəsi olur.

Məhəmməd peyğəmbər haqqında hekayətlərdə də Peyğəmbərin merac gecəsi Buraq ata minib, Tanrının hüzuruna gedib-qayıtdığı misal çəkilir. (Bax: Peyğəmbərə 40 sual. 1993. səh. 167).

"Dədə Qorqud Kitabı"nda Beyrək Boğazca Fatmadan soruşur ki, atınızın adı Buraq deyilmiydi? (KDQ. 1988. səh.64).

Dahi Nizaminin "Xəmsə"sində Peyğəmbərin meracından bəhs edən misralarda Buraq məhz od-işıq at, şimşəkdən sürətli at kimi tərənnüm olunur:

"Buraqın ayağından şimşək öpmək istədi". (Sirrlər Xəzinəsi. səh. 31).

"İldırım Burağı mindin dünyada". (Leyli və Məcnun. səh.37)

"Altında şimşək tək şığıyan Buraq, Günəşə qərq olmuş yəhərlə yaraq". (İskəndərnamə. səh.26).

"Xəmsə"yə yazılmış izahlarda deyilir:

"Buraq - Məhəmməd peyğəmbərin merac gecəsi mindiyi, başı insana oxşayıb, qanadları olan atdır". "Dini əfsanəyə görə Buraq eşşəkdən böyük, qatırdan balaca olmuş, böyük sürətlə uçmağı bacarmışdır". "Dini rəvayətə görə Buraq, başı insan başı olub, bədəni at şəklində olan qanadlı atdır". (Leyli və Məcnun, Yeddi gözəl. şərhlər. R.Əliyev və b.).

Fikrimizcə bütün bu mənbələrdə: "Peyğəmbərə 40 sual", "Kitabi - Dədə-Qorqud", Nizami Gəncəvi "Xəmsə"si və "Xəmsə"yə yazılmış şərhlərdə təsvir edilən Buraq at haqqında əfsanəvi söhbətlər öz mənbəyini bilavasitə Azərbaycandan: Gəmiqaya və Qobustan rəsmlərindən almışdır.

Bütün canlı aləmin məhz yumurtadan doğulduğu haqqında biliklərin ilk mənbəyi də məhz Azərbaycan torpağı - Gəmiqaya - Qobustan rəsmləridir. Bu fikri söyləmək üçün heç bir kitabdan, yaxud əlyazmasından sitat gətirməyə ehtiyac yoxdur. Bunlar Gəmiqaya - Qobustanda yazılmış və rəsm edilmişdir. O cümlədən Nuhun tufanı və Nuhun gəmisi əfsanəsi də; o cümlədən növlərin əmələ gəlməsi və ilk partlayış haqqında nəzəriyyələr də Gəmiqaya - Qobustan rəsmlərində əks olunmuşdur.

Apardığımız təhlillər və gəldiyimiz nəticələr göstərir ki, Gəmiqaya - Qobustan qədim dünyanın zəngin bilik xəzinəsi olmuşdur. Zaman-zaman dünya mütəfəkkirləri bu xəzinədən bəhrələnmişlər.

O cümlədən, Buraq at haqqında, onun başının insan başına oxşaması, eşşəkdən böyük, qatırdan kiçik görünməsi, işıq - şimşək sürətli olması Gəmiqaya və Qobustan rəsmlərindən iqtibas edilmişdir.

Hələ ki, dünyaya Gəmiqaya - Qobustandan daha qədim olan heç bir mədəniyyət məlum deyil.

"Buraq": "bur" və "aq"-ağ: Burulan ağ - Burulan işıq - məzmunu ilə Azərbaycan (türk) mənşəli mürəkkib zoonimdir.

Qeyd etdiyimiz kimi, Qobustanda 47-ci daşda eyni atlı, uçuşun əvvəlində

(aşağıda) və sonunda (yuxarıda) təsvir edilmişdir. O, uçuşun sonuncu mərhələsində Kainatın "işıq yarısını" "təmsil edən Səma şiri - Şir" bürcü ilə üzbəüz dayanmış və bir əlini ona sarı uzatmışdır. "İnsan, Zaman, izlər" (1974) albomunda tablo həmin məqamla tamamlanır. İ.Cəfərzadənin "Qobustan"ında isə (1973, 1999) Şir - İşıq bürcündən də yuxarıda Yaradanın obrazı - portreti təsvir edilmişdir. Yəni yenə də o mənada ki, Tanrı, yaratdıqlarının hamısını görür, amma heç kim Tanrını görə bilməz və Tanrının hüzuruna da onun özünün icazə verdiyi məkana - İşıq bürcünün yaxınlığına qədər getmək olar.

47-ci daşda - "daş xəritə"də əsas məsələlərdən biri -Abşeron yarımadasının qartal və xoruz başı kimi təsvir edilməsidir. Bu məqamda daş xəritə daha çox Günəş diskini xatırladır. Azərbaycan mifologiyasında xoruz Günəşin əsas atributlarındandır - Günəşi çağıran, ona nəğmə oxuyandır. Gəmiqaya və Qobustanda Günəş təsvirlərində, xüsusən Günəş uclu qayıqlarda, Nuhun gəmisinin rəsmləri üstündə Günəş, xoruzla birlikdə "utu" adı ilə daşa həkk edilmişdir (Bax: "Nuhun Gəmisi və Gəmiqaya- Qobustan əlifbası". B.2005).

Azərbaycanın qədim adlarından biri "Dədə Qorqud Kitabı"nda "Günortac" kimi qeydə alınmışdır: "Qalarda, qoparda yerim - Günortac!"

Bu toponim birbaşa işıqla, tanrıçılığın əsasında dayanan, Tanrı qüdrətinin baş təmsilçisi Günəşlə bağlıdır. "Orta" - Günəşin daha çox işıq saçdığı yer - anlamındadır. Dastanda ana oğlunu əzizləyərkən ona "ortacım oğul" - yəni ortada dayanan, ən qüvvətli işığım, arxam, köməyim, - deyir. AMEA-nın müxbir üzvü T.Hacıyev bildirir ki, Günortac qədim Azərbaycanın coğrafi koordinatlarını müəyyən etməkdə köməyə gələ bilər. **Fikrimizcə, Azərbaycanın qədim "Günortac" adını sonralar eyni məzmunda "Odlar yurdu" əvəz etmişdir ki, bu da "Utu" sözünün Utular - Odlar açımında aydın görünür.**

Daş xəritədə Günəş taclı fiqur Abşeron yarımadasının üzərində yazılmış "Utu" sözü həm Od Tanrının - Günəşin, həm də ərazinin - Azərbaycanın Utu-çular: Tanrıçılar yurdu - adı diqqətə çatdırılmışdır. Bu xəritəni yaradan dahi rəssam bu vətənin oğlu ola bilərdi. O, bu xəritəni həm ağıl, həm də böyük məhəbbətlə yaratmışdır.

Nəhayət, 47-ci daşın ilk tədqiqatçısı İ.Cəfərzadə onu belə təqdim edir:

"Yazılı təpə. Kiçikdaş. 47-ci daş.

Nəhəng qaya parçası olan bu daşın (240 x 460 sm) cənub tərəfi hamar səthli hündür və dar sıldırımdır, üz tərəfi düzbucaqlı üçbucaq formalı hamar şaquli səthi vardır. Cənub üzündə 2 atlı təsviri həkk edilmişdir".

1-ci atlının təsviri sona yetir və İ.Cəfərzadənin kitabında fikir belə yekunlaşır: "Orta əsrlərin erkən dövrünə aiddir".

2-ci atlı təsviri haqqında: "Rəsm 2-ci minilliyin son əsrlərinə aiddir" (səh.39).

Beləliklə, tədqiqatçı bu böyük və bütöv - yalnız bir dəfə yaradılmış rəsmə diqqətlə baxmamışdır. Bu nəhəng qaya nə üçün "düzbucaqlı üçbujaq formalı" olmalı imiş? Bu hansı at, hansı atlı ola bilərdi? Bəs, bu üçbujağın orta bucağı (sağ tərəfə uzanan çıxıntı) nə üçün Abşeron yarımadasını xatırladır? Bəs, "atlılar"dan yuxarıda müdrik kişi obrazı nə deyir? Bu suallar da tədqiqatçının ağlına gəlməyib. Amma diqqətlə baxmadığı, sirrinə heç olmasa bir az bələd olmadığı rəsmə havadan "tarixlər" uydurur. **Yəni doğrudanmı "1-ci rəssam" öz əsərini yarımçıq qoyub ki, onu 1500 ildən sonra doğulacaq başqa bir rəssam gəlib tamamlasın?**

Göründüyü kimi, heç bir məntiq yoxdur. Tədqiqatın ilk mərhələsi olmağı səbəbindən 47-ci daşın əsl mahiyyəti böyük alim İ.Cəfərzadəyə aydın olmamışdır. O, bu tabloda yalnız 2 atlını seçə bilmiş, üstəlik, onlardan 1-cisinin - aşağıdakının 2-cisindən (yuxarıdakından) 1000 il sonra rəsm edildiyini yazmışdır.

Əslində, burada eyni rəssamın eyni vaxtda həyata keçirdiyi yaradıcılıq işini, eyni dəsti-xətti, bitkin, bütöv kompozisiyanı inkar etmək mümkün deyil. Amma tədqiqatçı bunlardan tam xəbərsiz qalmışdır.

3.6. AŞINA XƏRITƏSI

İ.Cəfərzadə. Qobustan. Səh.115. (1999)

Bu xəritədə bütün Qafqaz, Xəzər dənizi ilə birlikdə ideallaşdırılmış ərazi tək düşünülüb. Quru hissənin yuxarısı, üzünə maska örtmüş insanın başı, qalan ərazi isə o insanın «bədəni» kimi verilib.(kitabın üz qabığı və səh 105) Bu, sanki Vətən-Anadır. Bu «Ana»nın bədəni üstündə As Ana: Asina-Aşina: dişi Boz qurd və onun 2 cərgədə ayaq üstə dayanıb analarını dinləyən 10 oğlu təsvir edilmişdir. Boz qurdun başı – həm burnunu qəzəblə yuxarı tutmuş məqamda, həm də profildən-oğullarına baxaraq, onlara nəyi isə bağıraraq söylədiyi anda verilmişdir. Aşina-Boz qurdun profildən üzü maskalıdır; oğlanların da üzündə maska var. Maskalar bir-birindən fərqlidir. Bu da söyləməyə əsas verir ki, Aşina oğullarının hərəsi bir funksiya daşıyır-ayrıca bir tapşırığın icrasına cavabdehdir.

Yuxarı cərgədə 1-ci oğulun üzündəki şir maskası onun «İşıq» kimi, əsası-kökü təmsil etdiyi, 2-ci oğulun sağ və sol qolları ətrafında şir və buğa maskaları onun həyatın od və su əsasını, 3-cü oğulun qolları ətrafında kişi və qadın fiqurları-ata və ananı qorumağa, sözünü eşitməyə və hörmətini saxlamağa borclu olduqlarını xatırladır. 4, 5, 6, 7, 8-ci oğulların funksiyaları tədqiq olunmalıdır. 9-cu

və 10-cu oğulların əlləri (qolları) Abşeron yarımadasına tuşlanmışdır. Yəni, biz burada – bu torpaqda (indiki Qobustanda!) doğulmuşuq. 9-cu oğulun ayaqları (dizlərinin yanından) «A» hərfini yaratmışdır. Yəni, biz 1-ci adam, bu yurdun 1-ci sakiniyik. 10-cu oğulun sağ ayağı sıyrılmış qılınc timsalındadır. Bununla ən kiçik qardaş sanki belə deyir: biz bu yurdu qılıncımızla qorumalıyıq.

Abşeron yarımadası *«T»* hərfi kimi üç istiqamətdən gəlib birləşərək üçbucaq yaradır. 9-cu və 10-cu oğulun sağ əlləri bu üçbucağın otra xəttinə istiqamətlənmişdir.

Bu xəritədə Xəzər dənizi müdrik qocalar, şir, Boz qurd və başqa təsvirlərlə ideallaşdırılmışdır. Quru hissədə Boz qurdun – Aşinanın hamiləlikdən azad olandan sonrakı zəif, üzgün vəziyyəti, (aşağıda) ətrafına *«AS ANA»* yazılmış simvolik insan ayağı, başqa təsvirlər, maskalar, işarələr də əks olunmuşdur. Tədqiqatlarda bu tablo haqqında məlumat verilməmişdir. Bununla yanaşı, həmin tablodakı Aşina oğulları «yallı rəqsi»nə misal çəkilir. Televiziya ekranlarında, burada 1-ci cərgədəki 4 oğul məhz «yallı» rəqsinin ifaçıları kimi təbliğ edilir. *Əslində isə, qeyd etdiyimiz kimi, bu tabloda Aşina ana, onun oğulları və onların qoynunda doğulduqları Vətən-Azərbaycan torpağı, konkret olaraq, indiki Qobustan ərazisi gələcək nəsillərə nişan verilmişdir. Burada söhbət «yallı» rəqsindən yox, xalq bütövlüyündən gedir.* Tanrıçılıqda 10-luq- bütövlükdür. Gəmiqaya-Qobustanda 7 sayı, «7-musiqiçi», 14 sayı «14 nəfər» başçı ilə birlikdə, Ay bütövlüyünü, «Dədə Qorqud»da «366 alpan» yenə də xalq bütövlüyünü simvolizə edir. Qobustanda 32 işarə, Nəsimi rübailərində 32-nin tərifi, əlifba, səs, söz: kitab bütövlüyünün rəmzidir.

Nəhayət, 1-ci xəritədə Azərbaycan bütöv halda ürək şəklində ideallaşdırılır. "Ürəyin" yanında və üstündə 2 ana bu Vətən - Ürəyin: Azərbaycanın keşiyini çəkirlər.

Üzərində Buraq atın və Aşina oğullarının rəsm edildiyi daş xəritələr güman etməyə əsas verir ki, e.ə. uzaq minilliklərdə Azərbaycanda, bu günədək elmə məlum olmayan xüsusi dövlət qurumu fəaliyyət göstərmişdir.

3.7. ANA VƏ... BALTA

Qobustanda bir qaya məqsədli şəkildə, diqqətlə çapılıb, yonulub, Б-В hərfinin məlum işarələrindən birinin:səh (107) -işarəsinin şəklinə salınıb. Bu iti bucaqlı qaya - piramida bütün görümü ilə anadır. Çiyninə «daş şalı»nı salmış Xalq Ana, Vətən Ana abidəsidir. Bütün xalq-uşaqdan böyüyə hamı onun geniş açılmış qolları arasında-isti qucağındadır. Ana təmkin və nigarançılıqla uzaqlara baxır. O, sanki doğub böyütdüyü övladlarının sabahını düşünür. Ana onların bəzilərinin əyri yollara gedəcəklərindən, pis əməllərə qurşanacaqlarından, bir gün düşmənin yağlı dilinə aldanacaqlarından nigarandır. (66-cı şəkil, 2 ci albom).

Bu Ana sanki elə bu vəziyyətdə şərt kəsir:

«-Ana sözü qanundur. Qanun-Baltadır, balta kimi itidir. Mən əyri işləri, yamanlıqları, elin sözündən, adətlərimizdən çıxanları balta kimi kəsərli sözümlə kəsirəm, cəzalandırıram! Siz bu baltanı-bu Qanun-qayda emblemini hər an göz önünə gətirməlisiniz!»

Lövhədə, Ananın ağzı bərabərində çox iri balta təsvir edilmişdir. Misal var: Söz kəsərli olmalıdır.

Burada balta, Ananın ağzını-sözünü əvəz etmişdir. Bu gün Qanun idarəsinin emblemində çarpaz qılınclar təsvir edilir. Uzaq keçmişdə qılıncları balta əvəz etmişdir. Lövhədə daha bir neçə balta təsviri var. Ortada başına üç alov timsallı tac qoymuş hökmdar dayanıb, onun hər qolu bir balta rəmzinə çevrilmişdir; yəni ki, hökmdar özü də Qanuna tabedir. Qanunu isə xalq verir. Lövhədəki böyük baltanın üstündə «balta» sözü də oxunur.

Qobustanda «taxtında oturmuş hökmdar», Gəmiqayada «İnsan beyni-işıqdır» tablolarında da məhz Qanun emblemi kimi, balta fiqurları təsvir edilmişdir.

3.8. «DAŞ GÖBƏLƏK» - GƏNC ŞAİR

Qədim qələmçi-rəssam Yaradılış ideyasını tamam yeni, obrazlı biçimdə əks etdirmək istəmiş və Qobustanda bir qayanı «daş göbələk» (səh118-119) şəklində yonub, təsəvvürə gəlməyən bir möcüzə yaratmışdır. Baş mövzu yenə də həyatın yenidən doğulması, təzə il, yaz bayramıdır. Qədim tişə ustası bu «daş göbələklə» min bir düşməni aldadıb. (35.11). Düşünüb ki, neçə min ildən sonra onun əsərini oxuyacaq, qiymətləndirəcək və təzədən yaşadacaqlar.

Bu daş möcüzəni dərk etmək üçün ona quş qanadından baxılmalıdır.

Bu «göbələyin» üstündə müdrik kişi portretləri, ulduz bürclərinin, səma heyvanlarının ilin yaz bərabərliyi gecəsindəki anı əbədiləşdirilmişdir. Əsərin qəhrəmanı sol əli çənəsində, gözləri yarıyumulu, xəyala dalmış gənc şairi xatırladır. Bu heykəl-portret M.Müşfiqin Bakıda qoyulmuş məşhur heykəlinə oxşayır. Müşfiq kimi bu sənətçi də gənc və yaraşıqlıdır. Bu da Müşfiqin heykəl-portretində olduğu kimi sol əlinin barmaqlarını çənəsinə yaxınlaşdırıb. Bunun Müşfiqdən bir fərqi: yarıyumulu göz qapağının üstündə şir başının görünməsidir. Şir-işığın simvoludur, göz-işıq mənbəyidir. Gənc sənətçi işıqlı fikirlərə dalıb. Onun alnında müdrik kişi portretləri elə bu simvolikanın-işıqlı düşüncələrin daşıyıcıları timsalındadır. Müşfiq şeirlərində «bu yerlə çarpışan, göylə əlləşən»-dünyadan söz açırdı. Bu tabloda da «gənc şair» göyü başında «saxlayb». Bunun

barmağının ucunda qələmi də görünür. Bunun xəyalında nələr dolanırsa gəlib «əyləşib» başında-papağının üstündə. **Qədim rəssam bu əsəri US, yəni huş-ağıl, düşüncə adlandırıb. "US" sözü tablonun yuxarısında (2 variantda) aydın oxunur.**

Qobustançı gənc sənətçi yazın ilk günündə Tanrı haqqında düşünür. Bunun başında işığın rəmzi-şir, suyun rəmzi buğa (öküz) bir-birinə çox yaxın oturub. Çünki bu gün yerə-dünyaya həm işıq gərəkdir, həm də su. Çünki bu gün ilin Yaz bərabərliyidir. Bu gün (yəni təsvirdəki gün) həyat yenidən doğulur...

3.9. BABALARIN BABASI

Qobustanda 28-ci qaya-müdrik ağsaqqal heykəlidir. (müəllifsiz albom). (səh115) Bu, uzun ömür yaşamış, dünya görmüş, simvolik baba obrazıdır: babaların babası-əfsanəvi Dədəm Qorquddur. Baba-heykəlin saçları, uzun saqqalı bərabərindədir; Baxışlarından vüqar və əzəmət yağır; heykəlin ayaq hissəsində çox yorğun görünən qoca qartal uzanıb: qocamanlığın simvolu kimi;

Baba-heykələ əks istiqamətdən baxılanda qocalmış, qarımış nənə obrazı da diqqəti çəkir. Yenə həmin istiqamətdə, nənənin əks tərəfində qız portreti yaradılıb. Tabloda başqa obrazlar (kişilər və müxtəlif heyvanlar) vahid kompozisiyaya tabe edilmişdir. Baba- heykəlin yaxasında qoşa buğa simvolu, babanın çənəsi aşağı yenə də müdrik qoca, Boz Qurd, daha bir neçə heyvan və quş təsvirləri də ideallaşdırılmışdır. Heykəlin üstündə balta rəsmləri, yazı işarələri: A, BA: BABA, Aba, Qsçk: Qızcıq (Qızcığaz) sözləri də oxunur.

Heykəl-Babanın açılmayan sirri çoxdur. Amma onun haqqında tədqiqatçılar heç bir məlumat verməmişlər. Nadir inci-«Babaların babası» abidəsi günümüzə salamat gəlib çatmasaydı Gəmiqaya-Qobustan mədəniyyəti, bu nəhəng abidələr kompleksi yarımçıq görünərdi.

3.10. GÖYDƏN GƏLMƏK MƏSƏLƏSİ

Gəmiqaya-Qobustan mədəniyyəti təkcə mifologiya deyil. Burada rəssamlığın inkişaf etmiş aydın izləri, əlamətləri meydana çıxır. Qədim rəssam bir mövzunu əhatə etmək, öz fikrini tamaşaçıya çatdırmaq üçün «daş kətanın» üzərində 2, bəzən 3 qatda təsvirlər yaratmışdır. 1-ci qatda «ağ kətanda» təsvirin gizli-daxili əlamətləri, 2-ci qatda-artıq çəkilmiş rəsmin üstündə yeni xətlər cızılır, rəsmlər arasında qarşılıqlı əlaqə yaradılır; Bəzi tablolarda 1-ci və 2-ci rəsmlərin üstündə yeni-3-cü rəsm çəkilir. Bu proseslər vahid fikrin aşkarlanmasına xidmət edir.

Bəzən rəssam **iynə uclu qələmi ilə daş üzərində** konturlar-müxtəlif cızıqlar, nöqtələr yaradır, təsvirin yarısını çəkir. Belə təsvirləri yalnız güzgü ilə aşkar etmək, bütövləşdirməklə görmək-oxumaq olur. Məsələn, insan üzündə çəkilmiş «Böyük şir» (23-cü daş) lövhəsində «Ağ At» məhz güzgü ilə oxunur: A və Q işarələri güzgü ilə əks tərəfdə də görünür-ikiləşir və bütövlükdən T hərfi yaranır.(səh177)

Gəmiqaya-Qobustan əlifbasında bəzi hərflərin yarım hərf şəkli də törəmə əlifbalarda əsas hərflər kimi iqtibas edilmişdir. Məsələn, Gəmiqaya-Qobustanın bütöv "Ф" (F) hərfinin yarısı latında eyni adla iştirak edir.

Orxon-Yeniseydə yarım A-lar bütövləşəndə Gəmiqaya-Qobustan A-sına çevrilir. Ərəb əlifbasında Gəmiqya-Qobustan hərfləri daha çox sındırılmış, bəzən bütöv hərfin, yarısından da azı iqtibasla yeni qrafik işarəyə çevrilmişdir. Bu qəbildən başqa misallar da gətirmək olar.

Qədim rəssam işarələrdən, yəni məhz yazı işarələrindən təsvirlər yaratmışdır. O bütün təsvirlərində həyatın göydən gəlməsi ideyasına sadiq qalmışdır.

Bu gün elmdə həyatın əmələ gəlməsi haqqında iki nəzəriyyə var. 1. Həyat Yerdə yaranmışdır. 2. Həyat Yerə Göydən gəlmişdir. 2-ci nəzəriyyəyə daha çox üstünlük verilir. 2-ci nəzəriyyə həyatı təkcə Yerdən yox, həm də Günəş sistemindən və bizim Qalaktikadan kənara çıxarır. **Yaddaş, kod informasiyası da 2-ci nəzəriyyənin tərəfindədir.** 2-ci nəzəriyyə həyatı yaradan bakteriyaların hər cür şəraitdə-okeanın 2700 metr dərinliyində, mütləq qaranlıqda, ən yüksək atmosfer təzyiqi altında, atom reaktorunda, ən yüksək temperatur-istilik şəraitində, kosmosda ən aşağı soyuqluqda yaşaya bilməsini sübuta yetirmişdir. (42.3).

1-ci nəzəriyyənin tələbi ilə **Yerdə qeyri-üzvi maddədən üzvi maddə almaq məsələsi öyrənilir.** Hələlik heç bir müsbət nəticə yoxdur. Odur ki, həyatın Göydən-Kainatın dərinliklərindən gəlməsi nəzəriyyəsi öz qüvvəsində qalır. 1-ci nəzəriyyə isə böyük sual işarəsi kimi 2-ci nəzəriyyənin yanında lövbər salıb.

Gəmiqaya-Qobustan dövrünün-eradan əvvəlki neçənci minilliyin cəmiyyəti həyatın göydən gəlməsi ideyasını kəşf etmiş və öz həyatını onun əsasında qurmağa çalışmışdır.

Elm sübut edir ki, Qalaktikada həyatın təməl daşları: üzvi molekulların nəhəng buludları mövcuddur. Onlarda 50-dən çox üzvi birləşmə qeydə alınıb. Günəş sistemindən kənar meteoritlə yerə gəlib düşən amin turşusu həyatı yaradan molekullardan soraq verir. Amin turşusu Günəş sistemindən kənar, planetlərarası fəzada daha çoxdur. Həyatın məhz Göydən gəlməsi elmdə «istiqamətlənmiş pansermiya nəzəriyyəsi» üçün əsas hesab edilir. (42.3).

Beləliklə **elm həyatın Yerə Göydən gəlməsi nəzəriyyəsini qəbul edir.**

Göyə bağlılıq, Göydən gəlməklik Gəmiqaya-Qobustan dövrünün baş ideyası olmuşdur. Gəmiqaya-Qobustan dövrünün bilici insanları Göy cismlərini, təbiət hadisələrini insanlaşdırmış və ilahiləşdirmişlər. Məsələn, onlar nə üçün işığın rəmzi kimi, məhz şiri seçmişlər?

Bəlkə də şir, başının dairəvi görümü ilə Günəşə oxşadığına görə İşıq rəmzi tək düşünülmüşdür. Hər halda bu əlamət-mifin bir tərəfidir. Ulduz bürcü kimi astronomiyada buna kifayət dərəcədə aydınlıq gətirilməmişdir. Başqa bürclərin də şərti olaraq yalnız zahiri oxşarlığı önə çəkilmişdir.

Amma Gəmiqaya-Qobustan dövründə ulduz bürclərinə heyvan adlarının verilməsi maddi kökə-ideyaya bağlı olmuşdur. Müasir elmin bir böyük kəşfi: Canlı aləmin su dairənin içərisində, yumurtadan doğulması və kainatın yaranmasının ilk partlayışla bağlılığı nəzəriyyəsi Gəmiqayada daş üzərində təsvir edilmişdir. Bu rəsmlər-təsvirlər Gəmiqaya-Qobustan mədəniyyətinin yuksək elmi səviyyəsindən xəbər verir.

Bəlkə şirin də İşıq rəmzi seçilməsi maddi əsasa-ideyaya bağlıdır? Yəqin ki, nə vaxtsa elm buna cavab arayacaq. **Mifoloji qatın elmi-maddi kodutransinformasiyanın başlanğıc mərkəzi var.** Mifologiyanın nağıl hesab edilməsi elmi sirrə aparan yolu-qapını bağlamaqdır. 12 illik siklin-12 ulduz bürcünün 12 heyvan adı heç də şərti-təsadüfi olaraq meydana gəlməyib.(Bu seriyada bəzi heyvan adları sonradan uydurulub.) Nəsimi XIV əsrdə deyirdi: «7 ulduz, 12 bürc əslimiz».

Həyatın 2 sütunu: işıq və Su, ilin-Günəşin Səma yolunun 6 ay-işıq, 6 ay-Su yarısı (21 martdan 21 sentyabra, 21 sentyabrdan 21 martadək) Şir və Buğa hesab edilməsi və onların adlarını daşıması heç də şərti-təsadüfi deyil, maddi kökə-ideyaya bağlıdır. İdeyanın maddidən ayrı düşünülməsi fəlsəfədə materializm və idealizm-bölgülərini yaradıb.

Şir: iş-ir, i-şir, şir: hərəkət edən iş-ıq məzmunundadır. ("Aslan"da bu sözdən yaranıb: (ArşArs-lan:Arş-Şar:Şir). Fikrimizcə, "Şir sözü"fars dilinə Şumer-Akkad münaqişələri dövründə Protoazərbaycan (prototürk)dilindən keçmişdir. Şir bürcü Günəşin Səma yolunu tamamlayan 1 ilin «İşıq yarısı»dır. İlin «Su yarısı» isə buğa: buğ(-a), bağ, boq (bık-rus tələffüzündə) Yer-Su: Yer-Sub Tanrısına aiddir.

E.əVI- əsrdə Turan -Azərbaycan hökmdarı Alp Ər Tonqanın - Əfrasiyabın -Astiaqın taxtdan salınaraq, hakimiyyətin farslara keçməsi ilə, farslar türklərin tanrıçılıq inamını da qəbul etmişlər. Həmin prosesdə protoazərilərin -prototürklərin, ilin yaz bərabərliyindən başlanan Survan günü- Survan bayramı metoteza ilə həm də Novruz günü- Novruz bayramı adları ilə hər iki xalqın dilində eyni mənada səslənmişdir. O cümlədən Tanrıçılığın atributlarından sayılan Şir- İşıq-ulduz bürcü ilə bağlı inamlar da qardaş fars xalqı üçün də doğmalaşmışdır. Şir, həm də qədim astronomiyada 12- ulduz bürcündən beşincisidir. (Ərəb- fars sözləri lüğəti səh. 194)

"Şir" sözünün ilk variantı "İşir" -"İşıq": Günəş şüasının şəkli -"İ" işarəsi ilə başlanır. Gəmiqaya- Qobustan əlifbasında da "İ" hərfinin rəqəm qiyməti 5- dir. Bu faktın özü də bir daha təsdiq edir ki, "İşir" -"Şir" sözü tarnıçılıq inamının atributu kimi protoazərbaycan- prototürk mənşəlidir.

Tanrının obrazı (Qobustan).Bu tablo 10 min il salamat yol gəlib, 1991- ci ildə məhv edilmişdir.



Tanrı Ata(Qobustan)



Tək əl - tanrının simvolikası; yandan baxanda həm də şəhadət barmağı deyir: yol budur. (Qobustan)



Tək əl-tanrının simvolikası
Keçua-Keçili türk qəbiləsinin tanrıçılıq inamı ilə.(Amerika-Peru)



Nuhun gəmisi daşqından əvvəl: burada adamlar xüsusi astronomik borularla ulduzların vəziyyətini öyrənirlər. (Qobustan) Yandan baxılsın

Nuhun gəmisinin təsvirləri.(Gəmiqaya)



Nuhun gəmisi fəlakət anında; fəlakət daşı sualtı qayıq formalı gəmini okeanın dibinə sıxır; gəmi 3 yarusludur. (Gəmiqaya)



Tufan sovuşmuş, okean sakitləşmişdir, qaranquş quru yer gördüyünü xəbər gətirmişdir. Üzündə "İ" işarəsi olan kapitan-Nuh peygəmbərin rəmzidir.



Gəmiqaya

Gəmiqaya dağ zirvəsinin foto şəkli.



4 tərəfdən baxılan Gəmiqayanın ideal rəsmi, (bu rəsm atributlarla insan üzündə çəkilmişdir) "İ"-işıq işarəsi bunu təsdiq edir. Yandan da baxılsın (Gəmiqaya)





1. Şəkil. Nuhun gəmisində fəlakət anında insanların fəryad etmələri.
2. Şəkil. Gəminin ön tərəfində kapitan-Nuh peyğəmbərin simvolik təsviri. (Gəmiqaya)



Nuhun tufanı- okeanda dalğalar ideal şəkildə şahə qalxmışdır, bunu 10-cu bal adlandırmaq olar. (Gəmiqaya)







1. Şəkil. Gənc oğlan bir keçini güzgü ilə ikiləşdirib və güzgünü qaval kimi çalaraq "iki" keçini oynadır.
2 Şəkil. Piktoqraflar: "Ənit" və "quş"
3.Şəkil. "I" və "İ" işarələri işıqın rəmzi kimi maral buynuzlarında "Utu"dan - Gün Tanrıdan göndərilmişdir.
4.Şəkil. Yaz bayramı səhnəsində - Sur musiqi aləti və "Survan" sözü müşahidə edilir. (Qobustan)



Yazın gəlişinin Sur və Qopuz (saz) müsiqi alətləri ilə bayram edilməsi SURVAN -NAVRUZ-NOVRUZ bayramı (Qobustan)



Göydən enmiş Muza ilahəsi qopuz-saz musiqi aləti ilə Tanrının şərəfinə mahnı oxuyur; fraqment. (Qobustan)



1.Şəkil. Muza ilahəsi saz çalır
2 Şəkil. Arfa çalan xanım.
3.Şəkil. Vaza üstündə saz çalan aşıq.
(Təbriz yaxınlığında Amerika alimləri tərəfindən tapılmışdır)

Musiqiçilər

Tar çalanlar və onların musiqi rəhbəri. (Qobustan)



1.Şəkil. Tar çalanların başi üstündə "7 QAM-MAQ-MAK" yazılmışdır.
2.Şəkil. Musiqi rəhbəri; onun papağında "AKANU MUZKUN" yazılmışdır (Qobustan)

Tar çalan xanım - müğənni
(fraqment.Qobustan)



Muğam oxuyan Şumerli xanım.

Qədim Azərbaycanın daş üzərində xəritəsi. (Qobustan)
Öndə Azərbaycanın müasir xəritəsindən fraqment. Yandan baxılsın

Vətən - Ürək: Azərbaycan

"Vətən ürəyimizdir" - Rəssam insan üzündə yaratdığı bu xəritəni Tanrıçılıqın atributları ilə fərqləndirmişdir. Abşeron yarımadası xəritədə aydın görünür. Analar Vətən-Ürəyi körpəni qoruyan tək qoruyurlar. (Qobustan)



1.Şəkil. Arxeoloq Azərbaycanın xaritəsi tablosunda yalnız iki atlı rəsmini görmüş və onlardan birincinin (yuxarıda) ikincidən (aşağıda) 1500 il əvvəl "çəkildiyini" yazmışdır (Qobustan)

2. Şəkil. Marko Polonun (XIII-XIV əsrlər) dünya xəritəsi. Burada qədim Rusiya Norveçin yanında, Qara dəniz -"Velikoe more" - "Böyük dəniz" kimi təqdim edilmişdir



AS ANA - Aşina xəritəsi- bu həm də Azərbaycanın qədim xəritəsidir. 9-cu və10- cu oğullar əllərini Qobustana sarı uzadıblar.(Qobustan)

Yandan baxılsın



Birinci- baş sərkərdə onun papağına yazılmış "A" işarəsi: "1-Cİ"liyi nişan verir.

Ana və balta. (Qobustan)





1. şəkil."Gəmi" piktoqrafı(Kəlbəcər) və onun qrafik açımı
2. şəkil. "Arfa çalan".(Təbriz)

Fələyin zindanı kürəyimdədir
Səməd Vurğun.



Ananın yükü ağırdı. (Qobustan)

Həyat ana - Qaba Ağac



Ananın bir qolu quş-ruh, ikincisi ilan - qoruyucu, fiqurun ortasından iki tərəfə uzanan işarələr"U" VƏ "Ü" od və su rəmzidir aşağıda "DÖL" və "Kök" yazılmışdır. (Gəmiqayada)



Ay ana. Şəklin sağında hamilə qadın rəsmi.(Qobustan)



Ana bətnində ekiz uşaqlar; tablonun üstündə "ikəz" - iki ekiz - sözləri aydın oxunur. Yandan baxılsın. (Gəmiqaya)



Ayın tutulması: qara əJdaha şər qüvvə timsalında Ayı "yeyir" ; burada həm də Ayın 7 gecəlik birinci fazası simurq quşu kimi təsvir olunmuşdur. Ayın üstündə insan ayağı. (Fraqment. Qobustan)



Danışan adam, onun alnına "Söz", çənəsinə isə "Xəbərnal", Başrana və Batranal yazılmışdır.(Qobustan)səh-322 bax



Babaların babası: qoca qartal, qoja nənə və gənc qız onun ayağlarına döşənmişdir, tablonun üstündə "Ba" piktoqrafı təkrar edilir: BABA. Yandan baxılsın. (Qobustan)



Taxtında oturmuş xan - XAQAN; ortada qanun rəmzi balta görünür. (Qobustan)





1.Şəkil. Tanrının hüzurundan qayıtmış xan taxtında oturmuşdur, BURAQ-İŞIQ at onun yanındadır.
2.Şəkil. Qullar xanı (yuxarıda) və onun xanımını (aşağıda) çiyinlərində aparırlar. Ortadaiki fiqurda "kökümüz" piktoqrafı oxunur. (Qobustan)

DAŞ
GÖBƏLƏK



"Daş göbələk" - arxeoloqlar onu belə də adlandırmışlar.





Sərkərdə və Müdriklər. (Qobustan)

G ƏN C ŞAİR



"Daş göbələk" - çevrilənda gənc şair tablosu göründü (Qobustan)





Müdriklər. (Qobustan)

"MUZAB" - mülkədar, tablonu əksinə çevirəndə mülkədarın-müzabın bahalı qeynmiş xanımı görünür. (Gəmiqaya)

Gəmiqaya - Qobustan Sözləri

AKAKAL : AKSAKAL
ŞAKUM : ŞAKUM
BALTA : BALTA
KAN (XAN) : KAN (XAN)
ƏƏƏƏ : ƏƏƏƏ
TEL : TEL
BEL : BEL
BATAN : BATAN
İne : İne
Onüz : Onüz
BUT : BUT
BAK : BAK
tez : tez
BURAT : BURAT
US : US
BUZAK - BUZAT : BUZAK - BUZAT
ŞIR : ŞIR

BUTDAZ : BUTDAZ
BATUR - BATAR : BATUR - BATAR
AKBAŞ - AKBAT : AKBAŞ - AKBAT
AKŞAK : AKŞAK - AK ŞANAK
SU ANA : SU ANA
SUBAG : SUBAG
BUGA : BUGA
BETAZ : BETAZ
SUBAT : SUBAT
2 İKİ : 2 İKİ
AY : AY
ATANBAQ : ATANBAQ
BAŞOA : BAŞOA





Rəssam bu tablonu "AKAN" adlandırılmışdır; bu qədim polis nəfəridir, onun şapkasında emblem - gü rəmzi-pələng görünür. Fraqment. (Qobustan)



Fil , Kentavr (Gəmiqaya), Qrifon, Şir 2 öküz (Buğa) arasında (Qobustan)

III FƏSİL

GƏMİQAYA -QOBUSTAN ƏLİFBASI

GƏMİQAYA - QOBUSTAN ƏLİFBASI



Qəmiqaya-Qobustanda səs birləşmələri



Qəmiqaya-Qobustanın rəqəm qiyməti

Sıra			Sıra		
1.	AA	1	17.	F	80
2.	ə	2	18.	X	90
3.	ęE	3	19.	h	100
4.	↑	4	20.	Kr	200
5.	ıIN	5	21.	K	300
6.	O	6	22.	ʌL	400
7.	Θ	7	23.	MMu	500
8.	UY	8	24.	HNn-ı	600
9.	Y	9	25.	Π	700
10.	ϑδX	10	26.	PRP	800
11.	BB	20	27.	CS	900
12.	Γ	30	28.	Tmtu	1000
13.	ΔDd9	40	29.	φφ	2000
14.	1	50	30.	4	3000
15.	Ж	60	31.	4	4000
16.	33	70	32.	Ш	5000

BU ƏLİFBANI
BU MƏDƏNİYYƏT YARATMIŞDIR

Azərbaycanda yazı mədəniyyətinin yaranması və inkişaf tarixi öyrənilməyib. Gəmiqaya-Qobustan əlifbası - Gəmiqaya -Qobustan mədəniyyətinin tərkib hissəsi olmaqla Azərbaycanın və dünyanın ən qədim fonoqrafik əlifbasıdır. Mən 1976-2006-cı illərdə Gəmiqaya və Qobustan abidələrini tədqiq edərkən, həmin qayaüstü təsvirlərdə qədim yazı nümunələrini aşkara çıxarmışam. Bu çox ağır tədqiqat idi. Abidələrin üzərində saysız qədər yazı işarələrinə rast gəlirdim: müasir əlifbaların hamıya məlum işarələri: həm "latın", həm "kiril", həm də "Orxon-Yenisey" işarələri; amma nə "latın", nə "kiril", nə də "Orxon-Yenisey" deyil; bu: hər üç əlifbanı özündə cəmləşdirmiş xüsusi, ayrıca bir əlifbadır. Məsələn, həm "Latın", həm "Kiril"in "u" hərfləri, n, l və r hərfləri, f, b, s, d, i, z hərfləri, "latın" və "kiril" üçün müştərək olan A, T, M, K, O, X hərfləri, yalnız "kiril"də işlənən Ç, Ş, P. R hərfləri, "B" (b), "kiril"də "b" (v), "Orxon-Yenisey"də başqa səsləri bildirən N, Ç, M, X, Ü, B işarələri, Azərbaycan yazısında 1925-2001-ci illərdə işlənən Ö, Ü, H, G, J, Ə, hərfləri arxeoloqların özlərini də ciddi düşündürmüşdür. Sonralar öyrəndim ki, bir sıra dilçilər, tarixçilər və başqa müəlliflər də bu yazı işarələrinə ciddi maraq göstərmiş, amma müəyyən nəticəyə gələ bilməmişlər.

Bu yazının "latın"dan, "kiril"dən, "Orxon-Yenisey"dən və başqa əlifbalardan əsas fərqini, sistemini tapmaq lazım idi. Həmin sistem haqqında bu günədək heç yerdə heç nə yazılmayıb, göstərilməyibsə, onu necə tapasan? Mən o sistemi hissə-hissə tapdım. Çətinlik hazır mətnlərə rast gəlməmək idi. Axı, Orxon-Yenisey hazır mətnlər əsasında oxunub. Bu abidələr isə Orxon-Yeniseydən tam fərqlidir. Burada təsvirlər özü "danışır" - mətni əvəz edir. Sistemi tapmağın çətinliyi bununla bağlı idi.

İlk sözləri oxudum: "Tanrı" piktoqrafının - şəkil-sözün T, A, (N, Q), R, I işarələrinin kombinə edilməsi ilə yaradıldığını yəqin etdim. "Ana" sözü də möcüzə kimi tapıldı; lap gözümün qabağında imiş: iki böyük A hərfinin arasında kiçik n hərfi. Bu "latın" "n"-sıdır. Bir qədər sonra Ana sözünün "Kiril" n-sı ilə, "UT-u" sözünün həm "latın", həm də "kiril" u-ları ilə yazılması, "AT" sözünün A və t ("kiril"də T, "latın"da m) işarələri ilə at fiquru yaratması növbəti möcüzələr oldu.

"Tum" sözü böyük T, "latın" u-su və "kiril" m-sı ilə şəkil-söz: piktoqraf yaradıb.

5 hərfli "Buraq" sözü ilə yaradılmış at fiquru şəkil-mətnə misaldır. Buraq - bu atın adını və əlamətini bildirir.

Kö-K sözündə k, ut-u sözündə u ikinci dəfə yazılmayıb. Amma təsvir özü yəqin etməyə əsas verir ki, bunlar məhz "Kök" və "Utu" sözləridir.

"Survan" sözünün "Navrus"a (Novruz-a) çevrilməsi yenə də növbəti möcüzələrdən idi.

Gəmiqaya-Qobustanda hekayə-tablolar (lövhələr) yaradılıb.

Bu abidələrə və bu yazılara Gəmiqaya-Qobustan fenomeni demək olar.

Mən bu mədəniyyəti və bu əlifbanı Azərbaycanın çox yerlərində: Yardımlıdan Zaqatalaya, Qubadan Zəngilana, Şamaxıdan Şəkiyə, Gəncəyə və Mingəçevirə, Gədəbəyə, Kəlbəcərə və Altıağaca qədər qədim abidələr: daşlar, qayalar üstündə rast gəlmiş və müşahidələr aparmışam. Naxçıvan-Gəmiqaya və Bakı-Qobustan bütün bunlarla müqayisədə çox zəngin, daha geniş və rəngarəng və tükənməz olduğuna görə mən onu Gəmiqaya-Qobustan mədəniyyəti və əlifbası adlandırdım, yəqin etdim ki, Gəmiqaya və Qobustan qədim Azərbaycanı birləşdirən vahid mədəniyyət-vahid mərkəz olub; bir də onu yəqin etdim ki: bu əlifbanı bu mədəniyyət yaratmışdır.

Gəmiqaya-Qobustan əlifbasının başqa əlifbalardan, müxtəlif yazı sistemlərindən əsas fərqini daha da aydınlaşdırmaq üçün müqayisələr apardım.

Gəmiqaya-Qobustan: bu qədim Azərbaycan əlifbası 32 hərfdən: 23 samit: 9 saitdən ibarətdir. Bunlar 100-ə yaxın işarədir. Bu əlifbanın 6 səs brləşməsi də həmin 32 hərfin tərkibinə daxildir.

Müqayisələr göstərdi ki, finikiya, yunan-latın, kiril, yəhudi, ərəb, İran (Pəhləvi, Arşakid), Sanskrit, braxmi (Hind) və b. əlifbalar Gəmiqaya-Qobustandan iqtibasla yaradılmışdır. Təkcə belə bir faktı nəzərə çatdıraq ki, bu qədim Azərbaycan əlifbası zaman etibarilə çox uzaq dövrdən: e.ə. VIII-VII minilliklərdən xəbər verir.

(İ.Cəfərzadə, C.Rüstəmov, V.Əliyev, A.Seyidov)

Gəmiqaya-Qobustan əlifba işarələrinin Azərbaycanın digər ərazilərində də aşkarlanması faktı sübut edir ki, bu qədim Azərbaycan əlifbası eradan əvvəlki minilliklərdən ta eramızın 1-ci minilliyinin 8-9-cu əsrlərinə qədər, xüsusən ərəb işğalına qədər Azərbayacanda, Yaxın və Orta Şərqdə, nəhayət, Avropada yayılmış, işlənmiş, öyrənilmişdir. Mənimsəmələr və iqtibaslar da bu prosesdə baş vermişdir. Gəmiqaya-Qobustan əlifbası ilə çoxlu dastanlar, tanrıçılıq inamına bağlı boylar, hekayələr, bayatılar, atalar sözləri, müdrik kəlamlar qələmə alınmışdır.

Vəli Əliyev "Tarixin izləri ilə" kitabında yazır ki, Gəmiqayada qədim yazını xatırladan müxtəlif şərti işarələrdən ibarət maraqlı rəsmlərə də təsadüf edilmişdir. Gəmiqayada 8 rəqəmi, latın U və b hərflərini xatırladan müxtəlif işarələr toplusundan yaranan komplekslər çox qədim yazıları xatırladır. Müəllif onu da nəzərə çatdırır ki, qayaüstü rəsmlərdə, o cümlədən Gəmiqayada qədim yazı işarələri, tayfa nişanları və damğaları axtarmaq elmi cəhətdən məqsədəuyğundur. Lakin düzgün elmi nəticələrə gəlmək üçün qayaüstü rəsmlər, işarələr üzərində linqvist mütəxəssislər tərəfindən uzun müddət gər-

gin tədqiqat işi aparılmalıdır. Qayaüstü rəsmlər haqqında reklam xarakterli uydurma mülahizələr söyləməyə, geniş oxucuları aldatmağa heç bir ehtiyac yoxdur. (44.8).

Gəmiqaya-Qobustanın yenidən dünyaya qayıtması ilə Finikiya əlifbasının uydurma "birinciliyi"nə həmişəlik son qoyulmuşdur. Finikiya "Orxon-Yeniseydən əvvəlki əlifba" deyil və Orxon-Yenisey heç də Finikiya - Arami əlifbasının yox, Gəmiqaya-Qobustan əlifbasının modeli əsasında meydana çıxa bilərdi.

Gəmiqaya-Qobustan əlifbası belə bir həqiqəti təsdiq edir ki, fonoqrafik əlifba bir nəfər tərəfindən bir ayda, bir ildə yaradıla bilməzdi. O, uzun illərin təcrübəsindən, sınaqlarından keçərək insan kollektivinin, etnosun - xalqın soy psixologiyasına, dünyagörüşünə, dil və din birliyinə əsaslanaraq, piktoqraflar - şəkil sözlər, damğalar, rəsmlər toplusundan seçilərək, bir sapa düzülərək, formalaşaraq yaradıla bilərdi. Belə əlifbanın yaradıcısı bütün xalq olub. Əlifba məhz əlifba kimi formalaşana qədər bir neçə mərhələdən keçib. Onun nizama - "sapa" düzülməsində azı bir neçə, yaxud onlarla bilici iştirak etmişdir. Burada kiminsə xidməti daha çox olub. Gəmiqaya-Qobustan əlifbası məhz bu şəraitdə, bu tələblərə əsaslanmaqla yaradılmışdır. Bu əlifbada az qala hər bir hərfin, işarənin öz yaranma tarixçəsi var.

Gəmiqaya-Qobustan çoxşəkilli əlifba olmuşdur. Törəmə əlifbalar onun çoxşəkilli hərflərindən - işarələrindən özlərinə lazım olanı seçib götürmüşlər, hər iqtibasçı əvvəlki iqtibasçıdan faydalanmışdır.

4.2. Əski əlifbamız ərəb əlifbası deyil

Ərəb əlifbası qədim Azərbaycan əlifbasından törəmə olmaqla, tamam yad bir dilin fonetikasına əsaslandığına və bir sıra ciddi çətinliklərinə görə, Azərbaycan xalqı üçün qəbuledilməz olmuşdur. Mütəxəssislərin də etiraf etdikləri kimi, bu əlifba VIII-IX əsrlərdə Azərbaycan xalqının kütləvi savadsızlığının bünövrəsini qoymuşdur. Bu əlifbanı yalnız tək-tək adamlar çox çətinliklə mənimsəyə bilmişlər. İlk vaxtlar ərəb əlifbası ilə yalnız ərəb sözləri və mətnləri yazılmışdır. VIII-IX əsrlərdə Cavidan-Babək üsyanı həm də xalqa zorla qəbul etdirilən ərəb əlifbasına qarşı üsyan olmuşdur. Zaman-zaman közərmiş bu etiraz dalğasını XIX əsrdə M.F.Axundov yenidən alovlandırmış və ən nəhayət 1926-cı ildə Azərbaycan xalqı bu yad əlifba ilə birdəfəlik üzülüşmüşdür.

Sonralar latın, kiril və nəhayət sonuncu - türk latını qədim Azərbaycan əlifbasının qismən təhrifi ilə ona xeyli yaxınlaşmışdır. Təsadüfi deyil ki, ərəb əlifbasından imtina etmək 1920-ci illərdə Şərqdə mədəni inqilab kimi səslənmişdir. Xalqın kütləvi savadsızlıqdan çıxarılması məhz ərəb əlifbasın-

dan xilas olması ilə başlanmışdır. Ərəb əlifbasının öyrənilməsinin çətinliyi üzündən VIII əsrdən XX əsrədək Azərbaycan xalqının içərisindən minlərlə istedad yetişə, inkişaf edə bilməmiş, öz içində boğulmuşdur.

Ərəb əlifbasının yadlığına dahi Füzuli, M.F.Axundov, Sabir və Rəsul Rza ürək ağrısı ilə etiraz etmişlər.

Ərəb əlifbasından qardaş Türkiyədə də 1920-ci illərdə imtina edilmişdir.

Bu gün ərəb əlifbasını ərəb-fars təmayüllü orta və ali məktəblərimizdə tədris elən mütəxəssislərimiz özləri də onun çətinliklərindən, hətta "ən böyük çətinliklərindən" danışırlar. Məsələn, Z.T.Hacıyeva "Əski əlifba" kitabında (44.7) bildirir ki, burada hərfin dörd formasından yalnız biri seçilməlidir. Bu da sözdən asılıdır. Hərf sözün əvvəlində, ortasında, sonunda və s. gəlməlidir.

Gəmiqaya-Qobustan əlifbasında qarşıya belə çətin şərtlər qoyulmur. Burada eyni hərf sözün əvvəlində, ortasında və sonunda eyni qrafik işarə ilə yazılır. Yalnız bəzi sözlərdə hərfin şəkil fərqinə təsadüf edilir.

Yenə də Z.Hacıyevanın dediyi kimi: ərəb əlifbasında hərf birləşmələri və onun "əli yazıdan çəkmədən axıradək yazılması" -çətinlik törədir. Burada "rəsmxətdə olduğu kimi, yazını qurtaranədək qələmi kağızdan ayırmaq olmaz" (44.7).

Yalnız sözü yazıb sona çatdıqdan sonra hərflərin nöqtələri qoyulmalıdır. Bu nöqtələrə dahi M.F.Axundov sərt etirazını bildirmişdir. (45.34). Ərəb əlifbasında "özündən sonrakı hərflə birləşmək üçün birləşə biləcək ünsürün olması vacibdir"(44.6).

Gəmiqaya-Qobustan əlifbasında belə ünsürlər və nöqtələr çoxluğuna ehtiyac olmamışdır. Ərəb əlifbasını öyrənmək üçün "formanı düzgün seçmə adətinə" yiyələnmək tələb olunur. Mütəxəssis özü deyir ki, ərəb əlifbasını öyrənməyin çətinliyi insanda ruh düşgünlüyünə səbəb olur. Amma gərək səbrli olub, ruhdan düşməyəsiniz (44.9).

Gəmiqaya-Qobustan əlifbasında isə ruhdan düşməyə heç bir əsas yoxdur. Hər şey bir yana, Gəmiqaya-Qobustan əlifbasının hərflərinin və buradakı bəzi piktoqrafların estetik görümü insanı ruhlandırır, ona zövq verir.

"Hərf nədir? - Danışıq səsinin yazıda işarəsi. Ümumiyyətlə hər bir hərf yazıda müəyyən bir danışıq səsini ifadə edir. Hərfin arxasında danışıq səsi durur" (44.11).

Gəmiqaya-Qobustan əlifbası Azərbaycan dilinin danışıq səslərinə uyğun yaradılmışdır. Gəmiqaya-Qobustan əlibası ilə müqayisədə tək ərəb əlifbası deyil, dünya əlifbalarının (törəmə əlifbaların) bir çoxunda ciddi çətinliklər var. Elə sözügedən "əski əlifbanı" - ərəbi keçmişdə çox çətin, bəzən 20 ilə öyrəniblər. Yəni əslində öyrənə bilməyiblər. Bu əlifbanı uşağa öyrətmək əzab olub. Elə çətinliyinə görə, əvvəlcə hərflərin adlarını mexaniki surətdə əzbərlətmək lazım gəlmişdir. Uşaq əzbərlədiyi hərfi vaxtından əvvəl yazmaq istədikdə sevilmək, başı sığallanmaq əvəzinə, hətta ağır cəzaya məruz qalmışdır.

Dahi Ələkbər Sabirin "Mollam da döyür yazı yazanda" - məşhur misrası buna zərb-məsəl olmuşdur.

Gəmiqaya yazı işarələrindən 17 hərfin Oğuz damğaları olması fikri də irəli sürülmüşdür. Cəfər İsmayıloğlu (Cəfərov) bunanla əlaqədar böyük zəhmət tələb edən elmi axtarışlar aparmışdır. (46). O, "Oğuz damğaları" timsalında Gəmiqaya işarələrinə, hərf və piktoqraflarına bir sıra başqa əlifbalarda, məsələn elə Orxon-Yeniseydə, qədim hind Brahmi əlifbasında, Azərbaycandan kənarda türk ellərinin bir sıra oymaqlarında damğalar kimi təsadüf edildiyini misal gətirmişdir. O, Qobustanda bir neçə işarəni e.ə. III minilliyə aid Azərbaycan – türk Orxon-Yeniseyi hesab etmiş, Qobustan piktoqraflarını Orxon-Yeniseylə oxumağa çalışmışdır. (46.19). Strabondan gətirdiyi bir misala söykənərək əsaslandırmışdır ki, e.ə. VI minillikdə türk tayfalarının bir-birinə yaxın əlifbaları olmuşdur (47.137). Bu da Gəmiqaya-Qobustan əlifbasının tarixi varlığından daha bir soraqdır.

Gəmiqaya-Qobustan işarələrinin müxtəlif vaxtlarda müxtəlif ərazilərdə damğalar kimi aşkarlanması da onların heç də həmin yerlərdən gətirildiyini söyləməyə əsas vermir.

Əlifbanın guya "damğalardan seçilərək yaradılması" fikrinin elmi əsası yoxdur.Əksinə, damğaların çoxu hazır əlifba işarələrindən yaradılmışdır.

4.3. Buğa başı - A və U işarələri
Alov – ALOVBA - Əlifba

Buğa başı (buğa bürcündə) A hərfini "yaratmaqla" öz "tarixi" missiyasını yerinə yetirib və martın 21-də üfüqün arxasına çəkilib. Yəqin buna görə guya hər il martın 21-də "çarxın bir an dayandığı" güman edilib. Çarxı "yenidən hərəkətə gətirməyi" isə Şir (şir bürcü) "öz üzərinə" götürür.Buğa səmada bir də payızda görünməyə başlayır.

"Buğa" və "Öküz" sözü Göylə bağlı olmaqla, həm də suyun, su həm də soyuğun təmsilçisidir. Şir isə işıq - iş - ir kodu ilə açıqlanır. «Şir» sözü: ən işıqlı, ən dadlı, ən gözəl məzmunlara da başlanğıc olur. Şirin gözəl - Şirvin mələk ("Avesta"da) (48.49.50.51), Şirvan: I - şir - van: işığı, istisi, yaşılı, yaraşığı, nemətləri bol olan diyar.

İçəri şəhərin qoşa Qala qapısına Survan-Novruz qapısı da demək olar. Bu qapının önündə, daş təsvirdə buğa 2 şirin ortasındadır. Bir buğaya bir şir bəs etməzdimi? Buradakı ikinci şir güzgüdə əks olunmuşdur. Yəni burada əslində 1 buğa və 1 şir üz-üzə dayanıb. İkinci şir birincinin güzgüdə (səmada, suda) görünən əksidir. Bunlar səmadakı şir və buğa bürclərinin timsalıdır və bu, qədim Şirvanşahlar dövlətinin gerbi kimi qəbul edilib. Qədim memar səhv etməyib. O, yaxşı bildiyi güzgü - səma (güzgü - su) metodu ilə düşündürü simvol yaradıb.(səh.308)

Martın 21-də alınan təsvirdə "göy yerə enir". 12 ulduzdan ibarət Buğa bürcü martın 21-dək səmada yarım il "hökmranlıq edib". O gün şir (şir bürcü) səmada və güzgüdə "görünüb". Buğa başına oxşayan ulduz bürcü A hərfi kimi düşünülüb. Buğanın başı həm də qədim inamda alov timsalındadır (52). "Alov" sözü ərəb, yəhudi, yunan dillərində əlif, alef və alfa şəkillərində (53) təhrifə uğramışdır. Qeyd: Bununla əlaqədar professor İsmayıl Ömərogu deyir: məğlub edilmiş buğa martın 21-də yerə enərək öküzə çevrilir və yaz əkinçi qayğılarına qoşulur.

Mahmud Kaşqarlıya görə «hərf» sözünə qədim türklər «bit» (yəni bitmək) deyiblər. Yazı ilə bağlı bir çox sözlərin əsasını məhz «bit» təşkil edir. «Bitiq-Kitab», «bitiqçi-yazı yazan», «bitil-yazmaq» və s. (98.65). «Bitiq» sözü Gültəkin abidələrində də var. B.Çobanzadə Orxon-Yenisey kitabələrini «bitiq daşları» adlandırıb (98.65., 99.7).

H. Əzizoğlu yazır: «Bəs, bizcə, qədim Türklər «əlifba» məfhumuna nə deyirdilər»? V.V. Radlova görə «A»-«böyük» deməkdir; deməli «abit»-böyük hərf, «albit»-hərflərə yiyələnmək, «alpbit» «igid qəhrəman, hərflər», nəhayət, «alpabit»-«hərfləri mənimsəmək, hərflərin qarşısında məsuliyyət daşımaq» deməkdir (98.66).

Bu gün kitab hərfinə-«basma hərf» də deyilir. Deməli, hərf kağızda və daşda məhz bitirilir-bitkiyə çevrilir, Daşa, kağıza, maşina (mətbədə) basılır-basdırılır: əkilir, bitirilir. «Alovba»dan yaranmış latın «alfa»sının rus törəməsi-«alfavit» həm «alov»u, həm də «bit»i əks etdirir: «bitən alov»; «Alpabit»də isə «igid qəhrəman»- məzmundan kənara çıxmaqdır. Alovba-əlifba-alfa-alfavit-sözlərində eyni ulu məzmun: əlifbanın 1-ci və 2-ci hərfləri: Od və Su işarələri: A və B: A-saitlərin və bütün hərflərin 1-cisi: Böyük hərf, B samitlərin 1-ci bitəni-1-ci hərfi-işarəsi kimi, Tanrıçılıqdan gələn əzəli qanunauyğunluğu təsdiq edir.

Öküz mahnısı "holovar" - "A - lov - ar". Yəni, buynuzlu buğa-öküz. (18:57). Alovba- Alov işarələrinin cəmi: Əlifba

Hərfin yaranması qanunauyğunluğa, təcrübəyə əsaslanır. Piktoqraf inkişaf mərhələsi keçir və ən qısa işarəyə - hərfə çevrilir.

4.4. Yazının qədim sistemi

Yazı necə meydana gəlmişdir? Elmi fikir bundan ibarətdir ki, yazının qədim sistemi piktoqraflara bağlıdır (54.55.56). Məhz piktoqrafların əsasında işarələr bəzən heroqlif təsvirli olur - xüsusən də qayalarda. Qədim gil lövhələrdə, dəridə, papirusda, ağac və metal üzərində piktoqraflar həkk olunmuşdur. Bunlara dünyanın çox yerində rast gəlinmişdir. Onların bir-birinə oxşarlığı xalqların qədim əlaqələrindən xəbər verir. Heroqliflərdə heyvanın,

əşyanın özü əks olunmuşdur. Piktoqraf bunu simvollaşdırır, yazı işarəsinə tam yaxınlaşdırır. Qədim işarələr çox müxtəlifliyi ilə diqqəti çəkir. Əlifba yaradılmasında işarələrdən seçmələr aparılmışdır. Gəmiqaya-Qobustanda da bunu müşahidə etmək olur. Gəmiqaya-Qobustan əlifba işarələri müxtəlif damğalarda da əks olunmuşdur. Damğaları yaradanlar bu işarələrdən bəhrələnmişlər. A.P.Okladnikov Orxon-Yenisey ətrafında Elqazur qrupundan olan petroqliflərdən söhbət açarkən bildirir ki, bunlarda başlanğıj mərhələdə heyvan dayanır. İnsan burada kənar, təsadüfi iştirakçıdır. Bu petroqliflərdə ilk şaman dünya görüşü əks olunmuşdur (57).

Cəfər İsmayıl oğlu Cəfərov Gəmiqaya işarələrindən söhbət açarkən bunların damğalar olması ilə yanaşı, Orxon-Yenisey əlifbası ilə bağlılığını da misal çəkmişdir (46). Əslində Gəmiqaya "damğa"ları kimi göstərilən 17 işarə qədim Azərbaycan əlifbasının çoxşəkilli hərfləridir. Orxon- Yenisey əlifbasının yaradılmasında da bu hərflərdən istifadə olunmuşdur. Gəmiqayada kənardan gətirilmiş "damğa işarəsi" yoxdur.

Petroqliflərin yaşı məsələsi arxeoloqların təyinatında belə açılır: bu işarə daş dövrünün, bu, tunc dövrünün yaddaşıdır və s.

Ukrayna alimi V.S.Draçuk Şimali Qaradəniz ətrafı işarələr sistemindən danışarkən onların damğa şəkilli olub qədim skiflərlə bağlılığını, onların yaradıcılıq məhsulu olduğunu bildirir. Əlavə edir ki, Yunanlar bu işarələr sistemindən istifadə edərək öz mədəniyyətlərini yaratmışlar (58.8). V.S.Draçuk onu da əlavə edir ki, eramızın birinci minilliyinin əvvəlində sarmatların - türklərin bir hissəsi slavyanlara, qalanı cənubi-şərqi Avropa tayfalarına qarışmışlar. Sarmat - Türk mədəniyyəti Avropada quldarlığın süqutuna gətirib çıxarmışdır (58.10).

Damğaları başqa rus və Avropa alimləri də araşdırmış və etiraf etmişlər ki, türk (sarmat) damğaları rus və Avropa yazı mədəniyyətinin inkişafında həlledici rol oynamışdır (59.60).

4.5. AĞ Sunqur Quşu

Qazan xan deyir:

"Ağ sunqur quşu erkəyində bir köküm var" (13).

Bundan əvvəl isə Qazan xan öz soykökünü Ağ qayanın qaplanının erkəyinə, Ağ sazın (gölün) aslanına və əzvay qurd əniyinin erkəyinə bağlılığını misal çəkmişdi (13).

"Kökün erkəyi" yaradılışın od başlanğıcı inamı ilə bağlıdır. 8-ci boyda Təpəgözü məğlub edən Basat "Atam adın deyirsən - Qağan Aslan" (13) söyləmişdi. Qazan xanın onu "Ağ sazın aslanına" çevirməsi bəlkə də dastançının niyyəti ilə diqqəti ulu inamdan yayındırmaq olmuşdur. Dastanda başqa

boylarda da, məsələn, "Uşun qoca oğlu Səgrəyin boyunda" əsil-nəsil dərinə getmədən xatırlanır. Və dastançı bu xatırlamada da xəlvət pərdəsini açmır. Bununla yanaşı, dastançı inamın açılmasına, gələcək nəsillər üçün düşünməyə ehtiyatla, xəsisliklə əl yeri qoyur. Belə ki, "Anam adın sorar olsan - Qaba Ağac" və "Atam adın deyirsən - Qağan Aslan" ünvanı da 12 boyda yalnız bir ləfə səslənir. Səgrəyin öz qardaşına müraciətlə "Qalarda - qoparda yerin nə yerdi" - sorğusu cavabsız qalır. Bu suala Basatın dilindən cavab verilmişdir. Odur ki, dastançı onu təkrar etmir. "Ağ sunqur quşunun erkəyi" də bir dəfə xatırlanır.

Yaradılış ideyasında quş əsas ünsürlərdəndir. Azərbaycan mifologiyasının su, işıq, göy, hava (od, torpaq, su, hava) dördlüyündə quş - göyü təmsil edir. Ruh - quş timsalında göydən gəlir və uçub göyə gedir. Dastanda "Anan yeri uçmaq olsun" (cənnət olsun!) alqışı həmin məzmundadır. Gəmiqaya və Qobustanda quş - ruh simvollarına bir neçə məqamda rast gəlinir. Quş məhz kök (başlanğıc) timsalında ruhun simvoludur. Gəmiqayada və Qobustanda təzə dölün - uşağın (və bəzən hər bir adamın) başında quş təsvir edilmişdir.

Vəli Əliyevin "Gəmiqaya abidələri" kitabında (1992) üç piktoqraf Gəmiqaya-Qobustan əlifbası ilə yazılmış, təsvir edilmişdir ki, onlar "Köküm, gözüm (kökümüz, közümüz) bu quş"dur oxunur (6.21).(səh.172)

"Bu quş"un adını və əlamətini isə artıq bildiyimiz kimi, Qazan xan deyir: "Ağ sunqur quşunun erkəyi".

Erkək və közüm (közümüz!) - həyatın od başlanğıcıdır. Bu, Tanrıçılığın ilkin ikili: od + su mərhələsi ilə bağlıdır. Bunu hər bir oğuz, yəni Qazan xanın oğlu, qadını, gəlini də deyə bilərdi. Azərbaycan dilində bu gün də "Can quşu" ifadəsi var. Qazan xan "Sunqur quşu" deyərkən diqqəti "can"dan yayındırmış və üstəlik quşu da müasirləşdirmişdir, - şahin - şonqar quşu kimi təqdim etmişdir. Tədqiqatçıların fikrincə, "Ağ sunqur quşu erkəyində bir köküm" əsatiri totemçilik görüşü ilə bağlıdır. Rəşidəddinin "Oğuznaməsi"ndə çepin tayfasının onqonudur (61.62). Qədim türk xalqlarında bir çox hallarda soy-kök ağ qu - ağ qaz surətində təsəvvür olunurdu (62). Amma fikrimcə, burada çepin tayfasının onqonu olmaqdan daha əvvəlki çağlardan söhbət gedir. Sunqur quşu - od quş, simurq - simruq - səməndər quşu, zümrüd quşu, imduduq quşudur (63). Ağ quş - gecələr gözəli Leyladır - Aydır. Bu quşlar igidləri qaranlıqdan işığa çıxarır. Bu quşun Humay quşu olması da qanunauyğundur.

4.6. "Finikiya"ya qədər "finikiya" "Latın"a qədər "Latın" "Kiril"ə qədər "Kiril"

S.Kramer (63), O.Süleymenov (64), T.Hacıyev (65), V.Məmmədəliyev (66), İ.Afanasyeva (67), İ.Ömərəoğlu və dünyanün bir çox başqa alimləri, nəhayət, "Azərbaycan tarixi" dərsliyi (1994) yazırlar ki, sami tayfaları İkiçayarasını işğal edəndən sonra bu ölkənin, ümumi adı "Şumerlər" olan sakinlərinin mədəniyyətinə sahib çıxdılar. Üstəlik şumerli biliciləri məcbur etdilər ki, Şumer-Sami (Şumer-Akkad) lüğətini tərtib etsinlər (63). Şumer dastanlarını akkadcaya çevirsinlər. Bəllidir ki, bu proseslər mövcud əlifba ilə həyata keçirilə bilərdi. İkiçayarası sakinlərinin başına gətirilən tarixi faciələr sübut edir ki, Sami tayfalarının o vaxta qədər öz fonoqrafik əlifbaları olmamışdır. Onlar Şumer mədəniyyətinin tərkib hissəsi kimi Şumer əlifbasına da yiyələnmişlər. İşğalçılığın təbiəti tələb edir ki, ələ keçirdiyi mədəniyyəti öz adına çıxsın. Sami işğalçılar da belə hərəkət etmişlər. Onlar Şumer-(şumerli türk) əlifbasının üstündə əl gəzdirmiş, onu mümkün qədər samiləşdirmişlər. Amma samiləşmiş və daha sonra latınlaşmış, kirilləşmiş əlifbaların hamısında, qədim hind, aramey əlifbalarında və başqa Şərq-Qərb əlifbalarında Gəmiqaya-Qobustan və şumer (protoazər-prototürk) əlifbalarının izləri aydın görünür.

Tanrıçılıq dini Şumer mədəniyyətinin tərkib hissəsi olmuşdur. İşğalçı akkadlar - samilər - Tanrının tək, vahid, görünməz olması, cənnət və cəhənnəm, Adəm, Xızır, Hun, Azər (!) peyğəmbərlərini, Tanrının adlarından bir neçəsini: Allah, Bağ (Boq), Xudaya (Xudu-utu-Günəş), Şam (Şəms - yenə də Günəş) və s. öz düşüncələrinin və dillərinin məhsulu qələminə vermişlər.

Bir çox ədəbiyyatlarda finikiyalılardan elə danışılır ki, guya bunlar Şumer mədəniyyətinə sahib çıxan samilərdən olmayıbmışlar, guya finikiyalıların "şumerlərdən xəbərsiz" yüksək mədəniyyətləri var imiş və hətta guya "Qədim hərfli yazıların" ən mükəmməli finikiya yazısı imiş (?). Onun əsasında Yəhudi, Suriya, İran (Pəhləvi), Ərəb, Türk (?), Uyğur, Monqol əlifbaları təşəkkül tapıbmış (68) . Bu uydurma, Sami tayfalarının Şumer xalqlarının mədəniyyətlərinə sahib çıxmaları haqqında tarixi həqiqəti bilərəkdən inkar etməkdir.

Cədvəllərdən göründüyü kimi finikiya əlifbasında Gəmiqaya-Qobustan əlifbasının A, B, V, Q, D, E, J, Z, İ, U, R, S, Ç, H, F, X, Ş hərfləri eyni şəkildə iştirak edir. Samilər Gəmiqaya-Qobustan əlifbasından (bu əlifbanın şumer variantından) 22 samiti iqtibas edib, onları protoazərlər kimi "müqəddəs" adlandırarkən bu müqəddəsliyin səbəbini bilməmiş, işarələrdə əzəli, mifoloji məzmunu şərtiliklə əvəz etmişlər.

Yunanlar da öz əlifbalarını heç də birbaşa finikiyalılardan iqtibas etməmişdilər. Onlar maqizmin - Od mədəniyyətinin vətəni Azərbaycana tez-tez səfər edirdilər və bu diyarın maddi və mənəvi dəyərlərindən bəhrələnməyə çalışırdılar (49). Bunu yunan-latın əlifbasında da müşahidə etmək olur. Məsələn, A hərfi finikiyalılarda tərsinə və yanı üstədir. Belə variant Gəmiqaya və Qobustanda da müşahidə olunur. Yunanlar A-nın "ayaq üstə" variantında dayanmışlar. Yunanlar B, V, Q, K, L, N, P (R), S, Ş, U hərflərini də "finikiyalıların başı üstündən" birbaş ilk mənbədən - Gəmiqaya-Qobustandan götürmüşlər.

863-cü ildə Slavyan əlifbasını tərtib edən Kiril (69) öz iqtibasında yunan-latın variantına əsaslansa da, baş mənbədən - Gəmiqaya-Qobustandan daha çox bəhrələnmişdir. Diqqət yetirmək lazımdır ki, Azərbaycan əlifbasının "Kiril" mərhələsində (1939-2001) işlənən hərflərin çoxunun Gəmiqaya-Qobustanda və Azərbaycan xalçalarında aşkarlanması heyrət doğuracaq tarixi həqiqətdir.

Kiril əlifbası 863-cü ildən 1920-ci ilədək bir neçə dəfə təkmilləşdirilmişdir. Azərbaycan əlifbasının "Ərəb"dən "Kiril"ə keçməsi də 1920-30-cu illərə təsadüf etmişdir. Kirildə və ondan əvvəl latında və finikiyada və yenə də ondan əvvəl şumerli türklərdə müşahidə edilən A, B, b, V, T, m, J, S, E, e, F, Ş, M, H, N, K, D, d, O, Q, P, J, X, Ç, 1, 2, 3, 4, 5, 6, 7, 8, 9 - "ərəb rəqəmləri", "riyazi işarələr", "rum rəqəmləri: I, II, III, IV, V, X, L, C, M və s. 1140 il əvvəl "Kiril"ə, Ə, Ö, Ü, G, J işarələri isə 1926-cı ildə Azərbaycan "Latın"ına, oradan da 1939-cu ildə Azərbaycan kirilinə gətirilmişdir! Burada ilk mənbə: Gəmiqaya-Qobustan əlifbasıdır. Bu əlifbadan kimin necə faydalandığı xüsusi tədqiq olunmalıdır.

Bununla yanaşı, uzun illər, əlifbada "Finikiya birinciliyinin " qızğın tərəfdarı olan rus alimləri həmin uydurma "finikiya birinciliyi"ni özləri rədd etmişlər.

Rus alimləri Q.S.Qrineviç və Y.Kesler "Praslavyan yazısı"ndan söhbət açır və bildirirlər ki, qədim slavyanlar hələ e.ə. V minillikdə mükəmməl fonetik əlifbaya malik olmuşlar və dünyanın bütün əlifbaları məhz "Praslavyanın törəməsidir" (70). ("Proto" əvəzinə "Pra" yazılmışdır).

Onlar bunun təsdiqinə hər hansı dəlil - sübut gətirmirlər. Amma hər halda bu müəlliflərin, e.ə. V minillikdə - Kiril və Mifodi qardaşlarından 6-7 min il əvvəl mövcud olmuş fonetik əlifbadan söz açmaqları əlifbada "finikiya birinciliyi"ni rədd etməkdir. E.ə. V minillikdə "praslavyan" əlifbasının olub-olmaması rus müəlliflərinin öz problemləridir və bu hipotezanın qədim Azərbaycan əlifbasına bağlılığı tədqiq olunmalıdır.

4.7. Samilər "öz qədim əlifbaları"ndan nə üçün imtina etdilər?

Bu suala yazı tədqiqatçıları, o cümlədən İ.Fridrix və İ.Dyakonov cavab vermirlər. Cavab isə aydındır: Şumeri işğal edənə qədər samilərin (akkadların) öz fonoqrafik əlifbaları olmayıb. "Finikiya", sonradan "finikiyanın arami variantı" adı ilə təqdim edilən əlifba - əslində, qədim Azərbaycan: Gəmiqaya - Qobustan əlifbasından təhriflə iqtibas edilmişdir.

Qədim Azərbaycan əlifbası protoazərbaycan (prototürk) dilinin leksik - fonetik (səs) quruluşuna əsasən yaradılmışdı. Samilərin - finikiyalıların dili qədim Azərbaycan əlifbasının səs işarələrinə uyğun gəlmirdi. Ona görə də samilər həmin əlifbadan - onlara yad olan qədim Azərbaycan əlifbasından nəhayət, imtina etməyi və onun fonetik işarələri - hərfləri əsasında özlərinə, öz dillərinin quruluşuna uyğun əlifba yaratmağı vacib bilmişlər.

Arami əlifbasını yaradanlar da samilər kimi hərəkət etmişlər, yəni onlar da qədim Azərbaycan əlifbasının bazasında öz dillərinin fonetik-leksik quruluşuna uyğun əlifba yaratmışlar.

Erməni əlifbası da IV əsrdə (71.72) qədim Azərbaycan əlifbasından iqtibasla yaradılmışdır. Son zamanlarda isə bəzi erməni müəllifləri heç bir əsas olmadan "erməni əlifbasının qədim variantı" haqqında danışmağa başlamışlar. Məlum olur ki, söhbət yenə də qədim Azərbaycan: Gəmiqaya-Qobustan əlifba işarələrindən gedir. Azərbaycanın daha nəyi qaldı ki, erməni ona sahib çıxmaq istəməsin?

Haqlı sual yaranır: əgər doğrudan da bu qədim Azərbaycan əlifbası "finikiya - arami - sami", nəhayət , "qədim erməni" əlifbası idisə, onlar: finikiyalılar - samilər, sonra da ermənilər bu "öz" əlifbalarından nə üçün imtina etmiş və ondan iqtibasla özlərinə "yeni əlifba" quraşdırmışlar? Doğrudanmı onlar özləri özlərindən "iqtibas etmiş", "özləri özlərindən oğurlamışlar"?

Bütün bunlara tarixi, elmi saxtalaşdırmaqdan başqa ad vermək olmaz.

Öz yaratdığından heç kəs imtina etmir. Necə ki, çinlilər və yaponlar öz heroqliflərindən bu gün də imtina etməmişlər.

Bir daha xatırladaq ki, əlifbalardan çoxu daha əvvəlki əlifba sistemlərindən mənimsəməklə yaradılmışdır.I.Dyakonov bu məsələyə aydınlıq gətirir. (Insan, mənimsəmə vaxtı yaradıcılıq təşəbbüsü göstərmir: o, mənimsədiyi əlifba ilə əvvəl öz sözünü yazır, yalnız uzun müddətli təkamüldən sonra mənimsənilən əlifba az, ya çox dərəcədə yeni dilin tələbinə uyğunlaşa bilir). (71-11)

Bu isə, minilliklər boyunca qədim Azərbaycan (Gəmiqaya-Qobustan) əlifbasını mənimsəyən akkad (sami), finikiya, arami, arşakid, yunan-latın, kiril-rus, erməni və b.əlifbaları yaradanların - iqtibasçılar olduqlarını bir daha təsdiq edir.

4.8. QAYA TƏSVİRLƏRİ TEKSTOLOJİ MƏNBƏDİR

Uzaq minilliklərdə Azərbaycanda və ona həmhüdud ərazilərdə məskunlaşmış etnoslar bərabər sayda olmamışlar: Bəziləri yüzlərcə, digərləri onlarca ailədən ibarət olmuşdur. Say çoxluğu təşkil edənlərin dili başqa enoslar üçün həm də ümumi ünsiyyət vasitəsinə çevrilmişdir. Yəni hər etnos həm öz dilində, həm də ümumi ünsiyyət vasitəsi olan dildə danışmışdır. Bu təbii prosesdə bəzi fərdiliklər nəzərə alınmaqla, onlar ümumi mədəniyyət yaratmışlar.

Söhbət qədim Azərbaycan: Gəmiqaya-Qobustan mədəniyyətindən gedir.

Qəzənfər Kazımov yazır: «Türklər Ön Asiyanın əzəli və əbədi sakinləri olmaqla yanaşı şimala, şərqə və qərbə buradan yayılmışlar. Hind-Avropalılar, samilər, Qafqazdillilər və başqaları da». (73.3).

Akademik İqrar Əliyevin fikrincə, Azərbaycanın ən qədim avtoxton (yerli) əhalisi iber-Qafqaz dillilər olmuşdur. Onların ardınca Azərbaycana irandillilər, nəhayət, türkdillilər gəlmişlər (74.3, 26).

Bir sıra alimlər, o cümlədən Azərbaycan MEA-nın müxbir üzvü, professor Nizami Cəfərov bu fikri bir daha təsdiq edir (75.19).

Bəs, ilk avtoxton etnoslar bu ərazidə nə vaxt görünmüşlər? AMEA-nın müxbir üzvü, professor Rəfail Hüseynov və filologiya elmləri doktoru Kamil Allahyarov yazırlar: «Qafqazda məskunlaşmış xalqlar arasında Qafqazdilli xalqlar şərti olaraq avtoxton sayılırlar. Ancaq, məlumdur ki, Qafqazdilli xalqların əcdadları jəmi 3000-3500 il bundan əvvəl Qafqazda yox, indiki Şərqi Türkiyədə və İranın qərb ərazilərində yaşamışlar» (76.5).

«Şərti» hesab edilən bu etnoslar və bu tarix qədim Azərbaycan – Gəmiqaya Qobustan mədəniyyətinin artıq mövcud olduğu e.ə. VIII minillikdən (İsaq Cəfərzadə, Cəfərqulu Rüstəmov və b. (3., 5) azı 6000 il sonra gəlir. Qədim Azərbayjan mədəniyyəti qədim Şumer, Misir və Hind mədəniyyətlərindən də 4-5 min il əvvəl təşəkkül tapmışdır. Bunu Gəmiqaya-Qobustan qaya təsvirləri də təsdiq edir.

Akademik İqrar Əliyevin sağlığında Gəmiqaya-Qobustan təsvirləri hələ oxunmamışdı. Onları ilk dəfə bu sətirlərin müəllifi oxumuşdur.

Gəmiqaya Qobustanda baş mövzu:

Tanrıçılıqdır. Onun təbiətə bağlı yaradılış ideyası dünyanı iki sütunlu - İKİLİ: Od və Su, Mənfi və Müsbət, Xeyir və Şər, Adəm və Həvva: An və Ki, İşıq və Zülmət, Gecə və Gündüz, Həyat və Ölüm və 4 ünsürlü: Su – İşıq – Göy- Hava. Göy-Ruhun da məskənidir. Tədqiqat göstərir ki, özündə elmi və dini düşüncəni biləşdirən Tanrıçılıq bəlkə də çox uzaq çağlarda bütün dünyanın vahid ideologiyasına çevrilmişdir. Bu ideologiyanın əsas atributları Gəmiqaya-Qobustan rəsmlərində bu günümüzə gəlib çatmışdır.

4.9. GƏMİQAYA-QOBUSTANDA TANRIÇILIĞIN ATRİBUTLARI

(Atribut. (lat.) Fəlsəfədə hadisənin ayrılmaz, daimi, zəruri əlaməti, xassəsi.
Azərbaycan dilinin izahlı lüğəti. I. B. 1966.s.143)

- Utu: Gün: - Od Tanrı: Tanrı qüdrətinin baş təmsilçisi; Həyatın baş mənbəyi;

- Ay: Su Tanrı - Ay Ana – Ay Xaqan;

- 10 İşıq: Bütövlük, tamlıq;

- Şir: İşıq (ulduz) bürcü: İşığın-istinin gəlişi, həyatın yenidən doğulmasının başlanması və davamı;

- Buğa: Su (ulduz) bürcü: payızın, sərinliyin, soyuğun, qışın gəlişi;

- Boz qurd; As ana- Asina- Aşina- I-ci Ay Ana –I-ci İşıq Ana;

- Keçi: Yazın gəlişini ilkin xəbər verən, Qarçiçəyi – Novruzgulu, öndə gedən;

- Qoç: Qoç (ulduz) bürcü: yazın birinci ayı;

- Maral: Maral (ulduz) bürcü: bolluq, artım, gözəllik, payızın gəlişi;

- At: İşıq surətli:

- Buraq: Burulan İşıq At, ölkə başçısını, ya hansısa müdrik şəxsi Tanrı hüzuruna yaxın hesab edilən məsafəyə – Şir bürcünə qədər aparıb gətirən İşıq sürətli At.

- Balıq: Su – Dəniz;

- Fil: Güc;

- Qoyun: Dinclik;

- Quzu: Körpəlik, kövrəklik;

- Xoruz: Günəşi çağıran;

- Quş: İşıq – Ruh timsalında;

- Qartal: Güclü qanadlar;

- İlan: Qoruyucu – xəbərdaredici və cəzalandırıcı;

- Ana bətnində körpə ayağı: Dünyaya insan gəlir;

- Yumurtalıq: İnsanın və bütün canlı aləmin ilk vətəni;

- İnsanın ayağı (ayaq izi): Tanrının yaratdığı ən uca varlığın simvolik sorağı və təsdiqi;

- Güzgü: Səmanın (Göyün) əks etdiricisi;

- Balta: Qanun emblemi.

- Tısbağa: Çirkinlik.

Bu atributlara musiqi alətlərini, Ayın fazalarını da aid etmək olar. Bunlar yazı işarələrində və piktoqraflarda (şəkil sözlərdə) əksini tapmışdır. «Dədə Qorqud» dastanında xatırlanan :

- Anam adı – Qaba ağac;

- Atam adı- Qağan Aslan;
- Ağ Qayanın qaplanının erkəyi;
- Ağ Sunqur quşu;
- Əzvay qurd əniyi (körpə qurd balası);
- Atınız adı – Bıraq (Buraq);
- Qorqud sazı;
- Alında qunt işıq (Gün işığı) – Güzgü;
-Günortac: Günəşi bol olan ərazi, ölkə.
- Bir yazda, bir də payızda Buğa ilə Buğranın (şiri əvəz edən erkək dəvənin) döyüşü;
- Ağ, Qırmızı və Qara çadırlar – otaqlar: həyatın yenidən dirilməsi prosesində artıma, dölün, doğumun təmin edilməsinə cavab və çağırış;
- Ana südü və Dağ çiçəyi: Dirilik suyu və dirilik otu;
- Ana Haqqı, Tanrı haqqı: Ananın yaradan olması tanrıçılığa bağlıdır.
- Ayın fazaları: dörd faza, hər biri yeddi gün olmaqla insan və heyvan bədəni üçün vahid ölçü kimi düşünülmüşdür. Bü ölçülər Gəmiqaya Qobustan qaya təsvirlərində müşahidə olunur.
- 32 yazı İşarəsi: insanın danışıq səsləri üçün norma; Insan bədənində 32 anatomik işarə; təkamülün ideyadan gəlməsinin əyani sübutu. «32» atributu nəticə çıxarmağa əsas verir ki, Tanrı, insanı və bütün varlığı işarələrlə yaratmışdır. İşarəçilik – Tanrıçılığın əsas atributlarındandır. (Işarəçilik çox sonralar meydana gəlmiş hürufiliyin əsasında dayanır).
- Kitab: yazı – 32 hərf, 32 Tanrı nişanı, 32 Tanrı sirri, 32 söz və Tanrının göndərdiyi bütün qanunların və sözlərin cəmi; Kitab: onun açıq forması və quruluşu Günəşi, Ayı və İnsan üzünü əks etdirir; Kitabın məzmunu: Bütün qanunlar Tanrıdan gəlir; bütün sözlər 32 sözdən yaranmış və kitaba yazılmışdır, Göydən göndərilmişdir; Gəmiqaya-Qobustanda, sonralar Baykal ətrafında, **"ISSIK" abidəsində kitabın bükülü, lülələnmiş forması: proqram-xəzinə-gələcəyə ötürülən, saxlanılan yaddaş kimi düşünülmüşdür;**
- Ay: insanın hər üzü və hər gözü on dörd günlük (gecəlik) Ayın simvoludur; Ay tamam olanda – 28 Gün başa çatanda qadında (və yetkin qızda)«ana halı» təkrar olunur. Bu qoşa təbiət hadisəsi Ayı İnsanın Anası hesab etməyə gətirib çıxarmışdır.
- Gəmilər: 4 gəmi: bunlardan üçü əfsanəvi, ideal gəmilərdir:
1. **Səma Gəmisi:** İnsan – Kişi və Qadın, 32 səs, 32 işarə: 23 samit, 9 saiti və Kitabı Göydən Yerə gətirdi;
2. **Ay Gəmisi:** 28 günlük (gecəlik) səfəri başa çatdırır; yol yarı olanda **14-cü gecə Ay ağ yumurtaya dönür.**
3. **Utnapiştinin – Nuhun gəmisi:** dünyada nə vaxtsa fəlakətli, böyük daşqın olub. Bir müdrik insan bunu duyub və nəhəng gəmi düzəldib, Yer üzünü

Su alanda İnsanı və bütün canlı aləmi o gəmidə xilas edib. Haqqında yüzlərlə kitab yazılsa da, o gəminin və o fəlakətin yeganə şahidi Gəmiqaya və Qobustandır. Bu-rəsmlərlə təsdiq olunur;
4. Gəmiqaya və Qobustanda Tanrıçılığın atributlarından kənarda qalan, adi su gəmilərinin də rəsmləri var.

Arabalar: 4 araba:
1. **Yaz arabası:** yaz gəldi, həyat yenidən hərəkətə başladı, dirildi;
2. **Həyat (Ağacı) arabası:** dünya yaşıllıqdan keçdi, gözəllik artdı, sevgilər yollara çıxdı, yeni dölün, yeni nəslin bünövrəsi qoyuldu;
3. **Vaxt arabası: Fələk arabası:** kainat əbədi hərəkətdədir;
4. **Ay arabası:** Bu arabanın 28 günlük «İL» yolu: 9 ay, 9 gün, 9 saat, 9 dəqiqədə tamamlanır və insan dünyaya gəlir.

Bunlar ideal arabalardır. Gəmiqayada bir neçə rəsmi, piktoqrafik işarələri var. Gəmiqaya-Qobstanda adi yük arabaları, yüklü atlar, dəvə karvanları da rəsm edilmişdir; Hökmdarı və xanımını aparan araba rəsmləri də var;

ƏLİFBA İŞARƏLƏRİNDƏ İDEALLIQ:

A – 1-ci, Başlanğıc;
İ - İşıq;
- Hamilə qadın simvolu, 1-ci B;
D, d - Doğum, döl, ana bətni, dağ;
T - Tanrı, tarazlıq – tərəzi işarəsi;
Ö - Göl - kiçik su (göz).
M - Dəniz (çox su, böyük su);
F - İnsan üzündə iki güzgü, iki Ay , iki göz;
TŞ - Tanrı - İşıq, İşıq Tanrıdan gəlir;
B - Ana, ev, yarpaq, balıq
- U - Ud – od
- Ü - Su;
- R, P –hərəkət; və s.

4.10. SAYLARDA İDEALLIQ

1. Tanrıdır: Tanrının tək, vahid, şəriksiz olduğunu bildirməsi ilə sayların ən müqəddəsidir. «Bir» sözü ulu dil çağlarından gəlir: Bir –Rib (almanca), Pəb (ərəbcə) eyni məzmuna və şəklə malikdir;
2. Vahid dünyanın 2-liyi: iki –ikəz (ekiz-qoşa, cüt); «2-ci od»-do; ud-du (du-al təşkilat-dualizm); ud-du-tu-tı: Sən; tı-tva-dva-deva-devoçka-devaçıq: -«2-cik»- həvva-həvvacıq; -yenə də: Mən -1-ci, Sən -2-ci yaradılmış;

3. Dünya 3 qatdır; yuxarı, orta, aşağı;

4. Tanrı məskəni –Kainatın 4 cəhəti, 4 uclu olması; dörd-dö(v)r öd: dövrə: Kainatın fırlanması; 4 uslu Xaç: Kaç, metateza ilə: Çak (Çağ) –yenə də dövr edən – fələk; dərd-fələyin verdiyi açı ağrı; Kaç-Çak: Çak-ar (Çahar)-Kaçar (Qacar) Od insan: Tanrının-dövrün, 4 ünsürün yetirməsi; Çört (Çort)-Şeytan (çort-çor-dərd, ağrı; çər (çər dəymiş-Şeytandan ağrı-acı almış; çər-şər (şəri-şey-tan) və s., 4-çak-kaç=kaçeli, (rus dilində) yelləncək. 4.Taq-tak-dar: daqar-təkər və s.

5. İşıq-ulduz: bütövdən-Xaçdan ilk ayrılan; İ hərfinin rəqəm qiyməti; barmaqlar hər əldə 5 işıq; 5-isti, 5-peş; peşiy-piyada, pyat-pyad: 5-lə – 5 barmaqlı ayaqla yerimək və s.

6. Kainatın 6 üzlü-tərəfli olması; altı-metateza ilə: talı-tale(h): dövr edən-fələk və alt-yerin altı:"Ömrün sonu".(?) (136) mənasında.

7. Yeti-yetmək; əzəli ölçü vahidi; Ayın və bəzi planetlərin (115.86) təkrar olunma-çevrilmə sərhəddi; 7-ci qat; uşağın 7 aylığında süd dişlərinin çıxması və 7 yaşında tökülərək ağıl dişləri ilə əvəzlənməsi. 7 işıq, 7 rəng, 7 lad (musiqidə), ağıl «qapısının» 7 yaşda açılması, məktəb yaşının 7-dən başlanması ideyanın əzəli şərtidir.

8. Kaç (Xaç) –çak –sak iz(i); Xac forması almış «dövr edən təkərin – çağın-zamanın izi; -x-x; səkkiz;».

9. doq-qod: doğulmaq, başlamaq, bətndə «dağ olub-bişib bayıra-həyata atılmağın 9-cu izi, 10-cu bütöv oda (od maddəyə) çevrilməyin ərəfəsi: "doq-quz".Əzəli və əbədi 9 sait Qanunu;

10. Bütövlük: on-o: Kişi-adam: bütöv od; rus dilində «on-kişi»:10 sayı və od-insan-məzmunu daşıyır; bu da «on»un: kişi-1-ci od, 1-ci insan məzmunu ilə ulu dildən gəldiyini göstərir;

12.12 ulduz bürcü; Günəş 1 il – 12 ay müddətində 12 ulduz bürcündən keçir; 12 sayının bununla bağlı müqəddəslik əlamətləri çoxdur.

14. Ayın 2 fazada bütövlənməsi 14 sayının müqəddəsliyinin baş əlamətidir;" On dörd nömrə"- qədim oyun havası bu atributu yaşadır

28. Ayın 4 fazasını sona yetirib, yenidən bütövlənməyə başlaması və bunun, hər 28 günün tamamında qadın bədənində baş verən fizioloji dəyişmə ilə bağlılığı kimi düşünülməsi 28-i müqəddəs saya çevirmişdir;

32. İdeyadan gəlir. (Nəsimidə sayların sirri-bölməsinə bax);

40. İdeyadan gələn və sirri açılmamış sınaq dövrü: Qışın ən sərt dövrü – Böyük çilə, uşağın 40-ı çıxması-çiləsi çıxması – 40 gündə bədən bağlarının bərkiməsi, öləndə bədən bağlarının 40 gün ərzində boşalması; «Qırx» sözü «qır-ıx»-qırıq, qırıq-lı soy və kənd adı kimi, 40-ın müsbət anlamı ilə müqəddəs saya çevrilmişdir; 40 gün 40 gecə toy etmək – artım-müsbət 40-ın müqəddəsliyinə bağlıdır;

Bəhlul Abdulla sayları «bəşər tarixinin başlanğıc dövründən gələn, mifik və real aləm arasında möhkəm dayaqlı, uçulmaz, dağılmaz körpü» adlandırır və bildirir ki, qədimlərdə hər tafyanın, qəbilənin öz sayları olub. (115.4.)

«Astronomik müşahidə və riyazi hesablamalar Ayın 7 sayı ilə əlaqəsini təsdiq etmişdir». (115,90).

4.11. AĞAMUSA AXUNDOV: YAD TƏSIRLƏR AZƏRBAYCAN DILININ ULU KÖKDƏN GƏLƏN ANA XƏTTINI QIRA BILMƏMIŞDIR

Bunu Gəmiqaya-Qobustan əlifbasının dinamikasından bilmək olur. Sonradan yaranmış, törəmə əlifbalarda dinamika nə qədər zəngin və geniş təsvir edilsə də, bir hərfin 5-25... variasiyası sadalansa da bunlar şərtilik dairəsindən uzağa getmir. **Gəmiqaya-Qobustan əlifbasında isə fonem (səs) onun qrafik işarəsi ilə bir müstəvidə görünür, bir-birini tamamlayır.** Akademik Ağamusa Axundovun «Azərbaycan dilinin fonetikası» (1984) əsəri (79) bu əzəli və təbii fonetik hadisənin elmi kökünü, əsasını izləməyə imkan verir.

Professor Yusif Seyidovun yazdığı kimi, bu əsərdə bilavasitə dilin fonetik faktları üzərində iş – səslərin, sonra isə fonemlərin tədqiqinə geniş yer ayrılmışdır. Bu, böyük fonetika aləminin çıxış nöqtəsi, başlanğıcı, sait və samitlərdən ibarət iki tağlı giriş qapısıdır. «Deməli bütün sistemə qida verən, onun daxili və xarici məna quruluşunun qanuna uyğunluqlarını dəqiq müəyyənləşdirməyin açarı olan fonetik sistem bu «kiçik» dil faktlarına söykənir» (79.104).

Gəmiqaya-Qobustan əlifbasının yaradıcıları da Azərbaycan (türk) dilinin fonetik quruluşunu, sait və samitlər sistemini bəlkə bu günkü tək dəqiq bilmədikləri çağlarda bu prosesdə fonemlərin təbii yaranmasını izləmiş və işarələrin bir qismini doğma səslərin xəyali şəklinə uyğunlaşdırmağa çalışmışlar. Məsələn Ö səsi su – göl işarəsi olmaqla yanaşı, həm də səslənərkən ağızda əmələ gətirdiyi vəziyyəti («O –nu ortadan yarı bölməsini») əks etdirir.

O səsi, qeyd etdiyimiz kimi, ağız boşluğundan çıxan hava novunu – dodaqların dairəvi vəziyyətini əks etdirir. A.Axundovun kitabında bu cəhət elmi təsdiqini tapır.

Azərbaycan dilində 32 hərflə işarələnən 33 səs var ki, «dilmizdəki on minlərlə morfem, leksem bu səslərin hesablanması mümkün olmayan kompleksləridir. Dünya dillərində səslərin ümumi miqdarı yüzü aşmır, müxtəlif dillərə məxsus milyonlarla sözlər müqayisə edilməz dərəcədə az olan bu səslərdən yaranır» (Yenə orada). Alim daha sonra yazır ki, dildəki səslər - zahirən adi görünən bu vahidlər ecazkar qüvvə potensiyasına malikdir.

Professor Y.Seyidov qeyd edir ki, Ağamusa müəllim bu ecazkar qüvvəni son dərəcə dəqiqlik, həssaslıq və hərtərəfli mühakimə qabiliyyəti ilə tədqiq etmiş, səslərin – fonemlərin elmi həqiqətini aşkara çıxarmışdır. Y.Seyidov daha sonra bildirir ki, səslərin bir səs kimi fizioloji və akustik cəhətdən öyrənilməsi son dərəcə çətin və çox əhəmiyyətlidir. Fonetika elmi fonoloji təhlildən başlanır. A.Axundov bu sahədə böyük elmi zəhmət tələb edən statistik hesablamalar aparmışdır. O, Azərbaycan dilinin fonetik sisteminə yeni nəzərlə baxmış, fonetik fakt və hadisələrin tarixi təkamülünü izləmişdir (79).

A. Axundov yazır ki, qədimlərdə Azərbaycan dilində danışan xalqın genealoji və morfoloji cəhətdən müxtəlif dillərdə danışan xalqlarla əlaqəsi Azərbaycan dilinin fonetik quruluşunda da müxtəlif izlər buraxmışdır. Lakin bu yad təsirlər Azərbaycan dilinin ulu kökdən gələn ana xəttini qıra bilməmişdir. Müəyyən tarixi mərhələlərdə bu ardıcıllıq bəzən zəifləsə də, ana xətt öz sabitliyini saxlamışdır (79).

Bu sabitliyin qorunub saxlanılmasında Gəmiqaya-Qobustan əlifbasının yaradılması tarixi rol oynamışdır. Xatırladaq ki, tarixi hadisələrin gedişində qədim Azərbaycan əlifbası başqalarının əlinə keçmiş, Azərbaycan xalqına öz yaradıcılığının bəhrəsi olan öz doğma yazı sistemi unutdurulmuş və nəticədə o, «əlifbasız xalqlar» cərgəsinə salınmışdır.

Gəmiqaya- Qobustan əlifbasının Naxçıvanda, Bakıda, Abşeron kəndlərində, hətta Pirallahı adasında, Hacıqabulda, Mingəçevirdə, Gənjədə, Zaqatalada, Borçalıda, Qərbi Azərbaycanda, Göyçə gölü ətrafında və s. yer altında və qayalarda pərakəndə halda üzə çıxan işarələri bu əlifbanı bir yerə toplayıb, onu yüzlərlə piktoqraflar (şəkil-işarələr) arasından seçib, nizamlayıb, bərpa etmək, əlifbanı yenidən həyata qaytarmaq tələbi dururdu qarşıda. Bu sətirlərin müəllifi bu çətin, ağır və şərəfli işin öhdəsindən gəlməyə çalışmışdır.

Əlbəttə, söhbət Gəmiqaya-Qobustan əlifbası işarələrinin sadəcə toplanmasından getmir. Burada hər bir işarənin yaranma yolları, daxili məzmunu nəzərə alınmışdır.

Gəmiqaya-Qobustanda işıq işarəsi, İşıq – şüa kimi düz və bir qədər əyilən vəziyyətdədir. Bu, İ hərfinin və səsinin ağızda yaranan fonetik şəklinə də uyğun gəlir.

A. Axundov Azərbaycan dili səslərinin əsas xüsusiyyətlərinin elmi açımına İ saitindən başlamışdır. O, bu səsin rentgenoqramını, tələffüz zamanı dodaqların vəziyyətini (şəkildə göstərməklə) və İ ilə başlanan bir neçə sözün (isti, iki, biz sözlərinin) kimoqram və ossilloqramının qrafik açımını verir. Alim göstərir ki, İ saiti Azərbaycan dilinin saitlər sistemində mühüm yer tutur, Ən çox işlənən saitlərdəndir. Gəmiqayada İ işarəsinin dilimizdəki «işıq» sözünün birinci səsini bildirməklə məhz işıq şəklində (şüa şəklində) olması onunhəm də «göydən gələn» xüsusiyyəti kimi düşünülmüşdür. A.Axundov

İ səsinin rentgenoqramında onun daxili, geneoloji xüsusiyyətini açır. Həmin **rentgenoqramda da İ ağızdan düz və ensiz şüa kimi çıxır.**

Beləliklə, Gəmiqaya-Qobustan əlifbasını yaradanlar üçün İ səsinin məhz şüa – işıq forması əsas seçilmişdir. Əlbəttə, bu əlifbanın yaradıcılarının İ səsinin və dilimizdəki başqa sait və samit səslərin akustik keyfiyyətlərinə bu günkü elmi dəqiqliklə bələd olduqlarını iddia etməyə əsas yoxdur. Amma onlar bunu duya, düşünə bilərdilər.

Səslərin «göydən gəlmə» və «yerdə» - ağızda yaranma əlamətləri Gəmiqaya-Qobustan əlifbasının başqa hərflərinin də yaradılmasında bünövrəçi olmuşdur.

4.12.TOFIQ HACIYEV: SÖZ-DIL XALQIN TARİXİNİ YAŞADAN ƏN ETIBARLI ABIDƏDIR

Gəmiqaya - Qobustanda sözlər, tək-tək işarələrin – hərflərin ardıcıllığı və kombinə edilməsi – birləşdirilməsi ilə əks olunmuşdur. Burada sözlər soldan sağa, əksinə və yuxarıdan aşağı oxunur. Sözlərin yazılışında yığcamlıq tələbinə əməl edilir. Eyni sait və ya samit bir sözün tərkibində neçə dəfə təkrarlansa da, həmin söz tərkibində – yəni qayada, daşda əksər halda yalnız bir dəfə yazılır. Məsələn; UT: UTU , ARV: Arava, KÖ: Kök və s. Bəzi sözlər, məsələn "Ana" sözü istisna təşkil edir. Yığcamlıq prinsipi: qayada, daşda fikrin, mənanın yeri geniş, sözün, sözdə işarələrin yeri dar olsun - məqsədinə xidmət etmişdir. Bu prinsip piktoqraflarda daha çox nəzərə çarpır. Məsələn, ən sadə piktoqraflardan Ana, Aq, Ak, At, Tum və s. Bu cəhət sonralar Orxon –Yeniseydə də müşahidə edilmişdir.

Musiqiçinin papağında **Akanu Muzkkn** yazılıb. «Muzkun» sözündə birinci «U» latın, ikinci «U» kiril nümunəlidir. «Akanu» sözündə «A» və «K», «U» və «N», «Muzkun» sözündə ikinci «U» və «N» işarələri kombinə edilmişdir, yəni birləşdirilmişdir. Təbii ki, burada «latın» və «kiril»dən söhbət gedə bilməz. Hələ naşı arxeoloq bu rəsmi e.ə. IV minilliyə aid etmişdir (7.85). Deməli, ən azı 6 min il əvvəl. Burada – Qobustanda, Böyükdaş dağının yuxarı terrasında **Qamma, Maqam, Akanu Muzkun** sözləri yazılmış – daşa həkk edilmişdir. «Akanu» sözündə «U» sonluğu Azərbaycan dilində bu gün də izini saxlamışdır: Umudlu, Azərlu, Həsənlu, Ulu, Udulu və s. insan və yer adlarında olduğu kimi. «Muzkun» isə «muz» kökündən və «kun» şəkilçisindən ibarətdir. «Kun» şəkilçisi bugünkü durğun, küskün, itkin, kəskin və b. sözlərdə, «-qun, - kun, -qın, -kin» şəkilçilərində də üzə çıxır. Burada musiqiçilərin və müsiqi alətlərinin üstündə bir neçə "muz" sözü oxunur.

Gəmiqayadakı «umuz» sözündə «muz» kodu bədənin hərəkət edən hissəsi, məsələn, Ağ umuzlar (C.Cabbarlı), (77.14) yəni ağ çiyinlər həmin kodda

aşkarlanır. «Muskul» sözü də insanın qollarında bərk yumrulara deyilir. Deməli, musiqi bədənin hərəkəti, oynaması ilə bağlıdır. Yəni burada söhbət öncə rəqs müsiqisindən getsə də, səsli musiqi – oxumaq, ağızda və bədənin bəlkə də, çox orqanlarında hərəkətlə bağlı olaraq yaranıb. Həm rəqs, həm də oxumaq insan bədəninin hərəkəti ilə hisslərin coşmasına, sevincdən və ya kədərdən təsirlənməsinə bağlıdır. İnsan öz ürəyi və beyni – ağlı və hissləri ilə və bütün bədəni ilə musiqi yaradır.

Sazın «Dədə Qorqud»dakı «qopuz» adında da «uz» komponenti ağıl və səs anlamındadır. Qobustanda 78-ci lövhədə **7 Qam – Maq – Mak sözündə «Qam-Uz» və «Qa-Muz» və bunun metatezası ilə Qamuz – Muzqa sözünə çevrilir. Muzqa – Musiqi deməkdir. Muzqun – Muzkun : musiqiçi sözündə aydınlaşır. Bu fakt «Muğam» sözünə də aydınlaq gətirir: Muz-Qa; Muzqam, nəhayət, Muğam sözü yaranır. 7 Qam –Maq (Mak): Qamma, metateza ilə Maqqam: Maqam: Muqam: Muzqam sözləri meydana gəlir. Deməli, bugünkü «muğam» sözü, eyni zamanda Muzqam – yəni birbaşa musiqi sözünün əsasında dayanır.**

Bəs, Gəmiqaya – Qobustanda yazılmış sözlər hansı dilə aiddir? Bu sözlərin çoxu Azərbaycan dilində oxunur. Hətta ümumtürk dilləri konteksində bu sözlər bilavasitə Azərbaycan türkcəsində səslənir: Tanrı, Gün, Qutu, Tum, Od, Su, Quş, Ördək, At, Keçi, Şir, Ağa, Aqan, Buraq, Göz, Söz, Tutu, Amar, Adam, Balta, Quzu, Doqnaq, Dədə, Baba, Aba, Kişi və s.

Qədim sözlər dilçi tədqtqatçıları həmişə maraqlandırmışdır. Belə alimlərdən biri, Azərbaycan MEA-nın müxbir üzvü, pofessor Tofiq Hacıyev yazır ki, **xalqın tarixini ən etibarlı yaşadan abidə dildir; «Hər cür informativ zərrə – mətn qiymətli tekstoloji mənbədir. Mətnin qurtardığı yerdə bu vəzifəni ayrı-ayrı sözlər öz üzərinə götürür»** (78.125).

Gəmiqaya-Qobustan rəsmləri şəkil-mətnlərdən ibarətdir. Belə mətnlərdə sözlər tək-tək oxunur, bəzən bütöv cümləyə, o sıradan adlıq cümləyə rast gəlinir: **kökümüz bu quş-dur; Akanu Muzkun – Ağa, Baş musiqiçi. «Kökümüz bu quş-dur» cümləsi «Dədə-Qorqud» qəhrəmanı Qazan xanım «Ağ Sunqur quşunun erkəyində bir köküm var» bəyanatında təkrar olunur (13.91).**

Qaya lövhələrində şifrələrlə bəzən bir hekayə, yaxud bütöv dastan yazılmışdır. Bu hekayə və dastanlar şifrələrlə oxunur. Qobustanda 29-cu daşda həyatın yaranması, Aşina – Boz qurd, Aşina – gözəl, Böyük şir, Gəmiqayada Nuhun gəmisinin rəsmləri və Maral hekayəsi buna misal ola bilər.

T.Hacıyev daha sonra yazır ki, **Ön Asiyanın qədim dillərinin yazılarında saxlanan hər bir Azərbaycan sözü bir kitabə dəyərindədir. (78.124). Əgər belə sözlər bilavasitə Azərbaycanın özündə – Gəmiqaya və Qobustanda,**

Gəncə daşında aşkar olunursa, şübhəsiz, bu, bir yox, yüz kitabə dəyərindədir.

Nəhayət, T. Hacıyevin fikrincə, yad mənbələrdə qorunan «tək-tək əlahiddə sözlər birinci növbədə Azərbaycan dilinin ən qədim leksik nümunələridir və müəyyən qədər də onun morfoloji quruluşu haqqında məlumat verir, eyni zamanda bu vahidlərin semantikasında qədim ictimai – tarixi möhür – damğa daşlaşmışdır. Həmin qəbildən materialın linqvistik – struktur və ictimai möhür məzmununun təhlili Azərbaycan dilinin etnik mənşəyi kimi koordinal problemə də işıq salır» (78.125).

Gəmiqaya – Qobustan rəsmləri bu mənada Azərbaycan dilinin ən qədim leksik laylarından soraq gətirmişdir. Azərbaycan dilinin etnik mənşəyini müəyyən etməkdə həmin sözlərin rolu misilsizdir.

Bu günədək Azərbaycan ərazisində yalnız ərəb əlifbası ilə yazılmış abidələr oxunmuşdur. Bu sahədə Azərbaycan MEA-nın müxbir üzvü, Məşədixanım Nemətovanın və başqa alimlərimizin böyük xidmətləri var. Bu, Azərbaycan ərazisində IX əsrdən sonrakı dövrləri əhatə edir. Bu abidələr sayca çox deyil.

Azərbaycan mədəniyyətinin kökləri isə IX əsrdən çox-çox qabağa, e.ə. minilliklərə uzanıb gedir. O tarixi köklərimizi əks etdirən abidələrimizin sayı isə çoxdur.

4.13.NIZAMI GƏFƏROV: AZƏRBAYCANDA ETNIK QEYRI - MÜƏYYƏNLIK DÖVRÜ OLMUŞDUR

Azərbaycan MEA-nın müxbir üzvi, professor Nizami Cəfərov yazır ki, Azərbaycan xalqının formalaşması prosesi başlayana qədər Azərbaycanın etnik tarixini dövrlərə bölmək olar.O cümlədən birinci dövr: e.ə.V minillikdən e.ə.III minilliyin ortalarına qədər-etnik "qeyri-müəyyənlik" dövrü olmuşdur. (N.Cəfərov.Azərbaycanşünaslıq. B. 2006.səh.21.)

Görkəmli alimin həmin fikrinə əsaslanaraq, e.ə.VIII-VII minilliklərdən e.ə.V minilliyə qədər olan dövrü də etnik qeyri-müəyyənlik dövrünə aid etmək olar. Fikrimizcə, bu,ümumi halda protoetnoslar dövrü olub.

N. Cəfərov "etnik qeyri - müəyyənlik dövründən" o mənada söhbət açır ki, misal gətirilən dövrün etnik mənzərəsinə aid yazılı məlumat-mənbə yoxdur. Odur ki, "etnik qeyri-müəyyənlik dövrünü protoetnik-protoetnoslar dövrü kimi səciyyələndirmək olar. Həmin dövrdə Azərbaycan ərazisində müxtəlif dilli protoetnoslar qarışıq halda yaşamışlar.Onların sırasında protoazərbaycanlıların-prototürklərin də, yaşadıqlarını söyləmək mümkündür.

Gəmiqaya-Qobustan mədəniyyətini həmin protoetnoslar yaratmışlar.



Aşina oğulları əllərini Azərbaycan xəritəsində Abşeron yarmadasına - Qobustana sarı uzatmışlar.



1-ci BATRAD

1-ci BATDAR:1-ci Qoşun, bölük komandiri. "б" işarəsi ilə kombinə edilmiş "A" bu igidin məhz 1-ci - başçı igid olmağına işarədir. Yazı işarələrinin göstərilən şəkildə konbinə edilməsi tabloda bir neçə dəfə təkrar olunur. (Qobustan). Piktoqrafın açımı: ABTRAD-BATRAD-BATDAR:BATÇI-VƏTƏNÇİ.

Şir, Tanrı emblemi "T", "Kök"piktoqrafı "İ VƏ I" yazı işarələri. (Qobustan)və Tanrı hüzurundan qayıtmiş İşıq atlı.(Təbriz))

13





1,2,3.-İşıq, at: Gəmiqayada və Çin heroqrifində. 4,5.-"R" işarələri Pirəbədi xalçasında və Çin heroqrifində. 6.- embrion- körpə (Gəmiqaya) 7.-Misir heroqrifləri arasında Gəmiqaya Qobustan işarələri. 8- Ana bətnində körpə ayağı.(Gəmiqaya) 9,10-Gəmiqayada və 10 min il yaş verilən Masde Azildə - eyni işarələr.11-Payızın birinci günü Şir bürcü üfüqdən çəkilir deyə, tabloda onun başının yarısı görünür. (Bakı limanından) tapılmışdır.

Ишарәләрдә һәрәкәт әламәтләри

Од-Су икилији		Учалыг-дәринлик		Күзкү-метатеза	



Оғуз курғанından тапылмыш ideal күзкү.
Қызыл, күмүш вә бүрүncдәндир. Peterburqda, Ermitajda saxlanılır

Səslərdə və sözlərdə güzgülük - metateza

	1-ci, müsbət, od, sağ tərəf, yuxarı	2-ci, mənfi, su, sol tərəf, aşağı
1	AT	TA (ATA)
2	AH-AN	HA (AHA, Anna, Anna) LNA
3	AY	YA (ye, yo v.s.)
4	AL	LA (lala-Lula, ALLa)
5	AG	GA (AGA-AGa)
6	AR, ER,	RA, RƏ (Rahim, Rəfiq)
7	BIR	Rit, Rət (TANRI) (1)
8	Mən	Nəm
9	Sən	Nəs
10	YAR	RAY (Cənnət) (Baxan)
11	SURVAN	NAYRUS - NOVRUZ
12	İŞIG	GIŞI - KİŞİ
13	NAMMU	Umman - Ümman
14	ANA	MAd (Mət - Ana)
	TOG	God (İL)
	Gün-KUN	NüG - NUK (Günəş) Nuhus.s.
17	Kun-NUK-NUH	- HUN
18	ALma	MeLa (italyanca)
19	GÖY	YöG (YeK - 1) - Tanrı
20	AŞ - diş	Şah - Şid (Şit)
21	AİŞ	Şid (Şit)
22	TAm	MAr
23	AMAR	MARA(L)
24	ON (Hə)	No (YOX) Ne
25	TÜRK	KÜRd (KÜRt)
26	YAG	GAY (Qaymaq)



Gəmiqaya- Qobustan İ. Fridrixin verdiyi müqayisənin yanlış olduğunu sübuta yetirir. Tirelər (–) uyğunsuzluq bildirir. Yunan əlifbası bz başlanğıcını Finikiyadan deyil, Gəmiqaya Qobustandan almışdır.

		Qəmiqaya-Qobustan	Qədim Yunan	Finikiya	
1	a	A	Δ	K	–
2	b	b	ʜ4	9	–
3	g	⅂Γ	⅂Γ	1	–
4	d	ΔD	Δ	⊲	+
5	e	E	[	∃	+ –
6	ə	⅂	⅂	Y	–
7	n	H	H	I	– +
8	n,	H		H	–
9	PiK	⊕	⊕	⊕	+
10	Z	3	≤1	∃	–
11	K	K	K	↓	–
12	l	⅃	⅃	C	
13	m	M	M	≤	–
14	n	N n	N	≤	–
15	t	T ⊥T	⅂	⅂	ı
16	o	O	O	C	+
17	S	CS	⊂	⊃	–
18	m	M	M	ε	–
19	f	φ	Φ	φ	+
20	R	P	P	⊲	– +
21	PiK	⊂	⊂	W	–
22	T	T ⊥	T	+ v	–

Lövhələrdə oxunan sözlər-piktoqraflar

① 1. XAN, XAN, XAN, XAN, XANBABA XAN
2. KATUN, BAŞ BANU, KAN-XAN, BOZ gurd (AB) - Boz gurd ana
3. (K)XAN, XAN, BURAG : BURAG
(Qobustan. Xan-1,2)

② 1. BABA, -BABA, BADA; BADA; Bada
ABAD; Abad
2. Bədə; ABA; ATA; ABA, Bədə
3. QIZCIG; AQSAQQAL; BALBAN/Bağban/ OĞLAN
(Qobustan. ULU BABA)

③ 1. BALTABA
2. BALTA : BALTA; BALTA
BALTA
BALTA Sahibi-baltaçı
(Qobustan. ANA və BALTA)

④ 1. KÖK/KÖKYM KÖK
2. KÖKÜMÜZ : KÖK
KÖKYMYZ
(Qobustan. Estamp sürəti)

⑤ 1. ÇANTE; 2. ÜŞTÜK : ÜŞTÜK
(Qobustan. Kenevar paqadı)

⑥ 1. C; C : US; 2. : Uш - UŞ (ŞU)
3. A : AŞTA : AŞTA; 4. : TOZ - TOZ
AŞTA; Ş:ŞT;
5. A : AZRANAZ : Azranaz; : TOZ
AZKANAZ TOZ
6. DENESUL : DENESUL : Denesul; deseç
7. KÖZ - KÖZ : KAZ : KÖZ / GÖZ
8. ASU : ASU(Ü); NAVKA : NAVKA
9. A : AZESAL: Azezal; ZUT; zut
(Qobustan. Şaizin heykəli)

⑦ 1. AMAZ : AMAZ; : AMAZ/AYMAZ - ALMAZ
2. : BEMAZ/BEŞTAZ : Beştaz/Beşetaz
3. : ƏZUDO / AZUDO : Əbudo
4. BUZAT : : BUZAR/BUZAŞ/BUZANG
BUZAK; Buzat / Buzaş / Buzang
5. : BURƏ : Burə
(Gəmiqaya. Şeytan)

⑧ 1. C; CÖZ : Söz 2. : YZ; UZ : Uz - Üz
SÖZ : SÖZ : Söz
3. : ƏBƏZ; ƏZ; XƏZƏ; T - TEZƏ : Təzə
Bəzə -
4. ƏTRƏX : ƏTRƏX; BUTRAX
5. BUTRU : BUTRU AHAL : Butranal; : ƏR -
- ƏKƏR
6. : YAŞAZ - ŞAŞAZ : Çabaz - Şaşaz
- TAŞABAZ (Qobustan. Natıq)

(9) 1. : ШІР : Şir ; : ШИР : Şir ;

2. : БУНТУШ : Buntuş ; : Şir

3. : ТУНШУКУ : tunşuku ; : AKS / AKC

4. : АШТ(Т)УГАЗ : Aştugaz

5. : АНТУФАН : Antufan / Antunfan / : АНТУФАН (Şir-ulduz bureü. Qobustan)

(10) 1. : УШУ(Ф)ТНУШТУ : Uşutnuştu

2. : АШНУДУБ : Aşnudub

3. : АГАЗКАТ : Agazkat

4. : ТАЛГАЗ : Talgaz

5. : АТКАНАР : Atkanar : ATWAKANAP
ATAŞKANAR - Ataşkanar ; AŢŞAKANAR

6. : АЛКАЗ ;

7. : ЕЛУКУЗ : ELUKUZ (EL ŞIĞI)
(Qapayen oxayan kişi. Qobustan)

(11) 1. : TUXŞA ; : HAL : KAL ; : BAŞRANAL

2. : ТЕСБАТ : TESBAT : tasbat ; : ТАГБАТ : tagbat

3. : ATLAZ ; : ЯБУЧ : BABUÇ

6. : QAMVY(WM)U : Batuştu ;
(Yolçular. Qobustan)

(17) 1. : AZAK (AYAQ) ; : AZAK
: SAZBA : TAMZBAQ :
TAMZERAÇA - tamzaçe

2. : ABNU ; : YAZEH BOMOZONKI :
BANU BAZEMBOT Q-ONAKY
(Fil. Qamiğaya)

(18) 1. : AZAĞ ; : 1-Ci AYAĞ (AZAĞ) (W-3)
(Insan ayağı. Qamiğaya)

(19) 1. : BALA ; : OLOP
OPOL : ÖR-ÖL (OLOP. Qamiğaya)

(20) 1. : AĞ ŞANAK ; (Qamiğaya) (AĞ Sanak ?)
(AĞ Şanı - Şan ?) AĞ Şan-ak ?

(21) 1. : OKU/OXU ; : OKY : OXU ; YOK - YOX

2. : TAHYAK : TAHAY-LAK :
: TAN(RI) AL AK (dır) - Qünşdik

3. : TANRI : TANI TANRI AĞ IŞIĞIZ
TAHAK : AK TAH(RI) : TAN AK (TANRI)

4. : BAHU : BANI - BAKU
(OXU. Qamiğaya)

(22) 1. : AKAN ; : AKBAŞ : AKBAŞ ; : AKAN(H)
AKBAŞ

2. : KOM ; : BU-BAŞ : BAŞ

3. : E : CUÇ
(Poris. Qobustan.)

(23) 1. : USUB ; : EBŞIB : EBŞIB ; : AHBA
YAŞI : YUŞAŞI : USAŞI

2. : AMPAB : YŞUH : YŞUH : AGUSAĞ

24.1. ATOBUL : BATOYUL
2. ULU AYU : ULUĞ ACU (ACI)
(Qobustan)

25.1. FAYTON : fayton
2. TANRI : Tanrı; ARABA: ARAYA
(Gəmiçayı)

26.
1. ANAŞ : Anaş – Abanaş : Anaş, Abanaş
2. AT : AT : AT AT (Qobustan)

27.1. AMAC : AT(ə)MAC(S); AKBUZ : Akbuzə : Ağbuzə
2. SU ANA ; 3. KOKATA : KÖK AĞA
(A:AT)
4. AKBAŞ : Akbaş : Akbaş; TATBA : Tatba
TANGBA

5. ACUN : Acun ; BOKUŞ : bokuş
A: AT-AŞ; AC: AS; AŞ: AŞ
6. ATABA : Ata – Baba (?) (Gəmiçaya)
Anybə

28.1. IKƏ ; İki – əki(z) ; İkəz – əkiz ; İKƏBƏ : İki bəbə (?)
(Gəmiçaya)

29.1. SUBAT ; SUĞ : SUBAŞ. (Gəmiçaya)

30.1. KAMAKA : KAMANAKABAZ ; AKBA : AKBAT
2. AKŞTA : AKŞTAŞ ; HAKIŞTA
Anxştar
3. ANKUMAŞ : Ankumaş ; AKŞAT
(Gəmiçaya
şəkil 38.)

31.1. ŞIR ; ŞIR ;
2. BUĞA : Buğa. (Qobustan)

32.1. UTU : Utu (Günəş) ; OC
2. MAHRI ; KAH : KYH
3. KUN : KYH : GÜN ; KUH : GÜN
(Nuhun Gəmisində yazılar. Gəmiçaya)

33.1. BAL : BAL (Şlundan Razılıq. Gəmiçaya)

34.1. MAD – DAM : MAd – dam : A dam
A(P) AMAP – AMAD
2. TANRI : TANRI : TANRI
3. BAH : BAH – BƏH : MƏK ; BAH – UCALIQ
BAŞ – BAŞ (BAŞ), T-MH (TAH-RI)
(Qlozel daşı.) BAŞ TANRI

35.1. ABA AÇ : ABA AÇ
2. QUT : QUT : QUŞ : Qut – Ruh – güvvət,
QUŞ – Ruh – İşıq
3. KİŞİ : Kişi : Kişi (Qəbizdərə rəsmləri)

36.1. 7 GAMAT : 7, GAMAT : 7 GAMAT : 7 AĞ YAM (MA)
7 MUĞAM : 7 MAGAM : 7 MAGAM
-AKAYH-
2.3. AKANU MUZKUN : AKANU MUZKUN – AĞA – BAŞ
AKANU – AKANU
MUZKUN
ŞKH
Musiqi AKANI – BAŞÇISI – AGASI
(Qobustan. Mucialələr)

43. 1. AKZ : AKKZ : AKYZ : Ağ üz

2. AKLMAC : AKLMAC ; AKLMAK / AK ALMA
AĞ ALMAS

44. 1-3. OYK : OYK : OKY : oxu ;

2. ABZO : ABZO : ABZO ; ABZO : ALZÖ
ABAZO ALAZÖ

3. AHA KOZ : AHA KOZ : ANA KÖZ : Ana Göd-BAŞ göd
(Gəmiqayası. Kitab)

45. 1. 2 İKİ ; 2. ƎШ : ƎШ : ƎŞ
2 İNKİ : 2 İNKİ
(Gəmiqayası)

46. A.1 : O → 14 gecəlik ay-figuru.
Ay
(Qobustan. Yazılı tap. 143-cü daş.)
AN Ay : parlaq ay ;

47. KH : KAH-XAN ; BAKAH : BAKAN.
(Qobustan. Kiçikdaş d. 13-cü table)

48. – Svastika : Çarxı-fələk. (Qobustan. 21-ci table)
(BAKAH)

49. AP : AMAR : Amar (ATAR)
(Qobustan. 15-ci table)

50. KAH ; KAH : KAH : XAN ; (Qobustan. 11-ci table)

51. KHU : KUH : GÜN (11-ci table)
ATA-ANA BACI

52. 1. ATAHBAT : ATAHBAT : Atanbaq. (Atanın bacı)
2. YWAT(Z) → YAZ : UTUŞAZ (utuşat ?)
3. KYHAKBAWAT KIŞI
KUCAKBAŞAT KIŞI(K)
(Qobustan. 59-cu daş)

Gəmiqaya - Qobustan əlifbasının Azərbaycan Ərazisində Yayılması

	Gəncə	Təbriz-Əhər	Kəlbəcər	Şəmaxı	Xaçıqa-bul	Minəg-çevir	Qəbizdərə-Zakatala	Pirəl-Lahıcan
1.	A	A	A	A (A)	U	AA	A	Y
2.	б	U	ə	U	T	b б	Y (Y)	б
3.	I	Y	ɣ	Y (Y)	1	A (B)	Y	O
4.	U	ɔ (c)	X	ɑ	Y	Д 9	I I	C
5.	ə	Λ	O (◎)	P	K	ə-ə	ə Φ	K
6.	O	h (Tш)	ʔ (3)	h (Y)	L	Ǝ-E	Γ	7 (Y)
7.	E	+	⊕	T (T)	3	N I	Ш	♪ (б)
8.	З	h	Y	† (t)	h (h)	1	X (K)	X (H)
9.	Г	b (b)	Y	Y	9 (d)	M	⋈	h (h)
10.	F	H (H)	P	⊂ (U)	И	H	δ	B (Φ)
11.	d	З (З)	φ	h (t)	Ч	З	Ч	П
12.	T	I	⊼	Ƨ (IÇ)	J (C)	C	З	
13.	K		⊖	Z (З)	I	U Y	m:	NÜVƏƏ-
14.	h		⊕		Y Λ	m Ш		-ZƏNGİLAN
15.	1		⊗ (X)	h : h :		P P	Ψ:	↓
16.	P		Δ (d)	(tŞ)		Ч	Ш m	Γ
17.	C		⊙ (9)			h J	O (O)	З
18.	Λ		⊽			X K	8 (8)	F
19.	M		△			Ψ (ш m)	Φ (φ)	h (h)
20.	H		⊕ : OTш			φ	P	L
21.	Ч		h I			M ↑ +	h	m (M)
22.	Ш						Γ	Y (Y)
							(A : AΓ)	Ψ : (tŞ)



Səma gəmisi(Qobustan) yandan baxmalı



İki təkərli, hər təkəri 7 "gecəlik", 4-fazalı Ay arabası (Qobustan)



Od - Tanrının - Günəşin qızı - Humay Ana. (Sevit - Venera) ulduzu, qujağı körpəli ana ondan mərhəmət diləyir. Boz qurd Səma kitabının keşiyində dayanıb. (Qobustan, 29-ju daş, fraqment)



1.Şəkil ALAV ABA - Əlifba sözü (Piktoqrafı)
2.Şəkil. İnsan üzündə əlifbanın 2 başlanğıç hərfi: A və B. Onlardan Ata, Baba və Aba (Ana) sözləri yaranır (Gəmiqaya)



1.Şəkil. İlk insan yer şumlayır, xışın "A" şəkli ilk adamın ilk peşəsini, arxadıkı paralel xətlər qaldırılmış şumu göstərir; quş fiquru - Utu işarəsi ilə Tanrıdan insana quvvət-ruh göndərildiyini bildirir.
2.Şəkil. "1-ci quş" , A-hərfi - birinjilik işarəsidir, quşun quyruğu "Г", başı "U" və ikinci ayağı "Ш" hərfi ilə göstərilmişdir.1-ci quş - İşıq- Ruh timsalıdır. (Qobustan)

Kökümüz bu quş(dur):

kökümüz-keçi timsalında,quş-ruh timsalında başlanğıçdır; ilan-qoruyucu göstərir ki, bu ideya tanrıçılıqdan gəlir, unuda bilməzsiniz! (Gəmiqaya)







1.Şəkil. Quş At (Gəmiqaya)
2.Şəkil. Alov At (Qobustan)

"AT", "BURAQ", təsvirləri və buraq-işıq atın (atların) göydən gəlməsi; keçi fiquru yazın-ilin başlandığını bildirir. (Gəmiqaya)



"BURAQ",atın (atlının) göyə-Tanrı hüzuruna-işıq bürcünə qədər uçması üç məqamda təsvir edilmişdir. 2-ci və 3-cü atlar bir baş ilə rəsm edilmişdir. Dünya rəssamlığında belə rəsmin analoqu yoxdur. Fraqmentlər səh.178 (Qobustan)



1. Şəkil. Buraq atla Tanrı hüzuruna uçan atlı göyün qapısını açmaq üçün əlində açar aparır.
2.Şəkil. Ağ at Günəşin qızı ilə yerə enmişdir- yazın ilk günüdür, "AQ AT" sözündə "T"- Güzgü ilə açılır. (Qobustan)



Tanrıçılıqa görə: 8 qapılı, işıqlı cənnət və 7 qapılı, qaranlıq cəhənnəm. (Şumerdə). Yandan baxmalı.



Tanrıdan göndərilmiş açıq kitab, A,İ b,(B) hərifləri ilə birlikdə. (Qobustan)





"Utu,U", T və buğaların boynunda "A" işarələri və qələm şəkili; (Rus dilində "Ə" işarəsi olmadığı üçün "qalam" yazılmışdır (Qəmiqaya)



Tanrı hüzuruna - Şir -İşıq bürcünə qədər getmiş Buraq atın (atlının) 3 məqamda təsviri "Buraq"sözləri ilə müşahidə olunan tablonun fraqmentləri (Səh. bax 178.)Yuxarıda, solda şir, Şir bürcünə çatmaq məqamı.

Kişi və qadın od və su birliyini yaradır. (Tablonun fraqmentləri səh.-190-da) (Gəmiqaya) Kişinin sağ gözü təbii "ə" işarəsi kimi təsvir edilib.

Графич. изображение тамги	Название	Перевод
1	2	3
	абак	значение неясно
или	ай	луна
или	тумар	талисман, амулет (заклинание, написанное на бумажке, которое складывается треугольником и зашивается в материю)
или или	косеу (көсөө), или алип	палочка, которой поправляют огонь в очаге; арабск. буква „алиф“
	чылбыр	поводок; цепочка
	кёз	глаза
или	тарак	гребень
или	кол	вилка для ловли рыбы
	балта	топор
	босага	порог; дверная рама
	серге	приспособление в виде развилины, надеваемое на морду теленка, жеребенка, чтобы он не сосал мать
	курай	старинный музыкальный инструмент из полого стебля растений (дудка); сухой стебель
или	ашамай (ачамай)	деревянное вьючное седло
	ергенек	приспособление к ручной косе
	кос-алп (кос-алып)	двойной алиф
	аир	вилы
	садак (сагадак)	лук для стрельбы
	ок	стрела

1	2	3
	бакан	шест, которым поднимают кошмы и верхнюю часть остова юрты
	тостаган	небольшая деревянная чашка
	балга	молот
или	чомыш	половник, черпак (деревянный)

Qədim Türk damğalarının qrafik şəkili (A.Superanskaya) "Товарные знаки" M.1981.səh.8



Tanrının yaratdığı 4 ünsür: SU, İŞIQ, GÖY, HAVA. "HAVA" piktoqrafı "hava" sözünün - kodunu açır. (Gəmiqaya)

S U B A Q

"Su" və "Subaq" sözləri Suçu peşəsinə ald olmaqla, suya məhəbbəti bəyan edir (Gəmiqaya)



1.Şəkil. Dünya ikilidir : Ө-su, Ш-od (işıq), "2" rəqəminin quyruğu ilan qoruyucu və xəbərdar edici işarəsidir;
2.Şəkil. Araba fiquru ilə kombinə edilmiş "ARAVA" sözü (Gəmiqaya)

1. Şəkil. "VUKƏZ" sözü aydın oxunur.
2.Şəkil. İnsan üzündə yazılar: Aqmas, Akbu, Rumna, Ok, Su, Ana sözləri.
3.Şəkil. İnsan bədənində "ULU" sözü.
(Gəmiqaya)



İnsan "Acı"ya - ilana "qoruyucu" missiyasına görə təşəkkür edir.
(Gəmiqaya)

DEV – TƏKGÖZ

Devin sol gözü xüsusi maska ilə örtülmüşdür. Devin iki buynuzu var.Burəda qədim Azərbaycan-Türk dilindəki "DEV"sözü, sonralar fars və digər dillərdə təhriflə Div şəklinə düşmüşdür. (Tablonun fraqmentləri 190-səhifədə) (Gəmiqaya)

Gəmiqaya - Qobustan əlifba işarələri yazılı mənbələrdə.
İ. cəfərzadə. Qobustan. B. 1973.



V. Əliyev. Gəmiqaya abidələri. B. 1992





"Dev - təkgöz" tablosunda "Dev" sözünü və Devin təkgözlü olduğunu təsdiq edən fraqmentlər. (Gəmiqaya)
("Dev-səh 187 və kişi qadın.-185") rəsmlərindən fraqmentlər (səh186.)



Piktoqraflar: aşak və arşaq "uşaq" mənasında oxunur. Uşaq-od-işıq (Ш) və su-ana: "Ө" brliyindən yaranır.
(Gəmiyayada və Qobustanda)



"İki dəfə iki"; "2 Şir" - 2 dəfə 2 : Eyni canlıdan qoşa təsvirlər belə adlandırılmışdır (Gəmiqayada)



Ayaq üstə dayanmış insan; İnsan "Atribut əlamətli" 4 hissədən ibarətdir. (Qobustanda)



Şəkillərdə adam fiqurları və "ADAM" piktoqrafı işarələrdən yaradılmışdır; (Qobustan və Şumer); insan üzünün kitab şəkili. (Gəmiqaya və Şumerdə)



Şəkillərdə insanın ürəyi və bədəninin başqa üzvləri (Gəmiqaya və Qobustan)





Şəkillərdə insan beyni ideallaşdırılmış görümdə (Gəmiqaya və Qobustan)

4.14. ƏN QƏDİM KİTAB

Qobustanda 29-cu daşda, 32 işarəli Səma gəmisinin altında açıq kitab təsvir edilmişdir. Lövhədə hamının (insan, heyvan və b. fiqurların) diqqəti o kitaba sarı yönəlmişdir. Kitabın sağında 3 fonetik işarə: müasir A, İ və Б-B hərfləri aydın görünür. Üzü Göyə sarı istiqamətlənmiş «A» işarəsinə xüsusi bəzək verilmişdir. Bəzəkli «İ»(İ)-«latın», adi «B»-«kiril» «mənşəlidir». («B» işarəsi «H» və «Ü» şəkillərində də qəbul edilir; hər üçü «su» məzmunlu işarədir). Qədim bilici-rəssam demək istəyir ki, **əlifba 32 hərfdən: 9 sait, 23 samitdən ibarətdir. Ulu Tanrı bunu insan səsi-yazı işarəsi üçün norma təyin etmişdir. Bu, ahəngə-normaya tabe olmaqdır. 9 səs-açıq səs-Qadın səsi: saitlər, 23 səs-qapalı səs-Kişi səsidir. Alim-arxeoloq İsaq Cəfərzadə özü də bu 23 işarəni «23 kişi» adlandırmışdır. (4.65).**

Bu böyük tarixi faktdır-əzəli Qanundur: saitlərin 9-dan samitlərin 23-dən çox və ya az olması-normadan, ahəngdən kənara çıxmaqdır. Yəni ən düzgün əlifba: məhz Tanrının təyin etdiyi 32 hərfli əlifbadır.

29-cu daşda-lövhədə kitab rəsmi əlifbanı da, kitabı da təsdiq edir: (səh.168-178)dünyada nə qədər söz olsa, hamısı 32 səslə, 32 fonetik işarə ilə-hərflə ifadə ediləcək. Odur ki, «32» həm də kitab üçün simvoldur. Bunu XIV əsr dahi Azərbaycan şairi Nəsimi dönə-dönə tərənnüm etmişdir: **«Ey üzün haqqdan 32 nişan»;-bu misranın əlavə şərhinə ehtiyac yoxdur. «Mən 32 hürufəm ləmyəzəl»-yəni, mən əzəli və əbədi olan 32 Tanrı işarəsinin cəmiyəm. Yaxud:**

«Haq-təala adəm oğlu özüdür,

Otuz iki haqq kəlamı sözüdür».

Yəni: Tanrı hər yerdə olmaqla, həm də eyni vaxtda insanın qəlbindədir və insanda hər işarə, hər cism tanrının 32 kəlamı, sözü, işarəsidir, onların cəmidir və eynidir. Bu cəm və bu eynilik həm də: Kitabdır.

«Surətin müshəfdir, ey cubi-xuram!»-

Yəni: ey sərv boylum, sənin camalın-Kitabdır! – Bütün işarələrin, bütün sözlərin cəmidir.

Yaxud: «Ey Kitabından üzün gül bir vərəq».

Yəni: Sən-Kitabsan, üzün: Sən-Kitabın bir gül vərəqidir; (vərəqdir) (80).

4.15. KITAB –IŞIQDIR

29-cu lövhədə Kitabın yanında A, İ və B işarələrini verməklə qədim bilici-rəssam demək istəmişdir ki: A-1-cidir, Başlanğıcdır: həm əlifbanın, həm də Kitabın ilkidir, əvvəlidir; İ (İ): İşıq rəmzidir, Tanrı qüdrətinin baş təmsilçisi-

Günəşdən gələn düz işıq: düz ağ-şüa: şüy ağdır. Bu ağ işıq yada salır ki, Kitab-işıqdır; onda işıqlı-«Ağ»-ıllı sözlər, fikirlər cəm olub; onda həyat dərsləri var. Həyat isə İşıqdan (oddan) və sudan güc alır. «B» işarəsi: suyun-cəm halda rəmzidir. Yəni Su+hava+yaşıllıq (bitki) mənası daşıyır. Elə həmin məna ilə «Ü» səsi (işarəsi) də suyu təmsil edir; hava-suyun törəməsidir, «H» (h) səsi bunu xatırladır. Beləcə aydınlaşır ki, qədim Azərbaycan: Gəmiqaya-Qobustan əlifbasında A və İ kimi, B, Ü və H işarələri də çox qədimlərdən mövcud olub. Bu işarələrdən (səslərdən) hansı isə-məsələn, «H» sonrakı dövrlərdə işlənməmiş və müəyyən zaman keçəndən sonra yenidən əlifba sırasına-öz əzəli yerinə qayıtmışdır.

Qaya təsvirlərinin yaşı (e.ə. VIII-VII minilliklər) və məntiq söyləməyə əsas verir ki, 29-cu lövhədəki Kitab rəsmi 4 səmavi kitabdan: Zəbur, Tövrat, İncil və Qurandan neçə min il əvvəl gəlmiş, dünyada ən birinci Tanrı Kitabının-Tanrıçılığın Kitabının (kitablarından birinin) təsviri ola bilərdi.

O Kitabda həyatın yaranması haqqında biliklər, Təbiət və Cəmiyyət-insan həyatının Tanrı tərəfindən təyin edilmiş əzəli normaları, şərtləri yazılmış olardı. Yəqindir ki, **Tanrıçılığın kitabı olmasaydı və müqəddəs sayılaraq, sevilməsəydi 29-cu lövhədə - Qobustanda və Gəmiqayadakı başqa lövhələrdə onun forması-məlum Kitab şəkli təsvir edilməzdi. Fəlakətə düçar olmuş Gəmi rəsminin (biz onu Gəmiqayada əfsanəvi Nuhun gəmisinin rəsmi hesab edirik) üstündə də açıq Kitab şəkli: Qüvvət və İnam rəmzi kimi əks olunmuşdur.**

Kitabın insan üzünə, insan üzünün Kitaba bənzədilməsi-Gəmiqaya-Qobustan Mədəniyyəti dövründə İnsanın və Kitabın müqəddəs sayılmasından xəbər verir.

Fikrimizcə Tanrıçılığın Kitabı Qədim Azərbaycan:

Gəmiqaya-Qobustan əlifbası ilə yazılmışdır.

Nə üçün Kitab şəkilləri və Qədim Azərbaycan Əlifbası bu qədər müasir görünür? Elə bil Qobustanda «Ana», «Survan», Gəmiqayada «Subağ» və «Muzab», Gəncə daşında «AK», «Bak», «Tel», «Kozbut», «Akab», Gəmiqayada «Azak», «Oku»-«Oxu», «İkə»-«Adak» sözləri guya lap dünən yazılıb. Bu sözlər 8-10 min il əvvəl bu şəkildə, bizə məlum hərflərlə yazıla bilərdimi? **Əgər «söz ölür»sə bəs bu sözlər nə üçün ölməyib?** Doğrudanmı 8-10 min il əvvəl də Anaya «.Ana», Suya «Su», arabaya «Arava» deyilib? Doğrudanmı Gəmiqayada «bu» sözü lap bu günkü tək işarə əvəzliyi rolunda çıxış edib? Özü də e.ə. çox uzaq minilliklərdə? Doğrudanmı Azərbaycanda rəssamlıq və heykəltaraşlıq hətta bu günkü mərtəbədən də yüksək dərəcədə inkişaf edibmiş? Doğrudanmı bu fiqurlar sazın, bunlar da tarın 8-10 min il əvvəlki rəsmləridir? Bunlara heyrət edirik, ilk baxışda inana bilmirik.

Herodot 2600 il əvvəl nə yazıbsa, inanırıq: doğrumu yazıb, yalanmı yazıb?

Piramidaların altından Misir fironlarının meyidləri tapılıb, mumiya içində elə qalıb ki, guya 4000 il əvvəl yox, dünən ölüb. Buna da heyrətlənmirik.

Çünki biz mövcud biliklərə adət etmişik.

Biz Yerin kürə şəklində olduğuna daha heyrətlənmirik. Amma bunu XVI əsrdə deyən alimləri dara çəkiblər. 5000 il əvvəl «Bilqamıs» dastanı belə yazıb: **«Tufan qopdu, Yer sınıq küpəyə döndü, yəni: Yer kürəsi qitələrə ayrıldı»**-Buna da heyrətlənmirik.

Tutanxamonun 4000 il əvvəlki taxtı (82) guya Qahirə şəhərinin mebel fabrikindən lap bu gün istehsalata buraxılıb. Daha buna da heyrətlənmirik. Yenə də ona görə ki, biz mövcud biliklərə adət etmişik. Saysız misallar gətirmək olar.

Gəmiqaya-Qobustan mədəniyyəti və onun əlifbası haqqında ilk dəfə eşitdiyimizə görə (82) bunu hələ də mövcud bilik dairəmizə daxil etmədiyimizə görə-heyrətlənirik. Misal var: yüz eşitməkdənsə bir dəfə görmək yaxşıdır. Gəmiqaya-Qobustan mədəniyyəti-görünən mədəniyyətdir. Ona da bir qədər yaxından baxmaq kifayətdir ki, o da bilik-məlumat dairəmizə daxil olsun, ona da adət edək.

Strabonun «Coğrafiya»sında, e.ə. VI minillikdə mövcud olmuş Turdetan-Turdul fonetik əlifbası haqqında məlumat da (47.37) düşünməyə əsas verir ki, e.ə. VIII-VII minilliklərdə Azərbaycanda 32 hərfli klassik əlifba və həmin əlifba ilə yazılmış Kitab həqiqətən mövcud olmuşdur.

Gəmiqaya-Qobustan rəsmlərinin cəmində bir sual əks olunub: Dünya, Həyat, insan və bütün canlı aləm necə yarandı? İnsan cəmiyyəti hansı qanunlarla yaşayıb və yaşaya bilər?

4.16. NƏSİMİ «MƏN ALLAHAM» DEMƏMİŞDİR

Nəsimi öz zamanında ona görə hamı tərəfindən başa düşülməmişdir ki, O öz sirrini-tərənnüm etdiyi ideyanı sətir altında söyləməyə məcbur olmuşdu. Başqa cür mümkün deyildi. Nəsimi öz şeirlərində Tanrıya inamı elm səviyyəsinə yüksəltmişdi. Bu elm XIV əsrdə hürufilik adı ilə təbliğ olunur, yayılırdı. Hürufiçiliyin-işarəçiliyin banilərindən biri-Nəsiminin müəllimi dahi filosof Nəimi idi. Nəimi İslam mühitində deyirdi ki, insan Tanrıya sevgisi ilə azad olmalıdır. («Eşq ilə vasil olurlar Tanrıya».-Nəsimi). Bunu İslam dini də vajib bilirdi. Odur ki, Nəsimi özünü həm Tanrıçı, həm də İslamçı sanırdı.

Nəsimi hesab edirdi ki, dini düşüncədə elmi dərinlik Tanrıçılıqdan gəlir.

Tanrının: Tək, vahid, görünməz, bilinməz olması, amma mahiyyətcə dərk edilməsi, cənnət və cəhənnəm, ölmək və dirilmək (Tanrıçılıqda təbiətin qışda ölüb, yazda dirilməsi) həm Tanrıçılığa, həm də islam ideologiyasına aid edilirdi.

Bununla yanaşı, Tanrıçılığın bəzi atributları islam təlimində birbaşa qəbul edilmir. Məsələn Tanrıçılıqda Günəş-Od Tanrı-Tanrı qüdrətinin baş təmsilçisi, Tanrı-Qüvvət, Od-İşıq-Qüvvətin əsası hesab edilir. İslamda bu cəhət-xüsusən oda pərəstiş qəbul edilmir. Eyni zamanda, İslamda işığa-Tanrının nuru kimi and içilir. Nəhayət Tanrıçılıqda işarələr məsələsi də təbiətə əsaslanır. Bunlar Tanrıçılığın ideya əsasına-Yaradılış düşüncəsinə bağlıdır.

Hürufilik məhz işarəçilikdən törənmiş, hərfin müqəddəsliyi kimi tərənnüm obyektinə çevrilmişdir. Buna etiraz edilməsin deyə Nəsimi öz şeirlərində ərəb əlifbasının hərflərini obrazlar qismində vəsf edir, sevə-sevə tərifləyirdi. Amma din xadimlərinin bəziləri bundan da razı qalmır, Nəsimidə anti-islam təbliğatı axtarırdılar.

Dahi şairin rübai və qəzəllərində çox işlətdiyi «haq» (haqq) sözünü bəziləri yalnız «Allah» mənasında yozmuş, bununla da Nəsimini «kafir» adı ilə təqib etmişlər. Guya Nəsimi yazırmış ki, «mən Allaham». Əslində isə Nəsimi heç bir şeirində insanı «Allah» adlandırmamış, xüsusən də «mən Allaham»-deməmişdir.

Nəsiminin şeirlərindən aydın olur ki, o nəinki «mən Allaham»-deməmiş, əksinə bu fikrin birinci əleyhdarı olmuşdur.

Nəsiminin məşhur qəzəlindəki «Haq mənəm, haq məndədir, haqq söylərəm»-misrası 1970-ci illərdə Sovet ateizminə-Allahsızlıq ideologiyasına uyğun şərh edilmişdir. Guya dahi şair həmin misrasında deyirmiş ki, «haqq mənəm»-yəni «Allah mənəm», «haqq məndədir»-yəni «Allah məndədir», «haqq söylərəm», yəni «Allah söylərəm». Yenə də guya Nəsimi «Bulmuşam həqqi, ənəlhəq söylərəm»-yəni: «Allahı tapmışam, mənəm Allah»-deyirmiş. Guya

«ənəlhəq» Nəsimidən xeyli əvvəl dara çəkilmiş Mənsur Həllajın «son sözü» olub və guya o da ölüm ayağında «Ənəlhəq» yəni «Mən Allaham» deyibmiş.(81.188)

Əslində bunlar kökündən yanlış yozumlardır.

Ərəb mənşəli «haqq» («həqq») sözü heç də birbaşa «Allah» mənası daşımır, daha çox «həqiqi-doğru» məzmunu kəsb edir. «Ərəb-fars sözləri lüğəti»-ndə də «həqq» (haqq) sözünün məna açımlarından heç biri «Allah», yaxud Allaha ünvan kimi izah edilmir. Lüğətdə oxuyuruq: «həqq (haqq): doğruçu, həqiqi, həqiqət tərəfdarı»; «Həqqətül əmələrəst-düz Adam, haqqa sitayaiş edən»; «Həqqani-doğruçu, düz adam»; «həqiqi-haqlı, düz»; «həqiqi-doğru»; «həq Təala» kəlməsində «Təala- «Tale» şəkli ilə: 1. Tülu edən, doğan, çıxan; 2. Bəxt- qismət» mənası ilə izah edilir. (81.684.716).

Bu misallardan aydın görünür ki, fitvaçılar Nəsimiyə böhtan atmaq üçün «həqq» (haqq) sözünü öz qara niyyətlərinə uyğun yozmuşlar.

Professor Qəzənfər Paşayev «Nəsiminin həyat və yaradıcılığına yeni baxış» məqaləsində yazır ki, Nəsimini öldürmək üçün qurulan məhkəmədə hətta fitvaçılar özləri də dahi şairin Allaha sevgisinin həddsizliyini etiraf etməyə məjbur olmuşlar.

Nəsiminin qətlə yetirilməsi siyasi səbəblərlə bağlı olmuşdur. Q.Paşayev yazır:

«Akademik Həmid Araslı, şairin öldürülməsi təkcə dini əqidəsinə görə deyil, bəlkə siyasi mahiyyət daşıyır-desə də təəssüf ki, tədqiqatçılarımız bu ciddi məsələyə lazımınca fikir verməmişlər. Nəsimi dini əqidəsinə görə edam edilsəydi, islamın ilk illərində üzərində bərqərar olduğu dayaqlarından biri-Suriyada məsciddə dəfn olunmazdı. Türbəsi hələ orta əsrlərdən ziyarətgaha çevrilməzdi və məqbərəsinin divarında aşağıdakıları yazmağa cürət etməzdilər:

Əgər qəlbində sıxıntı hiss etsən,
Onu Nəsiminin nəfəsi ilə müalicə et.
Və orda, içərisində Nəsiminin sirləri olan
Şərəfli (yerin) mənzərəsini müşahidə et». («Ədəbiyyat qəzeti» 26.12.2006.)

Burada xüsusi olaraq xatırlanan «Nəsiminin sirləri» bilavasitə Tanrıçılığa bağlıdır və o sirlər Azərbaycan torpağında, Gəmiqaya və Qobustan rəsmlərində əks olunmuşdur və heç şübhəsiz, həmin rəsmlərdən də Nəsiminin xəbəri ola bilərdi. Tədqiqatçılar bilməmişlər ki, Nəsimi Tanrıçılığın Yaradılış ideyasını sətir altında tərənnüm edirdi.

Tanrıçılığın Obrazlı Yazıları

Gəmiqaya və Qobustanda qədim rəssam işarələrlə-hərflərlə işləyib. O nə çəkibsə yazı işarələrinin kombinə edilməsi metoduna əsaslanaraq çəkib. O hesab edib ki, hər işarə təbiətdə hazır şəkildə mövcuddur və bu Tanrıdan gələn qanunauyğunluqdur. Tanrı nə yaradıbsa işarələrlə yaradıb-əvvəl işarələrlə şəklini yaradıb, sonra onlara ruh-can verib;

Hər işarənin (hərfin, rəqəmin) mifoloji qiyməti var. İşarənin mifik kökü onun işlənmə tezliyində aşkar olunur. İşarələr təbiətdə (insanda, heyvanda, otda, ağacda və s.) təkrar olunur-Qədim rəssam bu biliyə əsaslanmışdır. Nəsimi də bunlardan qidalanmışdır.

Nəsimi insanı «dörd ünsürün, 12 ulduz bürəcünün və 32 hərfin nəticəsi» hesab edirdi. (80.647-649). Dahi şair Tanrıçılıqdan gələn ideyanı ərəb hərfləri ilə ideallaşdırırdı. O ərəb hərflərinin heç də qrafik gözəlliyindən söz açmırdı, hər bir hərfin arxasında dayanan məzmunu, mahiyyəti tərənnüm edirdi, hərfi kod, işarə kimi diqqətə çatdırırdı. «Nəsimi divanında» «Əlif-lam və tərs əlifba» bölməsində toplanmış şeirlərin (5 şeirin) ilk misraları ərəb əlifbasının 30, bəzən 29 işarəsinin adları ilə başlanır: Əlif, bey, tey, sey, cim, xey, dal, zal, rey, sin, qaf, kaf, lam, mim, nun, hey, yey və s.

Nəsimi dövründə qədim Azərbaycan əlifbası artıq 700 il idi ki, xalqa qadağan etdirilmişdi. Amma tanrıçılıq-yaradılış ideyası xalqın yaddaşında nəsildən-nəslə ötürülərək yaşadılmışdır. Nəsimi ərəb hərf və rəqəm (əbcəd) adları ilə öz xalqının ən qədim inamlarını, tanrıçılığın atributlarını sevərək təbliğ edirdi. Nəsimi ərəb əlifbasının 28 hərfdən, 33 işarədən ibarət olduğunu (44.60) əlbəttə ki, bilirdi, amma rübai və qəzəllərində «32 hərf (hüruf), 32 nişan, 32 gizli sirr, 32 haqq kəlamı» və s. işlədirdi.

«Ünsürün dörd oldu, həddin şeş cəhət»
Yəni: Sən 6 cəhətli Kainatda 4 ünsürdən yarandın.
«Məğrubi məşriqdən oldu seylimiz,
Yeddi ulduz, on iki bürc əslimiz».

Yəni: Biz qərbdən şərqədək dünyanı dövrəyə alan suyun içində var olmuşuq. Əslimiz isə: Ay, gün, Merkuri, Sevit (Venera), Mars, Yupiter, Saturn ulduzundan-Günəş sistemindən və 12 ulduz bürcündəndir. (Günəş il ərzində o bürclərdən keçir).

4.17. NƏSİMİDƏ SAYLARIN SİRRİ

Nəsimi rübailərində «32» sayına çox müraciət edilməsi nə ilə bağlıdır? Nəsimi «Kitab», «Müshəf» (ərəbcə «kitab») sözlərini, 4, 7, 14, 28, 32 saylarını sevə-sevə tərifləyirdi. Həmin saylar-işarələr kimi Gəmiqaya-Qobustan rəsmlərində də əks olunmuşdur. İnsan üzünə oxşadılan kitab rəsmlərinə də burada çox rast gəlinməsi təsadüfi deyil. Nəsimidə də kitab məhz «İnsan üzü» kimi vəsf edilir.

Suriyanın Hələb şəhərində Nəsimi məqbərəsinin divarına yazılmış «Nəsimi sirləri» də həm Nəsimi şeirlərində, həm də Gəmiqaya-Qobustan rəsmlərində aşkar olunur. **Bu mənada Nəsiminin Tanrıçılığı tərənnüm edən şeirləri ilə Gəmiqaya-Qobustan rəsmləri bir-birini tamamlayır.**

Məqribü Məşriqdən oldu seylimiz,
Yeddi ulduz, on iki bürc əslimiz,
Bistü həştü, sivi dürür nəslimiz. (84.47)

Şair birinci misrada deyir ki, biz Qərbdən Şərqədək dünyanı dövrəyə alan suyun içində var olmuşuq. Bu, Yer kürəsinin su ilə-okeanlarla, həm də mavi Göy «okeanı» ilə dövrələndiyini, Yaradılış fəlsəfəsində 4 ünsürdən birincisinin su olduğunu, nəhayət insanın ana bətnində su-dairənin, yumurtalığın içərisində 9 ay, 9 gün, 9 saat... inkişaf mərhələsi keçdiyini yada gətirməkdir. Rübainin ikinci misrasında Nəsimi dövründə günəş sisteminin 7 planetinin: Merkuri, Venera, Yer, Mars, Yupiter, Saturn, Neptun (yaxud Ay, Gün, Merkuri, Venera, Mars, Yupiter, Saturn-Sitarə) və Günəşin bir il ərzində öz səma yolunda 12 ulduz bürcündən keçməsi hadisəsi xatırlanmışdır. **Dahi şair deyir ki, insan ulduzlarla eyni maddi varlıqdan, eyni maddədəndir.** Bu fikrin obrazsız-çılpaq açımı yəqin ki, Nəsiminin cahillər tərəfindən «kafir» elan edilməsinə səbəb ola bilərdi.

Rübainin üçüncü misrası «nəslimiz» sözünə qədər fars dilində yazılmışdır. Fikrimizcə, dahi sənətkar bu vasitə ilə də cahil oxucunun fikrini əsas mətləbdən yayındırmaq istəmişdir. Həmin misrada deyilir ki, bizim protoazər (prototürk) nəslimiz 28-dən başqa nəsil deyil. Yəni biz Ay ananın övladıyıq. Ayın 28 gün, qadında ana halının da hər 28-ci gündə təkrarı bu ideyanın yaranması üçün maddi baza rolunu oynamışdır. Nəsimi Tanrıçılıqdan gələn həmin ideyanı sətir altında yaşatmışdır. Bu misradan o da bəlli olur ki, 28 sayı Ayın rəmzi kimi Azərbaycanda müqəddəs sayılmışdır. Göydən gələn ilk Tanrı kitabının 32 işarə ilə tamamlanması, ilk əlifbanın da məhz 32 işarəli-hərfli olması, bunun Tanrının təyin etdiyi norma sayılması, Ayın 28 gününün (gecəsinin) 4 ünsürlə cəmlənərək yenidən 32-yə çevrilməsi həmin rəqəmlərin qəbilə-soy adlarında yaşadılmasını da şərtləndirmişdir. Azərbaycanda «32-lər» kəndi (Bərdə və İmişli rayonlarında), «Dördlər» kəndi (Gədəbəy və Neftçala rayonlarında), «Turut düzü»: Tur(u)d-tord-dörd: Dördlər düzü (Şəki rayonunda) bu gün də mövcuddur.

Tədqiqatımız göstərir ki, «28-lər» adlı kəndlərimiz də olub. Bunlar hansı səbəbdənsə unutdurulub, bəziləri sonradan köçüb gələnlərin dilinə eyni məzmunda tərcümə edilib. Məsələn, İmişlinin Çahar kəndinin sakinləri bu kəndin əvvəllər «Dördlər» adı ilə tanındığını söyləyirlər. Sonralar (bəlkə lap qədimlərdən də) burada gəlib məskunlaşan qonşu fars xalqının nümayəndələri «Dördlər»i öz dillərində «Çahara» (yəni yenə də «Dörd»ə) çevirmişlər Strabonun "Coğrafiyasında "Turdullar:turd-dördlülər: dördə inananlar, "Turdetan": dördə Tanrı əlamətli deyənlər anlamındadır. Naxçıvanın Ordubad rayonundakı Bist kəndinin adı fars dilində «20»-dir. Nəsimi rübaisinin 3-cü misrası bu rəqəmə aydınlıq gətirir: «Bistü həşitü sivi dürür nəslimiz». Bist-20, həşt-8: yəni 28. güman ki, 28-in müqəddəsliyi sonralar farslar arasında da yayılıb və kəndin adı fars dilində «Bistü həştü» (Bist həşt) olub. Deməli «həşt»in ixtisara düşərək unudulması bu adın Azərbaycan dilindən fars dilinə tərcüməsi ilə bağlıdır. Bir daha xatırladaq ki, «Ay ana» Tanrıçılığın əsas atributlarındandır. Deməli İmişlidə «Dördlər»-«Çahara» çevrildiyi kimi Naxçıvanda da «28»-«Bist həşt»ə çevrilib. «Həştin» ixtisara düşməsi ilə kəndin adı anlaşılmaz olub, yəni məhz nə üçün «Bist»-nə üçün 20?

«Dördlər»in «Çahar»a, «28-lər»in «Bistü həşt»ə və nəhayət «Bist»ə çevrilməsi deməyə əsas verir ki, həmin kəndlərdə əvvəl protoazərlər-prototürklər, daha sonra farslar məskun olublar. Nəsimi deyir:

«Mən otuz iki hürufəm ləmyəzəl» (84).

Yəni: Mən əzəli və əbədi olan 32 Tanrı işarəsinin (Hərfinin) cəmiyəm.

«Ey üzün həqdən 32 nişan» (84).

Yəni: Ey gözəl, sənin üzün Tanrının çəkdiyi 32 müqəddəs işarənin cəmi olduğu üçün gözəlliyinin misli-bərabəri yoxdur.

«32-nin nişanıdır üzün» (84).

Yəni: Üzün bütün 32 Tanrı işarəsinin cəmidir; **«Gər səni duşunda görsəydi pəri,**

Oda salaydı otuz iki pəri» (84).

Yəni: Əgər Günəşin qızı-pəri səni yuxuda görsəydi, Kainatı hərəkətə gətirən çarxın 32 pərini qısqanclıq odunda yandırardı.

Bu rübaidə «32» sayının daha dərin qatlardan sorağı gəlir:

Çarxı-fələk: Fələyin çarxı 32 pərdən ibarət imiş. Məncə bu misra fiziklərə yaddaş vermiş olur. Kainatın fiziki-riyazi ilkində sayların rolu haqqında araşdırma aparmaq olar. Məsələn 7 sayı təkjə Ayın 4 fazasından biri olmaqla qalmır. Uşaqda 7 yaş mərhələsində baş verən fiziki dəyişiklik: süd dişlərinin dəyişməsi; yenə də sonralar uşağın məhz 7 yaşı tamam olanda ağıl-bilik yığmaq mərhələsinə daxil olması, məhz 7 yaşından məktəbə getməsi bilavasitə ideyanın: Tanrının; Tanrıdan gələn təkamülün aydın göstəricisi deyilmi?!

Nəsimi də şeirlərində sayları, xüsusən də: 2, 4, 5, 7, 12, 14, 28, 32-ni daha

çox tərənnüm etməklə Tanrı sirri önündə heyranlığını bəyan edirdi.

«Gördü çün kim binişani dişlərin,

Otuz iki gizli kani dişlərin» (84).

Yəni: Kim gördüsə o nişansız-eybsiz və 32 gözəl sirri saxlayan 32 gözəl dişlərini, heyranı oldu.

«Haqq-Təala adəm oğlu özüdür,

Otuz iki həq kəlamı sözüdür» (84).

Yəni: Tanrı hər yerdə olmaqla insanın qəlbindədir və insanda hər işarə, hər cism Tanrının 32 gizli kəlamı, sözü, işarəsidir, onların cəmidir və eynidir.

Nəsimi bəyan edir ki, bütün sözlər Tanrının göndərdiyi 32 müqəddəs sözdən-kəlmədən, işarədən törəmişdir. Dahi şair- filosof işarənin məhz sözün işarəsi – sözün- kəlamın şəkli olduğunu söyləyirdi. Dünyanın böyük alimləri: Humbolt, Sössür və A.A.Axundov yazırlar ki, söz – dil: işarələr sistemidir (79). Bu sistem yaradılış ideyasında bir qədər fərqli şəkildə əksini tapmışdır. Gəmiqaya-Qobustan abidələri, dilçilikdə işarələr nəzəriyyəsinin əsasında dayanan qrafik formaları müxtəlif təsvirlərdə yaşadaraq bu günümüzə çatdırmışdır.

«Qaimü daim üzündür səmrədi,

Həm kitabdır cəmalın əbcədi» (84).

Yəni: Sənin üzün ağ kağıza yazılmış əbədi işarənin gözəl bəhrəsi, həm də bütün hərflərin cəmindən yaranmış kitabdır. Burada söhbət məlum müqəddəs kitablardan yox, ümumiyyətlə kitabdan, Ən əzəli kitabdan gedir.

«Qaşü kirpik yeddi oldu saç ilə,

Həq kitabı uşbu babdan açıla.»

Yəni: Sənin qaşın, kipriklərin və saçların yaradılışın, 4 ünsürün rəmzi tək yeddi oldu və haqqın-tanrının kitabı bu fəsildən açılsın – oxunsun gərək. Burada müqəddəs kitabımız Quranla yanaşı, yenə də Tanrının daha uzaq zamanlarda göndərdiyi kitaba işarə olunur.

«Surətin müshəfdir, ey çubi xüram,

Kirpigin, qaşınla zülfündür kəlam».

Yəni: Sənin camalın-surətin Kitabdır, Ey Tuba boylu, ey sərv boylu; kirpigin, qaşın və zülfün-saçın bu Kitabı tamamlamışdır. Yenə də Nəsimi nə zamansa yaradılmış kitabdan söz açır.

«Əbcəd ilə mim əlif badir üzün»

Yəni: rəqəmlə sayılanda, sənin üzün bütöv əlifbadır, yəni yenə də 32 hərfli Kitabdır.

32-bütün işarələrin və sözlərin cəmi kimi verilir Nəsimidə. Dahi şair başqa sayların cəmində də 32 sayını aşkarlayır:

«Dörd gərək dörd-dörd gərək bir dörd gərək,

Yeddisi xətt istiva, üç dörd gərək».

Yəni: 4 ünsür 32 sayında da tamamlanır: 4 gərək – 4 ünsürün sayı gərəkdir:

4x4=16 gərək və daha bir 4 gərəkdir; Nəsimi burada misranın əvvəlindəki 4-lə sonundakı «bir dördü» də 4x4=16 kimi düşünməyi nəzərdə tutur. Yəni – 16-nın 2 cəmi yenə də 32-dir.

Yeddisi xətt istiva üç dörd gərək.

Yəni: 7 düz xətt tarazlananda 14 gecəlik bütöv Ay olur; yəni daha «üç 4 gərəkdir», iki 4 tarazlanmış, bütöv Aya çevrilmiş və 14 sayını 2 dəfə təkrar edir: 4 ünsürün birinə bərabər olur. Beləcə 7 dəfə 4 =28; yerdə qalan 3-cü 4-28-ə əlavə olunur və nəticədə yenə də 32 alınır.

Bu əsl riyaziyyat məsələsidir ki, birbaş Tanrıçılıqdan gəlir və bu Ən mürəkkəb məsələnin yaradıcısı, kəşf edəni, müəllifi dahi Nəsimidir. Bu məsələ bu günə qədər kimsə tərəfindən həll edilməmişdir. Bu cür məsələləri heç bu gün də, Tanrıçılığın ideya əsaslarını bilmədən, heç kim həll edə bilməz.

«32 laməmat illa həyat»

Yəni: Həyatın 32-dən başqa əlaməti yoxdur.

Materialistlər deyirlər: «Hər şeyin yaradıjısı varsa, yaradanın da yaradıcısı olmalıdır». Onların özlərinin başqa bir fikri bunu rədd edir: «Kainat əzəldən mövcuddur, Onu heç kim yaratmamışdır». Tanrıçılıqda bu fikir belə açıqlanır: «Tanrı əzəldən mövcuddur. Onu heç kim yaratmamışdır, hər şeyi-bütün qanunları o özü yaratmışdır.»

Ayın 28 gün, «dölə çağırış»ın da 28 gün olması Tanrının öz sirri – öz qanunudur. Gəmiqaya-Qobustan biliciləri bu qanundan baş çıxarmağa çalışıblar. Niyə məhz 28 gün? Həyat, doğum, artım məhz bu kodlara:

4, 7, 28, 32 kodlarına bağlıdır. Nəsimi bu kodları məhz kod – şifrə kimi tərənnüm edir. Bu kodlar Gəmiqaya-Qobustan abidələrində müxtəlif formalarda əks olunmuşdur.

Kainatda ölçülər saysız qədər çoxdur. 28-ci ölçü ilə 28 günün əlaqəsi varmı? Mübahisə etmirik.

Yeddi yerdə otuzikidir üzün,
İyirmi səkkiz göstərər iki gözün.

Bu rübaidə 1-ci misra: otuz iki işarənin – hərfin, sözün cəminin – 7 planetdə olması kimi bir mübaliğədir, yəni sən o dərəcədə gözəlsən ki, gözəlliyin 7 planetə hakimdir. 2-ci misra: Sənin iki gözün 28-i – həyatın özülünü, əsasını göstərir. Yəni ki, sənin gözlərin həyatın özüdür, onlar mənə həyat verir.

Nəsimi gözəlin üzündə 2 on dörd gejəlik Ay görür.

«Gər dilərsən xaliqi etmək əyan,
Hərfi sözsüz necə eylərsən bəyan.
Hərfdən özgə xaliqə yoxdur nişan» (84).

Yəni: Tanrı dünyanı işarələrlə – hərflərlə qurub; hər işarənin – hərfin arxasında isə söz dayanır, Tanrı yaratdığına – insana bundan kənar əlamət aramaq əbəsdir.

«Ey boyun həqdən 32 nişan». Bundan əvvəlki rübaisində Nəsimi gözəlin üzünü həqdən 32 nişan adlandırmışdı; indi onun boyuna «32 nişan» qiymətini verir; bununla da əvvəlki fikri daha da genişləndirir.

Orxon – Yenisey abidələrində insanın boyu 32 nişandan – işarədən ibarət nəzərdə tutulur. Hər ikisində 32: tamamlanmış kitabdır. Yəni, həm Gəmiqaya-Qobustan və Orxon-Yenisey abidələrində, həm də Nəsimidə insan, ölçülərin cəmi ilə –Kitabdır. Kitab: sözün və işarənin cəmindən ibarət bitmiş, bitirilmiş, heç bir şərhə, düzəlişə ehtiyacı olmayan, toxunulmaz, müqəddəs bütövlükdür. O bütövlükdə Tanrı bir daha öz yaratdıqlarına əyan olur. (Bitik-bitak: Kitab. Burada səslərin yerdəyişməsi heyrət oyadır!)

Nəhayət Nəsimi sevdiyi gözələ deyir ki, «Ey: kitabından üzün gül bir vərəq». Misrada söhbət ümumi halda kitabdan gedir. O kitab ki, insanın üzünü əks etdirir; Tanrı insanın üzünü O Kitaba, O Kitabı insanın üzünə oxşar yaratmışdır. O Kitab Qobustanda əlifba daşında (29-cu daşda) insan surətlərinin: o sıradan işıq ilahəsi – gözəl surətinin, Ana və uşaq, gənc və müdrik atalar və «müdrik heyvan» sürətlərinin, nəhayət, Gəmiqaya-Qobustan əlifbasının bütün çoxşəkilli 32 hərfinin əhatəsində, Daş lövhənin ortasında, diqqət mərkəzində görünür.

Nəsimi deyir ki, Sən Tanrının yaratdığı Kitabsan və sənin o gül üzün müqəddəs Kitabdan, Sən – Kitabdan bir gül vərəqdir.

Nəsiminin şeirlərindən belə nəticə alınır ki, Tanrıçılıqda elmlə din bir yerdə düşünülmüşdür və sonralar dini elmdən ayırmağa göstərilən cəhdlər fikir ayrılıqlarına, bəzən anlaşılmazlığa gətirib çıxarmışdır. Elmlə Dinin eyni mənbədən Tanrıdan – Allahdan gələn vahid ideya olduğunu müqəddəs kitablar: Zəbur, Tövrat, İncil və Quran tam sübuta yetirir.

Gəmiqaya-Qobustan mədəniyyəti: əlifbası və incəsənəti Azərbaycan xalqının bəşəriyyətə misilsiz hədiyyəsidir.

4.18 GƏMİQAYA-QOBUSTANDA HANSI SÖZLƏR YAZILIB?

Gəmiqaya-Qobustan sözlüyünü 3 qrupa bölmək olar:

1. Fonetik işarələr ardıcıllığı ilə şərti mənada asan oxunan sözlər: Ana, At, Ak, Kan, (Xan), Adak (Ayaq), Akışta, Su, Aş, Tut, Ut (u), Gün, Ud, Bel, Nal, önüz, Lu, Ulu, İkə, Bu, Subaq, Muzab, Oku (oxu-maq), Kök və s.

2. Fonetik işarələrlə kombinə edilmiş, şərti mənada sadə piktoqraflar:

Tanrı, Tum, Buraq, Survan, Batovul, Abar, Arava, Akşak, Suana, Ad açar, Kökümüz, Akun, Aban, Kozbut, Asu, Batanar, Quş, Kunaç, Közağ, Aba, Nukus, Akbaş, Akan və s.

3. Mürəkkəb quruluşlu piktoqraflar:

Adbuz, Batdar, Fayton, Atkanar. Başranal. Əbudo, Beştaz. Abranaz, Tuxşa, Arikaba, Ataşkanar, Akuçtanaq. İçabak və s.

Asan oxunan sözlərin əlavə izahına ehtiyac qalmır. Sadə və mürəkkəb piktoqraflardan bir neçəsinə diqqət yetirək:

1. **«Kökümüz bu quş»** piktoqraflar qrupunda (Gəmiqayada) ən aydın oxunan «bu» işarə əvəzliyidir. Burada bugünkü açımla «b»- «kiril»dir, «u»-«latın». **«Kökümüz» sözü: K, Ö, K, Ü, M, Ü, Z (K, Ö, M, Ü, Z) işarələri ilə yaradılmış keçi fiqurudur; Q, U, Ş işarələri ilə quş fiquru yaradılmışdır. «Kökümüz» sözü ona görə keçi piktoqrafı ilə yazılıb ki, keçi-öndə gedəndir, başlanğıcdır, yazın-həyatın yenidən başlanmasının rəmzidir. Yəni-kökümüz-bünövrəmiz yazda: od+su bərabərliyi tarazlığı günündə, İstinin, dölün, doğumun, bərəkətin, artımın başladığı gündə qoyulmuşdur.**

Quş-işıq timsalında göydən uçub gələn ruhumuzdur; «bu» sözü-quşu nişan verən işarə əvəzliyi ona görə həm də ilan fiqurudur ki, ilan-qoruyucu kimi Tanrıçılığın atributlarındandır.

«Dədə Qorqud» qəhrəmanı Qazan Xanın «Ağ sunqur quşunun erkəyində bir köküm var»- bəyanatı (13) birbaşa Gəmiqayadakı «Kökümüz bu quşdur» piktoqrafından gəlir və həmin piktoqrafı təkrar edir. Qobustandakı, bir ayağı «A» işarəli quş fiquru da məhz «Ağ Sunqur quşu»nun ideal obrazı-şifrəsidir. Bu mənada Gəmiqaya-Qobustan min illər ərzində pozulmaz yazı lövhələri rolunu oynamışdır.

Gəmiqayada **«Akışta»** və **«Akştaq»** sözləri Naxçıvan folklorunda mahnının xorda oxunan «hakşta» nəqaratı ilə yaxın səslənir.

Akış-ta: Ak+ış (iş): Ağ işıq; bu, Od Tanrının-Günəşin ağ işıq əlamətli adıdır. Akşta-hakşta nəqaratı mahnıda Tanrı obrazının əzizlənməsidir.

Batdar: Lüğətdə «bat» «ərəb mənşəli» bat-iç, daxil mənasında verilir; «dar»fars dilinin şəkilçisidir. Bu da eradan neçə min il əvvəl protoAzərbaycan (prototürk) protosami və protofars dil əlaqələrindən soraq olduğunu söyləməyə əsas verir.

Bununla yanaşı, bəlkə də «bat»-kök söz kimi ulu dil mənşəlidir. Belə ki, «bat»-çoxmənalıdır: batman-ağırlıq ölçüsü; ağır-məhz «bat»la bağlıdır; bat-an: batılan yer, bətn-bət-ən-bədən, Bətən-Vətən: içimiz-daxilmiz; içində-daxilində olduğumuz məskən, doğulduğumuz yer: ana bətni-Torpağın bətni: Bətən-Vətən; demək hər bədən-böyük Bədənin-Vətənin bir parçasıdır.

Batdar: bat-çı: Vətənçi deməkdir. Azərbaycan dili üçün arxaikləşib. Qobustandakı rəsmdə polis-hərbçi Batı-Vətəni-müəyyən ərazini qoruyandır.

Günbatan – Batı – Qərb (cənub-qərb?) tərəfdir. Batı xan isə Batçı – Vətənçi xan kimi böyük batdar olub.

Akan: Ağan – Ağa deməkdir. Günəşin «Ağ» - İşıqlı adına bağlıdır; An – Azərbaycan dilinin qədim şəkilçisidir (an, ən, yən, yan:ged-ən, bax-an, otur-an, oxu – yan və s.)

Akan: həm də A-kan: 1-ci Kan- 1-ci xan mənasını daşıyıb. Polis başıçısı polis zabiti, başçısı kimi «Akan» adlanıb. Polisin müasir fars dilindəki «Acan» adı «Akan» sözündən iqtibasla yaranıb.

AKANU MUZKUN: Qobustanda musiqi rəhbərinin papağına yazılıb. Akanu: ağası-Başçısı; Muzkun: «Musiqiçi» anlamındadır. Burada Kun-qədim şəkilçidir. (qın, qin, qun, qün, kun, kün: azğın, qaçqın, küskün, kəskin, solğun, pozğun, daşqın, dalğın, üzgün və b. sözlərdə olduğu kimi).

Ad Açar (Gəncə daşında): ad çıxarar-qazanar mənasında; Yol açar-deyirik; Adı da açmaq-yaymaq, yaxşı mənada məşhurlaşdırmaq müdrik ifadədir.

ONÜZ (Gəncə daşı). Burada lap müsbət mənada da «on üzlü» olmaqdan söhbət getmir. Tanrıçılıqda on-10: bütövlük rəmzidir. Onüz: bütöv adam-əsil adam, doğruçu, ən yaxşı adam haqqında deyilib, müasir dilimizdə arxaikləşib.

Muzab: (Gəmiqayada). Bu daş təsvirdə varlı, sahibkar fiquruna oxşadılıb. Bəlkə də ərəb-fars mənşəli peşə, mövqe-vəzifə adı olub. «Ab» fars mənşəli şəkilçidir. Sirab: Kükürdlü su, Mirab-su sahibi, su adamı, olduğu kimi, Muzab: muz-durların başçısına deyilib.

Abazkat: arxaik sözdür; «abaz» və «Kat» bəlkə də mürəkkəb birləşmədir. Güman ki, Hind-avropa mənşəlidir. Əlavə tədqiqinə ehtiyac var. Bəlkə də burada «Kat»-Katın-qadın sözünün komponentidir?

Baltaban: (Gəncə daşı): Ban-burada «çı» şəkilçisini əvəz etmişdir: Baltaçı, Balta düzəldən, balta ilə iş görən. Sözün balta kimi kəsərli olması. Qobustanda «Ana və Balta» rəsmində, «Hökmdar» və «Polis» rəsmlərində də balta Qanun simvolu, Tanrıçılığın atributlarından biri kimi təqdim olunur. «Ulu baba» rəsmində də balta məhz simvolik funksiya daşıyır. «Balta» metateza ilə-«Polad» sözündən yaranmışdır. Polad-Palad-Balat: Bal+Ta.

BATOVUL: (Gəmiqayada): B, A, T, O, V, U, L işarələri ilə çanaqlı bağa fiquru alınmışdır. Batovul-«bat» kodu ilə «bat-aqlıq» heyvanıdır. «çanaqlı bağa» onun sonrakı adlarından olmaqla «hər yanı çanaqla bağlı» əlamətini bildirir. Zoonim mənşəli «bataqlıq heyvanı» «batovul» sözünün daha qədimliyindən xəbər verir.

İçabak (Gənjə daşı): İç bak: bağ, İçəri bağ kimi anlaşılır. Görünür «İçəri şəhər», «İç Oğuz» da belə qədim kökə bağlıdır. Bəs «bak»-«bağ» mənasındadırmı? Bəlkə **«içabak»-«içəridən baxılan»**dır. (?) **insanın iç gözü-qəlbinin gözü** bəlkə belə adlanıb? Əlavə tədqiqinə ehtiyac duyulur.

Tutqan (Gənjə daşı): 3 mənada: a) tutqac, camı tutmaq üçün istifadə edilən parça, dəsmal; b) tutalqa: mənəvi dayaq yeri; v) tutağan it və s. izah oluna bilər.

Kozbut - sözündə (Gəncə daşı) Koz: Köz-od, işıqdır. Kozbut-işıqlı but, yaxud kozal-gözəl but anlamındadır. But-buta: Gözəl. Başqa mənalarda da aramaq olar.

Abar - bəlkə də apar-(maq) hərəkət edən mənası daşıyıb.

Qobustanda «taxtda oturmuş hökmdar»(qul arabasında-qulların qolu üstündə aparılan) piktoqrafı-estamp variantı-«Kök» və «Kökümüz» sözləri ilə açılır. Bu da o mənada qanunauyğundur ki, kök-başlanğıcdır, əsasdır. Hökmdar da məhz xalqın köku, əsası, dayaq nöqtəsidir: xalq öz hökmdarından başlayır;

«Ulu baba» lövhəsində (Qobustan) Baba, Dədə, Aksaka-Ağsaqqal, qısjıq-Qızcığaz sözlərinin-piktoqraflarının yazılması təbii görünür. Bu lövhədə ulu nənə obrazı da yaradılmışdır. «Aba» sözü ona - nənəyə ünvanlana bilər.

«Şakum» piktoqrafı nəyi bildirir? 1) Şahım; 2) şak-ım, şaqqam-bir şaqqam, bir tərəfim, ürəyim; «bir şaqqam quruyub»-deyirik. «Bir şaqqam-bir tərəfim kimi daha inandırıcıdır.

"Adak" – kişi ayağının baş barmağının uzanan xətlə 2 gəncin evlənməsindən -

"adak"-lanmasından soraq verir. Sonralar "Adak" - "Ayaqla" əvəz olunsa da, ondan yaranmış "Adaklı" sözü bu gün də yaşamaqdadır (səh.)

Gözlər insan üzündə 2 təbii "Ö" ("Ѳ") işarəsidir. Gözlər və burun "Ф" ("F") bunlar Gəmiqaya-Qobustan təsvirlərində və xalçalarımızda da əks olunmuşdur.

İnsan üzündə 2 göz - 2 Aydır. Nəsimi «28 göstərir iki gözün»-deyəndə bunu nəzərdə tutmuşdur və bu fikir də dahi şairin bədii yaradıcılıq düşüncəsindən əvvəl də xalq mifologiyasında əks olunmuşdur. Gözün həm də Ayn-Eyn, güzgünün və pəncərənin həm də Ayna adları «Ayna sular» da Ay-ın-işıq əlamətinə bağlanır.

Qobustanda ucadan danışan kişi portreti ideallaşdırılıb.(səh.192) Açıq ağızlı bu adamın üzündə (yəni heykəlin üzündə) bir neçə söz yazılıb. Burada S, Ö,Z işarələri ilə neçə variantda «SÖZ» piktoqrafi bu heykəlin qədim rəssam tərəfindən məhz «SÖZ» adlandırıldığını sübuta yetirir.

L(el) hərfinin bu günkü «latın» şəkli insanın baş və şəhadət barmağını, həmin hərfin «kiril» şəkli isə ayaq üstdə dayanmış adamın qurşaqdan aşağı 2 qılçası və ayaqlarının hərəkət anını əks etdirir.

Yəni bu da mifoloci düşünjənin, uzun illərin müşahidəsinin məhsuludur və yenə o fikri təsdiq edir ki, ilk: klassik, fonetik əlifba bir nəfər tərəfindən yox, bütün xalqın-etnosun-etnosların (!) çoxillik müşahidələri əsasında yaradılmışdır. Sonrakı dövrlərin bütün «dahi», «böyük» «əlifba yaradıcıları» hazır mətnə əsaslanmışlar.

KÖKAQA (Gəmiqayada)-Göyün ağası, sahibi: Tanrı;

Elukuz (Gəmiqayada)-el gözü, el közü (odu, işığı, qiyməti) odu;

ATBA = Bəlkə «ATA-Baba»dır?

Abanaş (Qobustanda) sözündə ananın üç adı: Ana, Aba və Anaş bir piktoqrafda kombinə edilmişdir. Bu üç ad üç əlamətin daşıyıcısıdır: Ana-An-T-An-ı: Göy Ana; Aba: Yerin, yaşıllığın, suyun, havanın simvolu: Həvva Ana; Anaş: İşıq Ana-Günəş Ana. Ulularımız Ananı məhz belə yüksək qiymətləndiriblər. Anaş-bu mənada böyük Anadır, Analar Anasıdır;

Ankumaş - bu günkü «Al qumaş» sözünü yada gətirir.

Əqşan (Gəmiqayada) müasir «Ağ şanı» (üzüm), «arı şanı», şan-şöhrət. Şanlı (məktub, inqilab, gün və s.) sözləri ilə eyni koddandır; hətta «şən» sözü (şən uşaqlar) həmin məzmunda-«şən»-sevimli, «parlaq işıq» anlamı ilə Tanrıçılıqdan gəlir.

Batranal, Başranal, Butrunal, Xəbərnal- sözlərindəki al, (nal) şəkilçisi bu günki "Yaranal" sözündə də iştirak edir. (Yaranal- Qarabağ dialektində "general" mənasında işlənir). Bu faktın özü də Azərbaycan (Türk) dilinin qədim mənzərəsi haqqında müəyyən təsəvvür yaradır. Fikrimizcə "Xəbərnal"da "xəbər" müasir lüğətlərdə yazıldığı kimi, heç də "ərəb mənşəli- əxbardan deyil, əksinə "əxbar" "xəbər"dən törəmişdir." Bu, Gəmiqaya- Qobustandan xeyli sonra Şumer-Akkad dövründə baş verə bilərdi.

Gəmiqaya-Qobustanda şəxs adları varmı? Aşkar etdiyimiz 400-dən artıq sözdən bir neçəsinin şəxs adı olması mümkündür. Amma hələlik onları təyin etmək çətindir. Biz titul, ləqəb, peşə, ictimai vəzifə, mövqe və s. bildirən adlardan bir qismini müəyyən etməyə çalışmışıq. Məsələn, Batdar, Muzab, Katnu, Akan, Ankaz, Kutkan, Banubaş, Başranal, Xəbərnal, Batranal, Baştar, Baltaban, Başranal, Batu və s. belə sözlərdəndir.

Piktoqrafik və qrafik açımlarını verdiyimiz sözlər Azərbaycan (türk) dili ilə yanaşı başqa dillərin də qədim mənzərəsi, fonetik-qrammatik quruluşu haqqında məlumat vermək imkanındadır.

Gəmiqaya-Qobustan sözlüyü dilçilik baxımından düşündürücü faktor kimi qarşımızdadır.

AMEA-nın müxbir üzvü Tofiq Hacıyev; professor Qəzənfər Kazımov; Norveç alimi Tur Heyedral (92) və b. fikrincə, sivilizasiyanın mərkəzi Ön Asiya olubsa və Azərbaycan da həmin əraziyə daxildirsə burada Ulu dildən ayrılma ərəfəsində, yaxud ondan sonra müxtəlif etnosların qarışıq halda yaşadığını söyləmək olar. Mədəniyyətin, xüsusən də yazı mədəniyyətinin yaranması və inkişafında bu mənada protoazərbaycanlılar-prototürklərlə yanaşı, Azərbaycanın o zamankı sakinlərinin-etnoslarının hamısının payının olması qanunauyğundur.

4.19. GƏMİQAYA-QOBUSTAN SÖZLÜYÜ +

A

An; Ana
As Ana (Asina-Aşina)
Açar
Anak; Anaş
Ad Açar
Aq; Aq Anamız
Ay; Ay Anamız
Az; Az Anamız
Anad
Ar; Ra
Ara; Aranq(Azanaq)
Aranur
Akuştanaq
Akab
AT; AQ AT
ATA
Ad; Ada; Adam
Adaş; Ataş; Adeş
Aqa; Aqan
Aqər
Akan
Aqmas
Aqun; Akun
Atab
Akbu; Akuba; Akub
Akur; Akura
Aba; Abi
Abil
Ayma (q)
AMARAKABAR
Akum; Akut; Akar
Aban; Abana
Atanar; Anatar
Abanaz
Abar
Ama; Amaqamas; Amaş
Asak; Asma
Al
Allu; Lu; Bullu, Ulu
Alaq; Alan
Alaş
Arur
Atzik (Kizat)
Anar
Acı
Alqaz-Talqaz
Amxan-Qamxan
Amaz
Amar-Maral
Akça
Asu, Azu
Akbatan
Aslan
Atar-Atara
Atal-Ataq
Abonut
Açu
Ay iz-Ay üz
Ay tuqul
Atlaz
Ağu
Aq buran
Ağtul
Ağul
Arun banada
Az-Azaq-Azqa
Alba-Alaba-Abla

+

Bəzi sözlərin oxunmasında müəyyən səhvlərə yol verildiyini güman edirik. Bunlar gələcək tədqiqatlarda aydınlaşdırıla bilər.

Abezal
Ankumaş
Atibuta
Akbuzə
Aç-Açaq
Anakat (Ana Kadın)
Anabdan
Adbuz
Abkadabaz
Akada (Ak adam)
Abatur
ATBA
Asom
Abnu-Banu
Asamuş
Akşak
Alşıranq
Aşta
Aş-Aşa
Arasak
Aşnulo-Aşnub-Taşnub
Aşov
Akşanak
Artuləz
Abazkat
Aşir-Aşit
Aşaq (Uşaq)
Aşub-Aşuv
Akbaş
Akaştarak
Azot (təzə od)?
Arava-Araba
Aksakal (Ağzaddal)
Aştubaz
ATKANAR
Aşnudub
Aza
ADÖZ
Akışta; Akıştak
Anarkarakuba
Antar / Anatar/

Ə

Ər
Əbudo
Ək-əks
Əqşan
Əkus-Əkuz (Ekiz)
Əzuv-Əziv (İssık Kulda)
Ənik-Ənit
Əbəz (bəzə)?
Əkənaz-Əkənov
Əkiz-Ekiz-ikə-əki
Əbnis
Əran
Əş-Eş

E

Ev-eb
Elukuz
Elot
Eş-Uq
Evət
Evşiv
ET
Ekso-Enso
Eliz (el izi?)
Edişan
Eneş (Anaş)
Ezit
Emukub
E S

I, İ

2 iki (2 dəfə 2)
2 şir
İqin (ıqın)
İkə (z) (eki-z)
İsa (Mingəçevir)
İlizə (ilinizə) (Mingəçevirdə)
İzob, İlzob

İbum-İBUQ
İkiba-İkibə (iki bala, iki bəbə?)
İn-İnel
İşıq
İştar
İÇABAK

O

Ol
Oku-Oxu
On (10)
Oq-Ok-Ox
Oloq, olop, olon
Olsun (Mingəçevir)
Obit
Obakə
Okus
Oton (10 od?)
Onüz

Ö

Ög-Ök (Kök)
Öküz
Özük (özləş?)
Ön
Önöv
Ördək (Şumerdə)
Örön (örən)
Ömür (Mingəçevirdə)

U, Ü

Utar
Uçe
Ut (Utu)
Uçeş
Utuk (ütük)
Üz-üz
Uştuk
Us (huş-ağıl)
Ud
Un
Uşnuk
Untum
UK-Ukum
Ulu-Uluq-Ulumus
Umu-Umzu (ummaq? Umud-ümid?)
Ultn (Ulu Tanrı?)
Ulçuk (uluya-böyüyə xas olan, aid olan?)
Udum (odum?)
Ubu, uburum
Ulaz Aza
Uzuq-uzun
Ubat
Uşutnuştu

B

Baq (Bağ)
Buzat
Baqupəl (Mingəçevirdə)
Baqan-Bak-Baka
Bala
Buzak
Balıq
Bu
BATOVUL
Buntuş
BALTA
Bunik
BABA (AB-AB)
Batranal
Butrunal
Banubaş
Banatan
Ban-Banu
Bas
Batuştu

Baş
Batdar
Bar
Baştar
Bazban- (Baqban?)
Bazaran
Batanar-Basanar
Bad
Banaka
Bazenbotonaku
Baqşə
Bltaban
Barkam
Başranal
Bekat
Balbuq
Bel (Mingəçevirdə)
Bol
Batur
Böl
Batadur
Beş
Bulik
Betaz
Beştaz
Bərək
Bal
Buz-Buza
Bus-Buzar-Bu
But (büt)
Budu-Budaq
Bikum (büküm?)
Bukulum (bükülüm?)
Buraq
Buğa
Bulu
Butaka
Buştur
Buşək-Butək
Buzov-(vubəz)
Bəy-Bey
Buntur
BAK
BATAN
BETAZ

V

Var-vər
Vakit
Vur-ur
Vubəz-Buzəv?

Q

QARQA (XALÇADA)
Qsçk (Qızjıq-az)
Qıt-Qit
Qati (Qatı: bərk?)
Qatın-Qadın?
Qələm (Şumerdə)
Qav-Qab
Qar (qar-daş?)
Qat-Qatun: Xatın
Quzu
Qoraz (Xoruz)
Qorat (Qırat?)
Qubul
Qut
Quş
Qammaq (Maq Qam)

D

Dam-Damu (insan!)
Dum-Dumu (qadınlar)
Daq-dağ
Damuz-damüz (Adam üzlü)
Darab
Dər
Dev

Dədə (də-də)
Doq (doğ)
Denesul
Doqnak
Doqum (doğum)
Dazağ
Döl
Dubad
Dun-din
Duz

Z

Zab-zəb
Zabat
Zabuq-Zabuç
Zat
Zan
Zav-Zarav
Zamkar
Zuan-Zuna-Zunun
Zoş
ZUQNUB
Zunus

K

Katnu (Katın Mingəçevirdə)
Kegti-Getdi. (Mingəçevirdə)
Közübel (İşıqlı bel. Mingəçevirdə)
Köz-Göz
Kö (k)-kökümüz
Gözümüz
Gözağ (Ağ İşıq-Közar)
Karakubu
Kutkan-Xutkan
Kan-Qan-Xan
Kuna
Kandad (qanad)
Kanal (Şumerdə)
Kad (Kadın?)
Karam
Kiner
KAMAK
Kom
Kadaç-Kadar
Kİ
Kişi-Kişə (kşb-khn-kğa-ktb-katb)
Kitul
Kuş (Quş)
Köz Tuba
Kenta
KÖRPƏ
Ked
Kem
Gəmi (Kəlbəjər)
Kən-Kək
Göl
Kunat-Gün at
Kunab
Kunaç (Gün çıx)
Kuntaş (Gün daşı-odu)
Kuzbul
Gün-Gün Ata -Günəş -Ata
Gün iş nüşü
KEİN
Konek
Kur-Kür
Kobtar

M

Mak-Maq
Maral-Amar
MUZAB
Moda (adam) mada (y)?
Muni-Munu
Musi
Maqam-Muğam
Muzkun
Muz

N

Nar
Nal
Nud-Nut
Nuz-Niz-Naz
Nuzar
Navak
Nuştus
Nukus

L

Laşonat-Laşonot
Lüxşə

P

Par
Pazan
Pit-Pik
Puçbu-Puçbun

S

Salot
Suç
Saqzut
Söz
Su
Sazba
Sur
SURVAN
SUBAĞ (Q)
SUAN (a)
Suzbul
Süzül
Sibav-Sibab

T

TANQRI
Tanq
Taçar
Tar
Tada
Tanb-Tanab
TaLQAZ-Alqaz
Tabzuk
Tanalaq
Tanur
Taqbat
Tab-Təb
Turbal
Taq (Daq)
Turban
Tanava
Tez
Tata
Tel
Tək-Tək (ə)
Taza-Təzə
Tərək-Tarak
Törən
Tuxşa
Tuq
Tunuku
Tum
Tutkan
Tus
Tutum
Tutu-Tut
Toz
Tök

R

Rumna

F

Fayton

H

Hava

Ç, C

Çaq
Çabaz
Çəri (qoşun)
Çikak
Jorağ (Çıraq?)
Çudulbu

Ş

Şak (şah?)
Şan
Şar
Şarağ
Şam
Şabab
Şat
Şir
Şuba
Şubukuz
Şabu
Şakum

X
Xəbərnal

Xan-Kan
Xevrut

4.20. GƏNCƏ DAŞI

Gəncə ölkəşünaslıq muzeyində saxlanılan bu yazılı daş formasına görə Azərbaycanda yeganədir. Bu daşın xətli (dəftər) şəkli onu şumer lövhələrinin forması ilə eyniləşdirir. Amma, tədqiqatımız göstərir ki, Gəncə daşı şumerdən daha qədimdir. Sonralar Orxon-Yenisey və Fest diski yazılı abidələrində də Gəncə daşının xətli formasından istifadə edilmişdir.(səh227)

Bu daşı XX əsrin əvvələrində arxeoloq Y.İ.Hummel tapıb Xanlar muzeyinə gətirmiş, 1960-cı ildə isə həmin daş Gəncə muzeyinə təhvil verilmişdir. (85.141). N.Rzayev bu daşı eradan əvvəlki III minilliyə aid epitafiya – qəbirüstü abidə hesab etmişdir. (Göstərilən mənbə). Lakin üzərində oxunan sözlər, onun epitafiya deyil, Tanrıçılığın yaddaş abidələrindən olduğunu söyləməyə əsas verir. Həmin sözlər kitabda «Gəncə daşı sözlüyü»ndə toplanmışdır.

Gəncə daşı Gəmiqaya-Qobustan mədəniyyətinin nadir abidəsidir. Onun öyrəniləcək sirləri gələcək tədqiqatını gözləyir.

4.21. QƏBİZDƏRƏ RƏSMLƏRİ

Zaqatala rayonunun Qəbizdərə kəndində, dağ yamacında aşkar edilmiş yazılı daşların üzərindəki rəsmləri və işarələri kompozisiya – məzmun ardıcıllığı ilə nəzərdən keçirdim. Bu sirrli daşların hər iki üzündə oxşar kompozisiya kiçik fərqlə təkrar edilir və tamamlanır. Həmin daşlara nə vaxtsa Gəmiqaya-Qobustan təsvirlərindən fraqmentlər köçürülüb. Təsvirlərin məzmunu bu nətijəni təsdiq edir. 1-ci daşın 1-ci üzü üç təbəqəyə ayrılıb. Güman etmək olar ki, bu, üçlü dünyanın – yuxarı, orta və aşağı – simvoludur. Yuxarıda şir, onun davamı kimi buğa, onların da ortasında Günəş təsvir edilmişdir. Günəş – Od Tanrını (Tanrının yaratdığı Tanrını) təmsil edir. Şir – İşıq (ulduz) bürjünün, buğa – su bürcünün rəmzidir.(səh.230)

Bunlardan əlavə, həmin təbəqədə 4 piktoqraf (şəkil-söz) əks olunmuşdur. 1-ci piktoqraf. Ata, ana və doğulacaq uşaq timsalındadır. Bu piktoqraf Gəmiqaya-Qobustan və Orxon-Yenisey əlifbalarındakı «başda gələn B» - Ən 1-ci «B» səs birləşməsini (Qoşa səsli yazı işarəsini) və simvolik «ana bətni»ni təkrar edir; piktoqraf üçlü dünyanı göstərən güzgü timsalındadır.

2-ci piktoqrafda: paralel xətlər Göylə Yerin bir-birindən ayrılmasını simvolizə edir.

3-cü piktoqraf: suyun rəmzi olmaqla Gəmiqaya-Qobustan əlifbasında əb-eb səs birləşməsini Ö, əb-eb: ev, əb-Ab: Aba-Ana məzmununu əks etdirir.

4-cü piktoqraf: Gəmiqya-Qobustan (qədim Azərbaycan) əlifbasının (tş) səs birləşməsini (tş: Tanrı işığı – işıq-Tanrıdır!) anlamını yada gətirir.

1-ci daşın 2-ci üzündə Gəmiqaya-Qobustan əlifbası ilə «Aba-Aç» kəlməsi yazılmışdır.

Fikirmizcə, bu kəlmə ilə işıq Anaya – Günəşə müraciət olunur. Yəni: ey işıq Anamız, Aç Göylərin yaxansını, çıx, qalx səmalara, bizə – Yer övladlarına işıq göndər – Həyat göndər!

Eyni zamanda, burada ayrıca «Aç» sözü Tanrının əmri kimi səslənir. Bu, Yerin Göydən «açılması» - aralanması mənasını da yada gətirir. Qədim mahnıda «Gün çıx! Gün çıx!» çağırışı «Gün, aç! Açıl!» kimi də səslənir.

2-ci daşda, orta təbəqədə insan üzündə 4 piktoqraf həkk olunub:

1) Tanrı işığı (yaxud İşıq - Tanrıdandır);

2) Göy: ruhun məskəni, həyatın başlanğıcıdır;

3) Göylə Yerin arasında insan doğuldu; Burada yaranmanın ardıcıllığı da nəzərə çatdırılmışdır: İnsanın sağ ayağının ucuna KŞ işarəsi yazılmışdır, K, Ş işarələri ilə «KİŞİ», sol ayağının ucuna «Ü» işarəsi ilə «Su-qadın» yazılmışdır.

4) Yer: onun üstü və altı: Yerin altı həm də dəniz kimi düşünülüb.

2-ci daşın 1-ci üzündə: insan üzü fonunda şir (bu dəfə dəniz şiri), buğa, at, boz qurd, quş və başqa canlılar təsvir edilmişdir. Burada ayrıja «Quş» piktoqrafı həm də «Qut» kimi oxunur. Yəni: ruh qut- qüvvət mənbəyidir.

2-ci daşın 2-ci üzündə (yenə də İnsan üzündə) şir və buğa fiqurlarının konturları ilə yaradılmış 5 piktoqraf diqqəti çəkir:

1. U – (ud-od) – işıq- isti;

2. Ü – Su – qaranlıq – soyuq;

3. Həyatın başlanğıcı: Ata, Ana; Burada ayrıca «A» - 1-cilik – başlanğıc işarəsidir;

4. Göydən aralanmış Yer planeti; 1-ci Göy təbəqəsi – Günəşlə birlikdə, - Günəş bu xəttin (uzun, düz xəttin) ucunda verilib; üz-üzə kiçik əyri xətlər Yer üzü və Yer altı – məzmunu daşıyır;

5. Göydən enib Yerdə əbədi sakin olmuş İnsan.

3-cü daşın 1-ci üzündə Qadın timsalında təsvir edilən Günəş Ananın döşündən bütün canlı aləm işıq əmir.

3-cü daşın 2-ci üzündə: insan və ona əks istiqamətdən naməlum heyvan təsvirinin konturları ilə «ulu» piktoqrafı: şəkil sözü oxunur. Yəni: Yaradan – uludur, yaratdıqlarının da ən ulusu – insandır.

4-cü daşın hər iki üzü: Günəş Ana timsalında qadının alnında işıq rəmzi – şir başı görünür: Burada işıq şüası Günəşdən balta şəklində ayrılaraq Yerə göndərilmişdir. Qobustan və Gəmiqayada buna oxşar rəsmlər müşahidə edilir.

5-ci daşın 1-ci üzündə Həyat Ana qucağında ağ şir və qara şir timsalında

İşıqla qaranlığı – Gecə ilə Gündüzü bəsləyir. Bu rəsmdə də «U» işarəsi – işığın, «Ü» işarəsi – suyun simvoludur;

5-ci daşın 2-ci üzündə Qadın –Həyat Ana, Dünyanın Su başlanğıcı timsalında verilmişdir.

6-cı daşın hər iki üzündə: insan üzünün konturları ilə üç piktoqraf yaradılmışdır.

1) Tanrı işıq; 2) Göy təbəqəsi; 3) Yer Ana;

Burada hər iki üzdə 5 piktoqraf aydın oxunur.

1) Günəş: Od Tanrı, Tanrının yaratdığı Tanrı;

2) Tanrı – İşıqdır;

3) Araba; Həyat əbədi hərəkətdədir;

4) İnsan – ulduz: Tanrının Kanitana hədiyyəsidir;

5) Kainat – 4 uclu Xalı kimi təqdim olunur; bu xalı hər iki istiqamətə fasiləsiz uzanmaqda – genişlənməkdədir.

Beləliklə, aparılan təhlillər göstərir ki, Azərbaycanın şimal-qərb hüdudlarında aşkar edilmiş həmin yazılı daşlar Gəmiqaya-Qobustan rəsmlərini şəkil və məzmunca təkrar edir; bunlar Tanrıçılığın atributlarını əks etdirir; bu daşların yaşı haqqında arxeoloqlar, tarixçilər fikir söyləmək imkanındadır. Bəlkə də bu daşlardakı yazılar tarixçilərimizin təyin etdikləri e.ə. VIII minilliyin əks-sədasıdır. Bu yazılar bu daşlara sonrakı minilliklərdə də (bəlkə də lap son zamanlarda) köçürülmüş ola bilərdi. Belə yazılı daşlara Şəkidə, Qubada, Cəlilabadda, Cənubi Azərbaycanda: Təbriz ətrafında, Urmiyada rast gəlindiyini söyləyirlər. Biz də onların sorağındayıq.

4.22. TURDETAN ƏLİFBASI

Antik Roma müəllifi Strabon (1-ci əsr) məşhur «Coğrafiya»sında yazır ki, Turdetaniya (Turdetan) ölkəsi öz yerli əhalisinin adını daşıyır. Əhali bu ərazidən axan Ana, Tağ və Beltik (Betus) çaylarının ətrafında yaşayır. Turdetanların yaxın qonşuları Turdullardır. Bunlar eyni xalq olduqlarına görə dilləri arasında fərq yoxdur, eyni dildə danışırlar. Turdetanlar və turdullar İberiya (İber) ölkə əhalisinin bir hissəsini təşkil edirlər. İber ölkəsi Atlantik okeanının yaxınlığındadır. Bu ölkənin cənub-qərb qurtaracağı Herakl yüksəkliyi ilə tamamlanır. Bura həm də Avropanın qurtaracağıdır. O biri sahili Liviya ölkəsinin torpaqlarıdır.

(47.135-138).

Bu məlumatdan bilmək olur ki, qədim İberiya (İber) ölkəsi indiki İspaniya və Portuqaliyanın torpaqlarıdır. Strabon İber ölkəsinin İtalika (İtaliya) ilə qonşu olduğunu, Priney dağının da bu ərazidə olduğunu xatırladır.

Strabon onu da əlavə edir ki, İber ölkəsində müxtəlif xalqlar yaşayır və onların ən mədənisi, ən çox inkişaf etmişi Turdetan xalqıdır ki, hələ çox qədimdən öz yazısı – əlifbası var. Turdetanlar deyirlər ki, onların əlifbası 6000 il əvvəl yaradılmışdır.

Həmin əlifba ilə turdetan xalqının yaratdığı poemalar qələmə alınmışdır.

Cəfər Cəfərov (İsmayıl oğlu) yazır ki, turdetanlar (46.35) türk mənşəli olublar. (46.32). Avropalı müəllif İ.Yonsenin tərtib etdiyi cədvəldə «İber əlifbası»nın (18.41) «Turdetan» əlifbası və bu iki əlifbanın finikiya və yunan əlifbaları ilə müqayisəsi verilir.

Strabon bildirir ki, iberlər əlifbanı turdetanlardan iqtibas etmişlər. Yenə də Strabonun misal çəkdiyi 6000 illik tarixlə müqayisədə finikiya və yunan əlifbaları turdetan əlifbasından azı 4000 il cavandır. Deməli, finikiya və yunan əlifbaları da daha qədim bir əlifbadan iqtibas edilmişdir.

İ.Fridrix və başqa qərb və rus müəllifləri Strabonun «Coğrafiyası»ndan yan keçərək, heç bir əsas olmadan, tarixi-metodoloji müqayisə aparmadan finikiya əlifbasını «bütün əlifbaların başlanğıcı» hesab etmişlər. Strabonda 6000 il (bizim XXI əsrdə 8000 il) yaşı olan əlifba- «Turdetan əlifbası» adlanır. İ.Fridrix «bastul»ları da «turdetan» lara qoşmuşdur. Qədim türk tayfalarından biri «basil» - «basillər» (Basqal – Basil qalası – İsmayıllı rayonunda!) adlanıb. Bu fikrin əlavə tədqiqata ehtiyacı var.

4.23. «PİRƏBƏDİL» XALÇASINDA ŞİFRƏLƏR

(səh242-243)

«Pirəbədil» xalçasında Tanrıçılığın atributları başqa xalçalarımızla müqayisədə daha geniş əks etdirilmişdir. Burada güzgü üsulu və qədim Azərbaycan (Gəmiqaya-Qobustan) əlifbasının işarələri ilə Yaradılış düşüncəsi şifrələnmişdir. Xalçada «1»-tək əl və «1-Utu» işarələri: Tanrı: 1, tək, vahiddir; 1-ci: Tanrıdır-mənalarında verilmişdir. Xalça boyunca «1», üz-üzə 5, güzgü ilə 10 «insan üzü» fiquru: bütöv insan-bütün xalq kimi təqdim olunur. (Tanrıçılıqda bütün bəşəriyyət vahid xalq hesab edilir). Xalçada insan üzündə gözlər yanaqlara gətirilmiş, göz çanaqları «boş» təsvir edilmişdir; bununla gözlərin insan üzündə qoşa işıq rolu xüsusi aydınlıqla nəzərə çatdırılmışdır. Bu həm də əlifbada «Ф» fonetik işarəsinin-yazı işarəsinin əslidir. Yəni "Ф"-F hərfi: insan üzünün kiçik modeli-şifrəsidir.

Xalça boyunca ortada, qanadlarını geniş açmış quzğun fiquru: Çarxı fələyi təmsil edir. Bu fiqur 6 dəfə, həm də güzgüsüz (!) təkrar olunur; yəni: Kainatda hər şey fələyin qanadları-nəzarəti altındadır: sağ, sol, ön, arxa, yuxarı və aşağı.

Fələyin qanadlarının altında və üstündə əjdaha («Bilqamıs»da Huvava-

Hubaba-Humbaba) fiqurları var. Fələk bunların vasitəsilə kainatda tənzimləmə, çıxdaş-şəkil dəyişmə-yer dəyişmə (dünya dəyişmə) aparır. Kainatda nə varsa, əzəldən o qədər var. Odur ki, artımlar nə qədər olursa, çıxmalar yerdəyişmələr-dünyadəyişmələr də o qədər olmalıdır. Huvava-Hubaba: Taleh baba, qəza-qədər babadır, bir ucdan artmaqları, o biri ucdan azaldandır. «Bilqamıs»da Huvava-Hubaba öldürülsə də «ölmür», baş qəhrəman «dirilik otuna» qədər gedib çatsa da onu yeyə bilmir; Çünki Tanrının qərarı dəyişilməzdir-ölüm-əbədi dəyişmə labüddür. Hubaba (əjdaha-acı dağ-acı od) məhz fələyin əmrini icra etdiyi üçün nağıllarda onun 7 başı olur, hər başı qılıncla üzüləndə yerindən yeni başlar peyda olur. Mifdə əcdahanın məhz «Göy əcdahası» kimi təqdim olunması, onun məhz «Fələyin döyüşçüsü» olmağından irəli gəlir. Gəmiqayada tufanla, daşqınla üzləşmə səhnəsində-dünya okeanının üzərində «səma əcdahası» təsvir edilmişdir. Hətta qaranlıq səmada şimşək çaxması da «göy əcdahasının»-Hubabanın zərbəsi kimi əks olunmuşdur.

Həm «Pirəbədil», həm də Azərbaycanda toxunmuş başqa xalçalarda əlifba-yazı işarələri Tanrı-Taleh yazısı kimi şifrələrdir.

«Pirəbədil» xalçasında üz-üzə «(p)» işarəsi Çin-Yapon heroqliflərində də iştirak edir. Bu da sübut edir ki, həmin işarə və bütövlükdə qədim Azərbaycan əlifbasının bütün işarələri Misir, Çin heroqliflərindən, Şumer və başqa əlifba sistemlərindən daha qədim, daha ilkindir. Sözügedən işarə Gəmiqaya-Qobustanda simvolik ana bətni şifrəsidir. Avropa (Anqlosaks, German, Dal) runlarında da (71) qədim Azərbaycan əlifbasının bütün işarələri-miflə əlaqəsi unudulduğundan səbəbsiz, mənasız-şərti işarələr kimi iştirak edir. Qobustan rəsmlərinin "heç bir məna güdmədən çoban cizmaqarası"hesab edildiyi kimi)

Azərbaycan xalçalarının milliliyini böyük xalçaşünas alim Lətif Kərimov sübuta yetirmişdir. (91). L.Kərimovun danılmaz faktları xalçalarımızda naxışların milliliyini aşkar etməsidir.

Əlifba işarələrinin doğmalığı-bilavasitə Tanrıçılığın atributlarının daşıyıcıları olması Azərbaycan xalçalarının milliliyini daha bariz şəkildə təsdiq edir. 1 və 5 rəqəmlərinə, T, B, S hərflərinə ayrıca xalçaların həsr edilməsi də bununla bağlıdır. (91). Belə ki, «1»-Tanrının Bir-Tək olmasını əks etdirir və bu səbəbdən də ən müqəddəs rəqəm-işarə sayılır; 5- işığın-i hərfinin rəqəm qiyməti kimi müqəddəsdir; T-«Tanrı» sözünün rəmzi işarəsi, S-su, B-su+torpaq+yaşıllıq+hava rəmzi kimi müqəddəs sayılmalıdır. L.Kərimovun üzə çıxarıb dünyaya nümayiş etdirdiyi Şirvan, Quba, Gəncə, Qarabağ, Qazax, Naxçıvan, Təbriz, Qobustan, Ərciman, Qarayazı, Kəmərli, Balıq, Dəmirçilər, Suraxanı və b. xalçalarda (91) Tanrıçılığın atributları, qədim

Azərbaycan əlifbasının işarələri min illərlə xalqın pozulmaz yaddaşı kimi yaşadılmışdır.

4.24. GÜN, AY : OD, SU

Gəmiqaya-Qobustan əlifbasında sözlər şəkil-söz: piktoqraf və işarə – hərf ardıcıllığı ilə yazılır; hərfin, rəqəmin mifoloji quruluşu diqqəti çəkir. Riyaziyyatda olduğu kimi, burada da sözün və işarənin müsbət və mənfi tərəfi – qiyməti var. Bəzi sözlər metateza (səslərin yer dəyişməsi) ilə yeni sözlərə çevrilir; bu prosesdə ilk məna dəyişmir, ona yeni mənalar əlavə olunur. Metatezada od-su, yuxarı-aşağı, sağ-sol əlamətləri müşahidə edilir.

Gəmiqaya-Qobustan mədəniyyətində – o cümlədən yazısında Tanrıçılığın atributları kimi, «Ay» və «Gün» bölgüləri mövcud olmuşdur. Ay, Ay ana: insanın, suyun, ağacın, havanın-torpağın anası kimi düşünülmüşdür. Protoazərbaycan-prototürk dilinin «Ay» sözü həm də Ayın-Ana hesab edilməsi ilə bağlıdır. Sonralar bu söz morfem-şəkilçi rolunda da çıxış edir. «Ay Ana» kodu itmir. Kod sözün məna açımında üzə çıxır. «Ay» və onun başqa saitlərlə təkrarına: Ayya (ye, yu və s.) və yalnız saitlərlə (y-sız) əvəzlənməsinə diqqət yetirək:

Ay: Xasay (xas-xalis Ay; Gəray (qor Ay –od Ay – isti ay; Qeroy (rus dilində: Qəhrəman) bu mənadadır; Saray – sarı-gün işıqlı Ay; Humay – ən ağhumayın ağı – yenə də xalis Ay və s.

Ya: Alya, Sonya, Ruhiyyə, Şərqiyyə – qadın adları; Türkiyə, Rusiya, Çexiya, Koreya, Malayziya, Britaniya – ölkə adları.

A, Ə (y-sız): Nərmin-Nərminə, Rəşid-Rəşidə, müəllim-müəllimə, Kamil-Kamilə, Cəmil-Cəmilə, Səyyar-Səyyarə və s.

Gəmiqaya-Qobustanda sözün ikiləşməsinin «müsbət»- «mənfi»liyi mifoloji mahiyyət daşıyır: Qar-ağ, Qor-qara; Mən-Sən: Mən-1-ci, Sən-2-ci (1-ci: od, müsbət, kişi; 2-ci su, mənfi, qadın); «Sən» - «Mən»in əksi kimi odun-günəşin əksidir;

Metateza ilə: mən-nəm, sən-nəs; burada da səslərin yer dəyişməsi ilə yaranmış nəm və nəs eyni mənfiliyi-soyuğu, uğursuzluğu təmsil edir. Xəbər gətirən adamdan soruşulur: Oğlan gəlmisən ya qız? – Xeyir xəbər gətirmisən, yoxsa bəd xəbər? – Burada «qız» «bəd xəbər» kimi pislənilmir, həyatın «su» ikiliyinə bağlı mənfi anlamı yada salınır.

«Gün» sözünün Gəmiqaya və Qobustanda Kun-Qun və onların metatezası ilə: Nuk-nuq-niq şəkillərinə rast gəlinir. «Nuq»un, nuqa-nuxa (Nuha aid olan: günə aid olan Niq – Nuxanın qədim adı kimi mənbələrdə xatırlanır. (89.6).

Gəmiqaya-Qobustanda F, J, H (F, J, H) işarələrinə çox rast gəlinsə də

onların iştirak etdiyi sözləri hələlik yalnız piktoqraflarda müşahidə edə bilirik. «H» piktoqrafının «hava» sözünü açıqlaması, f işarəsinin daha çox güzgü piktoqrafı olmaqla yanaşı, «fayton» piktoqrafında da iştirakı maraq doğurmaya bilməz. Faytonun hansı dilə aidliyi başqa məsələdir. Fakt budur ki, fayton piktoqrafının Gəmiqayada bir neçə variantına rast gəlinir.

Gəmiqayada «Kunaç» sözü – gün açıl, «gün çıx» mahnısının nəqarətində bizə gəlib çatmışdır. Yazda Günəşin çağırılması gün çıx mahnısı ilə ideallaşdırma mərhələsini yada gətirir.

Doq – qod (rus dilində: il) eyni mənada: doğulmaq - başlanmaqdır.

UTU-GUN TANRI

Gəmiqaya-Qobustan rəsmlərində Günəşin od məzmunlu Ut (Utu) adı geniş yayılıb. Utu, Utuk kəndi – Quba rayonunda, türk tayfa adıdır, ütü, ütülmək – yanmaq yenə həmin məzmundadır. Rus dilində «odin» («adin» oxunur), Azərbaycan dilində «adna» axşamı: Od günü: birinci gün: Tanrı günüdür. «Bir», rus dilində də «Odin» kimi: «bir – Tanrıdır» mənası ilə Tanrıçılıq inamına bağlı sözdür. Norveç səyyahı Tur Heyerdal hesab edirdi ki, indiki norveçlilər Azərbaycandan köçüb gəlmişlər və onların babaları Azər Odin olub: yəni Tanrıçı Azər.

Qədim Azərbaycan dilində Ud həm musiqi alətinin, həm də erkək heyvanın adı olub. Udulu kəndi – Şamaxıda, həm də ud tayfa adını yaşadır. Günəşin bu adları söz və morfem qismində bütün dillərdə işlənməkdədir.

4.25. AZƏRBAYCANDA AZƏRBAYCANLILARIN YARATDIQLARI FONOQRAFİK ƏLİFBA

Akademik Ağamusa Axundov yazır: «Türk dillərindən biri kimi Azərbaycan dilinin ümumi fonetik xüsusiyyətlərindən birincisi ahəng qanunudur». (9) Bu qanun Gəmiqaya-Qobustan sözlərində də izənilir; məsələn Adak (ayaq), Subağ, Abana, Buraq, Amar-Maral, Kökümüz və s. Əlbəttə, Gəmiqaya-Qobustan sözlüyü ətrafında hələlik qrammatik qaydalardan geniş danışmaq mümkün deyil. Bu, gələcək tədqiqlərdə aydınlaşdırıla bilər. Əsas odur ki, bu sözlər Azərbaycan ərazisində qayalarda, daşlarda aşkar edilmiş-oxunmuşdur.

«Yazı hər bir xalqın mədəniyyətinin tərkib hissəsi, tarixi keçmişi ilə gələjəyi arasında körpüdür. Yazı olmasa, onda xalqların yaratdıqları nə varsa, heç biri gələcək nəslə çata bilməz. Dil də, yazı da iki müxtəlif işarələr sistemidir. Yazı dilin təsvirinə xidmət edir» (117.20,212).

Gəmiqaya-Qobustan piktoqrafları-şəkil sözləri özünəməxsusluğu ilə fərqlənir, onu sonrakı dövrlərin şəkil-yazıları ilə eyniləşdirmək olmaz. Professor Buludxan Xəlilov bu-

nunla əlaqədar bildirir ki, *azərbaycanlıların XIII əsrə qədər yazısı, yazılı ədəbi dili və əlifbası olmuşdur. Lakin bu əraziyə müxtəlif istiqamətlərdən basqınlar, talanlar Azərbaycana aid mənbələrin izini itirmişdir. Xüsusilə ərəb işğalçılarının maddi-mədəniyyət abidələrimizi məhv etmələri Azərbaycan dilinin tarixi ilə bağlı bir çox dəyərli məlumatları əlimizdən almışdır.* (117.6)

«Azərbaycan dilinin əsasını qədim dövrlərdən Azərbaycan torpağında məskunlaşmış türk əsilli boyların və soyların dili təşkil etmişdir». (117.7)

B.Xəlilovun bu fikri Azərbaycan dilinin guya nə zamansa «assimilyasiya nəticəsində yaranmış cavan dil» olması gümanını rədd edir.

«Azərbaycan dilinin fonetik quruluşu dedikdə bu dilin özünəməxsus səs sistemi, səs quruluşu başa düşülür». (117.23)

Gəmiqaya-Qobustan abidələrində oxunan sözlər, (sözlərin bir qismi) müasir dilimizdə olduğu kimi, sait+samit, samit+sait sıralanması ilə fərqlənir. Sözlüyün əsasında qədim Azərbaycan əlifbasının fonetik quruluşu haqqında bəzi müşahidələr aparmaq da mümkündür. İrəlidə şərh etdiyimiz kimi, həm müasir, həm də qədim əlifbamızda 32 hərf: 9 sait, 23 samit iştirak edir. Müasir əlifbamızda bütün hərflər 2 şəkillidir: böyük və kiçik hərflərdir. Qədim əlifbamızda isə 32 hərfin hamısı çox işarəlidir.

Qədim əlifbamızın çoxşəkilliliyindən sözlərin xüsusi mifik anlamını nəzərə çatdırmaq üçün istifadə edilmişdir. Azərbaycan ədəbi dilində «duffuz samiti» hesab edilən sağır nun *:NQ*, qədim yazımızda daha çox, həm də eyni şəkildə işlədilmişdir; müasir əlifbamızda səs birləşməsi yoxdur, qədim əlifbamızda isə 6 səs birləşməsi olub. Bu əlamətlər kitabda verilən cədvəllərdə əks olunmuşdur.

Şəkli yazı

«Şəkli (piktoqrafik) yazı əşyaların, predmetlərin şəklini çəkməklə bağlı olur; cümləni, fikri əks etdirir. Azərbaycan ərazisində Gəmiqaya və Qobustan qayaları üzərində həkk olunmuş rəsmlər şəkli (piktoqrafik) yazıya misal ola bilər. B.Xəlilov qeyd edir ki, şəkli (piktoqrafik) yazı neolit dövrünə (eramızdan 60-80 əsr əvvələ) aid olan yazıdır». (117.213) Bu, Qobustan qaya təsvirlərinin e.ə. VIII-VII minilliyə aid olduğunu bildirən görkəmli arxeoloq İsaq Cəfərzadənin fikrinin bir daha təsdiqidir.

«Fikri (ideoqrafik) yazı, predmeti işarə edən heroqliflərdən (şərti işarələrdən) ibarətdir. Bunlar Şumerdə, Misirdə və Çində təşəkkül tapmışdır» (117,213). Belə yazı insan təfəkkürünün inkişafı ilə bağlıdır. Əgər şəkli yazıda əşyanın şəklini çəkmək əsas idisə, fikri yazıda əşya işarələrlə, heroqliflərlə simvollaşırdı. Bu isə yazının daha təkmil formasının –fonoqrafik yazının yaranmasına şərait yaradırdı». (117.215)

Gəmiqaya-Qobustan fonoqrafik yazı olmuşdur. Fonoqrafik (səs) yazısı «insan təfəkkürünün inkişafının son həddi kimi yaranmış ən kamil, mütərəqqi yazı» hesab edilir. (117,215)

Amma fonoqrafik yazı «1-ci»liyində «finikiya» ehkamı, heç bir əsas olmadan dərsliklərdə təkrar edilir: «İlk fonoqrafik (səs) yazısının funikiya olduğu güman edilmişdir». (117.215) Göründüyü kimi, «Finikiya 1-ciliyi» yalnız güman edilmişdir. Onu sübut etməyə heç bir əsas, dəlil, fakt olmamışdır. Daha sonra: «Bəzən səs (fonoqrafik) yazısından misirlilərin ilk dəfə istifadə etməsi də söylənilir». (117.215) Deməli, «finikiya 1-ciliyini» təsdiq etməyə heç bir fakt, əlamət olmadığını görüb, «1-ciliyi» Misirin adına yazmaq istəmişlər. Misir «1-ciliyi»nə də heç bir fakt tapılmayıb. Qəribədir ki, bu «1-ciliyə» Şumer ən yaxın olduğu halda, onu «görməmiş», şumerdən də əvvələ gedən mənbələri «unutmuşlar». Strabonun «Coğrafiya»sında e.ə. VI minilliyə aid Turdetan-Turdul fonetik əlifbasını, e.ə. VIII-VII minilliklərə aid Mas de Azil-Fransız fonetik yazısını, rus müəllifləri O.Qrineviç və İ.Keslerin e.ə. V minilliyə aid hesab etdiklçri «praslavyan» yazısı haqqında məlumatlardan da yan keçmişlər.

Gəmiqaya-Qobustan abidələri üzərində oxunan *Tanqrı, Ana, Tum, Gün, Utu, Su, Survan, Ud, Subağ, Mızab, Amar-Maral, Buraq, Dev, Davar, Araba, (Arava), Batovul,* «2 iki» (2 dəfə 2) və b. şəkil-sözlər-piktoqraflar fonoqrafik yazı 1-ciliyinin Azərbaycana və azərbaycanlılara aid olduğunu təsdiq edir.

Azərbaycanda fonoqrafik əlifba mövcud olmasa idi, qayalarımıza həmin sözlərin ünvanı-şəkli çəkilməzdi. Yəni səsli-fonoqrafik yazı işarələri mövcud olmalı idi ki, onları tanrı işarələri kimi, insan üzündə «yazmaq», «bükülü» və açıq kitab şəklində qayalara, daşlara həkk etmək mümkün ola bilərdi.

Gəmiqaya-Qobustan piktoqraflarının özünə məxsusluğu onları başqa qədim piktoqraflardan fərqləndirir. Məsələn, Misir heroqliflərində heyvanın, quşun, əşyanın şəkli, fikrin məzmununu açmaqüçün piktoqraf kimi təqdim edir.Belə ki, Misir heroqliflərində quş, ağac, su qabı, at və s. şəkilləri məhz şəkillərdir, bunlarda hərf əlaməti yoxdur.

Gəmiqaya-Qobustanda isə quş şəkli q, u, ş hərflərinin, at şəkli a, t, tum fiquru t, u, m, gəmi şəkli g, ə, m, i, araba şəkli a, r, a, v, a, hərifləri kombinə edilərək əks olunmuşdur. Yaxud ana, tar, sur, gül və b. Sözləri yaradan işarələr bir-biri ilə kombinə edilmişdir. Bu da göstərir ki, Gəmiqaya-Qobustanda fonoqrafik əlifba çoxdan mövcud olduğu üçün fiqurların, sözlərin yaradılmasında məhz fonoqrafik işarələrdən-hərflərdən istifadə edilmişdir. Misirdə isə belə əlifba olmadığı üçün quş, heyvan, ev və s. birbaşa rəsm olunmuşdur.

Fikrimizcə, Gəmiqaya Qobustan sözlərinin çoxu ilkin fonetik, qrafik və semantik xüsusiyyətlərini qoruyub saxlamışdır. Onların çoxu Azərbaycan- türk dilində oxunur. Bir qisminin isə Hind- Avropa və Sami dillərinə ald olduğunu güman etmək mümkündür.



"TANQRI"
Piktoqrafının
qrafik açımı



GƏNCƏ DAŞI

Ulduz at:Utu at "At" sözü, 5 guşəli ulduz, A, T, У işarələri və at fiquru ilə rəsm edilmişdir.





Ana bətnində uşağın ayağı rəsm edlimişdir.
Fraqment (Gəmiqaya)

Gəncə qapısı üstündə ərəb kufi yazısında Gəmiqaya-Qobustan İŞARƏLƏRİ





Qəbizdərə işarələri

1

2



A və T hərflərindən yaradılmış at fiqurları.
(1.Gəmiqaya və 2.Qobustan)

1



1. ; 2. ; 3. ; 4. ; 5. .

6. ; 7. İLAN.

2

BURAQ (BURAQ)

1.Şəkil. Ana at - böyük at. (Qobustan)
2.Şəkil. Buraq at (Gəmiqaya)

ARABALAR



1 2 3

1. Yaz arabası: həyat başlandı
2. Vaxt arabası-Fələk arabası (fayton)
3. Dünya Ağacı arabası (Gəmiqaya)





Oğurlanmış Gəncə qapısı üstündə ərəb kufi yazısı (Gəmiqaya Qobustan) işarələrini tam təkrar edir.



Turdetan əlifbası

Gəmiqaya Qobustan	Turdetan	Gəmiqaya Qobustan	Turdetan
A	A	T T T T ↑	T T T ↑
X X ⋈	X ⋈	◁ 9 △ ⋏ ↑	↑ ◁ 9 △ ⋏
I	I	M	M
1	1	X	X
O ◇	O ◇	K ⋊	⋊
θ ⊖	θ ⊖ ⊖	φ φ	φ ⊖
E Ɛ	Ɛ Ɛ E	N H	N H
Ʒ	1 Ʒ	Ш Ψ	Ψ
Ч	Ч	Ч Ч	Ч

Yuxarıda Ay gəmisi,Ay Ananın önündə boz qurd görünür; "Turdetan" əlifbası

Şər qüvvə- Şeytan; O da Dev kimi tək gözlüdür. (Gəmiqaya)



Şəkildə : ön planda oğlan, onun arxasında qız, ortada ayaq və embrion.Oğlanın ayağı simvolik şəkildə qızın ayağına qadaq edilmiş-birləşdirilmişdir. Bu rəsmi "evlənmə" adlandırmaq olar. (Gəmiqaya)
SUBAQ-bax səh.182



1-şəkil. Ay ananın üzündə xeyir qüvvələr yazın gəlişinə sevinir, qışı və onun rəmzi şər qüvvələri qovurlar.
2- şəkil. "Batovul"--çanaqlı bağa- çirkin varlıqları, maral-gözəl varlıqları təmsil edir. Burada da gözəllik çirkinliyi qovur. (Gəmiqaya)

Gəncə daşı sözlüyü

	Yazının əsli	qrafik qəlemi	oxunuşu
1		A, H, Θ	Ana
2		A, 9, Θ (Б)	ABA (Ana)
3	A K	A, K	AK – AĞ
4	3	Θ, O, O, V, 3	Adbuz / ödbuz; Adöz / duz / BUZ
5		A, P, A, P, V, N	Abaz / Abazu / ABARun
6	5	5Ü, 4Θ, K, ↓	İÇABAK / İÇABAt
7		(T, U)	TANRI, utu
8	t (b)	Ub, A, z	ubat
9	A K	X, A, K	BAK
10	(9-b)	(L)	DÖL; BÖL – 189 – 9 – 01
11		∂, H, ↑ (I, ↓)	∂nit; / uzung / ʒ
12	(ʒ)	U, 4, 3, 4, (u-t)	uzuç / uzuş / uzut (t) / uzun)
13	K O 3 5 4	(K, O, Z, B) K, O, 3, B, 4	Kozbut;
14	7 4 t	7, 4, t, (U), (L, ш)	tut / tutuş / tutun
15	4 Θ P	4, Θ, P, (L)	TÇAR / taçar / utar?) At AÇAR
16	X m	X, V, m	but
17	3 U H n S	3, U, n, n, S (U)	zunuS
18	S U 3 X 4	S, U, 3, X, 4 (T, L)	(Suzbut / SUZBUL
19	A K / A K b	Θ, F, K, L, X (K:TU)	(AĞU; AĞUL / AĞtUL / ABAĞ-BAĞ
		A, K, U, b (H)	AKUB / AKUnub / AKun)
20	X b	X, X, V, b, X	AKUB / BAKUB; AKAB
21	Δ 4 P	Δ, A, 4, P	(AÇAR / Ad AÇAR
22	4 L I K	O, 4, H, I, K (T)	BUNIK / BULIK) BUtULIK
23	H	O, H, H, H, H (T)	Batan / Banatan / Banatanang
24	H	I, H, e, (J)	ine / inel; / AĞ batan / AĞ banatan
25	I Γ	I, X, Y, Γ (L)	IBUZ / IBUL / IBULUZ
26	4 U	4, Y, Y, O, U (T)	çuzulbu
27	(ш)	U, 4, E (T)	uçe / uçeş / EŞ UÇ
28	E U	E, E, L	BeL
29	7 4 (L-L)	4, H, 4, 4, L	untul
30	4 4 3 (9)	O, H, Y, 3 (9)	Onuz / onüz / donuz – donüz

	Yazının əsli	Qrafik variantı	Oxunuşu
31		Y, Y, Y, P, r (L)	Abar / Abaral / Abazan
32	Y (r)	H, A, r, Y (R)	Şabu; AŞABU; BAŞABU – ŞABUÇ; BACABUÇ
33		K, E, E, Z, Y, T	Xebzu / Xebzut
34		T, S, =, Z	tez (?)
35		ə – ə, H, t	ənət – ənit
36	E ⊓	E, E, ⊓	tel
37	LIK	Б, A, L, I, K (M) LIK (L)	BALIK; BAÇIK – BALÇIK
38	Σ	Σ, 7	Et
39	7 Σ	Σ, C	ES
40	X H	X, t, P, K, A, H	tutkak / Xutkan
41		T, ILI; TYII	Tanzı işiğdiz / Tanzı işiği
42	A	A, C, V (?)	ASU
43		T, L, P, A, H, L, P	Tuzbal / Tuzban
		TYPAJL	TUPAHAt: TUBAHAZ; TURAN
44		ΓY, P, C, At (H)	QURBAt / QURBAH (?)
45		TYPAH (L)	TURBANAL (?) TURAt
		ΠIE3 (t)	tez; teş
		TE⊓ (E)	

44-a | 1. TUPAt; (Tuzat:
1. TUPAH (Tuban)

SAİTLƏR

		Səs
1.		A
2.		ə
3.		E
4.		I
5.		İ
6.		O
7.		Ö
8.		U
9.		Ü

SAMİTLƏR

		Səs			Səs
10.		B	23.		N
11.		V	24.		P
12.		Q	25.		R
13.		Ğ	26.		S
14.		Z	27.		h
15.		Y	28.		X
16.		J	29.		f
17.		d	30.		Ç
18.		t	31.		C
19.		K	32.		Ş
20		G			
21.		L			
22.		M			

Səs Birləşmələri

1.			B-ana Bətni
2.	st	tş	tş-şt: Tanrı İşığ.

Pirəbədil xalçası

Şumerdə "Finikiya"dan 2500 il əvvəl mövcud olmuş fonoqrafik yazı işarələri







Tanrı kitabı və fələyin arabası. İkili dünyanın və insanın başından gəlib keçənləri xatırladır. A, б, v, ф, p (r), ö, y yazı işarələri ilə konbinə edilmişdir. A, P, B işarələri ilə "araba" sözü və araba fiquru yaradılmışdı İnsanın taleyi bu arabaya qoşulmuşdur.

Şeytanın bu rəsmi sonralar dünya rəssamlığında təkrar olunmuşdur. (Gəmiqaya)



Ərdəbil xalçası "Ay Ana" obrazı və Tanrıçılığın atributları ilə

Azərbaycan Xalçalarında Gəmiqaya-Qobustan işarələri



Gəmiqaya-Qobustan sözləri

SEVİT: TAN – ДAN UL ДUZU: GÜNƏŞIN-

TANRININ GIZI: TAPUKKIZ: ZİKKYRAT;

ƏAYAL ƏSA GELDI KÖZÜBEL(Ə)-

BAĞUPƏL İSA GELDI KÖZÜBEL(Ə)-

BAĞIN (BOGUN) GANADI-İŞIGI-OĞLU İSA GETDI

İŞIGLI BELƏ – İŞIGLI GÖYƏ; A: Б-B: QADIN: SU B-Β: V: KİŞİ: OD

AHXA: AHA KAM: ANA KADIN: QADIN ANA



Qəbizdərə daşları





Qəbizdərə daşları tanrıcılıq inamı ilə düşünülmüş təsvirləri əks etdirir. burada sonuncu fiqur Altay diyarında qayada aşkar edilmişdir

VI FƏSİL

ORXON -YENİSEY

ƏLİFBASI HAQQINDA

5.1. ORXON-YENİSEY ƏLİFBASININ MƏNŞƏYI

Akademik A.P.Okladnikov «Pravda» qəzetində (149) yazırdı: "1973-cü ildə Buryatiyada tapılmış paleolit dövrünə aid Daş nüvə – nukleus üzərində oxunan qədim türk əlifbasının aydın, dəqiq hərfləri bizi dərindən düşünməyə məcbur edir. Bu dəqiq yazılar (çetkie bukvı) həm də o dövrlərdən xəbər verir ki, qədim türk döyüşçüləri Mərkəzi Asiya və Cənubi Sibirdən Dunay sahillərinədək qəhrəmanlıq (150) nümunəsi göstərirdilər" («Pravda» 17.VI.1974).

Beləliklə, rus alimi 2 tarixi dövrü yada salır: 1. Paleolit dövrünü. Arxeoloqlar paleoliti e.ə. III-II min illiyə aid edirlər. Deməli, qədim türk əlifbası azı 4500 il əvvəl mövcud ola bilərdi. Akademik A.Okladnikovun yada gətirdiyi 2-ci tarixi dövr – Atillanın dövrü – eranın IV əsridir. Amma Orxon-Yeniseyi VIII əsrdən V əsrə güclə «endirə» bilmişdilər (151). Buradakı 100 ili görməyənlər Atillanın IV əsrdəki yazışmalarını da bilərəkdən «xatırlamırdılar».

Orxon-Yeniseyi və bir çox başqa əlifbaları «arami» «mənşəli» hesab edərkən səhvlərə yol verilib.

Orxon-Yenisey işarələrinin Azərbaycanda qaya rəsmlərində aşkarlanması sübut edir ki, bu qədim türk əlifbası proto Azərbaycan-Gəmiqaya-Qobustan mənşəlidir və o, finikiya, arami, latın, german, ərəb, kiril və b. əlifbalardan çox-çox qədimdir.

Orxan-Yenisey əlifbasının tədqiqində V. Tomsenin, V.V. Radlovun, P.M. Melioranskinin, E. Malovun, Azərbaycan alimlərindən Ə. Rəcəbovun, Y.Məmmədovun, B.Şəfizadənin, Ə.Şükürlünün və.b xidmətləri var

5.2. ORXON-YENİSEY ƏLİFBASININ QRAFİK ƏLAMƏTLƏRİ

Bu əlamətlərin elmdə bir hipoteza kimi qəbul edilməsinin də gələcək tədqiqatlar üçün gərəkli olacağını düşünürəm.
Müəllif.

Orxon-Yenisey işarələrinə Gəmiqaya və Qobustan rəsmlərində, təsvirlər arasında pərakəndə halda rast gəlinir. Məlum Orxon-Yenisey mətnlərinə Azərbaycan ərazisində təsadüf edilməməsi isə belə fikir yürütməyə əsas verir ki, Orxon-Yenisey məhz Altay diyarında Altay-Sibir türklərinin danışıq-tələffüz normalarına uyğun olaraq yaradılmışdır. Onu yaradanların sərəncamında çoxşəkilli Gəmiqaya Qobustan işarələri olmuşdur.

Orxon-Yeniseydə də, Gəmiqaya-Obustanda olduğu kimi, yer-göy əlaqələri – güzgülük prinsipi ilə əks olunmuşdur.

Orxon-Yeniseyin daxili sirri – özünə məxsusluğu kifayət dərəcədə öyrənilməmişdir. Orxon-Yeniseyin sağdan və 9 saitlə başlanmasına Qobustanda 29-cu daşda «Səma gəmisi» rəsmi ilə aydınlıq gətirilmişdir. Burada gəmi 32 xətlə işarələnmişdir: 9 kiçik, 23 böyük işarə ilə, 9 işarə gəminin gündoğan (Şərq) ucundan – günəş təsvirinin yanından başlanır. Tanrıçılıq – yaradılış inamında Günəş – Tanrı qüdrətinin baş əlaməti: ulu od (Ud, Ut – Utu) kimi simvollaşdırılmış, Günəşə müraciət, alqış – Tanrıya alqış kimi qəbul edilmişdir. İşarələrin sağdan başlanması – Tanrıdan göndərilməsi, göydən yerə istiqamətlənməsi əlamətidir.

Fikrimizcə Gəmiqaya-Qobustan öz çoxşəkilliliyi və sistemi ilə Altay prototürkləri tərəfindən qəbul edilmiş və onun əsasında Orxon-Yenisey əlifbası yaradılmışdır. Orxon-Yenisey məhz Gəmiqaya-Qobustan sistemli və onun kimi çoxşəkilli əlifbadır. O həm də Gəmiqaya-Qobustanı tam təkrar etmir. **Orxon-Yeniseydə də saitlər 9-dur: 4-ü qalın, 5-i incə, hamısı 5 işarə ilə göstərilir, o prinsiplə ki, hər qalın saitin öz incə saiti var. Yalnız A saitinin 2 incə saiti – qonşusu var: ə və e. Ə-ni yuxarı incə, E-ni aşağı incə adlandırmaq olar. E saitinin Orxon-Yeniseydə müstəqil işarəsi olsa da sözdə o da bəzən A-nın işarəsi ilə oxunur, (E, Azərbaycan dilində orta sıra saitidir və məhz Ə səsinə yaxındır. (A.Axundov). A.A.Axundov «A» səsinin «Ə» səsi ilə əvəzlənməsi hadisəsinin tarixən Azərbaycan dilində də baş verdiyini nəzərə çatdıraraq, bunun dilxarici amillərlə bağlı olduğunu qeyd edir. Alim yazır:**

«Əmələ gəlmə yerinə görə E saiti açıq saitlərdən Ə və A saitləri arasında orta bir mövqe tutur: Ə-E-A (157)

Orxon-Yeniseydə samitlərin 23-dən 27-yə (V.Tomsendə 29-a!) çatdırılması, fikrimcə, sonrakı mərhələdə baş vermişdir. Bu LT-elte, NT-ente, NÇ-ençe və BŞ-bşda (başda gələn) adı ilə tanıdığımız 6 samitin (l,t,ç,n,b,ş) təkrarıdır. Belədə, Orxon-Yeniseydə hərflərin ümumi sayı 32-dən 36-ya (bəzən 38-ə) qalxmışdır. Bunun hansı səbəbdən irəli gəldiyi xüsusi araşdırma tələb edir.

4 səs birləşməsinin «Yeni samitlər» olmadığı və cədvələ əsasən 7 samitin (v,d,x,h,f,j,j,ç) iştirak etmədiyi nəzərə alındıqda Orxon-Yeniseydə samitlərin sayı 16-ya, əlifbada yazı işarələrinin ümumi sayı 25-ə enir. Göründüyü kimi Orxon-Yenisey çox mürəkkəb formalaşma və inkişaf mərhələləri keçmişdir.

Azərbaycan dilində də tarixən bəzi samitlərin iştirak etmədiyini söyləmək olar. Maraqlıdır ki, Gəmiqaya-Qobustan rəsmlərində Ь,Ф,Х,Ч,Ж-H,F,X,J,Cişarələrinə çox rast gəlinsə də onların iştirak etdiyi sözlər hələ çətin müşahidə edilir. Bu başqa bir söhbətin mövzusudur. Ancaq bir məsələ aydındır: Gəmiqaya-Qobustan rəsmləri yarandığı, bəlkə də yarandıqdan xeyli sonra qayalara həkk edildiyi dövrlərdə protoazər – prototürkcədə 23 samit və 9 sait olmuşdur. Bunu 29-cu daşdakı rəsm və Nəsimidə 32 rəqəminin tərifi, 32-nin həm də nəsil adına çevrilməsi tam təsdiq edir. Akademik B.Budaqovun fikrincə, Gəmiqaya-Qobustan rəsmləri daşlara yazılmış ən etibarlı tarixdir (159).

Güman etmək olar ki, tarixin sonrakı dövrlərində yad dillərin təsiri ilə qədim Azərbaycan və qədim altayların dilində bəzi samitlər hansı səbəbdənsə sıxışdırılaraq, qonşu samitlərin «bətnində» «gizli fəaliyyətə» keçmişdir. Zaman keçdikcə Azərbaycan (türk) dilinin dinamik inkişafı üçün münbit şərait yaranmış və unudulmuş samit səslər yenidən öz sırasına qayıtmışdır. VIII əsrdə fəaliyyətdən qalması Orxon-Yeniseyin unudulmuş samitlərinin yenidən öz yuvalarına qayıtmaq imkanını dondurmuşdur.

Orxon-Yeniseydə işarələrin qrafik şəkli yad mənşələrdə (arami, pəhləvi, soqdi, latın, kiril, german və s.) axtarılıb, müqayisə edilərkən şərti, zahiri oxşarlığın əsas götürülməsi özünü doğrultmur. O səbəbdən ki, Orxon-Yenisey Tanrıçılıq düşüncəsinin məhsuludur. Bu cəhətdən o heç bir başqa əlifba ilə deyil, yalnız Gəmiqaya-Qobustanla tutuşdurula və müqayisə edilə bilər.

Orxon-Yenisey işarələrinin, bu sətirlərin müəllifi tərəfindən aparılmış qrafik açımı, onun məhz Tanrıçılıq – yaradılış əlifbası olduğunu sübuta yetirir. Burada «A» hərfi Gəmiqaya-Qobustan A-sının güzgü ilə ayrılmış yarı hissəsidir. Gəmiqaya-Qobustanda «A»nın güzgülüyü yerdən-göyə və əksinə oxunur. Orxon-Yeniseydə isə yer-göy güzgülüyü iki yarım hərfin (yarım «A»nın) sağdan sola və əksinə oxunuşu ilə müşahidə olunur. Cədvəldə «Yenisey» bölgüsündə verilən 3-cü işarə «E» saitinindir. 2-ci sırada «E» səsini bildirən işarə bundan azacıq fərqlənir (160).(səh 280)

3-cü sırada Gəmiqaya-Qobustanın «I» hərfi Orxon-Yeniseyin «I» və «İ» səslərinə ünvan seçilmişdir. Xatırladaq ki, AMEA-nın müxbir üzvü V.Əliyevin «Gəmiqaya abidələri» kitabında (1992. 19-cu şəkil) Gəmiqaya-Qobustanın «I» və «İ» işarələri 10 və 11-ci fiqurlar kimi ayrıca (həm də yanaşı) nəzərə çatdırılmışdır (161).

4-cü sırada Gəmiqaya-Qobustanın «U» hərfinin şəkillərindən biri yanı üstə sağdan sola «O»«U» səslərinin işarəsinə çevrilmişdir. Qrafik açımda bu işarə bütöv «U», yarım «O»-dur. Baş-başa qoyulanda güzgüdə bütöv «O»ya çevrilir.

5-ci sırada «Ö» və «Ü» səslərinin müştərək işarəsi ilk baxışda müasir N (en) hərfidir. Amma qrafik açımda göründüyü kimi bu «en»-in birinci qanadı «Göyə açılan» «U»nun dayağına çevrilməklə «Ü» səsinin, baş-başa (qabaq-qabağa) qoyulmuş, bütövləşmiş «O»nun ortasına köndələninə qoyulmaqla «Ö» səsinin işarəsi olur.

9 sait bu şəkildə, Gəmiqaya-Qobustanın 9 sait işarəsini bütöv və yarım qrafik şəkildə güzgü ilə əks etdirir.

Samitlər Gəmiqaya-Qobustanın «B» hərfinin üç şəkli ilə başlanır. Bu, Gəmiqaya-Qobustanda 10-cu, Orxon-Yeniseydə 6-cı sıradır.

Gəmiqaya-Qobustanın kombinə edilmiş «B» (A və B) işarəsinin Orxon-Yeniseyin yanı üstə qoyulmuş «M» hərfi yerində 20-ci sırada görünməsi faktı O.Süleymenovun da diqqətini cəlb etmişdir (162). Lakin bunun Tanrıçılığa bağlı məzmunu aşkarlanmamış, səbəbi də izah edilməmişdir. Səbəb «Böyük su» məzmunu ilə bağlıdır. Cədvəldə 36-cı – axırıncı sırada verilən «BŞ» səs birləşməsi «B» hərfinin simvolik «ana bətni» (163) işarəsidir. Dünya əlifbalarında «BŞ» işarəsi də daxil olmaqla «B» hərfinin Gəmiqaya-Qobustandakı çoxsaylı işarələrinə geniş rast gəlinir (164).

Orxon-Yenisey prinsipcə bütöv əlifbadır, başlanğıc mərhələdə Gəmiqa-

ya-Qobustan kimi 32 hərfli-işarəli: 9 sait və 23 samitli olub. Zaman keçdikcə dialekt təsiri və başqa amillərlə əlaqədar burada 7 samit «ixtisar olunmuş» - əslində hər biri ona ən yaxın samitin «bətnində» gizlənmiş və onların «yuvacığında» fəaliyyətini davam etdirmişdir. Elə saitlərin də işarəsi olduğu halda (165), mətndə bəzən iştirak etmir. Məsələn, «qlm» - oğlum, «ldrdm» - aldırdım, «brd» - burda sözlərində bunu müşahidə etmək olur (165). Orxon-Yeniseydə 2 (bəzən 3) saitin bir işarəsi olduğu kimi, samitlərin də bəzilərinin bir müştərək işarəsi ola bilərdi. Fikrimizcə, çox qədim formalaşma dövründə Orxon-Yeniseyin «v» səsi «b» səsinə «qovuşmuş» və öz sırasını itirmişdir. Azərbaycan dilində bu gün bəzi dialektlərdə (məsələn Gədəbəy dialektində) «araba» sözünün «harava» variantı da işlənir. Bu cəhət b-v əvəzlənməsinin Orxon-Yeniseydə də tarixi proses olduğunu düşünməyə əsas verir. **Akademik A.Axundov Azərbaycan dilində b foneminin öz korrelyatları ilə sözün müxtəlif mövqelərində qarşı-qarşıya qoyulduğuna diqqəti cəlb edir, bu zaman b-v əvəzlənməsinə yaba-yava, dabaq-davaq, dib-div sözlərini misal çəkir. (101.166) Gəmiqaya-Qobustanın «X» işarəsinin kursiv şəklindən istifadə edilməklə yaradılmış «Ğ» işarəsi Orxon-Yeniseydə də əvvəllər məhz «X» fonemi olduğunu yada gətirir. Buna 9-cu sıradakı «G 1» işarəsi aydınlıq verir. Cədvəldə «G»-nin özünün buraxılması bu fonemin unudulmuş variantı haqqında düşünməyə əsas verir. Fikrimizcə bu işarə əvvəl Q və Ğ samitələrinin kombinə edilmiş variantı olub. Onun «əyilmiş E» görümü orta çıxıntısız Q, çıxıntı ilə Ğ foneminə çevrilir. Q-G səs yaxınlığı bu işarənin həm də G fonemi kimi işlədilməsinə gətirib çıxarmışdır. D, D 1 və T, T 1 işarələri aydın qrafik yaxınlığa malikdir. Bu da D-T əvəzlənməsinə əsaslanmışdır. D-nın qrafik forması «dağ» piktorqrafının törəməsidir. Şumer lövhələrində «dağ» piktoqrafı dağın piramida görümlü kiçik işarələrindən ibarət olmaqla D hərfini yaradır (167). Tədqiqatçılar bunu müxtəlif dillərə məhz «dağ» mənasında tərcümə etmişlər. Bunun yalnız türk dilinə tərcüməsinə ehtiyac yoxdur. «D 1»-in iks (X) görümü yenə də güzgü ilə sağdan-sola və əksinə, yerdən-göyə və əksinə yazılmışdır. T hərfinin hər iki şəkli D işarəsinin azacıq fərqlə təkrarıdır. T 1 ilk baxışda yad görünür. Əslində bu bizə məlum «kiril» mərhələsindəki kiçik «t» işarəsinin güzgü ilə yarı bölünmüş şəklidir.**

Maraqlıdır ki, Orxon-Yeniseyin «Orxon» bölümündəki T, Qobustanda Buraq atın belində, atlının Tanrı hüzuruna uçuşu məqamında sağ əlində tutduğu T işarəsinin eynidir. Düşünmək olar ki, Tanrı hüzuruna uçan atlının əlindəki T işarəsi həm də qapısı bağlı göylərin açarıdır. (Müasir açarın şəkillərindən birinin həmin işarəni təkrar etməsi düşündürücüdür.) (səh176)

Orxon-Yeniseydə Y hərfinin 4 işarəsi Gəmiqaya-Qobustanın Y işarəsinin törəmələridir. Gəmiqaya-Qobustandan bunun mənimsənilməsi prosesində həmin işarə «yumru uclu» D – 9 işarələrinə çevrilir, bu mərhələdə mənbə unudulur. Bundan sonra «D» işarəsi «Y» işarəsinin sirri bilinməyən ünvanına çevrilir. «O» işarəsinin də «Y» işarəsinin yerində işlənməsi yenə də həmin səbəbdən irəli gəlmişdir. «K» və «K 1» Orxon-Yeniseydə 9 işarə ilə nəzərə çatdırılır. Bunların da Tanrıçılıq ideyası ilə bağlılığı şəksizdir. 2 «L» işarəsi Gəmiqaya-Qobustanın «L» hərflərinin azacıq fərqlə təkrarıdır. Orxon-Yeniseyin «Z» hərfi Gəmiqaya-Qobustanın «Z» işarəsinin çarpaz işıqlar kimi üst-üstə düşən şəklidir. Orxon-Yeniseyin hər üç «N» hərfi Gəmiqaya-Qobustanın «N» hərfinin dinamik inkişafının məhsulu olmaqla, onların məhz yeni - Orxon-Yenisey variantlarıdır. 1-ci «N» sağdan sola yazılmış «S» işarəsi olmaqla Gəmiqaya-Qobustanın «N» hərfinin bir qanadının əyilməsindən yaranmışdır. Sağır nun işarəsi də həmin prosesdən keçmişdir. «Latın» formasında gördüyümüz kiçik «n» işarəsi yenə də böyük H - «N» işarəsinin aşağı yarısıdır.

Orxon-Yeniseyin 1-ci S hərfi «su» piktoqrafını yaradıb. Əlbəttə, bunun əlavə tədqiqata ehtiyacı var. Yenə də Orxon-Yeniseyin 2-ci – «S 1» işarəsi Gəmiqaya-Qobustanın hər 2 «S» hərfinin kombinə edilmiş qrafik variantıdır. **Azərbaycan alimləri Ə.Rəcəbov və Y.Məmmədov yazırlar: «Bu i şarə S səsini bildirir və yalnız incə saitlərlə işlənir. Bu işarə Orxon-Yenisey abidələrinin dilində bir sıra hallarda, xüsusən nənqli keçmiş zaman şəkilçisi – mış (mıs, miş) – mis morfemində Ş səsinin mövqeyində həm önsıra (incə), həm də arxasıra (qalın) saitlərlə işlənir. (168.38). 2-ci «S» işarəsinə verilən həmin qiymətdən belə nəticəyə gəlmək olur ki, 2-ci «S» hərfi qədim türk – prototürk dilinə xas olan S.-Ş əvəzlənməsinin işarəsi kimi, Gəmiqaya-Qobustanın Ş hərfinin bir qanadıdır və söz sonunda bəzi morfemlərdə həm S, həm də Ş səslərinə ünvan seçilmişdir. Bu faktın özü də bir daha təsdiq edir ki, Orxon-Yeniseyin mənşəyini kənarda axtarmağa heç bir əsas qalmır. O, məhz türk mənşəlidir.**

Orxon-Yeniseyin «R» və «R 1» işarələri Gəmiqaya-Qobustandan baş mənbə kimi istifadə edilməklə çox oricinaldır. Orxon-Yeniseyin «Ç 2» işarəsi fikrimizcə Gəmiqaya-Qobustanın Ç və c işarələri əsasında formalaşmışdır. Cədvəldə 1-ci Ç-nin göstərilməməsi də bu işarənin dəyişikliyə uğradığını xatırladır. «Ş 2» 5 müxtəlif işarənin cəmi kimi verilsə də burada Gəmiqaya-Qobustan Ş-sının aydın izi görünür.

V.Tomsendə "ıı"-" Ş " İşarəsi həm də R kimi, D.Vasilyevdə Z işarəsi həm də -N kimi verilir. Yenə də D.Vasiyiyevdə Gəmiqaya-Qobustanın K

işarəsi Orxon-Yeniseydə də öz adı ilə; K hərfi kimi verilib. (Василйев Д. Корпус тюркских руническихъ памятников бассейна Енисея. Л. 1983. с.7)

Orxon-Yenisey abidələrində bəzən mətn arasında Orxon-Yeniseyə xas olmayan piktoqraflar – işarələr, sözlər tədqiqatçıların nəzərindən yayınmışdır. Məsələn, Yenisey abidələri sırasında Barlıq çayı sahilində D.A.Klemensin tapdığı, V.V.Radlovun nəşr etdiyi 1-ci abidənin üstündə (169). Orxon-Yenisey əlifbası ilə yazılmış üç sıradan ibarət mətnin yuxarısında sanki həmin üç xətti-sətirləri bağlayan piktoqraf Gəmiqaya-Qobustan əlifbası ilə oxunur. Əsas mətndə igidin 23 yaşında öz xalqından ayrılması xatırlanır. Mətni bağlayan və tamamlayan piktoqraf isə mətnin sonunda soldan sağa belə oxunur: «Tanqrı», «Ana», «Anqara» (170). Tədqiqatçıların nə üçünsə oxumadıqları və tərjümə etmədikləri üç hərfli Orxon-Yenisey sözü qalmışdır: «Brd» - yəni «Burda». Sözügedən piktoqraf o yerin məhz hara olduğunu da yada salır. Barlıq çayı Anqaradan, o da – Baykal gölündən başlanır, açıq dənizə – Şimal okeanına tökülür. Piktoqrafda Gəmiqaya-Qobustanın yuxarısı bağlı R hərfi həm də «bağlı gölü» əvəz etmişdir. Dünyadan vaxtsız köçmüş igid son anında Tanrını, «Tanrı çayı» mənası daşıyan Anqaranı və doğma anasını xatırlamışdır. Burada «Tanqrı» sözünün Azərbaycan (türk) tələffüzündə oxunması da diqqəti çəkir. (səh285)

2-ci misal. Orxon abidələrindən, 1893-cü ildə tapılmış, VIII əsrdə qoyulduğu güman edilən 9-cu Hoytu-Təmir (171) abidəsi Orxon-Yenisey əlifbasının Ч - "T" hərfi (Gəmiqaya-Qobustanın Ç - Ç hərfi ölçüsündə 2 sətirlik yazıdan ibarətdir. Bu mətnin ortasında verilmiş, Orxon-Yenisey tipli olmayan, amma Orxon-Yenisey sistemi ilə sağdan sola oxunan piktoqrafların sonunda Orxon-Yeniseyin ayırma işarəsi (Qoşa nöqtə) qoyulmuşdur. Bu da onun məhz əsas mətndən ayrı oxunmalı olduğunu nəzərə çatdırır. Gəmiqaya-Qobustan işarələrinin kombinə edilməsindən yaranmış həmin piktoqraf 2 sözdən ibarətdir: **«Göök Türk»**. Bu sözlər yəqin ki, həm Göy Türk imperatorluğu dövrünü, həm də türklərin: Göy türkləri – Tanrıçı türklər olduqlarını yada salır. Burada da **hər iki sözün Azərbaycan dilində səslənməsi** yenə də diqqəti cəlb edir.(səh285)

Bu qəbildən başqa misallar da tapmaq olar. Bu faktlar göstərir ki, Orxon-Yeniseyçi türklər hər hansı mətn yazarkən onu bütün türklərin Ana yazısı ilə bəzəməyi, onu müqəddəs yazı kimi xatırlamağı vacib bilmişlər. Deməli, Gəmiqaya-Qobustan Orxon-Yeniseyçilərə doğma yazı, Ana əlifba kimi çoxdan məlum idi.

Baykalətrafı abidələrdən biri kişi və qadın obrazlarını sxematik şəkildə, A və Ə piktoqrafları kimi təqdim edir. (172). Amma burada həm Gəmiqaya-Qobustanın, həm də Orxon-Yeniseyin bir əlaməti təsdiq olunur: hər «isti» saitin öz «soyuq» saiti var; A- kişini, Ə – qadını simvolizə

edir. Burada da qədim Azərbaycan müdriklərinin dəsti-xətti aydın görünür. (səh286)

Nəhayət, Orxon-Yenisey mətnlərinin yazıldığı daşların seçilməsi məsələsi. Tədqiqatlarda bunun da mahiyyəti açılmamışdır. Belə ki, həmin daşların bir qismini insan üzünə və müxtəlif canlıların fiquruna çevirərək mətn sahəsi kimi seçmişlər. Bunlar təbiətlə: Tanrıçılıq-Yaradılış inamı ilə bağlıdır. Və birbaşa Gəmiqaya-Qobustan ənənəsidir. Xüsusən, insan üzünün – Kitab-kimi fərqləndirilməsi Gəmiqaya-Qobustan rəsmlərində geniş əks olunmuşdur. Kitabın – yazının – hərfin insan üzündə aşkarlanması dahi Azərbaycan şairi Nəsimi tərəfindən geniş (həm də sətir altında) tərənnüm edilmişdir. Başqa sözlə, Gəmiqaya-Qobustan, Orxon-Yenisey, «Dədə Qorqud Kitabının» sətiraltı sücetləri və Nəsimi şeirləri Tanrıçılıq-Yaradılış ideyasının tərənnümündən ibarətdir (173).

Orxon-Yeniseydə 2-ci Uybat abidəsi (Ə.Rəcəbov, Y.Məmmədov, səh. 282) V.V.Radlovun «İmperator Atlasında» (174) (1892-1899) mətn üçün seçilən bəzi daşlar məhz insan üzü formasındadır. Amma V.V.Radlov bunun fərqində olmadığından «insan üzü» ölçülü daşların surətini çıxarıb, aydınlıq gətirmək üçün onların üzərində işləyərkən, həmin surətləri – yeni qəlibə salmış, hətta yazıların da bir qismini «gərəksiz şəkillər» sanaraq pozmuşdur. Burada 1-ci daşda insan üzündə bir neçə insan üzü və quş rəsmləri «ixtisar» edilmişdir. (səh 284)Tanrıçılığa görə ruh-işıq, işıq-quş timsalında insanın başından onun bədəninə daxil olur. Birinci daşda 2 quş rəsmi də həmin məqsədə xidmət edir. Qədim rəssam insan üzündə Orxon-Yenisey əlifba işarələrindən də insan üzü fiqurları yaratmışdır A.P.Okladnikovun aşkar etdiyi qədim petroqliflərdən 2 nümunə:

1. Ata, Ana və uşaq fiqurlarının – siluetlərinin başı üstündəki "9" işarəsi Gəmiqaya-Qobustan əlifbasının 9 (d) hərfi və 9 rəqəmidir ki, «ana bətni» şəklində «doğum», «döl» petroqlifinin məna-məzmun açımına xidmət edir (175) Bu, Gəmiqayadakı eyni petroqlifin kiçik-yerli: Altay fərqi ilə təkrarıdır.(səh.287)

2. Aya buxtasında Gəmiqaya-Qobustanın T, U, M hərflərinin kombinə edilməsilə yaradılmış «Tum» petroqlifidir ki, Qobustandakı eyni petroqlifi forma və məzmunca təkrar edir. (176) (səh 287)

Bu petroqliflər Orxon-Yenisey əlifba işarələri ilə də nişanlana bilərdi. Amma qədim Azərbaycan əlifbası Orxon-Yenisey üçün Ana əlifba idi. Ona görə də Yaradılış petroqliflərini Ana əlifbanın işarələri ilə təqdim etmək – Tanrıçılığa sədaqət göstərmək idi.

Belə misalları daha da artırmaq olur. Bunlar da bir daha təsdiq edir ki, Or-

xon-Yeniseyin «latın» və «kiril» görümlü işarələri «latın» və «kiril»dən deyil, qədim Azərbyacan əlifbasından: Gəmiqaya-Qobustandan alınmışdır.

Bütün bunlardan belə nətijəyə gəlmək olur ki, Orxon-Yenisey əlifbasının işarələri başlanğıc variantında Tanrıçılıq-Yaradılış ideyasına bağlı mifoloji koda malik olmuşdur. Bilavasitə Qədim Azərbaycan: Gəmiqaya-Qobustan mənşəli Orxon-Yenisey əlifbası üzərində, zaman keçdikcə, forma-şəkil dəyişmələri aparılmışdır.

Orxon-Yenisey eyni əsrdə həm yaradıla, həm də tarixin arxivinə köçürülə bilməzdi. Bu yazının"İssık" variantına verilən ən yaxın yaş: e.ə VI əsr (İ.Fridrix), onun arami-soqdi və b. «mənşələrini» dəfn etmişdir. Bu qədim türk yazısına aid edilən «arami mənşəyi» onu 1893-cü ildə ilk oxuyan V.Tomsenə məxsusdursa, həmin «fərziyyəni» təzədən, yüzüncü dəfə «təsdiqə çalışmaq» elmlə bir araya sığa bilməz. «Orxon-Yenisey»in mənşəyi haqqında saysız mübahisələr əlifbanın yaranma prinsipinin uzun müddət elmə bəlli olmamasından irəli gəlmişdir.

5.3. ORXON-YENİSEY ƏLİFBASI AZƏRBAYCANDA TƏTBİQ OLUNA BİLƏRDİMİ?

1926-cı ildə Bakıda çağırılmış 1-ci Türkoloji qurultayın proqramı həm də Orxon-Yenisey əlifbası ilə çap olunmuşdur. Buna əsaslanıb Orxon-Yeniseyin Azərbaycan əlifbası tək qəbul edilməsi arzusundan söhbət getmişdir (98.36). Son illərdə Azərbaycanda bəzi nəşrlərdə sərlövhələrin həm də Orxon-Yeniseylə yazıldığı da müşahidə edilir. Amma Orxon-Yenisey Azərbaycan əlifbası tək qəbul edilmiş olsaydı bir sıra çətinliklər meydana çıxa bilərdi. Orxon-Yeniseydə 7 samit səsin: V, Q, J, X, H, F, G-işarələrinin olmaması, 9 sait səsin müştərək işarəli olması (cəmi 5 işarə) Azərbaycan dilinin leksikası ilə uyuşmur. Məsələn, A, Ə və E-ni təmsil edən işarə ilə: Tanrı, al, çay, Ay, qar və b. sözlər həm də: Tənri-Tenri, əl- el, əy-ey, çəy-çey, qər-qer və s. oxunardı. Yaxud O və U işarə müştərəkliyindən Su və Od, həm də So və Ud, Ö və Ü-nün eyni işarəliliyindən göl və gül, göz və güz (küz-payız) sözlərinin eyni cümlədə necə oxunmasını fərqləndirmək çətin olardı. Sözü gedən 7 samitin olmamasından vaxt, dəvə, dev, qaş, qış, quş, qız, gecə, can, acı, quyu, ütü, ağrı və onlarca başqa sözlərin yazılışı və oxunuşu çox ciddi çətinlik törədə bilərdi.

Azərbaycan dilinin leksik və qrammatik quruluşuna Azərbaycanda yaradılmış əlifba cavab verə bilərdi. Bu da məhz Gəmiqaya-Qobustan əlifbasıdır.

5.4. GƏMIQAYA-QOBUSTANDA ŞUMER SÖZLƏRİ

2006-cı ilin noyabrında Bakıda, AMEA Nəsimi adına Dilçilik İnstitutunda Təbriz universitetinin müəllimi Rəhman Möhsün oğlu Xeyavi «Şumer və Ural-Altay dillərinin tarixi-tətbiqi ilgiləri" mövzusunda doktorluq dissertasiyasını böyük uğurla müdafiə etdi. İnstitutun alimləri təbrizli həmkarın əsərini yüksək qiymətləndirdilər.

Bununla da Azərbaycanda Şumer mövzusuna ögey münasibətə son qoyulmuş oldu. Şumer gil lövhələrinin çox böyük hissəsi Türkiyənin İstanbul şəhərində xüsusi muzeydə saxlanılır. Böyük Mustafa Kamal Atatürkün həmin muzeyə və onun eksponatlarına dair qayğılı sözləri, tapşırıqları (55.20.) yenidən yada düşür. Şumer lövhələrinə doğma münasibət yüksək elmi səviyyəyə qaldırılmalı, dərslik mövzusuna çevrilməli, azərbaycanlı tələbələrdən ibarət xüsusi qrup İstanbula göndərilməli və öz qədim yazılarımızın tədqiqinə başlamalıdırlar. Gec də olsa bu, Azərbaycanın doğma işidir.

Bu sətirlərin müəllifi «Dədə Qorqud sözü» monoqrafiyasında «Şumer dili qədim Azərbaycan dilidir» fəslində oxuculara mədəniyyətimizin Şumer dövrü ilə bağlı geniş məlumat verilmişdir. (122.32.) Lakin «Şumer» söhbəti o zaman-1999-cu ildə kəskin mübahisələrə səbəb olmuş və həmin məsələ qeyri-rəsmi surətdə gündəlikdən çıxarılmışdır.

Təbrizli alimin filologiya elmləri doktoru dərəcəsinə layiq görülmüş əsəri «Şumer buzunu» sındırdı. (Amma o «buz» hələ tamam əriməyib).

Son illərin elmi mübahisələri göstərdi ki, Şumer sözlərinə Azərbaycan dili ilə yanaşı bir sıra başqa dillərdə də rast gəlinməsi həm də onunla bağlı idi ki, burada ulu dil hadisəsi yada gətirilmirdi. Şumer sözləri o dillərdə üzə çıxırdı ki, həmin dillərdə Azərbacan (Türk) sözləri də eyni dərəcədə aşkar olunur. Yəni həmin sözlər bilavasitə Azərbaycan dilinə aiddir: Tanrı, tum, ana, ata, at, dədə, baba, gün, hun, su, dam, diri, duru, tir və s. buna misal ola bilər.

Şumerə «şərik çıxan» başqa ölkə müəllifləri Tanqrı-dinqir sözəlrindən yan keçir və guya bu sözləri heç görmürlər. Şumerlərin Tanrıçı olduqları, bütün Azərbaycan milli adətlərinin eyni ilə Şumerdə təkrar olunduğunu nəzərə almırlar.

Gəmiqaya-Qobustanda oxunan sözlərin bir qismi eyni dərəcədə həm Şumer, həm də Azərbaycan sözləridir. O jümlədən: dam, tum, adam, su, ana, dədə, utu, akşak və s. Gəmiqaya-Qobustan işarələrinə də eyni şəkildə Şumer abidələrində rast gəlinir. Həmin işarələrə S.Kramer(63), N.Tyumenev (67), İ.Dyakonov (68), A.Afanaseva (67), İ.Kaneva və başqa müəlliflərin kitablarında rast gəlmək olur. Amma həmin müəlliflər bu işarələr haqqında səbəb göstərmədən susmuşlar. İ.Dyakonov, özünün redaktorluğu ilə nəşr olunan

534 səhifəlik «Qədim Şərq tarixi» kitabında (68) tez-tez misal çəkdiyi Dingir-Tanqrı-Tanrıçılıq haqqında bir kəlmə də izahat vermir. Axı doğrudan da nə üçün bütün başqa xalqlar-etnoslar yox, yalnız Şumerlər Tanrıya məhz Tanrı, Tarı, Dingir demişlər? Yəni eyni ilə Azərbaycanda azərbaycanlıların dedikləri kimi. Siyasi niyyətdən irəli gələn nöqsanlarına baxmayaraq İ.M.Dyakonov böyük alimdir. Səhvləri ilə yanaşı şumerşünas kimi xidmətləri çoxdur. Onun redaktə etdiyi kitabdan oxuduğumuz Şumer sözlərindən bir qisminə diqqət yetirək:

Asak-Asan, «Dədə Qorqud»da əsən-xəstəlik; Eana-ana evi, müqəddəs ev; suqqal-ağsaqqal; akşak-Şumerdə nəsil adı; Gəmiqayada «akşak» sözünə rast gəlinir; qun-gün həm də pul vahidinin adıdır; ana-ittişu-ana nitqi; Axxutu-axun: bilici, müdrik deməkdir. Ərəb dilində əxilər-Azərbaycan dilində ağalar sözünün baş kodudur. Məlum olur ki, bu günkü axund (Axundov-soyadı) heç də ərəb-fars mənşəli sözlər deyil, həmin sözlərin kodları ərəb dilinə Şumer-Akkad mərhələsində Şumer, yəni həm də Azərbaycan dilindən keçmişdir. Yenə də **İ.Dyakonovun kitabında «Bitu»-bitilən yer, bu sözün «bat» kodu da eyni məzmundadır. Batılan yer. Bitu-bitən-bətən: Vətən! Deməli «Vətən» sözü də ərəb-fars mənşəli deyil, ərəb dilinə yenə də Şumer-akkad mərhələsində Şumer-Azərbaycan dilindən keçmişdir.** Lüğətlərdə Azərbaycan dilinin qədim sözlərinin çoxu əsas olmadan ərəb-fars mənşəli yazılmışdır. Azərbaycan dilinin-müstəqil ölkənin müstəqil dili kimi inkişafı üçün yaranmış münbit şəraitdən istifadə edilməli, dilimizin tarixən yadlaşdırılmış doğma sözləri özünə qaytarılmalıdır.

Daha bir vacib məsələ: Şumer əlifbasının mıx-ox şəkilli işarələrlə formalaşması nə ilə bağlı olmuşdur? Şumerdə həmin mıx şəkilli yazıların-sözlərin getdikcə Gəmiqaya-Qobustanın fonetik işarələri ilə yazılması məsələsi də tədqiqat mövzusuna çevrilməlidir.

Şumerdə və bütün Ön Asiyada 6-7 (bəzən 12-13) min il əvvəl məhəlli daşqın olması ehtimal edilir. Bu da Şumerlə Gəmiqaya-Qobustan arasında güclü iqlim dəyişmələrinin baş verdiyini söyləməyə əsas verir. Həmin dövrdə təbii fəlakətlər nəticəsində mədəniyyət süquta uğramışdır. Onun yenidən təşəkkül tapması və inkişafı üçün bir neçə min il vaxt lazım gəlmişdir.

Gəmiqaya-Qobustan əlifbasının aşkarlanması Şumerin akkadlar tərəfindən işğalı dövründə nələr baş verdiyini araşdırmaq məsələsini irəli sürür. Şumer-Akkad qarşılaşması dövründə Şumer yazısı Gəmiqaya-Qobustan yazı sisteminə keçməkdə idi. Bunu İ.M.Dyakonovun və irəlidə adını çəkdiyimiz digər müəlliflərin kitablarından yəqin etmək olur. Yəni Gəmiqaya-Qobustana yenidən qayıdış Şumerin işğalı, parçalanması, mənimsənilməsi dövrünə təsadüf etmişdir. Şumerdə-mıx şəkilli yazıdan uzaqlaşmaq və bütünlüklə Gəmiqaya-Qobustan yazı sisteminə keçmək

e.ə. III minilliyin sonlarından başlamış və yeni eranın başlanğıcında başa çatmışdır.

Təbrizli Rəhman Xəyavi öz əsərində 350 Şumer sözünün türk dilində elmi şərhini vermişdir. Professor Q.Kazımov mətbuatda həmin əsəri təqdir edən məqalə ilə çıxış etmişdir.

6000 il yaş verilən Şumer sözlərindən bir qisminə Gəmiqaya-Qobustan abidələrində də rast gəlinir:

Tar-işıq xətti, musiqi aləti, sap, ağac budaqları: toyuqlar tara çıxdı;
An,Ana;
Ar-təmiz, ar etmək, aydan arı, sudan duru;
Ara-aralıq, orta;
Ağ-ağ rəng, günəşin adı;
Ağa-sahib, böyük, hörmətli, nəcib, nəcabətli;
Ağan-həmin mənada;
Akan-ağan mənasında;
Ad-şəxsin adı, od, adam;
Ada-adam, ata;
Adam;
Aş (Alov)-xörək;
Aç-qapını açmaq, aç danış;
As-paltarı as;
Al-al rəng, göy üzü, parlaqlıq;
Ala-ala-bula;
Alar-parlaq, işıqlı səhər,
Alari-işıqlı səhər, qədimdə mahnı canrının adı;
Allar-işıqlı olanlar.
Dada-Dədə;
Aba-ana;
Quş;
But-buta, budaq;
Su;
Ama-ana;
Abu-su ilahəsi;
Asak-ağ su, duru su;
Acı; (ilan)
Acak-acı, zəhər, ağu;
Ud-od, erkək heyvan: öküz, qoç, musiqi aləti;
Lu-insan, oğlu, başçı;
Qut; Qud-qüvvət;
İl-el, xalq;

Eki-iki, ekiz;
Tut-tutmaq;
Tutu;
Kur-yeraltı çay. Kür çayı, kür uşaq;
Gur-gur yağış, gurultu;
Sur-sürülən, axıb gedən, sorulan, nəfəsli musiqi aləti
Şur-şən axın, Şur muğamı;
Maq-mak: Tanrıçı, odsevər, kahin, din xadimi;
Maqan-maqa aid olan, maq yeri, Muğan;
Qal-qalmaq, qalaq-qalaq olmaq, qala, divar;
Qala;
sal-sal qaya;
Şal-örtük;
Şaq-bədənin bir hissəsi, bir şaqqa;
Şaqan-Şaqan kəndi;-Abşeronda;
Uruq-nəsil, uruğun-turuğun artsın;
Uru-gur, tez, sovrulan, «yerindən uru qalxdı» «Dədə Qorqud» Kitabı
Utu-Od Tanrı, Günəş;
Utuk-isti, Utuq kəndi-Qubada;
Un-ərzaq, un məmulatları;
Kiş-kənd və çay adı-Şəkidə və Şumerdə;
Bar-bardaq, su qabı;
Kaş-qaş-dağın uca yaxası, qaçmaq;
Suqqal-saqqal, ağsaqqal, böyük, yaşlı kişi;
Aştar-açar;
Uzun-uzuk-uzun, uzaq;
Er-ər, kişi;
Eren-ərən, igid;
Ba-bay, bəy;
Qir-gir, yerə girmək;
İş-işıq;
Qada-dərd-bəla;
Qum-qum!;
Tuş-düş, düşərgə;
Nar-od;
Uma-arzu, umajaq;
Adak-Ayaq
Anu-Ana(Göy ana-Tanrı ana)
Aşak (uşaq)
Taq-Dağ

Sak (saq)Kişi
Kız (qız)
Kun (gün)
Kök
Bel- işıq, dağın beli, Göy
Şirinqa-şirin;
Sar-Günəş - (sarı)
Sap-quru yer;
Ev;Eş-eşik;
Uş-huş, ağıl;
Bil-bilik, bilən, Bilqamıs, Bilgə Xaqan;
Tum-toxum, kök, bünövrə;
Şam-günəş;
Arat-dincə qoyulan torpaq, sulu torpaq;
Sar-günəşin adı, sarı rəng;
Subar
Akşaq
Qan;
Aruru-günəş;
Kaka-qağa, başçı, böyük qardaş;
Suban-çoban;
Qanal-kanal;
Par-pər, pəri;
Bağ;
Tax-taxılmaq;
Tox-toxumaq, toxuculuq işi;
Bit-bitmək;
Bitu-bitilən yer, ev, bitən, bətən, VƏTƏN; yazı yazmaq
Kir-daş, torpaq, kirkirə və s.

Bu sözlərin çoxunun Şumerdən də neçə min il əvvəl Gəmiqaya-Qobustanda yaşadılması ulu babaların uzaqgörənliyini təsdiq edir. Beləliklə, tədqiqat göstərir ki, Orxon-Yenisey və Şumer mədəniyyətləri onlardan daha qədim və ilkin olan Azərbaycan: Gəmiqaya-Qobustan mədəniyyətinin törəməsi, davamı və qanuni varisidir.

5.5. İKİ "AVESTA"

"Avesta" azərbaycanlı Zərdüştün əsəri hesab olunur. Belə fikir var ki, Zərdüşt həm Turan-Maday-Midiya şahı Alp Ər Tonqanın-Əfrasiyabın-

Astiaqın taxtdan salındığı e.ə.I min illiyin VI əsrində, həm də e.ə.IX minillikdə yaşayıb. (125.71.,133.13). Deməli elmdə 2 Zərdüşt və 2 Avesta haqqında söhbət gedir. 2-ci "Avestanı" bəziləri Iranın "Avestası" adlandırırlar. "Avesta" yazısı da bu dövrlə bağlanır. 2-ci avestaçı müəlliflər bu abidəni yalnız e.ə.1-ci minillikdə yaradıldığını söyləməkdə davam edirlər. 1-ci avestaçılara görə Avesta 21 hərfli əlifba ilə yazılıb. Bu, e.ə.IX minilliyə aid edilən 12 bürc və 9 planetin həndəsi quruluşuna uyğun yaradılmış Ulduz əlifbası olub. (155.17.) Amma bu fikir özünü doğrultmur. Tədqiqatımız göstərir ki, Avesta (Ulduz) əlifbası da Orxon-Yenisey yazısından azacıq fərqlə, onunla eyni fonoqrafik quruluşa malikdir və bilavasitə Gəmiqaya-Qobustan mənşəlidir. Orxon-Yenisey Avestanın yox, Avesta Orxon-Yeniseyin törəməsidir. Orxon-Yeniseylə müqaisədə Avesta Gəmiqaya-Qobustandan daha çox uzaqlaşmışdır. Tədqiqatlarda Avestanın e.ə.IX minillikdə yaradıldığını sübuta yetirən inandırıcı faktlar yoxdur. Amma Gəmiqaya-Qobustan yazıları bu fikrin doğruluğuna gümanı artırır.Fikrimizcə Avesta əlifbası da Gəmiqaya-Qobustan kimi: 32 hərifli: 9 sait, 23 samitli olub. Sonralar Avesta ciddi qrafik dəyişikliyə məruz qalıb.

E.ə. IX min illiyə aid edilən Avesta (M.Boys) Gəmiqaya-Qobustan mədəniyyətinin abidəsi hesab edilə bilər. Gəmiqaya-Qobustanda Avesta sözlərinin aşkarlanması bu abidənin yaradılmasında digər protoetnoslarla yanaşı protoazərbaycanlı-prototürk etnosunun da payı olduğunu düşünməyə əsas verir.

5.6. Gəmiqaya - Qobustanda "Avesta" sözləri

Abar - apar - aparqmaq.

Ad - od

Ada - adam, ata

Aquşta - akışta: şən danışmaq, mahnı.

Aza - Günəşli yurd.

Ana - ana

Ar - Ər, kişi

Acı - İlan

Aşa - İşıqlı insan, fikir

Baqa - mülkün sahibi

Var - Varmaq, hərəkət etmək

Qat - Göyün qatları

Dağ - dağ, ucalıq

Dam - Dam, ev

Maq - Maq, odsevər

Kut - Qut, qüvvət

Rama - aram olmaq

Tarəm - tanrım

Tutuk - tutmaq, tutacaq

Xan - gun xan, günəş

Uzuk - nəsil, kök

Us - ağıl, huş

Ur - Gur alov, gənc, cəld iş görən;(yerindən **uru** durdu-cəld durdu.-K.D.Q)



5.7. ÇİN HEROQLİFLƏRİNİN BİR SİRRİ

İ.Fridrix Çin-heroqlif yazısının kvadrat ölçülü olub, yuxarıdan aşağı yazıldığını, «fonetika ilə heç bir əlaqəsi olmadığını» xüsusi qeyd edir. (71.434).

Amma tədqiqat göstərir ki, Çin yazı sistemi -fonetik işarələrlə sıx bağlıdır. Çin yazısında hər heroqlif müxtəlif sayda qrafik ünsürlərdən təşkil olunur. Həmin qrafik ünsürlərin isə çoxu Gəmiqaya-Qobustan işarələrindən ibarətdir; yəni bizə məlum olan «latın», «kiril» və Orxon-Yenisey işarələri Çin heroqlif kvadratları üçün «hazır kərpiclər» rolunda çıxış edir. Çin heroqliflərinə gərək olan, onları məhz heroqlif kimi tamamlayan fonetik işarələr məhz qrafik ünsürlər kimi «heroqlif-kərpiclərin» materialına çevrilmişdir. Elə İ.Fridrixin misal gətirdiyi Çin heroqlif mətnlərində qədim Azərbaycan: Gəmiqaya-Qobustan əlifbasının çoxişarəli hərf və rəqəmlərindən: A, B, b,Z,T + ,-, =, II, 1, 2, 3, 4, 5, 6, 7, 8, 9 və s. istifadə edilmişdir. (71.434). Bu işarələrə onların yazıldığı heroqlif-kvadratlarda yardımçı çıxıntılar əlavə olunmuşdur.

İ.Fridrix Çin heroqlif yazılarına 4000 il yaş verir.

Çin heroqlifində qədim işarələr sırasında Gəmiqaya - Qobustanın "1-ci At" (Buraq) piktoqrafının və Pirəbədil xalçasında üz-üzə qoşa "R" işarəsinin və başqa işarələrin təkrarı bu mövzuda yeni tədqiqatlara səsləyir.(səh 293)

5.8. ƏLİFBALAR MÜXTƏLİF, İŞARƏLƏR EYNİDİR

«Ana» sözü öncə ananın-bizi doğan qadının adı olmaqla çoxmənalıdır. Belə ki, o həm də: Baş, 1-ci, ən böyük, ən əsas-mənalarında da geniş miqyasda işlənir. Hətta kökü-atanı-babanı əvəz edir. Etnosun-xalqın və hər bir dövlət qurumunun atributları «Ana» sözü ilə fərqləndirilir. Ana dili-deyiləndə ananın-bizi doğan qadının deyil, atanın mənsub olduğu soyun-millətin dili nəzərdə tutulur. Yəni məsələn, ata-azərbaycanlı-türk, ana-rusdursa, onların övladlarının ana dili-Azərbaycan dili sayılır. Bu fərq bütün dünyada eynidir. Ana-baş, böyük mənası ilə başqa ünvanları da fərqləndirir: Ana arx-böyük arx, ana budaq-böyük budaq, ana xətt-əsas xətt və s.

Beləliklə, dövlət qurumunun əsas atributları:

1. **Ana dili: çox etnoslu ölkənin 1-ci, əsas dili.**
2. **Ana mahnı: dövlətin himni.**
3. **Ana bayraq: dövlətin bayrağı.**
4. **Ana nişan-möhür-gerb-dövlətin gerbi.**
5. **Ana Qanun-dövlətin baş qanunu-Ana Yasa-Konstitusiya.**
6. **Ana yazı-ölkənin-dövlətin əsas yazısı-əlifbası.**

Hər ölkə, hər xalq, hər dövlət ta əzəldən bu atributlara malik olmağı vajib bilib. Burada Ana dili və ana yazı məsələsi daha çox diqqəti çəkir. Dövlət qurumu olmayan, yaxud onu itirən xalq-etnos 1-ci atributla-ana dili ilə öz milli varlığını, fərdiliyini qoruyub saxlaya bilir. Əgər o xalq öz ana dili ilə yanaşı, ana yazısını da qoruyub saxlayırsa, (belə yazısı varsa) bu da onun köməyinə gəlir.

Ana dilinin yaşı məlum deyil; yəni bunu təyin etmək mümkün deyil. Ulu dildən hansı etnosun dili nə vaxt ayrıldı? Bu sualın konkret cavabı yoxdur. Ulu dil epoxasını yalnız təqribən müəyyən etmək olar. Burada hətta dövr kimi hansı minillikdənsə danışmaq da mümkünsüzdür. Dil ailələri daxilində ana dilini-baş dialekti-ləhcəni təyin etmək də çətin məsələdir.

Dünyanın yazı sistemlərini: heroqlif, piktoqrafik (şəkil-söz), ideoqrafik (şəkil-fikir-söz), mıx işarəli və fonoqrafik əlifbaları tədqiq edən, bu ən ağır, ən çətin işə ömrünü, həyatını sərf edən İ.Fridrix, İ.Yonsen (86); İ.M.Dyakonov, S.Draçuk və b. öz əsərlərində və redaktorluq etdikləri kitablarda söhbət açdıqları yazıların meydana gəldiyi tarixləri yüzilliklərinə qədər konkretləşdirməyə çalışmışlar.

Onlar yazıların hansı səbəbdən, necə yaranmasını da yozmağa cəhd etmiş, bəzən də bunu sual altında qoymuşlar. **Qədim Azərbaycan: Gəmiqaya-Qobustan əlifbası, bütün başqa əlifbalardan fərqli olaraq konkret bir ildə, bir əsrdə və bir müəllif tərəfindən yaradılmayıb, onu bütün xalq yaradıb. Onun yaranıb başa gəlməsi, tamamlanması bir neçə nəslin ömrü ərzində-azı neçə yüz il ərzində mümkün ola bilərdi.**

Apardığımız tədqiqatlar göstərir ki, dil və yazı mütləq dini düşüncə ilə meydana gəlmişdir. Başqa şəraitdə bunlar mümkün ola da bilməzdi. İnsan saysız müşahidələri ilə onu əhatə edən Yeri və Göyü, dənizi və torpağın altını dərk etməyə, anlamağa çalışmışdır. Bu müşahidələrdən o çoxlu bilik toplamışdır.

Dahi alman alimi Humbolt dilin yaranmasından danışarkən çox vajib bir məqama heyrətini bildirir: **«Elə bil ki, bütün dillər bir materialdan biçilmişdir»**. (96., 97). Bu heyrətini, hipotezasını sübuta yetirmək üçün dahi dilçinin əlində kifayət qədər material olmamışdır. Humboltun vaxtında (və bu gün də!) etimologiyanın «yozum» zirvəsində möhkəm qərar tutması buna ciddi əngəl törətmişdir. Humboltun həmin fikrini dilçilər yalnız ötəri xatırlamaqla kifayətlənmişlər.

Gec də olsa dilçilik elmi dahi Humboltun həmin dahiyanə fikrinə, nəhayət, ciddi yanaşacaq və onu hipotezadan elmi həqiqətə çevirəcək.

Fonoqrafik yazının meydana gəlməsini və bütün əlifbalarda məhz eyni yazı işarələrinin müşahidə edliməsini də **Humboltsayağı ümumiləşdirmək olar: Bütün əlifbalar eyni materialdan biçilmişdir.**

Məşhur tədqiqatçılar: İ.Fridrix, İ.Yonsen, İ.Dyakonov və b. bunu nəzərə almamışlar.

Mövcud əlifbalar ilk baxışda bir-birindən nə qədər fərqli görünsələr də, onların hamısı eyni fonetik işarələrdən qurulmuşdur. Bu cəhət Gəmiqaya-Qobustan qaya təsvirlərində güzgüdə görünən tək aydın görünürsə, demək mübahisəyə ehtiyac qalmır.

Bir daha xatırladaq ki, **bütün başqa əlifbalar şərti(mənaya görə fərqləndirilməyən) işarələrə, Gəmiqaya-Qobustan isə təbii (təbiətdə müşahidə edilən) işarələrə əsaslanmışdır. Təbii işarələr: insanın üzündə və bədənində, ağaclarda, çiçəklərdə, Günəşin, Ayın, ulduzların parıltısında, dənizin, gölün ləpələnməsində, dağların, təpələrin şiş uclu üçbucaq görümündə, başqa təbii ölçülərdə, müxtəlif fiqurlarda müşahidə edilmişdir.**

Şumer abilədərində dağın uçbucaq fiquru «d» hərfi (Λ) kimi qeydə alınmışdır. Dağ, yalnız Azərbaycan (türk) dilində "dağ" adlanır. Simvolik ana bətni: 2 B işarəsinin kombinə edilməsindən yaranmışdır; bu, Gəmiqaya-Qobustanda və Orxon-Yeniseydə «ən birinci B» işarəsi-səs birləşməsidir; Təbii mənası: insanın bünövrəsi ana bətnində qoyulur; Ɵ «Ö»-kiçik suyu-gölü, «M»-böyük su dalğasını-dənizi simvolizə edir və s.

Bu da Gəmiqaya-Qobustanın təbii-başlanğıc əlifba kimi yaradıldığını bir daha təsdiq edir.

Dünyada təqribən 100-ə yaxın, yaxud bundan bir qədər artıq əlifba mövcuddur. İ.Fridrix, İ.Dyakonov və b. müəlliflərin fikirləri nəzərə alınsa, demək olar ki, həmin əlifbaların çoxu məlum «latın» qrafikası əsasında yaradılmışdır-yəni bu günə qədər məhz belə hesab edilmişdir.

Azərbaycan əlifbası «SSRİ» dövründə «Kiril»in "törəməsi" idi, bu gün isə «Azərbaycan latını» adı daşıyır. 1926-cı ilə qədər ərəb əlifbası həm də Azərbaycanın «qədim əlifbası» sayılırdı. Demə Azərbaycan xalqının öz əlifbası «yox imiş». Yazı sistemlərinin məşhur tədqiqatçısı İ.Fridrixin «Yazının tarixi» kitabında əlifbası olan xalqlardan söhbət gedəndə Azərbaycan xalqının adı çəkilmir-(həmin kitabda 100-ə yaxın əlifbadan nümunələr verilir).

Qafqaz Albaniyasının, IV əsrdə «erməni əlifbası» əsasında yaradılmış «Alban əlifbası»ndan danışılır. Amma həmin «Alban əlifbası» ilə yazılmış və bu günədək oxunmuş bir kəlmə söz nümunə kimi də olsa göstərilmir. «Alban əlifbası»nın 1937-ci ildə Ermənistanda bir erməni kilsəsindən «tapılması» və bunun böyük, əslində boş sensasiyaya səbəb olmasını İ.Fridrix də xatırlayır. (Biz Alban əlifbası ilə bağlı tədqiqatımızı «Gəmiqaya-Qobustan əlifbası» kitabımızda şərh etmişik). Amma bu sahədə tədqiqatı davam etdirmək vacibdir. Burada təkcə onu xatırladım ki, «Alban əlifbası» ilə bağlı 2 sual cavabsız qalıb: 1. Bu necə əlifbadır ki, onunla heç bir dildə (?) bir söz

belə oxunmayıb? Və oxuna bilmir, oxunması nə üçün mümkün deyil? 2. Bu əlifba hansı «ehtiyacdan» yaradıla bilərdi? Hər iki sual «Alban əlifbası»nı şübhə altında qoyur. Doğrudan da bu necə əlifbadır ki, «tapıldığı» 1937-ci ildən bu günədək sirri açılmır.

Orxon-Yenisey-Türk əlifbası kimi Azərbaycana doğma əlifbadır. Amma yenə də Azərbaycan əlifbası deyil. Bu əlifba Azərbaycanda heç vaxt işlənməyib, bundan sonra da işlənməsi mümkün deyil-çünki Orxon-Yenisey Azərbaycan dilinin fonetik-leksik quruluşuna cavab vermir.

Azərbaycan əlifbası Gəmiqaya-Qobustan qaya təsvirlərində bu günümüzə gəlib çatmışdır. Həmin təsvirlərdə aşkar olunan yazı işarələri və o işarələrlə oxunan sözlər, piktoqraflar (şəkil-sözlər) tarixi həqiqətdir. Qədim Azərbaycan yazı sistemi işarələrinin müxtəlifliyi və fonetik bütövlüyü ilə diqqəti çəkir. Bu işarələrin mövcud əlifbaların hamısında işlənməsi-görünməsi onun çox qədimliyindən, ilkinliyindən soraq verir. Qaya təsvirlərində həm açıq, həm də bükülü kitab formaları əks olunmuşdur. Akademik Vasif Məmmədəliyev bildirir ki, Kitaba-Qurana həmçinin «bükülü» forması ilə «lülə halında bükülmüş» kağız (xəbərdarlıq, xatırlatma, öyüd-nəsihətlər) və s. deyilir. (Quran. IX səhifə. Azərbaycan dilində).

(Maraqlıdır ki, kitabın ən qədim formalarından biri ilə əlaqədar yaranmış «bükülü» sözü bu gün ingilis dilində «buk»-«book» şəklində-«kitab» mənasında işlənməkdədir).

Bu gün əlifbaların «latın», «kiril», «ərəb», «anqlosaks», «german», «hind», «çin», «Aralıq dənizi ətrafı»(?) və s. mənşəli kimi təqdim edilməsinə «tarixin hədiyyələri» də demək olar. Tarix onların törəmə əlifba sistemləri olduqlarını təsdiq edir. O başda-e.ə. minillikdlərdə şöhrət tapmış Gəmiqaya-Qobustan əlifbası-ana əlifba kimi öndə dayanır.

Gəmiqaya-Qobustan təkcə ən qədim fonetik yazıdan deyil, həm də ən qədim mədəniyyətdən soraq gətirmişdir.

Əlifbaların müxtəlif, işarələrin eyni olduğunu fəslin sonunda verdiyimiz cədvəllər bir daha təsdiq edir.

5.9. "Qobustan. Qaya rəsmləri" kitabı redaktə edilməlidir

Qobustan qaya rəsmlərini 1939-cu ildə kəşf etmiş və ömrünün sonunadək onu erməni xəyanətkarlığından, daxili düşmənlərdən - vətən xainlərindən qorumuş fədakar, qeyrətli alim-arxeoloq, əməkdar elm xadimi İsaq Cəfərzadənin "Qobustan. Qayaüstü rəsmlər" (1973, 1999) kitabı, şübhəsiz ki, dəyərli tədqiqat əsəridir. Qobustanın öyrənilməsində, təbliğində həmin kitab

böyük rol oynamış, tədris vəsaitinə çevrilmişdir. Bu əsərin dəyəri nəzərə alınaraq, o, ulu öndər Heydər Əliyevin fərmanı əsasında "Kitabi - Dədə Qorqud" dastanının 1300 illiyini keçirən Dövlət Komissiyası tərəfindən 1999-ju ildə 2-ci dəfə nəşr edilmişdir.

Bununla yanaşı, tədqiqatın ilkin mərhələsinin bəzi yanlışlıqları və sovet arxeologiya elminin ehkamlarına əsaslanmaq məcburiyyətində qalmağı səbəbindən İ.Cəfərzadənin "Qobustan. Qayaüstü rəsmlər" kitabında bir sıra ciddi səhvlərə yol verilmişdir. Həmin səhvlərin islah edilməsinə, yeni elmi redaktə ilə həqiqi dərslik kitabı səviyyəsinə çatdırılmasına kəskin ehtiyac duyulur.

Beləliklə, İ.Cəfərzadənin "Qobustan. Qayaüstü rəsmlər" kitabında yanlış "izah"lardan bir neçə misal. Həmin kitabın 63-cü səhifəsində "23-cü daş" (əslində "Böyük şir") tablosu haqqında cəmi bir neçə rəsm qeydə alınıb və tablonun və həmin rəsmlərin həndəsi ölçüləri sadalanıb. Sonra müəllif yazır: **"Şəkillərin siluet xarakterini tropik ölkələr üçün xarakterik olan (?) güclü ayaqları, yan örtüklərini nəzərə alaraq onların tarixini e.ə. 8-7-ci minilliklərin hüdudlarına aid etmək olar". Daha sonra: "Keçilərin təsviri, atların bir hissəsi və heyvan təsvirinin (?) fraqmenti daha sonrakı dövrdə daş alətlə icra edilmişdir. Onların tarixi e.ə. 1-ci minilliyin ilk əsrlərinə aid edilə bilər" (?)."Atların, keçinin, itin rəsmi orta əsrlər dövründə metal alətlə həkk edilmişdir".** Yəni, 8, 9 min ildən sonra?!

Nəhayət: "Öz aralarında düzgün xətlərlə birləşdirilən düzgün cızılmış dördbucaqlıların (19-cu rəsm) şəkli maraqlıdır; xətlər tərəflərin küncündən və ortasından keçir. Ehtimal ki, bu hansısa tilsimin simvolu və ya orta əsrlər dövründə çox yayılmış stolüstü oyunlar üçün sahənin təsviridir" (səh.63).

